AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU

cild 84, № 1, 2017
ISSN 2409-8817

# ELMİ əsərlər

# НАУЧНЫЕ ТРУДЫ

# RESEARCH PAPERS

ISSN 2409-8817

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

# *ELMİ ƏSƏRLƏR*

**cild 84, № 1, 2017**

# *НАУЧНЫЕ ТРУДЫ*

**том 84, № 1, 2017**

# *RESEARCH PAPERS*

**volume 84, № 1, 2017**

**BAKI – 2017**

*Azərbaycan Respublikasının Təhsil İnstitutu Elmi Şurasının
27 yanvar 2017-ci il tarixli iclasının (protokol № 1) qərarı ilə nəşr edilir.*

***Təsisçi: Azərbaycan Respublikasının Təhsil İnstitutu***

***"Elmi əsərlər" 1934-cü ildən nəşr olunur.***

***"Elmi əsərlər" məcmuəsi Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin
11 iyul 2002-ci il tarixli 23 №-li əmri ilə qeydə alınmışdır.***

***Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının
qərarı ilə tövsiyə edilən nəşrlər siyahısına daxil edilmişdir***

**Baş redaktor: Akif Abbasov** – *pedaqogika üzrə elmlər doktoru, professor*

**Məsul katib**: **İlham Cavadov** - *pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

**Redaksiya heyəti**:

Ənvər Abbasov – *pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
Rəfiq Qəndilov – *kimya üzrə fəlsəfə doktoru*
Faiq Şahbazlı - *filologiya üzrə fəlsəfə doktoru, dosent*
Qulu Novruzov – *hüquq üzrə fəlsəfə doktoru*
Yəhya Kərimov – *pedaqogika üzrə elmlər doktoru, professor*
Gültəkin Hüseynova – *respublika Təhsil Nazirliyinin şöbə müdiri*
Oruc Həsənli – *pedaqogika üzrə elmlər doktoru, professor*
Asəf Zamanov – *fizika-riyaziyyat üzrə elmlər doktoru, professor*
Fərahim Sadıqov – *pedaqogika üzrə elmlər doktoru, professor*
Hümeyir Əhmədov – *pedaqogika üzrə elmlər doktoru*
Əjdər Ağayev – *pedaqogika üzrə elmlər doktoru, professor*
Fərrux Rüstəmov – *pedaqogika üzrə elmlər doktoru, professor*
Hikmət Əlizadə – *pedaqogika üzrə elmlər doktoru, professor*
Şahin Tağıyev – *pedaqogika üzrə elmlər doktoru, professor*
Ramiz Əliyev – *psixologiya üzrə elmlər doktoru, professor*
Vidadi Xəlilov – *pedaqogika üzrə elmlər doktoru, professor*
Şəmistan Mikayılov – *pedaqogika üzrə elmlər doktoru, professor*
İntiqam Cəbrayılov – *pedaqogika üzrə elmlər doktoru*
Piralı Əliyev – *pedaqogika üzrə elmlər doktoru*

© ARTİ, 2017

## *MÜNDƏRİCAT*

### *ÜMUMPEDAQOJİ PROBLEMLƏR*


| | | |
|---|---|---|
| **Zəhra Muradova** | Şəxsiyyətyönlü təhsilin inkişafında məktəblə ailənin əlbir işinin təsiri …………………………………….. | *6* |


### *TƏRBİYƏ MƏSƏLƏLƏRİ*


| | | |
|---|---|---|
| **Yusif Babanlı** | İbtidai siniflərdə fiziki tərbiyənin inkişafında ailə məktəb əlaqələrinin rolu …………………..... | *1* |
| **Talıb Paşayev**<br>**Eyvaz Məmmədov** | Regionlarla tanışlığın vətənpərvərlik tərbiyəsində rolu …………………………………….. | *1* |
| **Rüxsarə Əliyeva** | Təlim prosesində kollec tələbələrində sosial fəallığın formalaşdırılması imkanları ……………………..…. | *1* |
| **Yaqut Əzimzadə** | Mənəviyyat və əxlaq tərbiyəsində müəllim peşəkarlığı və müəllim səriştəliliyi …………………. | *2* |
| **Teymur Səmədov** | Tələbələrdə mənəvi şüurun inkişaf etdirilməsi üzrə işin bəzi məsələləri ……………….…………. | *26* |
| **Улкар Мирзалиева** | Значение организации досуга для гармоничного развития ребенка ………………………….…. | |


### *METODİKA: FƏNLƏRİN TƏDRİSİ*


| | | |
|---|---|---|
| **Əlişah Gərayev** | Fizika fənni üzrə summativ qiymətləndirmə və səriştəli yanaşma ………………………………… | *3* |
| **Nərminə Məmmədova** | İctimai fənlərin tədrisində anlayış xəritələri və məlumat xəritələrindən istifadə prioritet istiqamətlərdən biri kimi............................................. | *40* |
| **Firuzə Rzayeva** | Ali məktəbdə ingilis dilinin öyrənilməsində mühüm məsələ ……………………………………...… | *4* |
| **Bəhruz Məmmədov** | 10-11-ci siniflərdə kimyadan praktik işlərin təşkili və aparılması metodikası ……………….…………… | *5* |
| **Emilya Həsənova** | Təsviri incəsənət dərslərində incəsənətə dair dərs-söhbətlərdən istifadə: mövcud ədəbiyyatın təhlili ………………………………………….…….. | *5* |
| **Pərviz Quliyev** | Ümumtəhsil məktəblərinin ibtidai sinif şagirdlərinə çeviklik və dözümlük hərəki qabiliyyətlərinin aşılanmasında mütəhərrik oyunların əhəmiyyəti ....... | *6* |
| **Elnarə Seyidova** | Ekoloji problem yaradan ətraf mühit amillərinin tədrisinə dair ............................................................ | *65* |

| | | |
|---|---|---|
| **Ədilə Əliyeva** | V-VI siniflərdə ingilis dili dərslərində yazılı nitq bacarıqlarının formalaşdırılması zamanı edilən orfoqrafik səhvlər………………………………… | *6* |
| **Təzəgül Hüseynova** | Müasir ingilis dili dərslərində inteqrativliyin öyrənilməsi yolları…………………………….…... | *7* |
| **Sevinc Mehdiyeva** | Ümumtəhsil məktəblərinin 6-cı sinfində biologiyadan fəndaxili inteqrasiyanın təşkili ……………………… | *7* |
| **Elvina Abbasova** | Müasir xarici dil dərslərində təlimin təşkili yolları …. | *8* |
| **Тахира Пашаева** | Организация внеурочной работы по русскому языку ………………………………… | *86* |
| **Həliməxanım Abbaszadə** | Tarixdən məktəb mühazirə və seminarlarinin təşkili və aparılması prosesində şagird şəxsiyyətinin formalaşdırılması …………………………………… | *8* |
| **Şəhla Ələkbərova** | Müasir dərsin qurulma yolları ……………………… | *9* |
| **Aygün Abbasova** | Müzakirələr metodunun yuxari sinif şagirdlərinin praktik fəaliyyətinə təsiri …………………………. | *96* |
| **Zərifə Ismayılova** | Bostan-tərəvəz bitkilərinin təsərrüfat əhəmiyyəti və bölgələr üzrə yayılmaları ……………………… | |
| **Lalə Əbilova** | Kiçik yaşli məktəblilərin elmi dünyagörüşünün formalaşmasinda əmək təliminin imkanlari ……….. | *10* |
| **Ələkbər Qurbanov**<br>**Ülviyyə Baxşıyeva** | Dərs-seminar: “filizlərin tullantisiz texnologiya əsasinda kompleks emalindan metallarin alinmasi” mövzusunun tədrisində ekoloji biliklərin verilməsi … | *110* |


***PSİXOLOGİYA VƏ KORREKSİYA PEDAQOGİKASI***


| | | |
|---|---|---|
| **Qızxanım Qəhrəmanova** | Tələbələrin peşəkar hazirliq mərhələlərində şəxsiyyətlərarasi ziddiyyətlərin həlli yolları ………... | *11* |
| **Rima Əyyubova** | Praktik təfəkkürün xüsusiyyətləri və problemli situasiyalarla əlaqəsi ……………….......... | *1* |
| **Masuma rgarzademiandobad** | Valideynlərlə psixokorreksiya işinin təşkili xüsusiyyətləri ………………………………. | *12* |
| **Şənay Quliyeva-Kabaoğlu** | Tələbə qizlarda identiklik ………………………… | *1* |

## *İNFORMASİYA KOMMUNİKASİYA TEXNOLOGİYALARININ TƏHSİLƏ TƏTBİQİ*

| | |
|---|---|
| **Zəkiyyə Abdullayeva** | Pedaqoji prosesdə yeni pedaqoji texnologiyalardan istifadənin əhəmiyyəti …………........*136* |
| **Əyyub Əzizov**<br>**Kamil Haqverdiyev**<br>**Rena Abdinbəyova**<br>**Arzu Paşayeva** | Yeni materialin öyrədilməsində intellektual təlim sistemləri ............................................................ |

## *TƏHSİLDƏ İDARƏETMƏ MƏSƏLƏLƏRİ*

| | |
|---|---|
| **Sahib Məmmədov** | Tələbə auditoriyası: idarəetmənin psixoloji əsasları …………………………………....... *14* |
| **Rüxsarə Tağıyeva** | Pedaqoji prosesin təşkilində inkişafyönlülük prinsipinin nəzəri və tətbiqi məsələlərinə dair ………... *1* |

## *MÜƏLLİMİNİN ÖZÜNÜTƏHSİLİ*

| | |
|---|---|
| **Dilqəm Quliyev**<br>**Samir Abdullayev**<br>**Ayaz Cəfərov** | Azərbaycanda sumo güləşinin yaranma tarixindən....… *15* |
| **Эллада Тагиева** | Семантическое и функциональное пространство физической культуры в азербайджанской и русской лингвокультурах …………………………. *157* |

# ŞƏXSİYYƏTYÖNLÜ TƏHSİLİN İNKİŞAFINDA MƏKTƏBLƏ AİLƏNİN ƏLBİR İŞİNİN TƏSİRİ

**Zəhra Muradova,**

*pedaqogika üzrə fəlsəfə doktoru*
*ARTİ*
E-mail: zahra-muradova@hotmail.com

**Rəyçilər:** *ped. ü.. elm. dok., prof.* S.A. Mikayılov,
*ped. ü. fəls. dok., dos.* A.M. Bəkirova

***Açar sözlər:*** *şəxsiyyətyönümlü təhsil, təhsil və inkişaf , təhsilin inkişafının təsiri, təhsilin tərbiyə edici imkanları, məktəb-ailə vəhdəti, əlbir fəaliyyətin səmərəli təsiri*

***Ключевые слова:*** *личностно-ориентированное образование, образование и развитие, влияние развития образования, воспитательные возможности образования, единство школы и семьи, эффективное влияние совместной деятельности*

***Key words:*** *student-directed training, education and development, the impact of the development of education, educational opportunities of education, school and family unity, the effective impact of joint activities*

Məktəb-təhsil sistemi yaradıldığı dövrdən indiyədək nəzərə çarpan səmərəliliyə nail olmaq üçün müəllim-şagird-valideyn üçlüyünün əlbir fəaliyyətinin zəruriliyi başlıca prinsipial məsələlərdən sayılmışdır. Tarixi inkişafın, cəmiyyətdə həyata keçirilən təhsil islahatlarının müxtəlif mərhələlərində mühüm əhəmiyyət kəsb edən problem xarakterli məsələ kimi ictimaiyyətin diqqət mərkəzində olmuşdur. Təsadüfi deyildir ki, milli təhsil sisteminin inkişaf yollarını göstərən və möhtəşəm Prezidentimiz İlham Əliyev cənablarının 2013-cü ilin 24 oktyabr tarixli sərəncamı ilə təsdiq olunan Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasında problemin bir sıra başlıca məsələlərinə o cümlədən şəxsiyyətin hər tərəfli, ahəngdar inkişafına zəmin yaradan məsələlərə xüsusi diqqət yetirilmişdir. Bu mötəbər sənəddə deyilir:

“Azərbaycan Respublikasının inkişaf konsepsiyasına uyğun olaraq şəxsə hərtərəfli bilik və bacarıqların verilməsi məqsədi ilə təhsil sisteminin institusional əsasları, infrastrukturu və insan resursları inkişaf etdirilməlidir. Təhsilin inkişafı ölkədə əhalinin rifahının yaxşılaşması, həmçinin fərdin həyatının daha yüksək səviyyədə qurulması üçün zəmin yaradır. Təhsil insanlara texnologiyaları çevik mənimsəmək, əmək bazarında layiqli yer tutmaq və ömür boyu təhsil prosesinə qoşulmaq, sağlam həyat tərzi, ətraf mühitə münasibətdə düzgün mövqe seçmək imkanı verir.

Sosial-iqtisadi həyatın müasirləşdirilməsində təhsilin rolu təkcə təhsil alanın qazandığı bilik və bacarıqların iqtisadi amilə çevrilməsi ilə məhdudlaşmır. Təhsil prosesində əldə olunan bilik və bacarıqlar, həmçinin etik-əxlaqi norma və dəyərlər hər bir təhsil alanın cəmiyyətin layiqli üzvü olması üçün lazımi şərait yaradır, onu biliyi və etik davranışı sayəsində örnək ola biləcək həmkara, nümunəvi ailə üzvünə və vətəndaşa çevirir.

Göründüyü kimi burada nəzərə çatdırılan və qarşıya qoyulan vəzifələrin hər biri öz növbəsində müxtəlif nəsildən olan insanların, o cümlədən məktəbli gənclərin şəxsiyyət zənginliyinin inkişafına-şəxsiyyətyönlü təhsilə istiqamətlənmişdir. Belə bir cəhəti də nəzərdən qaçırmaq olmaz ki, haqqında bəhs etdiyimiz sənəddə qarşıya qoyulan vəzifələrin həlli ilə bağlı strateji istiqamətlər müəyyənləşdirilərkən şəxsiyyətyönlü təhsilə böyük əhəmiyyət verilmişdir.

**Birinci strateji istiqamət** səriştəyə əsaslanan şəxsiyyət yönlü təhsil məzmununun yaradılmasına yönəlmişdir və təhsilin məktəbəqədər, ümumi, ilk peşə-ixtisas, orta ixtisas və ali ol-

maqla, bütün pillələri üzrə kurikulumların inkişafı kimi vacib hədəfi əhatə edir.

**İkinci strateji istiqamət təhsil** sahəsində insan resurslarının müasirləşdirilməsini nəzərdə tutur. Bu istiqamət innovativ təlim metodlarını tətbiq edən, təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən səriştəli təhsil verənin formalaşdırılmasına xidmət edir və özündə təhsil verənlərin peşəkarlığının yüksəldilməsi, təhsil alanların nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni sistemlərin qurulmasını, təhsil alanların istedadının aşkar olunması və inkişafı ilə bağlı, habelə xüsusi qayğıya ehtiyacı olanlar üçün inklüziv təlimin metodologiyasının yaradılmasını ehtiva edir.

Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyasının öncə nəzərə çatdırılan həmin strateji istiqamətlər öz növbəsində ümumi təhsil məktəblərində yetişən, formalaşan nəslin təhsili, tərbiyəsi ilə məşğul olan mütəxəssisləri daha geniş yaradıcılıq axtarışlarında olmağa, yeni təlim texnologiyalarına yiyələnməyə səfərbər edir. Belə ki, ölkəmizdə milli kurikulum əsasında həyata keçirilən təhsil prosesində şəxsiyyətyönlülük – şəxsiyyətyönlü təhsil başlıca didaktik prinsip kimi əsas götürülür. Kurikulumların hazırlanması və tətbiqi məsələləri (tərtib edənlər: A.Ə.Əhmədov, Ə.M.Abbasov) adlı pedaqoji-metodik vəsaitdə göstərilir ki, şəxsiyyətyönlü təhsilin keyfiyyət göstəricisi sadəcə bilik və ya bacarıqlar deyil, milli səviyyədə müəyyən olunmuş ümumi nəticələrə uyğun səviyyənin (kompetensiya, keyfiyyət və mədəniyyət göstəricilərinə uyğun səviyyənin) əldə edilməsidir. Elə buradaca qeyd edək ki, həmin keyfiyyətlərin inkişafı məktəbli şəxsiyyətində formalaşdırılması qısa zaman kəsiyində deyil, müxtəlif mərhələləri əhatə edən təhsil prosesində mümkün olar. Bu prosesdə isə təhsilin həyatverici-inkişafetdirici qüvvələri sayılan məktəbin-ailənin əlbir işinin müntəzəm, sistemli və səmərəli təşkilinə zəruri ehtiyac duyulur. Şəxsiyyətyönlü təhsilin başlıca prinsipinə çevrilir. Buna baxmayaraq aparılan müşahidələr, tədqiqat xarakterli sorğular göstərir ki, pedaqoji fəaliyyətdə məktəb ailə əlaqələrinin necə deyərlər nizamı pozulub. Müəllimlərin, o cümlədən sinif rəhbərlərinin valideynlərlə əlaqəsi lazımi səviyyədə deyil. Valideynlərin bir çoxu övladlarının oxuduqları-təhsil aldıqları məktəblə sinif rəhbərləri, fənn müəllimləri ilə əlaqə saxlamağa maraq göstərmir, bu işin əhəmiyyətini lazımi şəkildə qiymətləndirə bilmirlər. Problemin real vəziyyəti bir sıra obyektiv və subyektiv səbəblərlə əlaqə

Obyektiv səbəblərə müxtəlif yaş qrupuna malik olan məktəblilərin valideynlərinin iş şəraiti, ailənin maddi təminatı naminə ata-ananın bir neçə yerdə çalışmaları, həyat tərzinin bu şəkildə davam etməsi ilə bağlı cəhətlər aiddir. Pedaqoji maarifləndirmə işlərinin lazımi şəkildə aparılmaması da obyektiv səbəblər sırasındadır.

Subyektiv səbəblərə ayrı-ayrı fənn müəllimlərinin, sinif rəhbərlərinin və valideynlərin məktəb-ailə birliyi ənənələrinin, iş formalarının əsas mahiyyətini, əhəmiyyətli təsir imkanlarını lazımi şəkildə qiymətləndirə bilməmələri aiddir. İstər sinif rəhbərləri və fənn müəllimlərinin, habelə ayrı-ayrı valideynlərin problem dairəsində müvafiq təşəbbüs göstərməmələri də subyektiv səbəblər sırasına daxildir.

Mövcud vəziyyət şəxsiyyətyönlü təhsilin inkişafına məktəblə ailənin əlbir işinin müasir dövrün tələbləri səviyyəsində daha səmərəli şəkildə qurulmasını zəruri edir. Unutmaq olmaz ki, əlbir işin daha təsirli forma və yollarını başlıca istisna qiymətlərini müəyyənləşdirmədən bu sahədə qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirilməsi mümkün deyil.

Məktəblə ailənin əlbir işinin şəxsiyyətyönlü təhsilin inkişafına müsbət təsir göstərməsi üçün ən etibarlı vasitə pedaqoji maarifləndirmə və bu xüsusda həyata keçirilməsi lazım gələn iş formalarıdır. İndiki dövrdə çox mühüm problem kimi diqqəti cəlb edən həmin işləri, daha doğrusu məktəblə ailənin əlbir işini iki istiqamətdə qurmaq nəzəri və praktik cəhətdən daha əhəmiyyətli sayılmalıdır.

Birinci istiqamətə məktəbin-pedaqoji kollektivin ailə valideynlərlə aparılması lazım gələn maarifçilik işləri aiddir. Bunları aşağıdakı şəkildə nəzərə çatdırmaq daha məqsədə müvafiq sayılmalıdır.

1. Şəxsiyyətyönlü təhsilin başlıca məsələlərinin izahına, şərhinə həsr olunan pedaqoji mühazirələrin və söhbətlərin müntəzəm keçirilməsi. Bu prosesdə ibtidai siniflərdən başlayaraq ayrı-ayrı siniflərdə təhsil alan şagirdlərin, valideynlərin əhatə olunmasına xüsusi diqqət yetirilməsi.

2. İntellektuallığı, bilik, dünya görüş səviyyəsi ilə diqqəti cəlb edən valideynlərdən ibarət sinif və məktəb valideyn şuralarının yaradılması. Bu şuraların fəal mövqeyinin təmin olunması. Şəxsiyyətyönlü təhsillə bağlı bir sıra zəruri məsələlərin diqqətə çatdırılması işinin müntəzəm aparılmasına böyük əhəmiyyət verilməsi.

Yuxarıda göstərilən istiqamətdə işləri müntəzəm və sistemlə apararkən belə bir fikir, ideya inamı xüsusi olaraq nəzərə çatdırılmalıdır ki, indiki dövrdə ümumi təhsil və tərbiyə işlərinin maksimum səmərəliliyinə nail olmaq üçün valideynlərin rolu, fəallığı əvvəlki illərə nisbətən daha da artırılmalıdır. Bunu müvafiq mütəxəssislərin tədqiqatları, dünyanın təhsil sisteminin daha da təkmilləşdirilməsi ilə bağlı gəldiyi qənaətlər də sübut edir.

"Azərbaycan müəllimi" qəzetinin 19 oktyabr 2012-ci il tarixli nömrəsində dərc olunan "Ailə tərbiyəsi şagirdlərin tədrisi uğurlarına müsbət təsir göstərir" adlı məqalədə nəzərə çatdırılan məsələlər də problemliyi ilə diqqəti cəlb edir: "Tədqiqatlara əsasən şagirdlərin əldə etdiyi nailiyyətlərdə ailə tərbiyəsi mühüm rol oynayır. 18 yaşadək olan on min yeniyetmə arasında aparılmış araşdırmalar nəticəsində məlum olub ki, ailədə verilən tərbiyə məktəblərdəkindən üç dəfə daha üstündür (təsirlidir – Z.M).

Tədqiqatçılar müşahidə ediblər ki, müqayisə aparılması üçün hazırlanmış testlərdə məktəbdə təhsil alan, valideynləri tərəfindən diqqət görən və evdə dərslərinə maraq göstərilən şagird ən yaxşı məktəbdə oxuyan, ancaq valideynləri dərsləri ilə maraqlanmayan şagirdlərdən daha yüksək nəticələr göstərib. Bununla yanaşı, tədqiqatçılar onu da qeyd edib ki, məktəbin keyfiyyətli olması böyük önəm daşıyan məsələdir, xüsusilə uşaqlara yeniyetməlik dövründə evdən kənar mühitin təsiri daha böyükdür" (3).

Əlbəttə aparılan tədqiqatın nəticəsi ilə tanış olanlardan bəziləri birinci məlum həqiqət kimi dəyərləndirməklə yanaşı, xüsusi tədqiqata ehtiyacın olmaması cəhətini də diqqətə çatdıra bilərlər. Lakin xüsusi tədqiqat nəticəsində nəzərə çatdırılan həmin qənaətin orijinallığı bir daha diqqətə çatdırılır. Məktəbli şəxsiyyətinin inkişafında məktəb-ailə birliyinin əlbir fəaliyyətin, o cümlədən təhsil-tərbiyə işlərinə valideyn nəzarətinin əhəmiyyəti tutarlı faktlarla sübuta yetirilir.

Haqqında bəhs etdiyimiz məqalədə daha sonra deyilir:

ABŞ-ın Şimali Karolina Ştat Universitetinin əməkdaşları" ailə sosial kapitalı"nı "məktəb sosial kapitalı" ilə müqayisə edərək onların hansının daha vacib olmasını öyrənib.

"Ailə sosial kapitalı" valideynlərin uşaqlarına inamı, onların ev tapşırıqları ilə maraqlanmaları, məktəbdəki fəaliyyətlərinin müzakirəsi, valideynlərin məktəbdə təşkil olunan tədbir və mərasimlərdə iştirakı və digər bu kimi məqamlara əsaslanır. "Məktəb sosial kapitalı"nda müəllimlərin valideynlər hədəfindən qiymətləndirilməsi, şagirdlərin əxlaq qaydalarına riayət etməsi, idman yarışlarında və dərsdənkənar tədbirlərdə iştirak, valideyn və məktəb arasında əlaqələrin müntəzəmliyi diqqətdə saxlanılır, habelə dərsə gəlməmək, dərsdən qaçmaq, cəzalandırılmaq kimi problemlərin olmaması nəzərə alınır.

Qeyd edək ki, uzunmüddətli təhsil monitorinqi layihəsində iştirak şagirdlərin nəticələri ballarla qiymətləndirilib. Daha sonra əldə olunan nəticələr şagirdlərin riyaziyyat, oxu, dəqiq elmlər və tarix fənlərindən əldə etdikləri göstəricilərlə müqayisə edilib".

Geniş, əhatəli tədqiqat nəticəsində irəli sürülən həmin fikirlər, gəlinən qənaətlər sözün həqiqi mənasında məktəblilərin şəxsiyyətyönlü təhsilini-tərbiyəsini ənənəvi və müasir metodlar, innovativ yanaşmalar əsasında qurmağa istiqamətlənmişdir.

Müxtəlif telekanallara, teleseriallara geniş meydan verildiyi indiki dövrdə məktəbli şəxsiyyətinin mənəvi saflıq keyfiyyətinin formalaşmasında əsas sayılan əxlaq tərbiyəsi, əxlaqı görüşlərinin inkişafı üzrə məktəbin və ailənin gördüyü işlərin səviyyəsi necədir

Müxtəlif yaş qrupuna malik olan şagirdlərin əxlaqi mədəniyyəti haqqında məktəbin və ailənin gördüyü işlər, aşılanan qabiliyyətlər qane edirmi? Əxlaqı təsəvvürlər necədir?

Problemin əsas qayəsini təşkil edən bu suallara ağıllı inandırıcı cavablar vermək üçün məktəbdə və ailədə elmi əsaslara söykənən söhbətlər aparılmalıdır. Prof. X.Q.Fətəliyev həm müəllimlər, həm də valideynlər üçün mühüm əhəmiyyət kəşf edən əxlaqi biliklərin mənimsədilməsindən bəhs edərkən yazır:

"Əxlaqın başlıca qayəsi insana öz hərəkətini qiymətləndirmək təcrübəsini təlqin etdirmək-

dir. O, bunu əxlaq qanunları ilə edir. Əxlaqi qanunlar insanı tərbiyə edir, zinətləndirir. Əkər, insan bu qanunlar dairəsindən çıxarsa, cılızlaşar, adiləşər və insanlıq ləyaqətinin itirər. İnsanların əxlaq qanunlarına tabeçiliyini gücləndirmək üçün, onu uşaqlıq və yeniyetməlik illərindən həmin qanunlarla tərbiyə etmək lazımdır. Bu, əxlaqlı insanlığın yarlığıdır. Bu mənada, əxlaq insan üçün olduğundan, ondan insanlıq tərbiyəsində bol-bol istifadə etmək gərəkdir."(4, 102.)

Sual olunur, insanın-insanlığın əsas mahiyyətini, göstərən həmin keyfiyyətlərin aşılanması üzrə məktəbdə və ailədə müntəzəm iş aparılırmı? Axı həyatin – yaşamağın mənası ancaq ayrı-ayrı fənlər üzrə yüksək qiymət almaqdan, əla təhsil göstərilənlərinə yiyələnməkdən ibarət deyil.

Apardığımız müsahibələr göstərir ki, istər məktəbdə, istərsə də ailədə ayrı-ayrı fənlərdən əla, yaxşı qiymət alanlar tərifl ənir, onların bütün arzuları-istəkləri təxirə salınmadan yerinə yetirilir. Orta, yaxud qarışıq qiymətlərlə oxuyanlar isə əksər hallarda unudulur. Ögey-doğmalıq meyilləri adi hala çevrilir.

Müşahidələr göstərir ki, əla təhsil göstəricilərinə yiyələnən şagirdlərin həm məktəbdə, həm də ailədə tez-tez təriflənməsi bu cür yeniyetmələrdə eqoizm hisslərinin qüvvətlənməsinə zəmin yaradır.

Unutmaq olmaz ki, müasir dövrdə təhsilin şəxsiyyətyönlülüyü xüsusi olaraq diqqət mərkəzinə gətirilirsə, deməli sinif-dərs prosesində, habelə sinifdənxaric tədbirlərdə, müxtəlif xarakterli məşğələlərdə öncə şagirdlərin humanist-insanpərvərlik, vətənsevərlik ruhunda tərbiyəsi əsas faktor kimi dəyərləndirilməlidir. Bunun uçun həm məktəbdə, həm də ailədə sağlam mənəvi mühit yaradılmalıdır.

Pedaqoji kollektivlərin, ailələrin sağlam rəqabət əsasında qarşılıqlı əlaqə zəminində mehriban, səmimi münasibətə geniş yer verilməsi, diqqət və qayğının hər addımda hiss olunması problemin real həlli baxımından çox böyük əhəmiyyətə malikdir.

Şəxsiyyətyönlü təhsilin inkişafında məktəblə ailənin əlbir işinin əsas mahiyyətindən bəhs edərkən bir sıra prinsipial məsələlərdə yaddan çıxarılmamalıdır.

Məktəb ailəni, ailə isə məktəbi yaxşı tanımalıdır. Belə bir mövqe qarşıya qoyulan məsələlərin uğurlu həllinə zəmin yaradır.

Ümumi təhsil məktəblərində çalışan müəllimlər, sinif rəhbərlərinin səmərəli fəaliyyəti xeyli dərəcədə ailəni-valideynləri yaxşı tanımalarından asılıdır.

Hər bir məktəb - pedaqoji kollektiv yetirmələrinin ailə həyatı, o cümlədən valideynlərin həyat tərzi haqqında zəruri məlumata yiyələnməlidir. Bu prosesdə valideynlərin əqli və fiziki inkişaf, təhsil səviyyəsi də diqqət mərkəzində olmalıdır.

Ailədə ata-ananın, o cümlədən baba, nənənin mövqeyi, ailə üzvlərinin bir-birinə münasibəti necədir. İnsanın şəxsiyyət zənginliyinin əsas göstəricilərindən sayılan rəhmdillik, xeyirxahlıq, əsəbi gərginlik anlarını tezcə aradan qaldırmaq, mövcud durumdan razı qalmaq, aza qane olmaq kimi əlamətlərlə tanınan ailələr haqqında müəllimlərin, sinif rəhbərlərinin mükəmməl məlumatları olmalıdır.

Əlbir, qarşılıqlı fəaliyyət prosesində valideynlərin də məktəb haqqında zəruri məlumata yiyələnmələri də vacib şərtlərdən sayılır. Məktəbin-pedaqoji kollektivin uğurlarından, ayrı-ayrı müəllimlərin, sinif rəhbərlərinin iş tərzlərindən, pedaqoji ustalıq səviyyəsindən bəhs edən məlumatlara yiyələnmə valideynlərin məktəbə qəlbən bağlılığına zəmin yaradır. Aydın məqsəd naminə əlbir fəaliyyətin səmərəliliyi daha çox nəzərə çarpır.

Şəxsiyyətyönlü təhsilin imkanlarını araşdırmaq, bu istiqamətdə əlverişli, təsirli vasitələrdən müntəzəm sistemlə istifadə etmək respublikamızda həyata keçirilən təhsil islahatının qarşıya qoyduğu təxirəsalınmaz vəzifələrdən sayılır. Bu vəzifələrin uğurla həyata keçirilməsində məktəblə-ailənin əlbir iş birliyinə, fəaliyyət sisteminə nail olmaq ümumi təhsil-tərbiyə prosesinə qüvvətli təsir göstərər.

Şəxsiyyətyönlü təhsil prosesinin iştirakçıları olan məktəblilər mənəvi zənginlik, dərin vətənpərvərlik əzmi ilə tanınırlar. Vətənini, xalqını sevən, milli və ümumbəşəri dəyərlərə yiyələnən, irqindən, millətindən asılı olmayaraq bütün insanlara hörmət edən, qayğılı münasibət bəsləyən, xalqımıza məxsus multikulturalizm ənənələrini yaşadan, müstəqil və yaradıcı dü-

şünmək, fəaliyyət göstərmək bacarığı ilə inkişaf edir, yetişir, formalaşırlar.

**Tədqiqatın aktuallığı.** Şəxsiyyətyönlü təhsilin hər vasitə ilə inkişaf etdirilməsi prioritet vəzifələrdən sayılır. Bu vəzifənin uğurla həyata keçirilməsində məktəblə ailənin əlbir fəaliyyətinin əsas formalarının tədqiqi mühüm əhəmiyyətə malikdir.

**Problemin elmi yeniliyi.** Şəxsiyyətyönlü təhsilin inkişafında mühüm rol oynayan məktəblə ailənin əlbir işinin imkanları başlıca istiqamətləri araşdırılıb. Müvafiq təsnifat aparılıb.

**Problemin praktik əhəmiyyəti.** Şəxsiyyətyönlü təhsilin inkişafında məktəblə ailənin əlbir işinin başlıca istiqamətləri əsas formaları nəzərə çatdırılır. Müəllimlərin, sinif rəhbərlərinin, valideynlərin əlbir fəaliyyətinin səmərəliliyinə zəmin yaradan tövsiyələr verilir.

## ƏDƏBİYYAT


1. Azərbaycan məktəbi jurnalı 2013, № 5
2. Əhmədov A.Ə., Abbasov Ə.M. Kurikulumların hazırlanması və tətbiqi məsələləri Bakı: Kövsər. 2008.
3. Ailə tərbiyəsi şagirdlərin uğurlarına müsbət təsir göstərir. Azərbaycan müəllimi qəz., 2012, 19 oktyabr
4. Fətəliyev Xəlil. Ailədə milli tərbiyə. Bakı, 1996.


**З.Мурадова**

## ВЛИЯНИЕ СОВМЕСТНОЙ РАБОТЫ СЕМЬИ И ШКОЛЫ НА РАЗВИТИЕ ЛИЧНОСТНО-ОРИЕНТИРОВАННОГО ОБРАЗОВАНИЯ


***РЕЗЮМЕ***

Статья повествует об основной сущности и главных направлениях совместной работы семьи и школы, влияющих на развитие личностно-ориентированного образования. В связи с данной проблемой подробно исследуются основные формы совместных работ семьи и школы. Предлагаются рекомендации по достижению эффективности данной работы.


**Z.Muradov**

## THE INFLUENCE OF JOINT WORK OF SCHOOL AND FAMILY TO THE DEVELOPMENT OF PERSONALITY EDUCATION


***SUMMARY***

The article deals with the main essence and directions of joint work of school and family which play an important role in the development of personality education. Dealing with the problem the main attention is given to the important forms of joint work of school and family. A lot of recommendations paving the way for efficiency are nominated.


**Redaksiyaya daxil olub: 10.10.2016**

# İBTİDAİ SİNİFLƏRDƏ FİZİKİ TƏRBİYƏNİN İNKİŞAFINDA AİLƏ MƏKTƏB ƏLAQƏLƏRİNİN ROLU

**Yusif Babanlı,**

*pedaqogika üzrə fəlsəfə doktoru, professor*
*ADBTİA*
E:mail-babanlı.yusif@mail.ru

**Rəyçilər:** *ped. ü. elm. dok., prof.* İ.H. Cəbrayılov,
*ped. ü. fəls. dok.***,** *prof.* N.B.Məcidov

***Açar sözlər:*** *ailə, məktəb, şagird, ibtidai sinif, müəllim, valideyn fiziki tərbiyə, fiziki inkişaf*
***Ключевые слова:*** *семья, школа, ученик, начальная школа, учитель, родитель, физическое воспитание, физическое развитие*
***Key words:*** *family, school, student, elementary school, teacher, parent, physical education, physical development*

Artıq XXI əsrdə yeni Azərbaycan məktəbinin şəxsiyyətin formalaşdırılmasına yönəldilməsi valideynlərlə olan əlaqələrə tamamilə yeni müstəvidə yanaşmağı tələb edir. Məktəblərdə təlim-tərbiyə prosesinin şəxsiyyətyönlülük prinsipi üzərində qurulması yeni təlim texnologiyalarından maksimum istifadə ilə yanaşı həmçinin, şagirdə yanaşmada müəllimin ustalıqla yerinə yetirəcəyi üsullar da mühüm əhəmiyyət kəsb edir. Bunlardan biri də ailə məktəb əlaqələridir. Məlum olduğu kimi, ənənəvi pedaqogikada həmişə ailə, məktəb və şagird əlaqələrindən danışılmış, onun əhəmiyyəti qeyd edilmişdir. Bu məsələ ilə bağlı xeyli təcrübə toplanmışdır. Müasir təhsil və uşaq şəxsiyyətinin inkişaf etdiyi bir dövrdə valideynlər məktəblə əlaqələrini sadəcə informasiyalar üzərində qura bilməzlər. Onlar məktəblə yaxından əməkdaşlıq etməli, təhsil prosesinin iştirakçısı kimi fəaliyyət göstərməli, nailiyyətlərin əldə olunmasına imkanları daxilində töhfələrini verməlidirlər.

Şagirdlərin təlim tərbiyəsində müvəffəqiyyətə nail olmaq üçün ailə ilə məktəbin qarşılıqlı əlaqəsi mühüm şərtlərdəndir. Kiçik yaşlı məktəbli dövrlərində uşaqları ilə lazımi səviyyədə maraqlanmayan, onların həm psixi həm, sosial həm də fiziki inkişafına kifayət qədər əhəmiyyət verməyən, yalnız bioloji ehtiyaclarını aradan qaldırmaqla kifayətlənən valideyn yuxarı yaş dövründə onlara maraq göstərməsi istənilən müsbət nəticəni verə bilməz. Elə bu baxımından da fiziki tərbiyə dərslərinin tədrisində uşaqlarda, xüsusən də kiçikyaşlı məktəblilərdə qarşıya çıxan çətinliklər və müvəffəqiyyət barədə ailələrin məlumatlandırılması pedaqoqun işini düzgün qurmasına işarədir. Deməli, fiziki tərbiyənin müvəffəqiyyətini təmin edən şərtlərdən biri bu prosesdə məktəb və ailənin qarşılıqlı əlaqədə olması, birgə fəaliyyət göstərməsidir.

Fiziki tərbiyə dərslərində müxtəlif idman hərəkətləri üzrə fəallıq göstərən, idman dərslərinə xüsusi maraqla yanaşan şagirdlər haqqında valideynləri məlumatlandırılmalıdır. Bəzən uşaqda valideynlərin gözündən, nəzərindən yayınmış bacarıq və istedadı pedaqoqlar daha ustalıqla görür və üzə çıxarır. Belə xüsusi istedada malik olan uşaqları hansısa idman növünə yönləndirmək, onda bu fiziki qabiliyyəti inkişaf etdirmək cəmiyyət, dövlət üçün lazımi bir şəxsiyyəti, idmançının yetişdirilməsi deməkdir. Şagirdlərdə olan bu keyfiyyətlərin üzə çıxarılmasında müəllimin valideynlərlə əlaqəsində mühüm şərtdir.

Mövcud təcrübədə ibtidai sinif müəllimləri şagirdlərin fiziki tərbiyəsində ailə ilə həm fərdi, həm də kollektiv əlaqə formalarından istifadə edirlər. Müəllimlər ibtidai sinif şagirdlərinin əqli, əxlaq, əmək, estetik və s. tərbiyəsi ilə əlaqədar ailələrlə sıx əlaqə saxladıqları kimi fiziki tərbiyəsi ilə bağlıda əlaqə saxlamalıdırlar. Bildiyimiz kimi, heçdə bütün ailələrdə aşağı sinif şagirdləri normal və pedaqoji aspektdən əlverişli

mənəvi-əxlaqi və psixoloji mühitdə böyümür. Ailə tərbiyəsində müxtəlif səbəblər valideynlər və yaşlılar tərəfindən yol verilən nöqsanlar, asudə vaxtın məqsədyönlü təşkil edilməməsi, sərbəst ünsiyyət sahəsindəki mənfi təsirlər və s. nəticəsində ibtidai sinif şagirdlərinin davranışında xoşagəlməz təzahürlərin meydana çıxmasına şərait yaradır. Onlar çox zaman tərbiyəvi təsirlərə etinasızlıq göstərir, ata-analarının, müəllimlərinin sözlərinə qulaq asmır, dediklərinə əməl etmir, tez-tez hüquq normalarını, davranış qaydalarını pozur, öz yoldaşları və böyüklərlə qaba rəftar edirlər.

Lakin hər bir insanın, hər bir uşağın xasiyyəti və xüsusiyyətində mənfi keyfiyyətlərlə yanaşı, müsbət keyfiyyətlər də mövcuddur. Tərbiyəçi, müəllim müsbət keyfiyyətləri aşkara çıxarmağı və gündəlik pedaqoji fəaliyyətində yeri gəldikcə onlara ustalıqla istinad etməyi bacarmalıdır. Xaraktercə bir-birinə mütləq bənzər şagird tapmaq qeyri - mümkündür. Təbii ki, hər bir uşağın özünəməxsus arzu və istəyi, marağı və meyli, eləcədə temperamenti olur. Ona görə də ibtidai sinif şagirdlərinin hər birinin şəxsiyyətinə müxtəlif üsullar və vasitələrlə təsir göstərmək lazımdır. Bunun üçündə hər bir şagirdi konkret olaraq tanımalı, onun fərdi xüsusiyyətlərini bilmək gərəkdir.

K.D.Uşinskinin təbirincə desək, əgər pedaqogika uşağı hərtərəfli tərbiyə etmək istəyirsə, əvvəlcə onu hərtərəfli öyrənməlidir. Bu nöqteyi-nəzərdən görkəmli rus pedaqoqunun aşağıdakı sözləri real və təbii səslənir: tərbiyəçi insanı həqiqətdə olduğu kimi bilməli, onun bütün zəif və qüvvətli cəhətləri ilə, bütün gündəlik xırda ehtiyacları və eləcədə böyük ruhi tələbatları ilə tanış olmalıdır.

Şagirdlərin davranışında, böyük və kiçiklərlə xoşagəlməz hallar müşahidə olunduqda, həmin uşaqla fərdi iş səmərə vermədikdə, şagird kollektivi uşağa təsir göstərə bilmədikdə müəllimin həmin şagirdin ailəsinə getməsi məsləhətdir. Bu gediş müəllimə şagirdi hərtərəfli öyrənmək, valideynin tərbiyə işinə münasibətini və onun pedaqoji savadının səviyyəsini müəyyənləşdirməyə imkan verir. Nəticədə məktəb və ailə uşağın fiziki tərbiyəsində əlbir hərəkət etməyə başlayır. Bu məqsədlə müəllimlərin "Ailələrlə aparılan işlə", "Valideynlərlə görüş", "İbtidai sinif şagirdləri ilə aparılan işlər " və s. kimi xüsusi dəftərlər ayrılması faydalıdır. Ailələrə getməzdən əvvəl qarşıya çıxan suallarla təxmini cavabları ehtimal etmək mümkündür:

- ibtidai sinif şagirdlərinin davranışında özünü büruzə verən xoşagəlməz halların səbəbi nədir?
- ailənin ayrı-ayrı üzvlərinin tərbiyəlilik dərəcəsi hansı səviyyədədir?
- ailə tərbiyəsində valideynlərdən hansının tərbiyəvi təsiri daha üstündür?
- valideyn özü ictimai davranış qaydalarına necə əməl edir?
- valideynlə öz hüquq və vəzifələrini bilirlərmi?
- ata, ana yaxud da ailənin digər yaşlı üzvləri uşaqlarla dövlətimizin qanunlarına dair hansı izahat işləri aparırlar?

Müəllim bütün bunları müəyyənləşdirdikdən sonra ibtidai sinif şagirdlərin (lazım gəlsə valideynin özünün) cəmiyyətin davranış qaydalarına necə əməl etməsinə dair valideynə lazımi məsləhətlər verir və tərbiyə işində birgə hərəkət edirlər.

Valideynin məktəbə dəvət edilməsi. İbtidai siniflərdə fiziki tərbiyənin təşkili prosesində sinif rəhbərləri, ayrı-ayrı müəllimlər, məktəbin direktoru, sinifdənxaric və məktəbdənkənar tərbiyə üzrə təşkilatçılar və b. Valideynləri məktəbə dəvət edə bilərlər. Belə görüşlər şagirdlərin fiziki tərbiyəsində qarşıya çıxan çətinlikləri aradan qaldırmağa kömək edir. Valideynlərlə fərdi söhbət zamanı uşaqların davranışında təzahür edən mənfi halları müzakirə etmək, onların səbəblərini araşdırmaq, eybi zamanda valideynin tərbiyə işinə marağını və imkanını öyrənmək tövsiyə olunur. Bundan sonra şagirdlərin fiziki tərbiyəsində valideynlərin qarşılaşdığı çətinliklərlə əlaqədar ona lazımi məsləhətlər verilməli, əməli kömək göstərilməlidir.

Valideynin məktəbə dəvət olunmasından yalnız şagirdin nizam-intizam qaydalarını pozduğu, müntəzəm surətdə davranış normalarından kənara çıxdığı hallarda istifadə edilmir. Müəllimlər dərslərini yerinə yetirən, nizam-intizamlı şagirdlərində valideynlərini məktəbə dəvət etməlidirlər.

Bu sahədə tədqiqatlar aparmış mütəxəssislər məktəb ailə əlaqələrində həm pedaqoqlara həm də valideynlərə dəyərli məsləhətlər vermişlər. Ana-ataların uşaqları haqqında yaxşı sözlər

eşitmək istədiyini bildirən Türk prof. dr. Binnur Yeşilyaprak, müəllimlərlə valideynlərin görüşündə şagird haqqında yaxşı söhbətlərdən başlamağı tövsiyə edir. Müəllimlərlə valideyn arasında yaranacaq mübahisələrin, ana-atanın, müəllimin övladlarının yaxşılığı üçün çalışdığını qəbul etməsi ilə həll edilə biləcəyini ifadə edən Yeşilyapraq, şagirdin məktəbdə qazandığı uğur və uğursuzluqlarla ata-ananın xəbərdar olmasını əsas məsələlərdən olduğunu qeyd edir. Yeşilyapraq valideyn iclaslarının valideynlər üçün sıxıcı, yorucu bir toplantı olmasının qarşısını almaq məqsədilə bir neçə təkliflər irəli sürmüşdü: valideyn iclasları uşaqların dərs keçdikləri otaqda yox, toplantılar üçün nəzərdə tutulmuş otaqda, çay, su, qəhvə, şirniyyat təklif edilməklə keçirilsə daha yaxşı olar; iclasa şagirdlərin müsbət keyfiyyətlərini müzakirə etməklə başlamaq, mənfi xüsusiyyətlərini və təlimdəki müvəffəqiyyətsizliklərini isə valideynə xüsusi ustalıqla (ikilikdə) çatdırmaq lazımdır ki, uşaq haqqında mənfi rəy yaranmasın. Belə hallarda ata-anaların valideyn iclaslarından yayınma halları az olacaq.

Valideyn və müəllim arasındakı müsbət bir ünsiyyət ancaq şagirdin inkişafını müzakirə, problemlərini və ehtiyaclarını müəyyənləşdirib təmin edilə bilər. Bu ünsiyyəti təmin etmənin ən əhəmiyyətli başlanğıcı da sağlam və funksional məktəb-ailə tədbirləri və iclaslarıdır. Ancaq, bu işdə əldə edilən nəticələrə əsasən valideyn-müəllim əlaqələrinin sağlam və funksional olduğu müəyyənləşdirilmişdir. Pedaqoqlar Ə.X.Paşayev və F.A.Rüstəmov haqlı olaraq qeyd edirlər: Valideyn yığıncaqlarında şagirdlərin davamiyyəti və yetirməsinin yekunları, intizamı, təlimdə geri qalma faktları haqqında valideynlərə informasiya verməklə yanaşı səbəbləri araşdırmaq, neqativ halları aradan qaldırmaq yollarını müzakirə etmək, konkret tədbirlər müəyyənləşdirmək lazımdır

Müəllimlər, pedaqoji kollektiv valideynlərə əlaqələri zamanı aşağıda qeyd olunan tövsiyələrə əməl etsələr əməkdaşlıqda müsbət nəticələrə nail olmaq olar.

1. Hər şagirdin, ailəsi üçün böyük əhəmiyyət daşıdığını unutmayın.

2. Şagirdin ailəsi ilə görüşərkən uşağınız deyil uşağımız deyə sözə başlayın.

3. Şagirdin ailəsi haqqında, lazımlı məlumatları toplamaqda rəhbərliklə əməkdaşlıq edin.

4. Valideynlərə, şagirdin müsbət keyfiyyətlərindən də bəhs edərək onların mənəvi rahatçılığını təmin edin. Şagirdin səhvlərindən sərt bir şəkildə bəhs edərək valideynləri utandırmayın.

5. Valideynin şagirdə qarşı olan mənfi davranışından çəkindirin. Sizin qarşınızda xəcalətli olan valideyn, intiqamını şagirddən ala bilər.

6. Valideynlərlə məktəbdənkənar əlaqələrdə hörmətli olun. Zəif şagird ailələri ilə əlaqələrinizdə daha diqqətli olun.

7. Valideynlərə qarşı nəzakətli, ancaq qərarlı olun.

8. Valideynin işində ancaq köməkçi olun. Müvəffəqiyyətsiz da olsa köməyinizi əsirgəməyin, davam etdirin.

9. Yeniyetmənin intizam-intizamındakı şikayətinizdə tələsməyin; qərarınızı verəndə diqqətli olun. Daha sonra valideynin təzyiqi ilə sözünüzü geri götürməyin, ancaq bağışlamağı bacarın. Kinli olmayın!

**Problemin elmi yeniliyi.** İbtidai siniflərdə fiziki tərbiyə dərslərində müvəffəqiyyətə nail olmaq üçün ailə məktəb əlaqələrində valideynlərlə işin təşkili, məzmun və formalarının düzgün qurulması.

**Problemin praktik əhəmiyyəti.** Bu sahədə tədqiqat aparanlar, sinif rəhbərləri, fiziki tərbiyə müəllimləri üçün praktikdir.

**Problemin aktuallığı.** Müasir dövrdə orta məktəblərdə şagirdlərdə təlimə marağın yüksəlməsində ailə ilə məktəbin sıx əməkdaşlığı, fiziki bacarıqlarının aşkarlanıb üzə çıxarılması şagirdlərin idman istiqamətində inkişafı üçün əsasdır.

## ƏDƏBİYYAT

1. Babanlı Y. İbtidai siniflərdə fiziki tərbiyənin təşkili texnologiyaları: Dərs vəsaiti. Bakı: Araz, 2015.

2. Paşayev Ə. X., Rüstəmov F.A. Pedaqogika. Bakı: Nurlan, 2007.

3. Ахметов С.М. Методика физической подготовки школьников 7-11 лет в зависимости от уровнях их физического развитя: Автореф. дис. ... канд. пед. наук. Краснодар, 1996.

4 .http://www.binnuryesilyaprak.com.

***İBTİDAİ SİNİFLƏRDƏ FİZİKİ TƏRBİYƏNİN İNKİŞAFINDA AİLƏ MƏKTƏB ƏLAQƏLƏRİNİN ROLU***

**Y.Babanli**

**THE ROLE OF FAMILY TIES IN THE DEVELOPMENT OF PHYSICAL EDUCATION IN PRIMARY SCHOOL**

***SUMMARY***

The article tells about the influence of family and school relationships on development of physical education in elementary school. The course of school-family partnership, its forms and content is widely explained. Here is shown that the pupils' educational success depends on the different forms of school-family partnership. In the article is also emphasized the importance of school-family co-operation for forming all-round developed personality with modern world.

**Ю.Бабанлы**

**РОЛЬ СЕМЕЙНО-ШКОЛЬНЫХ ОТНОШЕНИЙ В РАЗВИТИИ ФИЗИЧЕСКОГО ВОСПИТАНИЯ В НАЧАЛЬНЫХ КЛАССАХ**

***РЕЗЮМЕ***

В статье повествуется о влиянии семейно-школьных отношений на процессы развития физического воспитания в начальных классах. Широко прокомментированы направления, содержание и формы сотрудничества между семьёй и школой. А также даны виды и формы сотрудничества семьи и школы и влияние этого процесса на обучение физическое воспитание учащихся. Автор статьи также подчеркивает важность совместной работы школы и семьи для развития физического воспитания с современным мировоззрением.

**Redaksiyaya daxil olub: 18.01.2017**

# REGİONLARLA TANIŞLIĞIN VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNDƏ ROLU

**Talıb Paşayev,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*ARTİ*
E-mail: talıb48@mail.ru

**Eyvaz Məmmədov,**
*ADPU-nun Cəlilabad filialının direktor müavini*
E-mail: menzileragimova@mail.ru

**Rəyçilər:** *ped.ü.fəls.dok., dos.* M.S.Kazımov,
*ped.ü.fəls.dok.* L.N.Nağıyeva

***Açar sözlər:*** *region, iqtisadiyyat, gənclər, ölkəmizi tanıyaq*
***Ключевые слова:*** *регион, экономика, молодежь, ознакомимся со страной*
***Keywords:*** *region, economy, youth, acquaintance with our country*

Gənclərin elmi dünyagörüşünün inkişafında təhsil işçiləri, müəllimlər tədris prosesində və məktəbdənkənar tədbirlər prosesində ardıcıl işlər həyata keçirirlər.

Məlum olduğu kimi, məktəblilərin ayrı-ayrı ölkələrin, vilayətlərin, rayonların əhalisi, coğrafi şəraiti haqqında məlumat almaq istəkləri yüksəkdir.

Bu baxımdan tədris zamanı əldə etdikləri biliklər, xüsusən də dünyanın fiziki, iqtisadi coğrafiyası, tarix, iqtisadiyyat və s. fənlər xüsusi əhəmiyyət kəsb edir.

Bir sıra oxu materiallarında ölkələrin diyarşünaslığına dair kitablardan və digər mənbələrdən istifadə olunması daha önəmlidir. Hal-hazırda respublikamızda regionşunaslığın öyrənilməsi diyarşünaslığın bir sahəsi kimi qiymətləndirilir.

Regionşünaslıq iki anlamda: dünya dövlətlərinin və respublika daxilinin öyrədilməsi başa düşülür. Geniş mənada (anlamda) belə demək olar ki, regionşünaslıq yaşadığımız respublikadan kənar dünya dövlətlərinin iqtisadiyyatı, təhsili, mədəniyyəti, təbiəti, apardığı siyasəti və s. barədə verilən (və ya deyilən) məlumatlar nəzərdə tutulur.

Dövlətdaxili mənada regionşünaslıq dedikdə isə respublikamızın qədim və müasir tarixi, mədəniyyəti, təbiəti, coğrafi şəraiti, təhsili, iqtisadiyyatı, təsərrüfatı, Qarabağ problemi və bunun nəticələri və s. haqqında verilən məlumatlar nəzərdə tutulur.

Mövcud ədəbiyyata istinad etməklə respublikadaxili regionşünaslıqdan söz açmaq istərdik. Yuxarıda göstərdiyimiz kimi deyək ki, qədim diyara malik olan Azərbaycanın çox böyük keçmişi və müasir dövrü vardır. Bütün bu dövr ərzində insanlar ibtidaidən aliyə yüksəlmiş, tayfa, qəbilə birlikləri və feodal dövlətlər yaratmış və öz dövlətini qurmuşlar.

Respublikanın aqrar təsərrüfatının bütün sahələri, maldarlığı, dəmirçiliyi, dulusçuluğu, toxuculuğu qəsəbə və şəhərsalma, ticarət, nəqliyyat, təhsil, elm, səhiyyə, mədəniyyət və s. inkişaf etmiş, region dövlətləri ilə rəqabət səviyyəsinə gəlib çatmışdır. Onu da göstərək ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra region termini (sözü) daha çox nəzər diqqəti cəlb edir. Hazırda respublikanın ayrı-ayrı rayon və şəhərlərində görülmüş və görüləcək sosial layihələrdən danışılır. Respublikamızın mərkəzi televiziyasında "Region xəbərləri" başlığı ilə respublikanın vətəndaşlarına sosial, iqtisadi, mədəni və s. sahələr üzrə görülmüş və görüləcək işlər haqqında məlumatlar verilir.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra demokratik dövlət quruculuğuna başlanmışdır. Bu bir həqiqətdir ki, müstəqilliyin ilk illəri çox çətin şəraitdə idi. Demokratiya adı altında "vətənpərvərlər" bilərəkdən və ya bilmədən vətəndaş müharibəsi törətməyə cəhd edirdilər, problemlər yaradırdılar. Respublikamızın 20% torpaqları havadarlarına arxalanmış erməni quldurları tərəfindən işğal olunmuşdu. Böyük

layihələrin həyata keçirilməsində investisiyaya ehtiyac var idi və s. 1993-cü ildə gənc respublikaya Azərbaycanın böyük oğlu Heydər Əliyev xalqın xahişi ilə və ürəyinin səsi ilə (oktyabr 1993) rəhbər vəzifəyə gəldi.

Ümummilli lider Heydər Əliyev dövlət quruculuğu səriştəliliyi nəticəsində, böyük çətinliklərə baxmayaraq, bugünkü inkişafda olan müstəqil dövləti yaratdı. Dövlətin atributları, konstitusiyası, demokratik seçki sistemi, dövlət orqanları, beynəlxalq xarici siyasət əlaqələri həyata keçirildi, təhsil, səhiyyə, idman, elm-texnika, sənaye, kənd təsərrüfatı, energetika, neft, qaz sənaye sahələri və s. inkişaf etdirildi.

Bu baxımdan Respublika Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramı" (2004-2008-ci illər üzrə) haqqında (Bakı, 11 fevral 2004-cü il № 24) verdiyi fərman əhəmiyyət daşıyır.

Bu fərmandan irəli gələn məsələlər respublikada sosial-iqtisadi inkişafı daha da sürətləndirdi. Respublikamızın ayrı-ayrı regionlarında inkişaf vüsət aldı. Çox əhəmiyyətli inkişaf baş verdi. Bu yüksəliş respublikamıza gələn xarici qonaqları heyran etdi. Bunu biz qonaqların çıxışlarından da görürük.

Belə bir inkişaf nəticəsində respublikamıza turist axını başladı və respublika turizm diyarına çevrilməkdədir. Respublikamızın inkişafında cənab İlham Əliyevin əməyi və rolu böyükdür.

Ayrı-ayrı regionlarda abadlıq-quruculuq işləri dövlət qayğısı altında həyata keçirilir.

Respublika Prezidenti cənab İlham Əliyev öz çıxışlarında dəfələrlə göstərmişdir ki, neft sənayesi insan kapitalına çevrilməlidir. Artıq neft istehsalı ilə yanaşı kənd təsərrüfatı inkişaf etdirilir.

Respublikada iş adamlarına münbit şərait yaradılmış, onlara maliyyə güzəştləri edilmişdir. Nəticədə kənd təsərrüfatı sahələri inkişaf etməyə başlamışdır. Zəhmət adamlarının maddi vəziyyəti yaxşılaşmış, iş yerləri açılmışdır.

Azərbaycan respublikasının inkişaf xronikasında yeni, maraqlı və pedaqoji-psixoloji baxımdan əhəmiyyətli olan sahədən biri də məktəblilərin qrup şəklində respublikanın regionlarına səyahətinin təşkil olunmasıdır.

Bu da gənclərin Azərbaycanı daha yaxşı tanımalarında böyük rol oynayır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2014-cü ildə "Ölkəmizi tanıyaq" sərəncamına əsasən, respublikanın ayrı-ayrı məktəblərində şagirdlərdən qruplar yaradılaraq, eşidib üzünü görmədikləri rayonlara, şəhərlərə göndərilməyə başlanmışdır. Bu iş çox böyük əhəmiyyətə malikdir. Onlar yerlərdə ölkəmizin iqtisadiyyatı, mədəniyyəti ilə tanışlıqla yanaşı uşaqların dünyagörüşlərinin vətənpərvərlik tərbiyə hissinin artmasına səbəb olur. Bu dövlət əhəmiyyətli bir işdir və hər il yaz, qış tətil günlərində şagirdlər ayrı-ayrı rayon və şəhərlərə dövlət vəsaiti hesabına səyahət edirlər. Belə ki, gənclər getdiyi regionun coğrafiyası, ümumi mənzərəsi, mədəniyyəti, iqtisadiyyatı, və səliqə-sahmanı ilə tanış olurlar. Regionun tarixi abidələri, Ulu öndər Heydər Əliyevin abidəsi, xalqımızın and yeri olan Şəhidlər xiyabanı, Qubadakı soyqırım memorial kompleksini, Xocalı soyqırım abidəsi, tarixi şəxsiyyətlərin ev muzeyləri, yeni-yeni tikililər, Azərbaycanın müstəqillik dövrü tarixi, xüsusən də məktəb, xəstəxana, idman olimpiada mərkəzlər və müasir tələblərə cavab verən magistral yol tikintisi və s. ilə tanış olurlar. Orta məktəbi bitirdikdən sonra qəbul olduğu ali məktəbdə tanış olduğu tələbə yoldaşları arasında məlumatlı olurlar. Bu məlumat adi məlumat, kitabdan oxuduğu məlumat deyildir. Onların dünyagörüşlərində iz qoymuş məlumatdır.

Deyilənə görə, hər bir adamın ildə bir şəhər, qəsəbə görməyi, bir-iki roman oxumağa bərabərdir.

Bugünkü şagirdlər xaricə oxumağa gedəndə və yaxud (hazırda bu tendensiya halını almışdır) xarici ölkələrə səfər edəndə bilsinlər ki, onun ölkəsində, regionunda da səliqə-sahmanlı yerləri çoxdur.

Müstəqillik dövründə Bakı, Sumqayıt, Mingəçevir, Gəncə, Naxçıvan, Qəbələ şəhərləri daha geniş miqyaslı inkişaf etməyə başlamışdır.

Qeyd edək ki, vaxtı ikən, sovet dövründə bizim gənclərə xarici ölkələrə turist kimi getməzdən əvvəl məsləhət görürmüşlər ki, sən Azərbaycanın regionları (diyarları) ilə tanış ol. Doğma diyarın tarixi yerlərini gör, sonra xarici səfərə get. Bu söz olaraq qalmışdır. Ancaq müstəqillik dövründə bugünkü gənclər bu arzunu həyata keçirməyə başlamışdır. 2014-cü ildən başlanan bu maarifləndirici tur 6 dəfədir ki,

həyata keçirilir və iki mindən çox IX - XI sinif şagirdi iştirak etmişdir.

Ölkəmizin inkişafında "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının" (2004-2008-ci və 2014-2020-ci illər) əhəmiyyəti böyük olmuşdur və hazırda regionlarda iqtisadi inkişafın qayğısına diqqət çox böyükdür.

Respublikamızın inkişafı, şəhərlərin, rayonların abadlaşdırılması ürəkaçandır. Şagirdlərin bu regionlarda olmaları regionlarda iqtisadiyyatla, mədəniyyətlə və s. tanışlıq onlarda vətənə məhəbbəti artırır vətənpərvərlik hisslərini yüksəldir. Respublikamıza gələn qonaqların, ayrı-ayrı xarici dövlət nümayəndələrinin qarşısında qurur hissi keçiririk.

Məktəbli gənclərin ölkəmizi gəzək və tanıyaq maarifləndirici tur aksiyası pedaqoji-psixoloji hal kimi qiymətlidir.

1. Vətənpərvərlik tərbiyəsinin aşılanması müəllim və tərbiyəçilərdən hərtərəfli bilik, bacarıq, səy və təmkinlik tələb edir.
2. Məktəbli gənclərin regionlara səfərləri əhəmiyyətli olmaqla bərabər, uşaqların olduqları region haqqında esse, foto guşə hazırlaması yaxşı olardı.
3. Məktəb rəhbərliyinin bu uşaqların inşa yazmalarına nail olmaları məsləhət görülür.
4. Səfərdə olarkən məktəbli gənclərin təəssüratları barədə müsahibə vermələri yaxşı olardı.
5. Yaxşı olardı ki, bu uşaqlar arasında mini bilik yarışı keçirilsin.
6. Tur aksiya iştirakçılarının olduqları regiona dair foto guşə təşkil etmələri yaxşı olardı.

**Problemin aktuallığı:** Müstəqillik şəraitində respublikanın regionlarında sosial-iqtisadi inkişaf və bu inkişafın öyrənilməsi nəticəsində gənclərin vətənpərvərlik tərbiyəsi üçün baza yaranmış olur.

**Problemin yeniliyi:** Məktəbli gənclərin respublikanın regionları ilə əyani tanışlığı yaxşı hal hesab edilir.

**Problemin praktik əhəmiyyəti:** Məktəbli gənclərin regionlarla, onların iqtisadiyyatı, tarixi, mədəniyyəti təsərrüfatı ilə tanışlıq məktəblilərin dünyagörüşlərini artırır və gənclərdə qürur hissi yaradır.

## ƏDƏBİYYAT

1. H. Əliyev. Müstəqil Azərbaycanın gələcəyi gənclərdir. Bakı: Gənclik, 1996.
2. İ. Əliyev. Azərbaycan respublikası regionlarının sosial iqtisadi inkişaf Dövlət Proqramının (2004-2008-ci illər) icrasına həsr olunmuş konfransdakı nitqi. "Azərbaycan" qəz., 2009, 24 fevral
3. A.N. Abbasov. Pedaqogika. Bakı: Mütərcim, 2013.
4. T. Paşayev. Diyarşünaslıq materialları gənc nəslin vətənpərvərlik tərbiyəsinin mühüm vasitəsi kimi. Bakı: Mütərcim, 2010.

**Т. Пашаев, Э.Мамедов**

## ЗНАКОМСТВО С РЕГИОНАМИ КАК СРЕДСТВО ВОСПИТАНИЯ ПОДРАСТАЮЩЕГО ПОКОЛЕНИЯ

***РЕЗЮМЕ***

После провозглашения независимости Азербайджанской Республики, несмотря на ряд трудностей, благодаря стараниям общенационального лидера Гейдара Алиева наша страна достигла больших высот. В результате успешной политики, проводимой президентом господином Ильхамом Алиевым, значительно улучшилось социально-экономическое положение страны. В регионах страны также наблюдается улучшение. Целью статьи является ознакомление молодежи с данными улучшениями. Автор подчеркивает, проводимая политика способствует повышению у школьников чувства любви к Родине, что является средством привития чувства патриотизма.

*REGİONLARLA TANIŞLIĞIN VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNDƏ ROLU*

**T. Pashayev, E. Mammadov**

**ACQUAINTANCE WITH REGIONS AS A MEANS OF PATRIOTIC NURTURE**

***SUMMARY***

After restoration of independence, inspite of some difficulties, The Republic of Azerbaijan became a highly developed country as a result of great leader, Heydar Aliyev's great effort, and its foundation for the rise was laid. As a result of balanced policy of the president of Azerbaijan, Mr Ilham Aliyev, there has been a socio-economic development in our republic. Our regions have also developed. The youth need to get acquainted with this growth. The trips mentioned in the article will arose children's felling of love to their motherland. It is also a means of teaching a patriotic sense.

**Redaksiyaya daxil olub: 24.01.2017**

# TƏLİM PROSESİNDƏ KOLLEC TƏLƏBƏLƏRİNDƏ SOSİAL FƏALLIĞIN FORMALAŞDIRILMASI İMKANLARI

**Rüxsarə Əliyeva,**

*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*ARTİ*
E-mail: ruxsare_aliyeva@mail.ru

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* A.N.Abbasov,
*ped.ü.fəls.dok.* L.A.Məmmədli

***Açar sözlər***: *təlim prosesi, fəallıq, sosial fəallıq, tələbələr, sosial fəallığın formalaşdırılması, kollecin tərbiyə sistemi, sosial fəallığın idarə olunması*

***Ключевые слова***: *процесс обучения, активность, социальная активность, студенты, формирование социальной активности, воспитательная система колледжа, управление социальной активности*

***Key words***: *process of teaching, activity, social activity, the students, the formation of social activity, upbringing system of the college, management of the social activity*

Orta ixtisas məktəblərində tədris olunan bir sıra fənlər tələbələrdə sosial fəallığın inkişaf etdirilməsi baxımından zəngin material verir. Təbii ki, bu sahədə fənn müəllimlərinin üzərinə mühüm vəzifələr düşür. Onlar mövzuların təhsilləndirici, inkişafetdirici imkanları ilə yanaşı tərbiyələndirici xarakterini də diqqət mərkəzində saxlamalı və həmin imkanlardan səmərəli şəkildə faydalanmalıdırlar.

K.D.Uşinskinin fikrincə, "Hər bir fənnin tədrisi mütləq elə bir yolla getməlidir ki, şagirdin üzərinə onun gənc qüvvələri öhdəsindən gələ biləcək qədər əmək düşsün. Həkim xəstəyə müalicə edərkən təbiətə ancaq kömək edir; eyni ilə müəllim də öz şagirdinə ancaq bu və ya digər fənni öyrənməkdə çəkdiyi çətinliklərlə mübarizədə kömək etməlidir; şagirdə öyrətmək lazım deyil, ancaq onun öyrənməsinə kömək etməlidir" (1, 72).

Təlim prosesində tələbənin sosial fəallığının inkişafının pedaqoji əsasları kimi aşağıdakı müddəalar diqqət mərkəzinə gəlir:

- tələbənin sosial fəallığı onun sosial-pedaqoji münasibətlərdə təşəkkül tapır və həyat mövqeyində meydana gəlir;
-tələbənin sosial fəallığı ictimai tərəqqinin perspektivlərini proqnozlaşdırır və stimullaşdırır;
- tələbənin sosial fəallığı tərbiyəvi, təşkilati işlərin yüksək səviyyədə yerinə yetirilməsi ilə bağlıdır.

Tələbələrdə sosial fəallığın formalaşdırılması baxımından biz orta ixtisas məktəblərinin proqramlarını nəzərdən keçirdik. İlk növbədə "Pedaqogika" proqramı ilə (4) tanış olduq. Proqramın "İzahat vərəqi"ndə təhsilalanların özünüidarə fəaliyyətinə, sinifdənxaric və məktəbdənkənar işin təşkili məsələlərinə də yer ayrılmışdır. Diqqət yetirək: "Proqramda nəzərdən keçirilən digər mövzular tərbiyənin prinsip və metodlarına, sinifdənxaric və məktəbdənkənar işlərin əsas istiqamətlərinə, səmərəli formalarına, ailə tərbiyəsinə, sinif rəhbərinin, məktəb ictimai təşkilatlarının, o cümlədən şagird *özünüidarə orqanlarının* fəaliyyətinə və təbii ki, müasir cəmiyyətdə müəllimin yerinə və roluna, müəllimin şəxsi və peşə keyfiyyətlərinə, məktəbşünaslığa aiddir" (4, 5).

Təbii ki, proqramda, həmçinin təlimin nəzəri əsasları, mahiyyəti və funksiyalar, təlimin prinsipləri, metodları və tərzləri də diqqət mərkəzindədir, həmin məsələlərin öyrənilməsinə müvafiq olaraq saatlar ayrılmışdır.

Tələbələrdə sosial fəallığın formalaşmasında özünüidarə orqanlarının rolu müstəsna dərəcədə böyükdür. Məsələyə bu baxımdan yanaşdıqda proqrama daxil edilmiş mövzuların məzmununda təhsilalanların özünüidarə fəaliyyətinin işıqlandırılması təqdir olunmalıdır.

Proqramda iyirmi beşinci mövzu "Məktəbin tərbiyə işlərində şagird təşkilatlarının rolu" adlanır. Həmin mövzunun məzmununa fikir verək: "Məktəb *şagird təşkilatları*. Onların vəzifələri, təşkili, quruluşu, işin məzmunu və üsulları, fəaliyyət prinsipləri. Şagird *özünüidarəsi*. Şagird

*TƏLİM PROSESİNDƏ KOLLEC TƏLƏBƏLƏRİNDƏ SOSİAL FƏALLIĞIN FORMALAŞDIRILMASI ...*

təşkilatları haqqında əsasnamələr. Onların pedaqoji əsasları. Sinif rəhbərinin, müəllimin, tərbiyə işləri üzrə direktor müavininin şagird təşkilatlarının səmərəli fəaliyyətində rolu" (4, 16).

Dərsdə haqqında danışılan məsələlərlə tanış olmaları bir tərəfdən tələbələrin sinifdənxaric və məktəbdənkənar işin mahiyyəti, məqsəd və vəzifələri, əsas istiqamətləri, təşkilinin səmərəli yolları, eyni zamanda təhsilalanların özünüidarə fəaliyyəti, özünüidarə orqanlarının işinin məzmunu, təşkilinin məqsədi, fəaliyyət istiqamətləri, özünüidarə orqanlarında iştirakın faydalılığı, sinifdənxaric və məktəbdənkənar tədbirlərin təşkilində və həyata keçirilməsində müəllimin və tələbələrin mövqeyi, rolu və yeri, tələbələr üçün faydası və s. onlarda aydın təsəvvür yaradır, onları maarifləndirir; ikinci bir tərəfdən sinifdənxaric və məktəbdənkənar (o cümlədən kollecdənkənar) tədbirlərin təşkili üzrə bacarıqlara yiyələnirlər. Bundan başqa, "Pedaqogika" fənnindən qazanılmış bilik məlumatlar tələbələrdə özünüidarə vərdişlərinin formalaşmasına, onlarda sosial fəallığa tələbatın yaranmasına kömək göstərir.

Biz "Milli əxlaq və ailə etikası" fənn proqramı (5) da nəzərdən keçirdik.

Proqramın "İzahat vərəqi"ndə oxuyuruq: "Dünyaya inteqrasiya gedişində milliliyi qoruyub saxlamaq son dərəcə vacibdir. Milli əxlaqımızı, adət-ənənələrimizi, milli dəyərlərimizi əsas götürərək, böyüyən nəsil arasında tərbiyə işi aparmaq mühüm əhəmiyyət daşıyır. Azərbaycan xalqı zəngin və şərəfli milli əxlaqa malikdir. Bu əxlaqi dəyərlər Azərbaycan şifahi və yazılı abidələrində, böyük mütəfəkkirlərin əsərlərində, tarixi mənbələrdə qorunub saxlanır. Həmin əxlaqa yiyələnməklə yeniyetmə və gənclərimiz soykökümüzə, milli mentalitetimizə bələd olur, onu yüksək qiymətləndirir və qoruyurlar.

Gənclər cəmiyyətimizin həyatında aparıcı qüvvədirlər. Onların bir çoxu orta ixtisas məktəblərində təlim-tərbiyə alırlar. Kolleclərdə tədris olunan fənlər sırasında «Milli əxlaq və ailə etikası» özünəməxsus yer tutur" (5, 3).

Yuxarıda nümunə gətirilmiş fikirlər sosial fəallığa yiyələnmədə aparıcı yerlərdən birini tutur. Məhz milli əxlaqa, milli adət ənənələrimizə, milli və şəxsi şərəf və ləyaqətə yiyələnmiş tələbələr cəmiyyətin, təhsil aldıqları kollecin, ailənin həyatında, problemlərində yaxından iştirak edər, insanların xeyrinə əmək sərf edərlər.

Proqrama daxil edilmiş mövzulardan biri "Müstəqillik dövründə milli əxlaqi dəyərlərin qorunub saxlanması" adlanır. Bu mövzu üzrə tələbələrin aşağıdakı məsələlərlə tanış edilmələri nəzərdə tutulur: "Azərbaycanın müstəqil dövlət kimi inkişafı. Demokratik cəmiyyət quruculuğu dövründə etik normaların qorunmasının əhəmiyyəti. Ümummilli lider *Heydər Əliyevin* milli əxlaqımızın qorunmasına göstərdiyi qayğı. «*Gənclər siyasəti haqqında*» Azərbaycan Respublikası Qanununun əhəmiyyəti. *Gənclər siyasətinin* əsas məqsədi və başlıca prinsipləri. Ötən əsrin sonlarında müstəqillik əldə etdikdən sonra təhsil sistemimizin təkmilləşdirilməsi istiqamətində görülən tədbirlər.

Heydər Əliyev vətənpərvərlik, Vətənə sədaqət haqqında. H.Ə.Əliyevin xalqımızın mənəviyyatına dair fikirləri. Heydər Əliyev dini dəyərlərimiz, *gənclərin* öz *asudə vaxtlarından* səmərəli istifadə etmələrinin vacibliyi haqqında. H.Ə.Əliyev ölkə vətəndaşlarının öz tarixi keçmişini, Azərbaycan tarixini və coğrafiyasını, milli adət və ənənələrimizi, mədəniyyətimizi, ana dilimizi yaxşı bilmələrinin zəruriliyi haqqında. Heydər Əliyevin azərbaycançılıq ideyası" (5, 8-9).

Proqramın tələbinə görə, "Ailədə uşaqların tərbiyəsi" mövzusu ilə bağlı tələbələrə aşağıdakı məsələlərin: "Ailəyə dövlət tərəfindən yardımın gücləndirilməsi və uşaqların tərbiyəsi üçün valideynlərin məsuliyyətinin artırılması. Azərbaycan Respublikasının Konstitusiyası valideynlərin vəzifələri haqqında. Ata və ana uşaqların ilk tərbiyəçiləri kimi. Valideynlərin şəxsi nümunəsi və nüfuzu. Ananın uşaqlarda ataya, baba və nənəyə məhəbbət və hörmət, qardaş və bacılarına, qohumlara səmimi hisslər tərbiyə etməsi. Qadının kişiyə hörmətinin uşaqların tərbiyəsində əhəmiyyəti. Atalıq kişinin nəcib və məsuliyyətli vəzifəsi, insanın təbii-sosial tələbatı kimi. Ata məhəbbətinin xüsusiyyətləri. Atanın övladları üçün öz vicdanı, həyat yoldaşı, uşağı, cəmiyyət qarşısında məsuliyyəti. Uşaqlara münasibətdə düzgün mövqe tutmaq. Onların imkanlarını, qüvvətli və zəif cəhətlərini ağıllı surətdə qiymətləndirməyi bacarmaq. Valideynlərin pedaqoji mədəniyyətinin yüksəldilməsi. Oğlan və qız tərbiyəsinin xüsusiyyətləri. Azərbaycan xalq pedaqogikasında oğlan və qız tərbi-

yəsi məsələləri. Qızlarda ata və qardaş nümunəsində kişiyə hörmət hissinin tərbiyə olunması. Qızlara evdarlıq, laylay çalmaq, uşaqlara qulluq etmək və s. vərdişlərinin, oğlanlarla rəftar tərzinin aşılanması. Oğlanlarda ana və bacı nümunəsində qadına hörmət hissinin tərbiyə edilməsi. Ailə tərbiyəsində yol verilən nöqsanlar. Bəzi gənc valideynlərin tərbiyə vəzifələrini yerinə yetirməyə hazır olmaması" kimi məsələlərin çatdırılması məqsədəuyğun hesab edilir.

Orta ixtisas məktəbləri üçün yazılmış istər "Pedaqogika", istərsə də "Milli əxlaq və ailə etikası" dərslikləri yuxarıda adları çəkilən proqramlar əsasında yazıldığından haqqında danışılan məsələləri özündə ehtiva edir.

"Pedaqogika elminin sistemi" mövzusu keçilərkən müəllim "fəaliyyət", "sosial fəallıq" anlayışlarını yada salır. Göstərir ki, təlimdə idrak fəallığının, yaradıcı fəallığın göstərilməsi nə qədər vacibdirsə, cəmiyyətdə, ictimai yerlərdə, təhsil müəssisələrində, iş yerində sosial fəallığı, təşəbbüskarlıq, təşkilatçılıq bacarığı, müstəqillik nümayiş etdirmək bir o qədər vacibdir. Pedaqogikanın mühüm sahələrindən biri olan sosial pedaqogika "fəaliyyət", "fəallıq" və "sosial fəallıq" anlayışlarının mahiyyətinə, məqsəd və vəzifələrinə, xüsusiyyətlərinə və s.; nəzəri və praktik məsələlərinə aydınlıq gətirir.

Prof. A.N.Abbasovun "Pedaqogika" dərsliyinin VI fəslinə daxil olan "Təlimin şüurluluq və fəallıq prinsipi" mövzusu ilə tanışlıq zamanı da "fəallıq", "fəaliyyət", "təlim fəaliyyəti", "təlimdə fəallıq", "əqli fəallıq", "idrak fəallığı" anlayışlarının üzərində dayanılır. Həmin anlayışlar "sosial fəallıq"la əlaqələndirilir. Göstərilir ki, məhz həmin anlayışlarla bağlı məlumatlara, prosesin özünə yiyələnməklə tələbədə sosial fəallıq inkişaf edə bilər. İdrak fəaliyyəti, şüurluluq, məqsədaydınlığı olmadan sosial fəallıq da səmərəsiz nəticələnərdi. "Pedaqogika" dərsliyində deyildiyi kimi, "Şüurluluq və fəallığa təlimin bütün mərhələlərində fəal təfəkkür fəaliyyəti nəticəsində nail olunur. Şüurluluq düşünmək tələb edir, fəallıq – idrak fəallığını, təfəkkür və fəaliyyətin vəhdətini səciyyələndirən aparıcı motivlərə əsaslanmağı nəzərdə tutur. Material şüurlu, düşünə-düşünə, başa düşə-düşə öyrənildikdə uzun müddət yaddaşda qalır və həm də dərsdə fəallıq təmin olunur. Mexaniki əzbərçiliyə uyan məktəbli fəal olmur, yalnız əzbərlədiklərini çatdıra bilir, düşündürücü sual veriləndə özünü tədris materialını öyrənmiş kimi göstərməsinə baxmayaraq, sualı cavablandırmaqda çətinlik çəkir. Heç təsadüfi olaraq deyilməmişdir: «Oxumağın faydası əzbərləməkdə yox, dərk etməkdədir». Bu fikir "Kəlilə və Dimnə"dən götürülmüşdür. Şərqin bu möhtəşəm sənət abidəsində daha sonra deyilir: "Hər kəs bilmədiyi işdən yapışsa, onun vəziyyəti sözü əzbərləyib mənasını başa düşməyən adamın vəziyyətinə oxşar". Mənimsənilmiş zəruri biliklərlə yanaşı bacarıq və vərdişlərin təkmilləşdirilməsinə də şüurlu yanaşılmalıdır" (7, 128-129).

"Sinif rəhbəri: şagird kollektivinin təşkili və tərbiyəsi" fəslinə daxil olan "Sinif şagird kollektivinin təşkili və tərbiyəsi", "Şagird özünüidarəsi" mövzuları tələbələrə sosial fəallıq vərdişlərinin aşılanması baxımından diqqət mərkəzinə rəhbərinin fəaliyyəti ilə tanış olurlar.

Müəllim professorlar F.N.İbrahimov və R.L.Hüseynzadənin "Pedaqogika" dərsliyinin materiallarına əsasən bu məsələyə aydınlıq gətirir. Tələbələr öyrənirlər ki, "Təcrübəli sinif rəhbəri şagirdləri biliklərlə silahlandırmalıdır. Bu, sinir rəhbərinin *öyrədici*, *maarifləndirici* vəzifəsidir.

Sinif rəhbəri şagirdlərin bilikləri zəminində onların elmi dünyagörüşünü və ideya-əxlaqi əqidəsini formalaşdırmalı, şagirdləri ümumbəşəri əxlaqi keyfiyyətlər ruhunda tərbiyələndirməlidir. Bu, onun tərbiyələndirici vəzifəsinə aiddir.

Şagirdlərin sağlamlığını, fiziki inkişafının yüksək səviyyəsini təmin etməyə, dərsdənkənar tərbiyə işlərini pedaqoji baxımdan düzgün təşkil etməklə marağını, intellektual və fiziki qabiliyyətlərini inkişaf etdirməyə nail olmalıdır. Bu, sinir rəhbərinin *inkişafetdirici* vəzifəsidir.

Uşaqların öz imkanları daxilində respublikamızın ictimai-siyasi həyatında, kütləvi tədbirlərdə, təbliğat və təşviqat işlərində fəal iştirakını təmin etməlidir. Bu, sinir rəhbərinin *ictimai-siyasi* vəzifəsinə daxildir.

Sinif rəhbəri ictimai-pedaqoji sahə də fəal olmalı, ictimaiyyətlə, valideynlərlə sıx əlaqə saxlamalı, tərbiyənin forma, metod və vasitələrini təkmilləşdirməyə, sinifdənxaric işlərin yüksək səmərəliliyini təmin etməyə səy göstərməlidir. Bunlar da sinir rəhbərinin *ictimai-pedaqoji* vəzifəsinə daxildir".

Tərbiyə işi, o cümlədən sosial fəallığın formalaşdırılması prosesi həm asan, həm də çə-

tin bir işdir. Asandır ona görə ki, tələbə təhsil və tərbiyəni xüsusi pedaqoji təhsil almış, öz ixtisasını, onun tədrisi metodikasını, eyni zamanda tərbiyə işinin metodikasını bilən, müəyyən pedaqoji ustalığa yiyələnmiş müəllimdən alır. Tərbiyə işi çətindir ona görə ki, tələbələrin fərdi xüsusiyyətləri, dərketmə qabiliyyətləri, temperament tipləri fərqlidir, müxtəlif ailələrdə böyüyüb tərbiyə almışlar.

Kollecdə tələbə kollektivinin təşkili zamanı bütün bu məsələlərə fikir verilməlidir.

**Problemin aktuallığı.** Yeni pedaqoji təfəkkür şəraitində tələbələrdə sosial fəallığın formalaşdırılmasına ehtiyac vardır.

**Problemin yeniliyi.** Təlim prosesində kollec tələbələrində sosial fəallığın formalaşdırılması imkanları araşdırılır.

**Problemin praktik əhəmiyyəti.** Təlim prosesində tələbələrdə sosial fəallığın formalaşdırılması sahəsində kollec müəllimlərinə öz köməyini göstərəcəkdir.

## ƏDƏBİYYAT


1. Uşinski K.D. Seçilmiş pedaqoji əsərləri. Bakı: Azərnəşr, 1953.
2. Mehrabov A.O. Səriştəli müəllim hazırlığının problemləri. Bakı: Elm və təhsil, 2015.
3. Əhmədov H.H. Pedaqogika: Eksperimental dərs vəsaiti (orta ixtisas məktəblərinin pedaqoji fakültələri üçün). Bakı: ABU, 2006, 296 s.
4. Abbasov A.N. Pedaqogika: orta ixtisas məktəbləri üçün proqram. Bakı: Mütərcim, 2013.
5. Abbasov A.N. Milli əxlaq və ailə etikası: fənn proqramı. Bakı: Mütərcim, 2013.
6. Azərbaycan Respublikasının Prezidentinin 2002-ci il aprelin 9-da təsdiq etdiyi "Gənclər siyasəti haqqında Azərbaycan Respublikasının Qanunu".
7. Abbasov A.N. Pedaqogika: orta ixtisas məktəbləri üçün dərslik. Bakı: Mütərcim, 2013.
8. Abbasov A.N. Milli əxlaq və ailə etikası: Dərslik. Bakı: Mütərcim, 2016.
9. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2011-ci il 7 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı"


**Р.М.Алиева**

## ВОЗМОЖНОСТИ ФОРМИРОВАНИЯ СОЦИАЛЬНОЙ АКТИВНОСТИ У СТУДЕНТОВ КОЛЛЕДЖА В ПРОЦЕССЕ ОБУЧЕНИЯ


***РЕЗЮМЕ***

Ряд предметов, преподаваемых в средних специальных школах, предоставляют обширные материалы с точки зрения развития социальной активности у студентов. В этой области большие обязанности возлагаются на учителей-предметников. Они, наряду с образовательными, развивающими возможностями тем, должны держать в центре внимания и их воспитательные возможности и эффективно пользоваться ими.


**R.M.Aliyeva**

## FEATURES OF FORMATION OF SOCIAL ACTIVITY IN COLLEGE STUDENTS IN THE LEARNING PROCESS


***SUMMARY***

A number of subjects taught in secondary special schools provide extensive materials from the point of view of development of social activity of students. In this area, great responsibilities assigned to the subject teachers. They, along with education, developing the capabilities, need to keep the focus of their educational opportunities and to effectively use them.


**Redaksiyaya daxil olub: 23.01.2017**

# MƏNƏVİYYAT VƏ ƏXLAQ TƏRBİYƏSİNDƏ MÜƏLLİM PEŞƏKARLIĞI VƏ MÜƏLLİM SƏRİŞTƏLİLİYİ

**Yaqut Əzimzadə,**

*Milli Konservatoriyanın tərkibində*
*Respublika İncəsənət Gimnaziyasının*
*ibtidai sinif müəllimi*
Email: reraro@mail.ru

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* H.H. Əhmədov,
*ped.ü.elm.dok., prof.* R.L. Hüseynzadə

***Açar sözlər:*** *səriştəli müəllim, təhsil strategiyası, pedaqoji qabiliyyətlər*
***Ключевые слова:*** *компетентный учитель, стратегия образования, педагогические способности*
***Key words:*** *a competent teacher, education strategy, teaching abilities*

Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin "Maddi kapitalın insan kapitalına çevirmək" ideyası, məhz kamil şəxsiyyət yetişdirmək ideyasına istiqamətlənmişdir ki, bu da ilk növbədə məktəbdən başlayır, səriştəli, peşəkar müəllim əməyinin düzgün təşkilindən, onun şagird şəxsiyyətinin formalaşdırılmasında pedaqoji, metodiki fəaliyyətindən başlayır. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda - ölkə prezidentinin 24 oktyabr, 2013-cü il sərəncamında deyilir: "İnsan kapitalının inkişafı iqtisadiyyatın qlobal sistemə uğurlu inteqrasiyası və ölkənin beynəlxalq rəqabətdən daha effektli faydalanması prosesində ən mühüm şərtlərdən olub, ölkənin təhsil sisteminin başlıca vəzifəsini təşkil edir" (1).

Bu gün qloballaşan dünyamızda yetişən gənc nəslə milli-mənəvi dəyərlərimizin, mənəviyyat və əxlaqi keyfiyyətlərin aşılanması xüsusi əhəmiyyət kəsb edir. Milli-mənəvi dəyərlərimiz, adət və ənənələrimiz, davranış və rəftarımızda milli əxlaq normalarımız yetişən gənc nəslə təlim və tərbiyə prosesində, müəllimin yaradıcı, peşəkar fəaliyyəti prosesində aşılanır. Qloballaşma prosesində təhsilin məzmunu və müəllimin peşəkar fəaliyyəti şəxsiyyətin milli mentalitetini yüksəltməyə, milli özünüdərkinə, onun hərtərəfli inkişafına, yüksək insani keyfiyyətlərə yiyələnməsinə xidmət etməlidir. Ölkəmizin təhsil strategiyasında müəllim səriştəliliyinə istiqamətlənən dəyərli fikirlərin birində deyilir: "...milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli kadrlar hazırlamaq" (1) təhsil işçilərinin qarşısına mühüm bir vəzifə kimi qoyulmuşdur. Bütün bu keyfiyyətlərin yetişən nəslimizdə formalaşdırılması müəllimin səriştəliliyi, onun peşəkar fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir. "Səriştə" kəlməsi beynəlxalq aləmdə - "Kompetensiya" (latın sözü - competens) kəlməsi kimi işlədilir. Bunun qarşılığı "uyğun", "peşəyə yararlı", "məqbul sayılma" mənalarını verir. Dilimizdə işlənən "Səriştə" sözü farscadan gəlmədir. Farsca "səreştən" "yaratmaq", "qarışdırmaq" məsdəri ilə qohumdur, qrammatik əsası "Səriş" sözüdür (8, 89). Kompetensiya anlayışı ilk dəfə ABŞ da 1970 ci ildə işlənməyə başlanmışdır. Bu peşəkar biznesmenlərin səriştəliliyinin – kompetensiyasının əhəmiyyəti haqqında idi. O zaman kompetensiyanın öyrənilməsi və təkmilləşdirilməsi məsələsi qarşıya qoyulmuşdu. Öyrənmə meydana gəldiyindən kompetensiya təhsil prosesinə daxil oldu, təhsilin mərkəzi problemlərindən birinə çevrildi və pedaqogika elminin mühüm tədqiqat sahəsinə çevrildi. Müəllimin Pedaqoji Peşə səriştəliliyi dedikdə müəllimin uğurlu pedaqoji fəaliyyəti üçün onun peşə və şəxsi keyfiyyətlərinin məcmusu başa düşülür .

Ulu öndərimiz Heydər Əliyev hələ 1980-ci ildə ali məktəb işçilərinin respublika müşavirəsindəki nitqində səriştəli müəllim obrazını yaratmışdır: "…hər bir ali məktəb müəllimi gərək öz sahəsində səriştəli olsun, geniş ümumi məlumata, yaxşı pedaqoji vərdişlərə, mühazirə oxumaq, dərs demək, öyrətmək, tərbiyə etmək üçün

bütün başqa zəruri keyfiyyətlərə malik olsun. Bunun üçün gərək hər bir ali məktəb müəllimi elmi biliklərdən əlavə, yaxşı nitq, dil qabiliyyətinə, natiqlik məharətinə, bütün başqa pedaqoji keyfiyyətlərə və vərdişlərə yiyələnsin ki, bütün bunlar üst-üstə ona həqiqətən yaxşı tərbiyəçi olmaq imkanı versin" (2).

Heydər Əliyev müəllim peşəsinin müqəddəs, müəllim adının yüksək ad olmasını dəfələrlə vurğulamış, onun cəmiyyətdə rolunu, tutduğu yeri olduqca düzgün xarakterizə etmişdir. Ulu Öndərimiz özlərini vətən torpağının bir zərrəsi sayan gənclərin tərbiyə edilib yetişdirilməsində müəllim əməyinə, onun şəxsiyyətinə yüksək qiymət vermişdir. Heydər Əliyev deyirdi ki, müəllim adı şərəfli addır, müəllim adı yüksək addır. Müəllim vəzifəsi ona görə şərəflidir ki, o, cəmiyyət üçün ən dəyərli, bilikli, zəkalı, tərbiyəli, vətənpərvər vətəndaş hazırlayır. Müəllim dünyada yeganə şəxsiyyətdir ki, cəmiyyət öz gələcəyini – uşaqlarının tərbiyəsini yalnız ona etibar edir (3).

Cəmiyyətdə yeni nəslin mənəviyyat və əxlaqi keyfiyyərtlər ruhunda tərbiyə edilməsi, onlarda hərtərəfli mənəvi keyfiyyətlərin formalaşmasında peşəkar, səriştəli müəllim fəaliyyəti mühüm rol oynayır. Müstəqilliyimizin hazırkı mərhələsində gənc nəslin əxlaq tərbiyəsinin rolu və əhəmiyyəti xeyli artmışdır. "Əxlaq" "xəlq" və "xalq" sözlərindən əmələ gəlmiş, "yaradılış", "səciyyə" deməkdir. Müasir zamanda millimənlik şüurunun artması, şəxsiyyətin əxlaqi, mənəvi keyfiyyətləri cəmiyyətin inkişafında vacib və önəmli amil hesab edilir. Məhz buna görə də şəxsiyyətin milli-mənəvi, əxlaqi tərbiyəsi, layiqli insan yetişdirmək problemi dövlətin daim diqqət mərkəzindədir. Bu baxımdan səriştəli müəllim özü ilk növbədə yüksək mənəvi-əxlaqi keyfiyyətlərə sahib olmalı, hər yerdə əxlaqilik nümunəsi göstərməlidir.

Müəllimin şagirdlərə verdiyi bilik, bacarıq və vərdişlər yüksək insani keyfiyyətlərin formalaşdırılmasına xidmət etməlidir. Məktəbdən ilk növbədə yaxşı insan çıxmalı, sonra bilikli mütəxəssis yetişməlidir. Elə bir insan ki, o hər yerdə milli-mənəvi və bəşəri dəyərləri mənimsəmiş bir şəxsiyyət kimi fəaliyyət göstərir, cəmiyyətdəki sosial - siyasi şəraitə, bazar iqtisadiyyatına, zəngin informasiya-kommunikasiya məkanına uyğunlaşmışdır. Sadə dillə desək məktəb bütün həyat üçün bilik vermir, amma həyat boyu oxuyub-öyrənməyi və bilikləri səmərəli tətbiq etməyi, öz üzərində daim çalışmağı öyrədir ki, bütün bunlar da səriştəli, peşəkar müəllimin fəaliyyəti nəticəsində, təlim və tərbiyə prosesini yüksək səviyyədə qurması ilə mümkün olur.

**Problemin elmi yeniliyi:** Məqalədə müəllimlik peşəsinə yeni baxış öz əksini tapmışdır. Məqalədə "səriştəli müəllim", "peşəkar müəllim" anlayışları elmi cəhətdən şərh olunur. Göstərilir ki, müəllimin pedaqoji peşə səriştəliliyi dedikdə müəllimin uğurlu pedaqoji fəaliyyəti üçün onun peşə və şəxsi keyfiyyətlərinin məcmusu başa düşülür .

**Problemin praktik əhəmiyyəti:** Məqalə praktik əhəmiyyətə malikdir. Belə ki, məqalədən müəllimlər öz peşə səriştəliliyini artırmaq üçün geniş istifadə edə bilərlər. Pedaqoji təmayüllü ali məktəblərdə müəllimlik peşəsi bölməsi üçün dəyərli yeni materiallar verilmişdir ki, tələbələr yaradıcılıqla istifadə edə bilərlər.

**Problemin aktuallığı:** Məqalə müasir dövr üçün çox aktualdır. "Azərbaycan Respublikasında Təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda müəllim kadrları yetişdirmək məsələsi irəli sürülmüşdür. Bu mühüm dövlət sənədində deyilir: "Təhsilin məzmununun formalaşmasında akademik biliklərlə yanaşı, praktik bilik və bacarıqların, səriştənin vacibliyi önə çəkilir. Səriştə əldə olunmuş bilik və bacarıqları praktiki fəaliyyətdə səmərəli tətbiq etmək qabiliyyətidir. O, şəxsin qazandığı bilik və bacarıqların konkret fəaliyyətin nəticəsinə çevrilməsini təmin edir. Səriştəyə əsaslanan təhsil sosial-iqtisadi inkişafa daha effektli xidmət göstərir". Dövlət sənədində verilən bu fikirlər məqalənin aktuallığını göstərir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Təhsilin inkişafı üzrə Dövlət Strategiyası" "Xalq" qəz., 2013, 25 oktyabr

2. Heydər Əliyev. Ali məktəb işçilərinin respublika müşavirəsində nitq. Bakı, 1980

3. Heydər Əliyev. Bakı şəhərinin təhsil işçiləri ilə görüşündə çıxış. 31 avqust 1994-cü il. "Azərbaycan" qəz., 1994, 1 sentyabr

**Я.Азимзаде**

## ПРОФЕССИОНАЛИЗМ И КОМПЕТЕНТНОСТЬ УЧИТЕЛЯ В ВОСПИТАНИИ КУЛЬТУРЫ И НРАВСТВЕННОСТИ

***РЕЗЮМЕ***

В статье разъясняется большое влияние фактора компетентности учителя на формирование культуры и нравственности ученика. Следовательно, система подготовки учителя должна быть ориентирована, прежде всего, на формирование личности ученика. Наряду с этим, учитель должен подготовить социально и профессионально активную личность, обладающую высокой компетентностью, мобильностью и профессионализмом, что позволит ей реализовать себя как в собственной жизни так и в профессиональной деятельности. Все эти мысли отмечаются в "Государственной стратегии по развитию образования в Азербайджанской Республике", утвержденной Постановлением Президента Азербайджанской Республики Ильхамом Алиевым от 24 октября 2013 года. В этом государственном документе подчеркивается важность подготовки квалифицированных, компетентных педагогических кадров, развитие их знаний и навыков.

**Y.Azimzadeh**

## PROFESSIONALISM AND COMPETENCE IN THE EDUCATION OF SPIRITUALITY AND MORALITY

***SUMMARY***

The role of the competent teacher is very important in the formation of the personality of the students. This opinion is clearly reflected in the " State Strategy for the Development of Education in the Republic of Azerbaijan". The availability of high moral qualities and human values of the teacher, his deep knowledge of his profession, his right attitude to the students, his ability of communicating with them is a key component of his professional competence. A teacher is such a creator who prepares decent people for the society with the intellectual thinking and creative ideas. Teachers are active social people and they must be example for their students with their personality. If teachers own a good humane character, deep knowledge, creative mentality, goodness, they can form the personality of their students in the right direction. Students can develop their character, improve their skills and opportunities, find out their creative activity and compensate their material and spiritual needs under the teacher supervision in society.

**Redaksiyaya daxil olub: 10.01.2017**

# TƏLƏBƏLƏRDƏ MƏNƏVİ ŞÜURUN İNKİŞAF ETDİRİLMƏSİ ÜZRƏ İŞİN BƏZİ MƏSƏLƏLƏRİ

**Teymur Səmədov,**

*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*Sumqayıt Dövlət Universiteti*
E-mail: teymur.m.@mail.ru

**Rəyçilər**: *fəlsəfə ü.elm.dok., prof.* Ə.B. Məmmədov,
*ped.ü.elm.dok., prof.* A.N. Abbasov

***Açar sözlər**: şüur, mənəvi şüur, tələbə, tələbələrdə mənəvi şüurun inkişafı, şəxsiyyətin mənəvi həyatı, fərdi şüur, ictimai şüur*

***Ключевые слова:** сознание, нравственное сознание, студент, развитие нравственного сознания у студентов, нравственная жизнь личности, индивидуальное сознание, общественное сознание*

***Key words:** consciousness, moral consciousness, the student, the development of the moral consciousness of the students, the personality's moral life, the individual consciousness, social consciousness*

İnsanın daxili aləminin, mənəviyyatının saflaşmasında və zənginləşməsində mənəvi şüura yiyələnməyin özünəməxsus yeri və rolu vardır.

Mənəvi şüurdan danışmazdan əvvəl gəlin görək şüur özü nə deməkdir?

Şəxsiyyətin mənəvi həyatı onun ailədə və məktəbdə aldığı tərbiyənin səviyyəsindən xeyli dərəcədə asılıdır. Bu sahədə ailədə valideynlərin, onları əvəz edən insanların; məktəbdə isə, pedaqoji kollektiv üzvlərinin – müəllimlərin, sinif rəhbərinin, məktəb ictimai təşkilatlarının, məktəb rəhbərinin, məktəb, psixoloqunun; üzərinə mühüm vəzifələr düşür.

Ali məktəbdə isə, təlim prosesinin – mühazirə və seminarların necə təşkil olunması, tələbə auditoriyasının necə idarə edilməsi, müəllim-tələbə münasibətlərinin necə qurulması, müəllimin obyektivliyi, prinsipiallığı, ədalətli olması, tələbə dünyasına yaxından bələd olması mühüm rol oynayır, təhsilalanlarda mənəvi mədəniyyətin təşəkkül tapıb formalaşmasına öz köməyini göstərir.

Şüur psixikanın ən yüksək səviyyəsini təşkil edir. O da beynin funksiyası hesab edilir. Şüur obyekt aləmin şəxsiyyətə məxsus olan və obyektiv aləmin beyində ideal inikasıdır. Şüur ictimai məhsuldur.

Mövcud ədəbiyyatla tanışlıqdan görünür ki, şüurun, adətən fərdi və ictimai formalarını diqqət mərkəzinə gətirirlər.

*Fərdi şüur* – konkret şəxsə aiddir, ona xas olan ideyalar, baxışlar, dünyagörüş sistemini təşkil edir. Professorlar Ə.S.Bayramov və Ə.Ə.Əlizadənin qeyd etdikləri kimi, "Şüur fərdin həyat yolunun təkraredilməz əlamətlərini, tərbiyəsinin xüsusiyyətlərini, ona olan müxtəlif siyasi və ideoloji təsirləri ifadə edir. Fərdi şüur və makro – və mikromühitin (sosial qrupun həyat şəraiti), həmçinin ailənin, dostların, tanışların və nəhayət, şəxsi həyat şəraitinin təsirinin nəticəsi kimi çıxır. Fərdi şüur insanın inkişaf səviyyəsi, şəxsi xarakteri və sair kimi amillərin də təsiri altında olur" (1, 32).

*İctimai şüur* isə bu və ya digər insan qrupuna aid ideyalar, baxışlar sistemi kimi özünü göstərir. Professorlar Ə.S.Bayramov və Ə.Ə.Əlizadə yazmışlar: "İctimai şüur dedikdə, bütövlükdə müəyyən cəmiyyət üçün və ya müəyyən sosial qrup üçün səciyyəvi olan baxışlar, ideyalar nəzərdə tutulur" (1, 31).

Şüur bir sıra xüsusiyyətlərə malikdir. Həmin xüsusiyyətlərə daxildir: psixi proseslər, mənlik şüuru, fərqləndirmə, məqsədin olması, ictimai-tarixi xarakter daşıması və s.

Şüur, onun mənşəyi, mahiyyəti və gerçəkliyə münasibəti məsələsi həmişə - lap qədimdən filosofları düşündürmüşdür. Şəxsiyyətin dünyada yerini və rolunu, onun ətraf aləmlə qarşılıqlı təsirinin səciyyəsini müəyyənləşdirməkdən ötrü, şüurun təbiətini və mahiyyətini aydınlaşdırmaq lazım gəlmişdir.

Demokrit, Epikir, Lukretsi Kar və başqalarının qənaətincə, insanın doğulması ilə şüur da meydana gəlir. Şüur insan bədənindən asılıdır. İnsan dünyasını dəyişəndə şüur da yox olur. Bədənsiz şüurun (ruhun) dəyəri yoxdur, o heç nədir.

Platon, Berkli, Hegel, Fixte, Şellinq kimi obyektiv və subyektiv idealizm nümayəndələri şüuru (ruhu) maddi gerçəkliyin əsası hesab etmiş, onu materiyaya nisbətən müəyyənedici və ilkin substansiya olaraq qəbul etmişlər.

Sonralar R.Dekart belə bir fikrə gəlmişdir ki, şüur müstəqil şəkildə mövcuddur. O, təfəkkür, "fikirləşən substansiyanın fəaliyyəti" olub, bədəndən, maddi olandan asılı deyildir. Həmçinin materiyan da "fikirləşən" substansiyadan asılılığı yoxdur.

XVIII əsrdə Spinoza, Didro və qeyriləri şüuru materiyanın atributu, onun hər bir təzahür formasına və növlərinə xas olan əbədi xassəsi saymışdır.

On illər, yüz illərlə şüurun mahiyyəti, onun materiyaya, varlığa münasibəti ilə əlaqədar fəlsəfi yönümdə mübahisələr şüurun mənşəyi ətrafında olmuşdur. İdealizm tərəfdarları - ruhun, şüurun birinciliyini; dualizm - maddi və mənəvinin paralel mövcudluğunu qəbul etmişdir.

Materiyanın ilkin olduğu fikrini irəli sürən materialistlərin qarşısında "öz-özünün səbəbidir" prinsipini pozmadan duyğu və şüur xassələrinə malik materiyanın mövcudluğu ideyasını sübuta yetirmək kimi çətin və mürəkkəb bir vəzifə dayanmışdı.

Hazırda fəlsəfə elmi aşağıdakı müddəaları təsdiq edir:

- şüur mövcuddur;
- onun özünəməxsus, xüsusi, ideal təbiət (mahiyyəti) vardır (bu müddəanı idealistlər də, materialistlər də (şüurun materiyadan törəmə olduğunu desələr də) qəbul edirlər.

"İnsani" nöqteyi-nəzərə görə, şüur, istisnasız olaraq, insan beyninin məhsuludur, yalnız və yalnız insana xasdır, heyvanlar isə instinktə malikdir.

İndi isə, mənəvi şüur haqqında.

S.Şahhüseynovanın yazdığı kimi, "Müasir tədqiqatçıların çoxu əxlaqda iki nisbətən müstəqil sahə olduğunu söyləyir: 1) əxlaqi şüur və 2) əxlaqi fəaliyyət (praktika və ya təcrübə). Bəziləri əxlaqda 3-cü elementi də ayırır ki, bu da əxlaqi münasibətlərdir. Lakin əxlaqi münasibətlər əxlaqi fəaliyyətlə (praktika ilə) əlaqədar olduğu üçün əksər hallarda hər iki element vəhdətdə nəzərdən keçirilir" (2).

Mənəvi şüurun anlayışlarının səciyyəviliyi ondan ibarətdir ki, həmin anlayışlar cəmiyyətin və şəxsiyyətin mənəvi həyatını özünəməxsus bir formada diqqət mərkəzinə gətirir. Bu və ya digər hərəkətin dəyərləndirilməsi vaxtı da bu anlayışlara müraciət olunur.

Tələbələrin mənəvi tərbiyəlilik səviyyəsinə malik olmaq üçün ilk növbədə onların mənəvi şüurunun formalaşdırılması qayğısına qalmaq lazımdır. Mənəvi şüurun başlıca anlayışlarına daxildir: şərəf və ləyaqət, yaxşılıq və pislik, vicdan vicdansızlıq, xeyir və şər, borc və məsuliyyət, mənəvi ideal, mənəvi hisslər, mənəvi dəyərlər, mənəvi baxışlar, mənəvi təsəvvürlər, mənəvi inam, mənəvi motivlər, namus, ismət, qeyrət, mənəvi qiymətləndirmə və s.

Mənəvi şüurun strukturuna 3 komponent aid olunur:

1. İnsanların, o cümlədən tələbələrin nümunəvi davranış təcrübəsinə yiyələnmələrinə və ləyaqətli şəxsiyyət olmalarına yönəlmiş cəmiyyət tərəfindən verilən tələbləri özündə ehtiva edən mənəvi biliklərin, mənəvi anlayışların, mənəvi prinsiplərin, mənəvi ideyaların daxil olduğu *normativ komponent*.

2. *Qiymətləndirici komponent.* Bu komponentə daxildir: tələbələrin öz fəaliyyətlərində istifadə etdikləri mənəvi qiymətləndirmə və özünüqiymətləndirmə, meyarları.

3. Tənzimləmə komponenti. Bu komponentə tələbələrin davranışına təsir göstərən mənəvi hisslər, mənəvi münasibətlər, mənəvi inam və əqidə və şüurun başqa komponentləri aiddir:

Mənəvi şüur özündə elə bir mürəkkəb sistemi əhatə edir ki, du sistemin sayəsində cəmiyyətdə insanlar arasında qarşılıqlı münasibətlərin müəyyən qaydaları təşəkkül tapır.

Mənəvi normalar insan davranışının məcburi və yolverilən variantlarının dərk edilməsinə imkan verən elementi özündə ehtiva edir. Bütün bunların köməyi ilə insanlar arasında münasibətlər tənzim olunur. Mənəvi norma insanın xeyir və şər haqqında biliklər sisteminə əsaslanır.

Mənəvi şüurun inkişaf etməsi və onun kamilliyi nəticəsində tələbələr yüksək mənəvi keyfiyyətlərə yiyələnirlər. Onlarda yoldaşlıq və dostluq, xeyirxahlıq, düzlük və doğruçuluq, təvazökarlıq, obyektivlik, yaxşılıq, böyüyə hörmət, vətənpərvərlik, yurdsevərlik, milli mənlik şüuru, şərəf və ləyaqət, milli iftixar hissi, prinsipiallıq, mənəvi saflıq, borc və məsuliyyət və s. bu kimi keyfiyyətlər inkişaf edərək formalaşır.

Y.A.Komenski "Böyük didaktika" əsərində yazırdı: "İnsan hələ beşikdə olarkən həyat üçün sağlam olan qaydalara yiyələnməməsi daha çox təhlükəlidir. Zira xarici hisslər fəaliyyətə başladıqdan sonra insan ruhu heç bir zaman sakit halda qala bilməz; əgər o hər hansı tamamilə mənasız və ...zərərli bir şeylə məşğul deyildirsə, özünü faydasız işlərə yönəldə biləcəkdir. ... Gənclik yaşlarında mənimsənilmiş adətlərdən sonralar əl çəkmək ya mümkün olmayacaq, ya da tamamilə çətin olacaqdır (3, 65).

Adət və ənənələr mənəvi şüurun mühüm komponentləridir. Onlar digər şəxslər kimi tələbələrin də məişətinə daxil olur və davranış qaydalarının sabit tərəfi kimi özünü göstərir. Həmin adət və ənənələrin formalaşması birdən-birə deyil, müəyyən müddət ərzində baş verir. Bu vaxt insanların tələbatı və ictimai rəyi əsas götürülür.

Mənəvi prinsiplər mənəvi şüurun nisbətən mürəkkəb forması olub, müvafiq mənəvi-ruhi normalarında öz ifadəsini tapır. Mənəvi norma və prinsiplərin məcmusu əxlaq kodeksini meydana gətirir.

Mənəvi prinsiplər mənəvi tələblərin ümumiləşmiş əksidir.

Mənəvi prinsiplərlə yanaşı mənəvi ideala da münasibət bildirmək tələb olunur. Mənəvi ideal mənəvi şüurun nisbətən geniş, ümumiləşmiş forması, mənəvi qiymətləndirmə, prinsip və normalarının sintezidir.

İndi isə mənəvi qiymətləndirmə barədə. Mənəvi qiymətləndirmə mənəvi şüurun zəruri komponenti sayılır. O, insanların, o cümlədən tələbələrin şəxsiyyətlər, hadisələr, adət və ənənələr, davranış qaydalarının mənəvi dəyəri haqqındakı təsəvvürlərindən ibarətdir.

**Problemin aktuallığı.** Məqalədə tələbələrdə mənəvi şüurun inkişaf etdirilməsi üzrə işin bəzi məsələləri öz əksini tapmışdır.

**Problemin yeniliyi.** Tələbələrdə mənəvi mədəniyyətin formalaşmasında mənəvi şüurun oynadığı böyük rol diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti.** Ali məktəb müəllimləri tələbələrdə mənəvi mədəniyyətin formalaşmasın üzrə işdə faydalanacaqlar.

## ƏDƏBİYYAT

1. Ə.S. Bayramov, Ə.Ə. Əlizadə. Psixologiya: Ali məktəblər üçün dərslik. Bakı, 2007.
2. S. Şahhüseynova Əxlaqi şüur. http://kayzen.az/blog/fəlsəfə/9772/əxlaqi-şüur.html)
3. Y.A. Komenski. Böyük didaktika. Bakı: Elm və təhsil, 2012.

**Т.Г.Самедов**

## НЕКОТОРЫЕ ВОПРОСЫ РАБОТЫ ПО РАЗВИТИЮ НРАВСТВЕННОГО СОЗНАНИЯ У СТУДЕНТОВ

### *РЕЗЮМЕ*

Нравственная жизнь личности в большой степени зависит от уровня воспитания полученного им в семье и в школе. В этой области, в семье основные задачи возлагаются на родителей, людей, которые их заменяют, а в школе на членов педагогического коллектива: учителей, классных руководителей, школьные общественные организации, на руководство школы и школьных психологов. А в Вузах большую роль играет организация учебного процесса–лекций и семинаров, управление студенческой аудиторией, построение взаимоотношений учитель-ученик, объективность, принципиальность, справедливость учителя, хорошее знание им студенческого мира. Все это оказывает большую помощь в формировании нравственной культуры студентов.

В статье отражены некоторые вопросы работы по развитию нравственного сознания у студентов.

**T.G.Samadov**

## SOME ASPECTS OF WORK FOR MORAL CONSCIOUSNESS OF STUDENTS

***SUMMARY***

The moral life of the person to a large extent depends on the level of education received by him in the family and at school. In this region, in the family the main tasks entrusted to the parents, the people who replace them, and in the school teaching staff members, teachers, head teachers and school social organizations in the management of the school and school psychologists. And in universities plays an important role the organization of educational process, lectures and seminars, management of student audience, building a relationship teacher-student, objectivity, integrity, justice, teacher, good knowledge of the student world. All this is a great help in the formation of the moral culture of students.

The article describes some of the issues of work on the development of the moral consciousness of the students.

**Redaksiyaya daxil olub: 13.02.2017**

# ЗНАЧЕНИЕ ОРГАНИЗАЦИИ ДОСУГА ДЛЯ ГАРМОНИЧНОГО РАЗВИТИЯ РЕБЕНКА

**Улкар Мирзалиева,**

E-mail: ulker.mirzaliyeva@gmail.com

**Рецензенты:** *док. наук по пед.* Г. Ахмедов
*док. наук по психол.* Э. Бейляров

***Ключевые слова***: *дети, досуг, образование, общество, счастье*
***Keywords:*** *children, leisure time education, society, happiness*
***Açar sözlər*****:** *uşaqlar, asudə vaxt, təhsil, cəmiyyət, xoşbəxtlik*

С самого раннего детства основой воспитания детей является организация их досуга. В раннем возрасте закладываются основы воспитания, и значит, развиваются основные личностные качества детей, которые отразятся не только на самой его жизни, частью которой будут получение образования, работа, создание семьи, но и отношение к самой жизни и к самому себе как к важной части общества и всего Человечества. Организация досуга это важное звено воспитания ребенка с раннего детства до окончания процесса образования, каким бы он длительным не был. Основная проблема, затрагиваемая в этой статье это необходимость и важность организации досуга у детей раннего и школьного возраста и возможные пути ее решения.

В современном обществе проблема досуга детей школьного возраста самая наиважнейшая, так как в этот период происходит интенсивное развитие и формирование личности. До школьного возраста досуг в основном проходит в детском саду, а в остальное время в форме досуга в рамках семьи, на улице или во дворе под присмотром родителей. В организации досуга детей в возрасте от начальной школы до 16 лет от родителей требуется особый подход и школа в этом в той или мере помогает. Ближе к окончанию школы время досуга это уже подготовка к самостоятельной жизни, т.е. дополнительные занятия для подготовки в ВУЗ, занятия спортом, иногда работа, чтобы подзаработать на карманные деньги, но часто и улица и все вытекающие из этого последствия. Конечно, во всех случаях возможны как удачные, так и неудачные результаты. Но меняет ли это в целом ситуацию в обществе? Становится ли общество в целом счастливее? Конечно, если судить об уровне общества по статистике роста социально-экономических условий, то всё может выглядеть вполне благополучно. Но если нас человеческая единица, интересует как основа общества, то, наверное, важнее всё-таки сам уровень жизни и счастья отдельно взятого человека. Конечно, процесс развития общества не останавливается и доказательством этому является развитие наук и технологий. Но непризнание важности благосостояния и счастья отдельного человека, подтверждается всеми теми проблемами, которые сотрясают современное общество: экономические проблемы, конфликты в обществе, стрессы, болезни, неудовлетворенность духовная и материальная. Так как всё начинается с человека как единицы общества, то для изменения и оздоровления общества нужно начинать с этой самой единицы - человека.

Организация досуга ребенка важный аспект не только воспитания ребенка, но и формирования его характера. Тому, что такое жизнь и тому, как жить, ребенок учиться в детстве, играя в детском саду, учась в школе, проводя свое свободное время с товарищами. По мнению А.С. Макаренко, «В детском возрасте игра - это норма, и ребенок должен всегда играть, даже когда делает серьезное дело …У ребенка есть страсть к игре, и надо ее удовлетворять. Надо не только дать ему время поиграть, но надо пропитать игрой всю его жизнь. Вся его жизнь – игра». Л.С. Выготский писал,

что «игра и есть естественное самовоспитание ребенка, упражнение для будущего». Д.Б. Эльконин отмечал, что: «Игра является моделью социальных отношений взрослых … Играя, ребенок познает самого себя и окружающий мир…» Так или иначе, организация досуговых форм упоминается еще в до государственный период. Правильно организованный и продуманный досуг детей решает не только проблему проведения детьми свободного времени для родителей, но и проблему внутри школьных отношений и отношения к самому процессу обучения и образования. Не так редко процесс обучения в школе превращается для некоторых детей в процесс противостояния ребенка с учителями и родителями. Ребенок отстаивает свое индивидуальное право выбора, данное ему от рождения, право на индивидуальное счастье. От того, как у ребенка сложится процесс отстаивания этого права, сформируется его характер и с этим он пойдет в самостоятельную жизнь, полностью позабыв, ради чего было это противостояние. Противостояние станет его характером, а счастье, к которому он стремился, останется только мечтой, потому что опыта переживания и пребывания в состоянии счастья не было, а продолжать учиться или искать его является уделом лишь самых настойчивых и сильных духом.

Дети разные, но если создать им необходимые условия для учебы и развития, они самоопределяются, а это есть выбор и основное условие пребывание в состоянии счастья. Счастье это состояние, которое должно быть с человеком, независимо от того проблемы и неудачи сопровождают его или успех, это событие жизни и как «камни на дороге», человек не должен быть несчастен, если «приходится идти даже по ухабистой дороге». Его задача оптимально и успешно « пройти по этой дороге».

Правильно организованный досуг ребенка обеспечивает не только полноценное развитие ребенка, а также делает и процесс обучения более гармоничным на любом этапе приобретения знаний, будь то теоретический, практический, или экспериментальный.

Когда ребенок полностью раскроется в творчестве, он проявит все свои возможности и сможет воспринять нужную для его продвижения вперед полезную информацию. В современной школе трудно достичь успеха в передаче информации, так как преобладают больше методы принуждения и навязывания в виде требований и указаний. Обучение и досуг, являющиеся составляющими частями реальной жизни ребенка, должны приносить ему чувство удовлетворения и счастья. Для достижения вышесказанного, можно целенаправленно организовывать досуг в форме внешкольных занятий, с учетом различных методов и форм организации досуга. Такие как игровые (игры, конкурсы, викторины), театрализации и импровизации (школьный театр), сотрудничества (соревновательные и коллективные в виде спортивных соревнований, совместных прогулок на природе, туристических походов), воспитывающих ситуаций (ролевые игры) и др., это будет служить также решению образовательных проблем в процессе обучения.

Досуг и его результат может быть успешен, если он проявится разумным сочетанием отдыха и труда. Труд делает человека человеком и без труда нет человека в полном понимании этого слова. Осознанный труд должен быть переживаем ребенком с детства. Дети просят и стремятся к этому с детства, главное - их правильно занять и направить. Продуманная с точки зрения возрастных, психологических, физических особенностей ребенка организация досуга разовьет в детях позитивное отношение к труду и обеспечит гармоничное пребывание в состоянии обучения.

По содержанию досуг можно подразделить на ряд групп. Основная цель этого подразделения создать основу планирования организованного досуга.

Первая группа связана с восстановлением сил ребенка и направлена на обеспечение физиологической нормы здоровья и работоспособности. Вторая связана с повышением эрудиции и ставит целью приобщение и усвоение культурных ценностей, познание нового, развитие исследовательских качеств. Третья группа связана с развитием

духовных сил и способностей, с активной творческой деятельностью, обеспечивая надежный фундамент для осознанного переживания счастья и удовлетворения каждую минуту жизни. Четвертая группа реализует потребность детей в общении и направлена на приобретение опыта и навыков в межличностной коммуникации, которые помогут в дальнейшем правильно и успешно строить отношения в семье, на работе и со своими детьми. Пятая группа связана с целенаправленной творческой учёбой и применением детьми знаний на практике, гармонично сочетающими отдых и учёбу и которые базируются на свободе выбора занятий и степени активности и на поощрении творческой инициативы детей со стороны преподавателей.

Все эти методы и группы, которые находили и находят свое отражение в уже существующих способах организации досуга, нуждаются также в пересмотре и обновлении с учетом всех тех изменений, которые происходят в современном обществе, и всех тех проблем, которые возникают перед современным человеком в частности.

Для решения этих задач могут быть созданы как творческие мастерские (рисование, лепка, конструирование, радиотехника, астрономия), так и организованы школьные и внешкольные занятия (посещение музеев, театра, уроки на природе, организация выставок и инсталляций). Их основной целью будет учебно-творческая организация свободного времени, досуга детей от 3-х лет до 16.

Обучение в мастерских будет происходить в процессе творческой деятельности, на фоне обычной повседневной деятельности, делая развитие ребенка занимательным, увлекательным и гармоничным с точки зрения развития его личности, что позволит ему выступать в самых разнообразных социальных ролях и облегчит процесс адаптации в обществе.

На сегодняшний день мы имеем подчас в целом непродуманную до конца форму обучения - рутинную и необходимую, слабо мотивирующую детей, отбивающую у них вкус к знаниям уже со школы. Это вполне объяснимо, если признать, что в школе дети приучаются к противостоянию навязыванию информации, тем самым интуитивно отстаивая свою свободу выбора, данную им от рождения. Сама жизнь и Вселенная, в которой она зародилась, прекрасны. Человек является частью этой жизни и прекрасен, по сути, и смыслу творения. Каждый человек должен проявлять эту внутреннюю красоту. Задача школы и учителя помочь это сделать, направить, наставить, но не навязывать. Навязанный путь в процессе учёбы, теоретически даже самый верный, скорее всего, будет провоцировать раздражение, а затем может привести и к неосознанному протесту. И причина этого, прежде всего, кроется в отсутствии реализации права самостоятельного выбора, вызывающим чувства ущемления личности и дискомфорта в первичной социальной среде, какой является школа. Человек должен сам выбирать свой путь, иначе он не будет пребывать в состоянии счастья.

Продуманно спланированный и организованный, гармонично сочетающийся с занятиями в школе и повседневной деятельностью досуг будет способствовать гармоничному и успешному развитию счастливого ребенка. Пребывание в состоянии счастья и творчества должно стать основной целью не только организации досуга, но и всего процесса обучения ребенка.

**Актуальность статьи:** В современном мире, в период глобализации, интеграции, интенсивного развития технологий, роста потока информации пребывание в состоянии гармонии и счастья становиться наиболее актуальным. Ребенок не является обособленным и огражденным от всех процессов, происходящих в обществе уже с раннего детства. Решение проблемы гармоничного пребывания ребенка во всех этих процессах, сопровождающееся их благополучным и успешным развитием, способствующим раскрытию их творческого потенциала уже с раннего детства, позволит детям стать со временем здоровыми и успешными членами современного общества с ярко выраженными индивидуальными качествами, что в целом приведет к оздоровлению общества.

**Научная новизна:** В современном мире, где все меняется и развивается с большими скоростями, должны измениться и

формы и методы организации занятости детей, с учетом возрастных, психологических, особенностей детей и требований, предъявляемых повседневной реальностью. Ребёнок не должен лишиться детства в силу ускорения процессов в обществе, социальных, экономических, политических проблем сопровождающих развитие общества. Процесс развития и формирования личности ребенка должен происходить в процессе гармоничного пребывания ребенка в условиях современной реальности. В процессе творческого развития и труда ребенок, решая в процессе игры и общения, поставленные перед ним задачи, будет пребывать в процессе гармоничного и здорового развития.

**Практическая значимость:** Организация досуга детей не является новой проблемой и имеется большое количество исследовательского и практического материала для решения вопроса организации досуга. Практическая значимость данной работы пересмотреть взгляд на значение и форму организации досуга детей и подростков в свете проблем современного общества с целью общего оздоровления общества, которое будет способствовать решению многих морально-этических, социальных, экономических, экологических проблем.

## ЛИТЕРАТУРА

1. Шмаков С.А. Игры учащихся - феномен культуры. М.: Новая школа, 2004 (1994).
2. Литвинова С.Н. Организация досуга детей и подростков. Методическое пособие для педагогов системы дополнительного образования и для родителей.

**Ü.Mirzəliyeva**

## UŞAĞIN HARMONİK İNKİŞAFI ÜÇÜN ASUDƏ VAXTIN TƏŞKİLİNİN ƏHƏMİYYƏTİ

***XÜLASƏ***

Məqalə sağlam və xoşbəxt cəmiyyətinin yaradılması naminə uşaq və yeniyetmələrin asudə vaxtının təşkilində yeni yanaşmanın zəruriliyinə həsr olunub.

**U.Mirzaliyeva**

## HARMONIC CHILD FOR THE DEVELOPMENT OF THE IMPORTANCE OF LEISURE TIME

***SUMMARY***

The article is about importance of new way of organizing of leisure time of children and teenagers from early age for creating foundation of healthy and happy society.

**Redaksiyaya daxil olub: 02.02.2017**

# FİZİKA FƏNNİ ÜZRƏ SUMMATİV QİYMƏTLƏNDİRMƏ VƏ SƏRİŞTƏLİ YANAŞMA

**Əlişah Gərayev,**
*pedaqogika üzrə fəlsəfə doktoru, aparıcı elmi işçi, ARTİ*
E-mail: garayev47 @mail.ru

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* İ. İsmayılov,
*ped.ü.fəls.dok., dos.* İ. Cavadov

***Açar sözlər:*** *Səriştə, səriştəli yanaşma, səriştəlilik summativ qiymətləndirmə vasitələri; inteqrativ, pedaqoji səriştə*

***Ключевые слова:*** *компетенция, компетентностый подход, компетентностные средства суммативного оценивания, интегративность, педагогическая компетенция*

***Key words:*** *Competence, competent approach, competent approach of summative evaluation, integrative, pedagogical competence*

13 yanvar 2009–cu ildə Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Ümumi Təhsil Sistemində Qiymətləndirmə Konsepsiyası"nın təsdiq edilməsi haqqındakı qərarında fənlər üzrə məktəbdaxili qiymətləndirmənin mahiyyəti, məzmunu, qiymətləndirmə vasitələrinə verilən tələblər öz əksini tapmışdır. Bizim bu məqaləmizdə məqsədimiz ümumtəhsil məktəblərində tədris olunan fizika fənni üzrə məktəbdaxili qiymətləndirmənin aparılmasına dair metodiki tövsiyələrimizi müəllimlərə çatdırmaqdır.

Fizika kifayət qədər mürəkkəb və maraqlı fəndir. Müəllimdən şagirdləri ümumi təlim nəticələri əsasında bilik, bacarıqların qazanılmasına istiqamətləndirməkdə kifayət dərəcədə böyük pedaqoji ustalıq tələb olunur. Hər bir fənn müəllimi qiymətləndirməni təlimin hansı mərhələsində, hansı zaman kəsiyində aparması üzərində düşünməklə yanaşı həmdə yoxlanılması nəzərdə tutulan şəxsiyyətyönlü, sosial, idraki, kommunikativ bacarıqları təsnif edərək hansı qiymətləndirmə növləri vasitəsilə yoxlamaq haqqında düzgün bir nəticəyə gəlməlidir.

Ümumtəhsil məktəblərində fizika fənninin tədrisi prosesində qiymətləndirmə standartlarını reallaşdırmaqla əlaqədar müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi qiymətləndirmə resurslarının düzgün müəyyənləşdirilməsinə kifayət dərəcədə təsiri vardır. Hazırlanmış qiymətləndirmə resurslarının elmi-metodiki səviyyəsinin məzmun standartlarının tələblərinə cavab verməsi şagirdlərdə müasir elmi dünyagörüşünün formalaşdırılmasında, həyati bacarıqların aşılanmasında, fiziki təfəkkürün inkişafında, müəllimlərin isə metodoloji mədəniyyətlərinin yüksəlməsində əhəmiyyəti az deyildir. Göstərilən bacarıqların formalaşdırılması çox ağır pedaqoji-psixoloji problemlərlə bağlı olsa da, qiymətləndirmə konsepsiyasının tələblərinə istinad edərək bu mürəkkəb prosesin düzgün qurulmasına xüsusi diqqətin yetirilməsi fizikanın tədrisi metodikasının mühüm problemlərindən biridir.

Göstərilən problemin fizika fənninin tədrisi prosesində şagirdlərdə səriştəliliyin inkişaf etdirilməsi, formalaşdırılması və qiymətləndirməsinin aparılması xüsusi metodiki yanaşmanı tələb edir.

"Səriştəli yanaşma" və "səriştəlik" anlayışlarının Azərbaycan təhsil sistemində işlədilməsi müəyyən tarixi dövrü əhatə edir. Məlum bir həqiqətdir ki, müasir insan üçün fənn bilikləri kifayətləndirici deyildir, onlara inteqrativ və universal bilik, bacarıqlarda lazımdır. Çünki, müasir dövrdə intellektual səviyyəli hər bir gənc aşağıdakı suallara:

"Mən nə istəyirəm", "Mən nəyi bacarıram", "Mən kiməm?" cavab verməlidir.

Təhsildə səriştəli yanaşma – yeni təlim metodlarından istifadəni və məktəbdaxili qiymətləndirmə ilə əlaqədar yeni yanaşmanı tələb

edir. Səriştəli yanaşma məktəbdaxili summativ qiymətləndirmə prosesi üçün daha məqsədəuyğundur.

Summativ qiymətləndirməyə aid tapşırıqların həllinin nəticəsinə görə şagirdlərin səriştəliliklərini iki istiqamətdə qruplaşdırmaq olar.

1. Mövcud həll üsulları əsasında tapşırıqları icra edən şagirdlərin səriştəlilik səviyyəsinə görə;
2. Tapşırıqları özünə məxsus yaradıcılıqla həll edən şagirdlərin səriştəlilik səviyyəsinə görə.

Birinci qrup şagirdlərin səriştəliliyi onların mövcud olanlara adaptasiya olma bacarığının inkişafından asılıdır. İkinci qrupun səriştəliliyi isə onların mövcud olanlardan kənara çıxmalarındadır. Yəni onlar müxtəlif problemləri görə, dərk edə və qiymətləndirə və sonda isə bunların onların gələcək həyatlarında inkişafetdirici əhəmiyyətini düzgün proqnozlaşdıra bilmələrindədir. Hər bir şagird təhsil standartlarının reallaşma səviyyəsini müxtəlif dərəcələrdə üzə çıxarılmasında qiymətləndirmə vasitələrinin nə kimi rolu olduğunu dərk etməlidir. Bu günkü şagird dərk etməlidir ki, onun bu səriştəliliyinin cəmiyyətin inkişafında hansı əhəmiyyəti ola bilər. Aparılan nəzəri araşdırmalar və məktəb təcrübəsi göstərir ki, bu günkü, səriştəlilik əsasən praktik fəaliyyətə görə müəyyən olunur. Empirik təfəkkür heç də nəzəri təfəkkürdən geri qalmır, eyni zamanda keyfiyyəti də bir qədər fərqlidir. Empirik təfəkkür mövcud olanlar əsasında yaranmış olur. Lakin bir həqiqəti də yaddan çıxarmaq olmaz ki, yüksək səriştəlilik qeyri-standart qiymətləndirmə vasitələrinin həlli zamanı üzə çıxır. Nəzəri təfəkkür qeyri-standart tapşırıqların həll olunmasına istiqamətlənərək yeni səriştələrin müəyyənləşməsinə imkan yaradır. Praktik təfəkkür isə fəaliyyət zamanı formalaşır. Onda əsas məqsəd mövcud olanları formalaşdırmaqla bərabər əlavə yeni bacarıqların inkişafına imkan yaratmaqdır. Əvvəldə qeyd etdiyimiz kimi səriştəlilik fəaliyyət prosesində görünür. Üzə çıxmayan səriştəliliyi "görmək" mümkün deyildir. Şagirdlərin səriştəliliyi qiymətləndirmə tapşırıqlarının həlli prosesində görünür. Ona görə də summativ qiymətləndirmə ilə bağlı seçilən tapşırıqlar üzərində müəllim çox ciddi düşünməlidir. Müəllim bilməlidir ki, hər hansı bir tapşırığın icrası şagirddə hansı səriştəliliyin inkişafına – formalaşmasına səbəb olacaq. Bu zaman fənn kurikulumunda göstərildiyi kimi fərdin, dövlətin, ictimaiyyətin tələbi, şagirdin isə marağı dairəsində tapşırıqlar seçilməlidir. Lakin onu da qeyd etmək istərdik ki, bizim gözlədiyimiz səriştəlilik hər bir şagirddə yarana bilməz. XXI əsrdə yaşayan və fəaliyyət göstərən hər bir şəxsdə fənlə bağlı səriştələrlə yanaşı şagirdlərin interaqtiv və analitik qabiliyyətlərinin inkişafına səbəb olan fəndən üstü pedaqoji yönümlü səriştəliklərin yaradılması da xüsusi aktuallıq kəsb edir.

İnteqrativ səriştələr müəyyən fənn blokları çərçivəsində olan səriştələrdir. Bu səriştələr əsas universal təlim bacarıqlarını; istiqamətverici, idraki, kommunikativ özündə birləşdirir. İnteqrativ bacarıqları şagird həm təhsil prosesində, həm də real həyati situasiyalarda tətbiq edə bilir.

Fizika fənni üzrə isə məktəbdaxili summativ qiymətləndirmə vasitələrinin hazırlanmasında ilkin anda şagirdlərin dəyişkən həyat şəraitində fəaliyyət göstərməsinə imkan yarada bilən əsas səriştəliyin (informasiyanın qəbulu, təhlili, proqnozlaşdırılması), yaranmasını sonra fənn blokları qovuşuğundan istifadə etməklə formalaşan inteqrativ səriştələr, sonda isə ümumi pedaqoji yönümlü xüsusi səriştələrin əlaqəsi nəzərə alınmalıdır. Onu da qeyd etmək münasib olar ki, fizika fənni kurikulumu üzrə nəticəyönlü standartların reallaşdırılmasında göstərilən şəkildə yanaşma üzrə metodikanın yaradılması xüsusi ilə bu gün və gələcək üçün çox əhəmiyyətlidir.

Məlumdur ki, şagirdlərin bilik və bacarıqlarının qiymətləndirilməsi təlim prosesinin mühüm tərkib hissələrindən biridir. Qiymətləndirmə təlimin keyfiyyəti haqqında əsaslı nəticə çıxarmağa imkan verir. Yeni qiymət müəllim ilə şagird arasında "Əks əlaqə" yaradır müəllim təlimin keyfiyyəti, şagird isə qazanılmış bilik, bacarıqlar haqqında informasiya əldə edir. Deyilənlər qiymətləndirmənin ənənəvi yanaşmasını əks etdirir. Təhsil islahatının əsasını təşkil edən nəticəyönlü məzmun standartları və kurikulumlar isə şagird nailiyyətlərinin qiymətləndirməsində səriştəli yanaşmanı xüsusilə aktuallaşdırır.

Heç də təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Ümumtəhsil sistemində qiymətləndirmə Konsepsiyasında (Bax. Azərbay-

can Respublikasının Ümumtəhsil sistemində qiymətləndirmə Konsepsiyası. Bakı. 2009) çox düzgün olaraq qeyd olunmuşdur ki, yekun (summativ) qiymətləndirmə, standart və standartlar qrupunda müəyyən edilmiş məqsədlərə şagirdlərin hansı səviyyədə nail olduqlarını aydınlaşdırır.

Yekun summativ qiymətləndirmə vasitələrinin köməyi ilə şagirdlərin bilmə, anlama, tətbiq etmə bacarıqlarını yoxlamaqla yanaşı, onların daha irəli getməyə, həyatda rast oluna bilən qeyri-standart problemləri həll etməyə lazım olan səriştəliklərinin mövcudluq səviyyəsi müəyyənləşdirilir. Araşdırmalar zamanı müəyyən etdik ki, yuxarıda qeyd olunan yanaşmaya müxtəlif tədqiqatçılar müəyyən münasibət bildirmişlər:

O.E.Lebedevə görə, "səriştəlilik - qeyri-müəyyən situasiyalarda fəaliyyət göstərmək qabiliyyətidir";

İ.S.Fişmana görə, "Səriştəlilik şagirdlər tərəfindən bilavasitə müəyyən sayda təlim nəticələrini mənimsənilməsini ifadə edən fəaliyyət qaydalarıdır";

Digər tədqiqatçılar İvanov D.A, Mitrofonov K.Q., Sokolov O.X. başqa bir mülahizəni "Səriştəlilik – insana müəyyən sayda problemləri həll etməyə, fəaliyyətlərinin nəticəsinin effektivliyini qiymətləndirməyə imkan verən bir xüsusiyyətdir".

Göründüyü kimi səriştəliyi bilik, bacarıq və vərdişlərlə qarşı-qarşıya qoymaq olmaz. Səriştəlilik anlayışı bilik, bacarıq və vərdiş anlayışlarında genişdir lakin o, bunları özündə birləşdirir.

A.V.Xutorskoy səriştəliliyə belə təyinat verir "İnsanın uyğun bir səriştəliliyə yiyələnməsi, ona şəxsi münasibəti əsasında fəaliyyət predmetinin qoşulması prosesində yaranır. Səriştəlilik özünə məxsusluqdur, yəni müəyyən bir problemin həllində hər bir şagirdin səriştəlilik dərəcəsi digərindən fərqlidir". Eyni zamanda səriştəlilik dərəcəsi şagirdin təlim metodları və texnologiyalarından hər hansı problemin həllində yaradıcılıqla istifadə edilməsi ilə də ölçülür. Səriştəli yanaşmada şagirdin düzgün aktiv fəaliyyəti həmişə ön planda gedir. Şagirdlərin səriştəliliyini qiymətləndirilmə prosesində daha asanlıqla müəyyən etmək olar. Səriştəliliyi asanlıqla qazanmaq summativ qiymətləndirmə vasitələrinin hazırlanmasında şagirdlərin fənn, inteqrativ və ümumi pedaqoji yönümlü bilik, bacarıqların nəzərə alınmasından asılıdır.

Səriştəliliyin qazanılması, inkişafı və formalaşdırılması qiymətləndirmə vasitələrinin həllində istifadə oluna bilən metodlardan da asılıdır. Təlimin informasiyalı, reseptiv və reproduktiv metodları şagirdlərin səriştəliliyinin formalaşmasını tam təmin etmir. Bu metodlar aktiv metodlardan istifadəni həyata keçirmək üçün baza rolunu oynayır. Ona görə də summativ qiymətləndirmə vasitələrini hazırladıqda bu metodlardan istifadəni aktiv metodların xeyrinə azaltmaq lazımdır. Hal-hazırda səriştəli yanaşma çərçivəsində müasir pedaqoji texnologiyalardan, təlim metodlarından və müxtəlif nəzarət növlərindən istifadə olunur. Aparılan nəzəri tədqiqatlarda fizikanın təlimində 20-yə yaxın səriştənin formalaşdırılması haqqında söhbət gedir. Biz ilkin anda bunlardan birinə üç səviyyəli fənn səriştəliliyinin formalaşdırılmasına diqqət yetirək. Fənn səriştəliliyi təhsil ilə əlaqədar olub aşağıdakı pilləliyi ehtiva edir.

- Həlledici əsas (açar), fənn üstlü inteqrativ və təhsilin ümumi, pedaqoji məzmununa aid səriştəliliklərdir.
- Fənyönlü – ayrı-ayrı fənlərin çərçivəsində formalaşdırıla bilən səriştələr.
- İnteqrativ səriştəlilik bir sıra fənlərin qovşuğu yönümündə olan səriştəlilikdir. (məs: təbiət fənləri, humanitar fənlər və s.)

Səriştəli təlim metodlarından müxtəlif tip: ümumtəhsil məktəblərində istifadə olunmasına baxmayaraq, bu sahəyə aid sistemli metodikalar işlənməmişdir. Belə ki, əvvəldə qeyd etdiyimiz kimi "səriştəlilik" və səriştə anlayışlarının açıqlanması müxtəlif şəkildə qeyd olunur. Lakin səriştəliliyin növləri haqqında dəqiq elmi araşdırmalar yoxdur. Çünki bu yanaşma çoxlu sayda faktorlardan asılıdır. Eyni zamanda səriştəliliyin formalaşdırılmasına lazımi zaman intervalı kifayət qədər geniş olmaqla insanın maraqları nəzərə alınmalıdır. Deyilənlərə əsaslanaraq məktəbdaxili summativ qiymətləndirmə vasitələrinin hazırlanması zamanı standartların tələbi, şagirdlərin maraqlarına diqqət yetirilərsə gözlənilən nəticəni almaq və formalaşdırmaq olar.

Aparılan nəzəri araşdırmaları və məktəb təcrübəsini ümumiləşdirərək belə bir fikir söyləmək olar ki, səriştə - bəzi daxili, potensial, gizli,

psixoloji (hər gün, hər an özünü göstərməyən) yeni törəmələr: bilik, təsəvvür, fəaliyyət, münasibətlər və dəyərlər sistemlidir. Summativ qiymətləndirmə vasitələrinin hazırlanmasında aşağıdakı:

1. Biliklərin aktuallaşdırılması, genişləndirilməsi, toplanmış biliklərin artımına imkan yaradan inteqrasiya səriştəliyi;

2. İdraki tapşırıqların qeyri-standart problemli tapşırıqların və həllinə imkan verən produktiv və reproduktiv idrak, tədqiqat, intellektual fəaliyyət metodlarından istifadə səriştəliliyi;

3. Oyun, təlim, əmək, planlaşdırma, layihələndirmə, proqnozlaşdırma, tədqiqatçılıq fəaliyyəti ilə əlaqədar fəaliyyət səriştəliliyi;

4. İnformasiyanın qəbulu, emalı, ötürülməsi, transformasiya edilməsi, kompüter savadlılığı ilə əlaqədar informasiya texnologiyaları səriştəliliyi. Aşağıdakı qiymətləndirmə vasitələri nümunəsinə diqqət etsək, deyilənləri asanlıqla görmək olar.

1. İdraki (təhlil, ümumiləşdirmə, planlaşdırma) səriştəliliyi.

Müəllim fizika dərsində suyu qızdırmaq üçün elektrik pilətəsindən istifadə etmək istədikdə qızdırıcı spiralın yandığını müəyyən etdi və bir qrup şagirdə belə bir tapşırıq verdi: Nümayiş stolunun üstündə lazımi materiallar və avadanlıqlar vardır. Siz praktiki olaraq nasazlığı aradan qaldırın və elə edin ki, elektrik pilətəsi əvvəlkinə nisbətən daha artıq istilik versin. Gördüyünüz işin nəticəsi haqqında qısa yazılı təqdimat hazırlayın.

2. İdraki informativ (təhlil, ümumiləşdirmə, səbəb-nəticə, planlaşdırma) səriştəliliyi.

Avtomobildə hərəkət edərkən yolda təmir işləri aparıldığını müşahidə edirsiniz. Sürücü avtomobilin hərəkətini bərabər sürətlə, yoxsa dəyişən sürətlə idarə etməlidir? Fikrinizi söyləyin.

1. Sosial, idraki, informativ səriştəlilik.

Benzin daşıyan avtomobilin çəninin tutumu bir dəfədə 4 ton ağ neftin daşınmasına imkan verir. Bu maşın vasitəsilə bir dəfəyə neçə ton su daşımaq olar?

$$\rho_{su} = 1000\ \frac{kq}{m^3};\ \rho_{ağ\ neft} = 800\ \frac{kq}{m^3}$$

Xüsusi yük avtomobili $5m^3$ həcmli çən vasitəsilə neçə kq bal apara bilər? Balın sıxlığını 1350 $\frac{kq}{m^3}$ qəbul etməli.

2. İdraki, sosial, informativ, inteqrativ səriştəlilik;

Abşeron rayonu Masazır kəndinin yaxınlığında olan 1 m $^2$ sahəsindən toplanan duzun həcmini hesablayın. Duzun sıxlığını $\rho_{duz} = 270\ \frac{q}{litr}$; sahəsini 10 km $^2$, dərinliyini h=0,2-3m qəbul etməli. Bu gölün duzunun ölkəmizin iqtisadi və insanların sağlamlığına təsirinə dair kiçik esse hazırlayın.

3. İdraki, sosial (təhlil, ümumiləşdirmə, eksperiment) səriştəlilik:

Soyuq rütubətli havada avtomobilin görmə şüşəsi əksər hallarda “tərləyir”, yolun görünməsi kiçik su damcılarının hesabına azalır. Belə vəziyyətdə şüşətəmizləyicidən istifadə etmək olarmı. Sürücü avtomobilin görmə şüşəsinin tərləməsini hansı fiziki hadisəyə istinad edərək aradan qaldıra bilər. Problemin həll üsullarını sadalayın.

4. İdraki, sosial, informativ, kommunikativ səriştələr:

Qış aylarında şaxtaların artması avtomobillərin hərəkətində müəyyən çətinliklər törədir. Yarana biləcək çətinliklərə qarşı sürücülər hansı qabaqlayıcı tədbirlər görməlidir. yol istismarı idarələri hansı hazırlıq işləri görməlidir.

Fikirlərinizin müqayisəli şəkildə qısa təqdimatını hazırlayın.

5. İdraki, informativ, kommunikativ və s. səriştələr:

M.Ə. Sabirin “Uşaq və buz” şerində hansı fiziki hadisələrə toxunulmuşdur? Fikrinizi qeyd edin.

6. İdraki, informativ səriştəlilik

Buz nə üçün suda üzür?

Aşağıdakı cavablardan hansılar doğrudur?

A) Suyun donarkən həcmini genişləndirdiyinə görə

B) Buza kənar qüvvələr təsir etdiyinə görə

C) Qaldırıcı qüvvənin ağırlıq qüvvəsindən böyük olduğuna görə

D) Buzun molekullarının suyunkuna nisbətən sıx yerləşdiyinə görə

E) Suyun səthində pərdə olduğuna görə

7. İdraki səriştəlilik və s.

Qravitasiya və elektrik qarşılıqlı təsirlərinin oxşar və fərqli cəhətlərini müqayisəli şəkildə nəql edin.

8. İdraki informativ və kommunikativ səriştəlilik;

İlin hansı fəslində nə məqsəd üçün tonqallar yandırırlar? Yazılı təqdimat hazırlayın.

9. Kommunikativ və informasiya səriştəliliyi;

Telekanalda və yaxud həyatda dəmir yolunda vaqonun idmançı (pəhlivan) və elektrovoz tərəfindən hərəkətə gətirildiyini müşahidə edirsiniz? Hər iki hal üçün vaqunun hərəkətinin əlamətlərini müqayisəli şəkildə şərh edin.

10. İdraki, informativ səriştəlilik;

Müəyyən hündürlükdən sərbəst düşən kürəciyin və dağdan diyirləndirilən daşın hərəkətlərinin oxşar və fərqli cəhətləri haqqında mülahizələrinizi söyləyin.

11. İdraki, informativ və s. səriştəlilik; Buzu, suyu, su buxarını əlamətlərinə, xassələrinə görə müqayisə edin.

Göründüyü kimi müəyyən pedaqoji texnologiyaları nəzərə almaqla fənn üzrə səriştəliliyi formalaşdırmaq üçün məktəbdaxili summativ qiymətləndirmə vasitələrindən istifadə etmək mümkündür. Summativ qiymətləndirmə vasitələrinin həllindən alınan nəticəni kəmiyyətcə qiymətləndirəndə bilik komponenti nəzərə alınır. Bu da fənn səriştəliliyin müəyyən edilməsində bir vasitədir.

Fizikadan summativ qiymətləndirmə vasitələri hazırladıqda səriştəli yanaşmanı necə, hansı formada, hansı vasitələrlə müəyyən edilməsi nəzərdə tutulmalıdır. Səriştəli yanaşmadan istifadə edən zaman hansı çətinliklərlə rastlaşmalar və onların aradan qaldırılması yolları, gəldiyimiz nəticələr haqqında fərziyyələr müəyyənləşdirilməli və bunlar gələcək qiymətləndirmə prosesində lazım olduqda nəzərdə tutulmalıdır.

Ənənəvi təhsil sistemində əsas məqsəd şagirdləri fənyönlü bilik, bacarıqlara yiyələndirmək idi, hal-hazırda isə müasir cəmiyyətin təhsil sisteminin tələbi şagirdlərdə müxtəlif səriştəlikləri inkişaf etdirmək və formalaşdırmaqdır. Göstərilən keyfiyyətlərə şagirdlərin yiyələnməsi onlarda özünütəhsil, müstəqil qərar çıxarmaq, komandada işləmək, yeni texnologiyanı görmək və ondan məqsədəuyğun istifadə etmək bacarıqları olmalıdır. Bu yanaşmaların formalaşdırılması müəllimdən müasir summativ qiymətləndirmə vasitələrinin həllində elmi metodlarında tətbiq olunmasını tələb edir. Bunlardan istifadə şagirdlərdə kommunikativ, idraki, yaradıcı, konstruktiv bacarıqları inkişaf etdirir. Eyni zamanda fizika fənni üzrə qiymətləndirmə vasitələrinin hazırlanmasında məqsədəuyğun olaraq səriştəliliyin inkişafına və formalaşdırılmasına səbəb olan didaktik tələblərin də gözlənilməsinə diqqət yetirmək lazımdır.

- Tapşırığın cavabını mənaca dəqiq ifadə etməsi;
- Məsələnin məlum olmayan üsulla həll olunması;
- Ümumi tapşırığın həllində şagird-şagird, şagird-müəllim münasibətinin izlənilməsi;
- Tapşırığın icrası ilə öz fəaliyyətinə dəyər verməsi;
- İnformasiyalarla işləmək bacarığı.

Göründüyü kimi qiymətləndirmədə bilik-bacarıq, fəaliyyət, səriştəlilik meydana çıxan problemli situasiyanın həllində öz aktuallığını büruzə verir.

Qiymətləndirmə vasitələrinin həlli isə tədris prosesində istifadə olunan təlimin formaları, üsulları, qaydaları, fəaliyyətlər, tərbiyəedici vasitələr, fənn üzrə səriştəliliklər haqqında fikir söyləməyə imkan verir.

Qiymətləndirmə vasitələrinin məzmunu şagirdlərin fizika elminə qarşı marağını artırmaqla imkan və onun müasir həyatdakı rolunu dərk etmiş olsunlar.

Fizika fənni üzrə səriştəliliyinin yoxlanmasında aşağıdakı təlim tapşırıqlarının həllinə şagirdlərin nə dərəcədə diqqət yetirmələri nəzərdən qaçmamalıdır.

- Problemli təlim tapşırıqları;
- İnkişafetdirici təlim tapşırıqları;
- Empirik və nəzəri təfəkkürü inkişafına səbəb olan tapşırıqların həlli.

Problemli tapşırıqların məsələlərin, çalışmaların həllindən şagird yeni biliklər qazanır, müstəqil olaraq fiziki qanunu, qanunauyğunluğu müəyyənləşdirir, hadisəni izah edir, nəticəni riyazi, qrafik şəkildə təsvir edir, inkişafetdirici tapşırıqların həllindən yaradıcılıq, empirikdən praktik, nəzəri tapşırıqlardan isə proqnozlaşdırma, modelləşdirmə, fərziyyə irəli sürmə və s. səriştəlilikləri müəyyən etmək olar.

Həlli axtarılan istənilən tapşırıq, problemli ola bilməz. Summativ qiymətləndirmə prosesində təqdim olunmuş məsələ şagirdlər tərəfin-

dən həll edə bilinmirsə ona da problemli situativ tapşırıq demək olmaz.

Məsələn: VIII sinif. "Molekulların, istilik hərəkəti, daxili enerji" tədris vahidindən sonra kiçik summativ qiymətləndirmə vasitələrinə aşağıdakı məzmunda tapşırıqlar daxil etmək olar:

1. Temperatur nədir?
2. Temperaturu ölçmək üçün hansı cihazdan istifadə olunur?
3. Temperatur termometrik maddənin xassəsindən asılıdırmı?

Psixoloji – didaktik anlamda bu sualların birincisi və ikincisi deklorativ xarakterlidir, bunlar təfəkkürə yox, yaddaşa əsaslandığına görə problemli sual deyildir. 3-cü sual isə düşündürücü olduğundan həll üsulu şagirdə məlum olmadığına görə problemli sual ola bilir. Qiymətləndirmə vasitələrini o zaman problemli hesab etmək olar ki, onun həlli üçün yeni bilik və bacarıqlar lazım olsun. Şagirdlərin intellektual imkanlarına uyğun olsun (qismən – axtarıcılıq).

- Tapşırığın həllindən alınan nəticələri şagirdlər özlərinə məxsus "kəşf" kimi dəyərləndirsinlər (tədqiqatçılıq metodu)
- Şagird özü problem yarada bilər və onu köməklik olmadan həll edər (tədqiqatçılıq metodu).

Deyilənlərə əsasında aşağıdakı nəticə və təklifləri söyləmək olar:

- İnkişafetdirici təlimin funksiyasına uyğun qiymətləndirmə vasitələrinin hazırlanmasında axtarıcılığa, tədqiqatçılığa sövq edən tapşırıqlardan istifadə şagirdlərin yaradıcı təfəkkürünü formalaşdırır. Bu tələb əsasında hazırlanmış summativ qiymətləndirmə vasitələrini həll etməyə şagirdlərdə maraq artır, nəzərdə tutulmuş hadisəni, qanunu, qanunauyğunluğu dərindən dərk etməklə fəaliyyətləri güclənir. Təlimin inkişafetdirici xüsusiyyətini yoxlamaq və formalaşma səviyyəsinin müəyyənləşdirilməsi ilə əlaqədar seçilmiş yaxud hazırlanmış summativ qiymətləndirilmə tapşırıqlarının məzmununda həyati bacarıqların formalaşdırılması ilə bağlı məsələlər xüsusi diqqətdən kənarda qalmamalıdır.
- Ümumi təhsilin VI-IX sinifləri əhatə edən səviyyəsində fizika fənninin tədrisində VI-VIII siniflərə nisbətən VIII-IX siniflərdə empirik təfəkkürə nisbətən şagirdlərin nəzəri təfəkkürünün inkişafı müəyyən dərəcədə artırılmalıdır. Onlara maddi dünyanın cisim və hadisələrini, mücərrəd anlayışları nəzəri şəkildə ifadə etməyə alışırlar. Təlim prosesi mücərrəd təfəkkürün inkişafına yönəldiyindən, summativ qiymətləndirmə vasitələri də həmin təfəkkürün formalaşmasına xidmət göstərməlidir.
- Qiymətləndirmə prosesində fənnin hər hansı anlayışının dəyəri haqqında əsaslı fikir yürütmək üçün onun formalaşdırılma prosesini spiralvari hərəkətdə olduğu kimi mərkəzdən kənara doğru inkişafın izlənilməsi xüsusi əhəmiyyət kəsb edir. Hazırlanmış qiymətləndirmə vəsaitinin nüvəsində dəyərləndiriləcək anlayışın ümumi – mücərrəd modeli kənara doğru getdikcə nəzəri təfəkkürə çevrilir. Dəyərləndiriləcək işin həcmi və keyfiyyəti şagirdlərin subyektiv imkanlarına uyğun həyata keçirilir.
- Qiymətləndirmə vasitələri problematik məzmunda o şəkildə tərtib olunmalıdır ki, onların həlli şagirdləri məqsədəuyğun fəaliyyətə cəlb etmiş olsun. Tapşırıqların icrasından alınan nəticələr onlarda "yeni" nəzəri təfəkkürün formalaşması həqiqətin "kəşf" olunması kimi elmi axtarışların iştirakçısı olmaqla fizikanın öyrənilməsinə qarşı maraq və meylləri artsın.
- Vasitələrin tərtibində informativ səriştəlilik kompüterdən istifadə etməklə hesablama aparmaq, alınan nəticəni qrafik təsvir etmək, sorğu ədəbiyyatından istifadə etməni tələb etmək onlarda məlumatlılıq – kommunikativ səriştələrin formalaşma səviyyəsi haqqında fikir söyləməyə imkan yaranır.
- Ümumi təhsil səviyyəsində səriştəlilik təlim-tərbiyə prosesində şagirdyönlü, şəxsiyyətyönlü, idraki istiqamətli, kommunikativ yönümlü universal bacarıqlara, fəndənkənar biliklərə, tətbiqi xarakterli yanaşmalara yiyələnməyə imkan verir.
- Qiymətləndirmə prosesində inkişafetdiricilik, qismən – axtarıcılıq, tədqiqatçılıq, informatik xarakterli şagird fəaliyyətlərinin qurulması hesabına şəxsiyyətyönlülüyün izlənilməsi həmişə labüddür.
- Fəndənkənar və yaxud fənn üstü interqrativ anlayışların – səriştələrin qiymətləndirilməsi ilə bağlı təhsil nəzəriyyəsində gedən müzakirələr göstərilən səriştələrin ölçülməsinin aparılmasının çətinliyi ilə əlaqədardır. Bizim fikrimizcə fənn üstü anlayışların (Vətən, sevgi, vicdan, hansı ki şəxsiyyətin mənəvi inkişafı ilə

bağlıdır) qiymətləndirilməsini kəmiyyətcə aparmaq mümkün deyildir. Aparılan araşdırmalar göstərilən anlayışların keyfiyyətcə formalaşdırılmasının qiymətləndirmə göstəricilərini aşağıdakı kimi təqdim etmək mümkündür.

- Mənəvi mədəniyyətin formalaşma səviyyəsi;
- Vətəndaşlıq məsuliyyətinin inkişafı səviyyəsi;
- Vətənpərvərlik hissinin inkişaf səviyyəsi;
- Dözümlülüyün formalaşdırılma səviyyəsi.

Dözümlülüyün formalaşdırılma səviyyəsini aşağıdakı şəkildə ifadə etmək olar.

1. Tədqiqatçılıq səriştələri;
2. Nitq səriştəliyi;
3. Düşünmək səriştəliliyi (fikir eksperimenti);
4. Ümumi mədəniyyət səriştəliyi.

Fikrimizi yekunlaşdıraraq deyə bilərik ki, səriştəliliyin gözlənilməsi summativ qiymətləndirmə vasitələrinin hazırlanmasında məktəbdaxili qiymətləndirmənin metodiki problemlərindən biri və başlıcasıdır.

**Problemin aktuallığı**. "Səriştəli yanaşma" və "Səriştəlilik" anlayışlarına münasibət bildirilərək, fizika fənni üzrə summativ qiymətləndirmə zamanı səriştəli yanaşmanın metodikası işlənmşdir.

**Problemin elmi yeniliyi və praktik əhəmiyyəti.** Səriştəliliyi gözləməklə summativ qiymətləndirmə vasitələrinin hazırlanması üçün didaktik tələblər müəyyənləşdirilmiş və nümunələr verilmişdir.

## ƏDƏBİYYAT


1. Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikumlarının) təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 3 iyun 2010-cu il tarixli 103 № -li qərarı.
2. Azərbaycan Respublikasının Ümumi Təhsil sistemində Qiymətləndirmə Konsepsiyası. Bakı, 2009.
3. Тряпицина А.П. Компетентностный подход в педагогическом образовании – СПБ РГПУ им.А.И.Герцена, 2006.
4. Лебедев О.Ф. Компетентностный подход в образовании // Школьные технологии. 2004, № 5
5. Хуторской А.В. Ключевые компетенции и образовательные стандарты // Интернет - журнал «Эйдос» - 2002.
6. Мединцева И.П. Компетентностный подход в образовании. (текст) // Педагогическое мастерство: Материалы II Науч.Конф. М., 2012, декабр


**А.Гераев**

## КОМПЕТЕНТНОСТНЫЙ ПОДХОД И СУММАТИВНОЕ ОЦЕНИВАНИЕ ПО ФИЗИКЕ


### *РЕЗЮМЕ*

В статье раскрыто понятие «компетентностый подход» «компетентность» и разработана методика компетентностного подхода в суммативном оценивании по физике. Одновременно разработаны дидактические требования компетентностно – ориентированных задач по физике и приведены примеры для учащихся VI и IX классов.


**A.Geraev**

## SUMMATIVE EVALUATION ON PHYSICS AND COMPETENT APPROACH


### *SUMMARY*

In the article commenting on the notions "Competent approach" and "Competence" the writer has worked out the methods of competent approach on physics during the summative evaluation. At the same time, in order to make the methods of summative evaluation on the base of competence some didactic requirements are defined and samples are given.


**Redaksiyaya daxil olub: 21.12.2016**

# İCTİMAİ FƏNLƏRİN TƏDRİSİNDƏ ANLAYIŞ XƏRİTƏLƏRİ VƏ MƏLUMAT XƏRİTƏLƏRİNDƏN İSTİFADƏ PRİORİTET İSTİQAMƏTLƏRDƏN BİRİ KİMİ

**Nərminə Məmmədova,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*ARTİ*
E-mail:nermine_m@mail.ru

**Rəyçilər:** *ped.ü.elm.dok., prof. İ.* Cəbrayılov,
*ped.ü.fəls.dok. L.N. Nağıyeva*

***Açar sözlər:*** *iki ölçülü vizual resurslar, ictimai fənlər, anlayış xəritələri, məlumat xəritələri, öyrənmə, öyrətmə, təhsil, məktəb, müəllim, şagird*

***Ключевые слова:*** *двумерные визуальные ресурсы, общественные дисциплины, концептуальные карты, информационные карты, изучение, обучение, образование, школа, учитель, ученик*

***Key words:*** *two measured visual resources, social subjects, concept map, message maps, the study, training, school, teacher, student*

Hazırda respublika təhsil sistemində müasir tədris avadanlıqları və resurslardan istifadənin təşkilinin yenidən qurulması prioritet istiqamətlərdən birini təşkil edir. Xüsusilə sön dövrlərdə ölkəmizdə təhsilin inkişafı üzrə qəbul edilmiş bütün dövlət sənədlərində ümumtəhsil məktəblərində fənlərin tədrisində müasir tədris avadanlıqları və resurslarının davamlı inkişafına yönəlmiş pedaqoji fəaliyyətə dəstək və müəllimlərin sistemli şəkildə pedaqoji-metodik maarifləndirilməsi məqsədi ilə təhsilin bütün pillələrində təhsil alanların təfəkkürü və şəxsiyyətinin inkişafına yönəlmiş, onların fərdi xüsusiyyətlərini nəzərə alan innovativ təlim metodologiyasının və müvafiq resursların hazırlanmasının təmin edilməsi bir vəzifə olaraq irəli sürülür (1, 2).

Digər tədris fənlərində olduğu kimi, ictimai fənlərin tədrisində də, tədris resurslarından, xüsusilə anlayış xəritələri və məlumat xəritələrindən istifadə təhsil alanların diqqətini çəkmə, fəallıq və motivasiyasının artırılması, məlumatın fərqli yollarla təqdim edilməsi, vizuallaşdırma, konkretləşdirmə və təşəbbüskarlığın artırılması kimi böyük faydaları təmin edir.

İctimai fənlərdə bir çox mürəkkəb mövzular vardır ki, təhsil alanlar tərəfindən çətin öyrənilir və tez unudulur. Digər tərəfdən, bu mövzuların öyrənilməsində ənənəvi metodlardan istifadə edilməsi təhsilalanların özlərini tam ifadə edə bilmələrinə də, maneə olur. Bu baxımdan ənənəvi metodlarla müqayisədə anlayış xəritələri və məlumat xəritələr metodundan istifadə təhsil alanların dərk edərək öyrənməsini təmin edəcək müasir və effektli bir resurs, eyni zamanda bir metoddur. Bu resursun tətbiqində rənglər və şəkillərdən istifadə edilməsi biliklərin həm asan mənimsənilməsinə, həm də əldə edilmiş biliklərin yadda daha yaxşı qalmasına kömək edir. Təhsil alanların fərdi yaradıcı imkanlarının üzə çıxarılmasına, problemləri (tapşırıqları) müstəqil həll etməyə təşviq edir. Əvvəldən qazanılmış biliklərdən istifadə edərək, onların üzərinə yenilərinin əlavə edilməsi, xüsusilə kompüterdən istifadə edərək hazırlanan, zehin yaradıcılığı və vizuallığı nümayiş etdirən anlayış xəritələri və məlumat xəritələri təhsil alanlara yaradıcı yanaşmanı təmin edən resurs olaraq, günümüzdə böyük əhəmiyyət kəsb etməkdədir. (3, 4, 5, 6, 7, 8)

Bu resurs vasitəsi ilə insanlar ta qədimdən indiyə qədər öz düşüncələrini müxtəlif formalarda ifadə etmişlər. Bu ifadə formalarından ən məşhur olanlarından biri, düşüncələrin şəkillər və simvollarla vizuallaşdırılmasıdır. Məsələn, qədim misirlilərə aid şəkli yazılar olan heroqliflər bunların ən konkret nümunələridir.

Anlayış xəritələri və məlumat xəritələri metodunun əsasını bir-birindən fərqli funksiyalara malik beynin iki hissəsinin eyni anda istifadə etmə mexanizmi təşkil edir. Belə ki, beynin sol qismi, analitik bacarıqlarla əlaqədardır. Məntiq, dil və ədədlər sol beynin fəaliyyətləridir. Beynin sağ qismi isə daha çox duyğu və yaradıcılıqla əlaqədar olan əlaqələri ehtiva edir.

Şəkillər və rənglər sağ beynin fəaliyyətləri arasındadır (9, 10, 11).

Tədqiqatçılara görə, təhsil alanlar açar sözlər, rəsmlər və qrafiklərdən istifadə edərək, beynin hər iki hissəsini eyni anda istifadə edərlərsə, dərsi daha asan mənimsəyər, əldə etdiyi biliyi yaddaşda daha yaxşı saxlayar və əməli olaraq tətbiq etməyi bacararlar. (5,8, 10,12).

İctimai fənlərin öyrənmə-öyrətmə prosesində istifadə edilən anlayış xəritələri və məlumat xəritələri fərdlərin düşünmələrinə və yeni bilikləri mənimsəmələrinə kömək edən, məlumatların yadda daha yaxşı qalmasını təmin edən tədris resurslarındandır. Ümumiyyətlə mərkəzi ideyadan çıxan rəsm və açar sözlərin sistemli bir forması olan bu resursda təhsil alanın beyin hüceyrələri arasındakı məlumat alış-verişini təmin etmək üçün, məlumatlar rəsmlərlə, simvollarla sxemləşdirilir və təsnif edilir (5,7, 8,11).

İki ölçülü vizual resurslardan olan anlayış xəritələri və məlumat xəritələrində istifadə edilən şəkillər və açar sözlər təhsil alanların beynində o şəkillə bağlı anlayışın və ya məlumatın xatırlanmasını, bu isə onlarla bağlı digər bilik və anlayışların xatırlanmasını təmin edir.

Anlayış xəritələri və məlumat xəritələri hazırlamaq üçün müxtəlif metodlardan istifadə oluna bilər. Bu tamamilə müəllimin və təhsil alanların yaradıcılığına bağlıdır. Burada əsas cəhət texnikanın məlum olmasıdır. Anlayış xəritələri və məlumat xəritələri strateji, məhdudlaşdırıcı olmayıb, sonradan əlavə və ya düzəlişlər edilə bilən bir resursdur.

*Anlayış xəritələri* (angl. concept maps). Bu metod (anlayış) Cozef Devid Novak (Joseph D.Novak) tərəfindən 1970-ci illərdə irəli sürülmüşdür. Novakın bu metodu nəzəri olaraq anlayışların öyrənilməməsində əvvəlki biliklərin əhəmiyyətini vurğulamış Devid Ausubelin idrak konsepsiyasına əsaslanır: Devid Ausubelin təlim konsepsiyasının əsasını "öyrənməyə təsir edən ən əhəmiyyətli amil təhsilalanın əvvəllər öyrəndiyi, artıq mövcud olan bilik ehtiyatıdır. Bu ortaya çıxarılmalı və ona görə təhsil planlaşmalıdır" ideyası təşkil edir.(8, 10,11)

Meydana çıxdığı andan elm sahəsində və təhsildə, xüsusən konstruktivizm adlandırılan təlim hərəkatında bir resurs, bir metod olaraq istifadə edilən anlayış xəritələri sonralar digər sahələrdə də, bir alət, metod kimi istifadə edilmiş və edilməkdədir.

Anlayış xəritələri eyni kateqoriyadan olan bu və ya digər anlayışlar arasındakı əlaqənin ümumidən xüsusiyə doğru vizual və konkret olaraq ifadə edildiyi iki ölçülü bir diaqramdır. Anlayış xəritələri məlumatın zehində konkret və vizual olaraq təsəvvür edilməsində, təhsil alanların səhvlərinin təsbit edilməsində, anlayışların mənalarının müzakirəsində istifadə edilə biləcək yaxşı bir tədris resursu, eyni zamanda təlim metodudur.

Təhsil alan hər hansı bir mövzusunu anlamaq üçün ilk növbədə o mövzudakı anlayışlar və bu anlayışlar arasındakı əlaqələri müəyyənləşdirilməlidir. Öyrənmə təhsil alanın öz səyi ilə meydana gəldiyindən, özü müstəqil olaraq anlayışları anlamalı və onlar arasındakı əlaqələri müəyyənləşdirməyi bacarmalıdır.

Anlayış xəritəsi hörümçək, zincir, balıq qılçığı və iyerarxik olmaqla 4 fərqli şəkildə yaradıla bilər.

*Hörümçək anlayış xəritəsi*-bir əsas anlayış və bu anlayışın xüsusiyyətlərini göstərmək üçün istifadə edilir.

*Zincir anlayış xəritəsi* proses və hadisələrin gedişi və bu gedişin əsaslandığı hadisələr arasındakı əlaqələri göstərmək üçün istifadə edilir.

*Balıq qılcığı anlayış xəritəsi* bir mövzu, bu mövzu ilə bağlı (əsas səbəblər və alt səbəblər) səbəb-nəticə əlaqəsinin qurulması, sistematik düşünməyi təmin edən, nəticə olaraq analitik bir yanaşma olan diaqramlardır.

*İyerarxik anlayış xəritəsi* əsas anlayış və alt anlayışları ümumidən xüsusiyə doğru yerləşdirmək üçün istifadə edilir. Bu anlayışlar arasında əlaqə əsas və alt anlayışlar arasındakı oxlarla təmin edilir.

Təhsil alanlar məktəbdə oxuduqları müddətdə anlayış xəritələri ilə işləməyi öyrəndikcə, anlayışları ayrı-ayrı, təcrid olunmuş halda düşünməkdən çox, onlar arasında əlaqələr quraraq, yaradıcı öyrənmə vərdişi qazanırlar. Yeni bir anlayış öyrəndikcə, onda anlayış xəritəsi hazırlamaq istəyi yaranır. Təhsil alanlar anlayış xəritələri hazırlamağa davam etdikcə, anlayışları təhlil edərək, birləşdirmə məsələsində qabiliyyətləri də, inkişaf edir (4, 8, 10, 11, 13).

*Anlayış xəritələrinin hazırlanması:*

**1**. İlk növbədə öyrədiləcək mövzunun anlayışları sıralanır. Anlayışlarla əlaqədar şərhə ehtiyac yoxdur;

**2.** Əşya və hadisələrin tək nümunələri, xüsusi adlar, qanunlar və anlayışlararası əlaqələr anlayış olmadıqları üçün bu siyahıya daxil edilmir;

**3.** Anlayışlar siyahısında ən ümumi və ya ən üst səviyyədə olan söz ayrı bir səhifənin başına yazılır. Bu bir anlayış ola biləcəyi kimi, bir mövzu da ola bilər. Bundan sonra öyrədilmək və öyrənilmək istənən müvafiq anlayışlar mərhələli bir nizamla səhifəyə yerləşdirilir. Şaquli istiqamətdə ümumi anlayış ən üstdə, bərabər ümumilikdəki anlayışlar eyni sətirdə, digərləri ümumilik dərəcələrinə görə azalan sırada səhifənin altına doğru ardıcıllıqla yazılır;

**4.** Anlayışlar - xəritədəki digər sözlərdən asan ayırd edilə bilinməsi üçün dairə içinə alınır;

**5**. Öyrədilmək və ya öyrənilmək istənilən anlayışlararası əlaqələr, ümumiləşdirmə və prinsiplər ayrıca ardıcıllıqla yazılır;

**6.** Anlayış xəritəsində iki anlayış arasındakı əlaqəni göstərmək üçün iki dairə bir xətt ilə birləşdirilir. Əlaqə bu xəttin üzərinə bir neçə sözdən ibarət ifadə ilə yazılır. Bu əlaqə xəritədəki anlayışlardan ən azı birini maraqlandıran bir mülahizədir. Bəzi hallarda əlaqənin istiqaməti əhəmiyyətli olduğu üçün ifadə ediləcək əlaqə istiqaməti ox ilə göstərilir. Əlaqələri ehtiva etməyən bir anlayış xəritəsi təlim prosesində kifayət qədər təsirli olmaz.

Bu mərhələlərdən sonra anlayış xəritəsi tamamlanmış olur. Ancaq bu müddət içərisində diqqət yetirilməsi lazım olan bəzi məqamlar da, vardır. Məsələn, xəritə daxilində anlayışlar buradan oraya, oradan buraya neçə gəldi atılmamalıdır; güclü əsası olmayan başlıqlar seçilməməlidir; başlıqlar seçilərkən axtarılacaq ən güclü səbəb təhsilalanların daha əvvəldən əldə etdiyi məlumatların davamı xüsusiyyətində olmasıdır. Dərsin müvafiq mərhələsində əvvəldən öyrənilmiş məlumatlarla yeni anlayışların əlaqələndirilməsi təmin edilməlidir.

Anlayış xəritəsi bir metod olaraq, təhsilin hər mərhələsində tətbiq oluna biləcək xüsusiyyət daşıyır. Anlayış xəritələri bir mövzu boyunca dəfələrlə müxtəlif mərhələlərdə: başlanğıc, inkişaf, şərh və qiymətləndirmədə istifadə edilə bilər. Anlayış xəritələri eyni zamanda, təhsil alanların mövzular arasında əlaqə qurmalarına köməkçi olan, modullar, ya da hissələr arasındakı keçiş vəzifəsini də yerinə yetirə bilər. Bir çox təhsil alan üçün anlayış xəritələri bir mövzu, ya da modulun təkrar edilməsində, yaxud imtahanlara hazırlanma zamanı istifadə edə biləcəkləri təbii bir metod ola bilər.

*Başlanğıc mərhələsində anlayış xəritəsinin istifadə edilməsi.* anlayış xəritəsi haqqında təhsil alanların əvvəldən məlumatları olarsa, b*aşlanğıc* mərhələsində öyrədənlərin bu resursdan istifadə etməsi ən uyğun metodlardan biridir. Bu mərhələdə anlayış xəritələrindən istifadə etməkdə məqsəd, təhsil alanların anlayış haqqında əvvəldən bir şeylər bilib, bilmədiklərini təyin etməkdir. Bu səbəbdən, təhsil alanlardan izah etdikləri mövzuya aid bir anlayış xəritəsi tərtib edilməsi istənə bilər. Bu addım sinifdəki təhsil alanlara ümumi yanlış anlamaları təyin edib, düzəltmək üçün bir fürsət verər.

Anlayış xəritəsi bir başlanğıc işində istifadə edilsə, daha sonrakı mərhələlərdə təhsil alanlardan eyni anlayışı yenidən xəritə şəklində hazırlanması istənə bilər. Bununla da, müəllimlər təhsil alanların öyrənmə səviyyələrinin inkişaf etdiyini vizual olaraq yoxlama imkanı əldə etmiş olurlar.

*Araşdırma mərhələsində anlayış xəritəsinin istifadəsi.* Bu mərhələdə anlayış xəritəsi təhsil alanların anlayış dəyişiklikləri haqqındakı fikirlərini nümayiş etdirmələrini təmin edir. Onlar mövzulardakı anlayışların yeni istiqamətlərini araşdırdıqca, bu bacarıqları inkişaf edir**.** Bu iş mərhələdə təhsil alanlara qismən tamamlanmış bir xəritə verib, anlayışı araşdırıb, öyrəndikcə bu xəritəni tamamlamalarını istənə bilər. Xüsusilə də, təhsil alanlar anlayış xəritəsi üsulunu yeni öyrənirsə, bu çox uyğun olar. Təhsil alanlar daha əvvəl anlayış xəritəsi istifadə etmişlərsə, eyni xəritəni yenidən istifadə edə bilər. Lakin, fərqli rəngdə qələmdən istifadə edərək, onu dəyişdirə bilərlər. Bu dəyişikliklər də, bir anlayışı araşdırdıqca təhsil alanların nə qədər çox yeni məlumat öyrəndiklərini aydınlaşdırmağa imkan verər.

*Şərh mərhələsində anlayış xəritəsindən istifadə.* Şərh mərhələsində bir anlayış xəritəsi etmək bu anlayışları təhsil alanların neçə dərk etdiklərini vizual olaraq ifadə etmələri baxımından münasibdir. Məsələn, təcrübi bir iş, ya da

müzakirə tamamlandıqdan sonra təhsil alanlardan öyrəndikləri anlayışların neçə mənimsənilməsini aydınlaşdırmaq üçün müvafiq anlayış xəritəsi çəkilmələri istənə bilər. Əgər anlayışlar çox çətin deyilsə, bunu özləri edə bilərlər. Bundan başqa onlara qismən tamamlanmış bir xəritə verib, gerisinin tamamlanması da, istənə bilər. Təhsil alanlar daha əvvəlki mərhələdə eyni anlayışın bir xəritəsini hazırlamışlarsa, onda bu ikisinin müqayisə edilməsi daha maraqlı olar.

*Təkmilləşdirmə mərhələsində anlayış xəritəsindən istifadəsi.* Bu mərhələdə təhsilalanların şərh hissəsində çəkmiş olduqları bir anlayış xəritəsini, eyni anlayış üçün yenidən istifadə etmələri, lakin fərqli rəngdəki qələmlərlə, inkişaf etdirmə işində öyrəndikləri istiqamətində əlavələr etmələrinə uyğundur.

Təkmilləşdirmə mərhələsindəki anlayış xəritəsi, çarpaz əlaqələr və yüksək səviyyədəki mülahizələr ilə əvvəlki mərhələdəkindən daha mürəkkəb olur. Eyni zamanda, qismən tamamlanmış bir xəritəni təhsil alanlara vermək, inkişaf etdirmək istənməsi hər hansı bir anlayış haqqında sinif ,ya da qrup müzakirəsini başlatmaq üçün də, münasibdir.

*Qiymətləndirmə mərhələsində anlayış xəritəsindən istifadə.* Anlayış xəritəsi bir çox qiymətləndirmə işlərində istifadəyə yararlı münasib bir metoddur. Təhsil alanların mənimsəmə səviyyələrinin müəyyənləşdirilməsində və çətinlik çəkdikləri anlayışların təyin edilməsində bir metod kimi böyük əhəmiyyətə malikdir. (3,6, 7, 8, 10, 11,12)

Təhsil alanların ilk dəfə çəkdiyi xəritələrə qiymət verilməməsi tövsiyə edilir. İlk çəkilmiş xəritələr təhsil alanların bir anlayışı nə qədər yaxşı anladıqları, ya da çətinlik çəkdikləri yerlərin müəyyən edilməsi işinə kömək etmiş olur. Təhsil alanların çətinlik çəkdiyi sahələri təyin etdikdən sonra, fərdi olaraq səhvlər müzakirə edilib, xəritəni yenidən çəkilməsi istənməlidir. Bu da, təhsil alanların anlayışları anlama və aralarındakı əlaqələri təhlil edə bilmələrini təmin etməyə imkan verir. Təhsil alanlar anlayış xəritəsi etməyə vərdiş etdikdən sonra artıq, onların etdikləri xəritələrə qiymət vermək olar. Bununla birlikdə, təhsil alanların xəritələrində təqdim etdikləri mülahizələrin bütünlüyü və xüsusiyyəti balla da, qiymətləndirilməlidir.

*Məlumat xəritələri (angl. message maps).* Məlumat xəritəsi, bir mətndəki əhəmiyyətli şifahi məlumatların və bu məlumatlar arasındakı əlaqələrin sxematik olaraq göstərilməsi formasıdır. İki ölçülü olaraq qurulmuş məlumat xəritələrinin hazırlama metodu müəllim tərəfindən təhsil alanlara öyrədilməlidir. Daha çox təhsil alanlar tərəfindən istifadə edilən bu metodun xüsusiyyətləri aşağıdakı kimi qruplaşdırılmışdır:

1. öyrəniləcək məlumatı vizuallaşdırır;
2. vizual quruluş ilk baxışda əhəmiyyətli miqdarda məlumat təqdim edir;
3. anlayışlar, alt anlayışların yanında tərif, digər əhəmiyyətli məlumatlar, xüsusiyyətlər və nümunələr bu xəritədə yer ala bilir;
4. bir çox istiqamətdən anlayış xəritəsindən fərqlidir;
6. xəritələr daha çox sxem şəklində yaradılır;
7. bəzi qaydalar istisna olmaqla, sərbəst hazırlana bilər.

Beləliklə, beynin sağ və sol hissələrinin birlikdə istifadə edilməsi prinsipinə əsaslanan zehin xəritələr, anlayış xəritələri və məlumat xəritələri aydın, məzmunla əlaqəli və eyni zamanda yaradıcı bir şəkildə hazırlanmalıdır.

Anlayış xəritələri və məlumat xəritələri hazırlanarkən istifadə ediləcək *ümumi qaydalar* vardır. Onları aşağıdakı kimi ümumiləşdirmək olar.

1. Mövzu. Böyük bir kağız (ağ A4) üzərinə mövzunun özünü təyin edən bir söz, ya da qısa bir cümlə yazmalı və ətrafına bir dairə çəkilməli;
2. Açar sözlər. Açar sözlər mövzu ilə əlaqədar ağla gələn ilk sözlərdir. Bu sözlər müvafiq düşüncələrin ortaya çıxarılıb, çəkilə bilməsini təmin edir;
3. Açar sözlərin böyük hərflə yazılması. Böyük hərflərlə yazmaq beyində daha çox vizual obraz meydana gətirir və əl yazısına görə daha asan xatırlanır.
4. Düşüncələrin ola bildiyincə az sözlə ifadə edilməsi;
5. Əlaqələrin qurulması. Mərkəzdən kənara doğru açar sözlər bir-birinə düz xətlərlə bağlanmalıdır. Bu sözləri birləşdirərək, bir düşüncənin digəri ilə əlaqəli olduğunu açıqca göstərilmiş olması düşüncələrin tam halında bir araya gətirilməsinə köməkçi olaraq, əlaqələrin

görünməsini təmin edir. Əgər lazım olarsa, müvafiq sözlər də, əlavə edilə bilər;

6. Qrafiklərdən istifadə edilməsi. Rənglər, şəkillər və simvollar əhəmiyyətli düşüncələrin vurğulanmasında istifadə olunur. Xəritə üzərində fərqli fikirlər, anlayışlar arasındakı əlaqələri göstərə bilir. Əsas məqamları göstərmək üçün rənglərdən istifadə edilə bilər.

7. Əsas məqamların vizuallara çevrilməsinin əsaslı şəkildə təmin edilməsi. Zehin hər hansı bir şeyi hafizədə necə canlandırırsa, kağız üzərində də, eyni təsviri, strukturu görmək olur. Bu səbəbdən zehin kağızda gördüyünü daha tez qəbul edir. Bu baxımdan, anlayış və məlumat xəritələri bir düşüncə məhsuludur.

8. Nəzərdən keçirilmə. Anlayış və məlumat xəritələri davamlı olaraq nəzərdən keçirilməli, təkmilləşdirməli, inkişaf etdirilməlidir (6, 7, 8, 9, 11, 12,13).

Lakin bəzən təhsil alanlar öz xəyal gücləri və yaradıcılıqları ilə çox fərqli və qeyri-adi xəritələr hazırlaya bilərlər. Bu cəhətdən anlayış xəritələri və məlumat xəritələri hazırlanarkən müəyyən qaydalara tabe olma məcburiyyəti yoxdur.

*Anlayış və məlumat xəritələri hazırlanarkən aşağıdakı xüsusiyyətlər diqqət mərkəzində saxlanmalıdır:*

- ilk olaraq xəritənin aid olduğu mövzu müəyyənləşdirilməlidir;
- mətn diqqətlə oxunmalı, ehtiyac duyulan hər bir məlumat toplanmalıdır;
- hansı sistemlə işlənəcəyi düşünülməli və seçilən kağız bu sistemə görə uyğun olmalıdır;
- rəngli qələm, fiqur, xətkeşdən köməkçi vasitə kimi istifadə olunmalıdır;
- kağızın mərkəzinə seçilən mövzunu simvollaşdıraraq iri, rəngli bir simvol və ya şəkil çəkməlidir;
- diqqət çəkici və yaddaşa köməkçi olsun deyə, mərkəzdəki obrazı təsvir edərkən ölçü, ifadə, böyüklük elementləri nəzərdə saxlanmalı və ən azı üç fərqli rəng mütləq istifadə edilməlidir;
- mərkəzdəki əsas dairədən kənara doğru uzanan qalın, rəngli, qıvrım xətlər çəkilməli və üzərinə mövzu haqqında məlum olan açar sözlər və əhəmiyyətli düşüncələr yazılmalıdır;
- köməkçi məlumatları göstərmək üçün əsas dairənin uclarından kənara daha incə yan xətlər çıxarmalı; mühüm göstəricilər mərkəzdəki obrazın və ya düşüncənin daha yaxınına yerləşdirilməlidir. Gözü yormamaq üçün, çıxarılan nazik xətlər qıvrımlar edilərək, gedilməlidir;
- hər sətirdə məlumatın və ya əlaqənin xatırlanmasını asanlaşdıran azı bir açar söz olmalıdır;
- əsas fikirlər, yan fikirlərə görə daha böyük yazılmalıdır;
- lazım gəlsə məlumat və ya anlayış, əlaqəli olduğu hər hansı başqa bir məlumat, ya da anlayışla rəngli rəsmlərlə əlaqələndirilməlidir. Bu əlaqələndirmələrdə əlaqə xətlərinin rəsmlərlə kəsişməməsinə diqqət edilməlidir;
- iki xətt arasındakı əlaqənin şəkil, obraz və ya rəsmlərlə ifadə edilməsi o əlaqənin xatırlanmasını asanlaşdıracaqdır;
- xəritələrin daha yaxşı anlaşılması üçün xüsusi rəng və rəsmlərdən sərbəst istifadə edilməlidir. Simvollardan istifadə sağ beyin üçün əhəmiyyət daşıyır;

Beləliklə, məzmunla bağlı hazırlanmış xəritədə əvvəlki məlumatlarla yeni məlumatlar arasında əlaqələr qurulmuş olur. Eyni zamanda tədris prosesində təhsil alanlara xoşladıqları, zövq aldıqları dərs mühiti təmin edir. (5, 7, 8, 9, 10, 11, 12, 13).

İki ölçülü vizual resurslar: anlayış xəritələri və məlumat xəritələri təhsil alanların zehinlərində qurduqları sxemlərin vizual bir ifadəsi olduğundan, yanlış başa düşmələrinin, səhvlərinin müəyyənləşdirilməsi işinə böyük töhfə verə bilər. Bunun üçün təhsil alanlarda anlayışları, məlumatları əlaqələndirərək öz xəritələrini yaratmaq bacarığı formalaşdırılmalı və bu bir vərdiş halına gətirilməlidir.

Dünyanın bir çox qabaqcıl ölkəsinin təhsil sistemində əsaslı yer tutan, tədris materialının izahatında, təkrarında, qiymətləndirməsində və digər oxşar sahədə istifadə edilən iki ölçülü vizual resurslar: anlayış xəritələri və məlumat xəritələrindən ölkəmizin təhsil sistemində təəssüf ki, hələ də, tam istifadə edilmir və çox tanınmır. Bu faydalı metodun istifadə mexanizminin yaradılması, eyni zamanda ölkəmizdə yayılması təhsilin keyfiyyətini artırmaq və onun inkişafını təmin etmək baxımından ən etibarlı bir resurs, metod ola bilər.

**Problemin aktuallığı.** Respublikamızda orta ümumtəhsil məktəblərində təhsilin keyfiyyətinin yüksəldilməsi, təhsil alanların fəallığının,

təşəbbüskarlığının, yaradıcılığının artırılmasında iki ölçülü vizual resurslar: anlayış xəritələri və məlumat xəritələrinin əhəmiyyəti böyükdür. Bu baxımdan iki ölçülü vizual resurslar: anlayış xəritələri və məlumat xəritələri ilə bağlı daha geniş məlumat verilməsi, müəllimlərin bu sahədə maarifləndirilməsi günümüzdə prioritet istiqamətlərdən biri kimi diqqəti cəlb edir.

**Problemin elmi yeniliyi:** Qabaqcıl ölkələrin təcrübəsi göstərir ki, keyfiyyətli təhsil xidmətlərinin təqdim olunmasında iki ölçülü vizual resurslar: zehin xəritələr, anlayış xəritələri və məlumat xəritələri çox güclü bir vasitədir. Təlim prosesinin daha səmərəli olması, təhsil alanların müstəqil, yaradıcı fəaliyyətə istiqamətləndirilməsində güclü bir vasitə olan iki ölçülü vizual resurslar: anlayış xəritələri və məlumat xəritələrindən müəllimələrin daha sistemli istifadə etməsi haqqında fikirlər irəli sürülmüşdür.

**Problemin praktik əhəmiyyəti**. Tədqiqatların nəticəsi göstərir ki, iki ölçülü vizual resurslar: anlayış xəritələri və məlumat xəritələri haqqında bilik və bacarığı olan müəllimlərin tədris prosesində onlardan istifadə etməsi dərsdə sıxıcılığı aradan qaldırır, onu daha zövqlü hala gətirir, təhsil alanların müvəffəqiyyətli olması işinə öz töhfəsini verir. Deyilənlər baxımından, iki ölçülü vizual resurslar: anlayış xəritələri və məlumat xəritələri bu istiqamətdə fənn müəllimlərinə kömək edəcəkdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası // Kurikulum, 2013, № 4
2. Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya haqqında". http,e-qanun az.
3. Məmmədova N.I., Humanitar fənlər üzrə tədris resurslarının məzmununa müasir yanaşma // ARTPİ-nin Elmi əsərləri, 2016, № 2
4. Cəbrayılov İ.H. Müasir təhsil: axtarışlar və perspektivlər. Bakı: Mütərcim, 2013.
5. Kan Ç. Etkili sosyal bilgiler öğretimi arayışı [The pursuit of effective instruction of social studies course]. Kastamonu Eğitim Dergisi. 2006.
6. Derelioğlu, Y. Hayat Bilgisi ve Sosyal Bilgiler Öğretimi Dersinde Akıl Haritasının Kullanımı / Eğitimde İyi Örnekler Konferans. İstanbul: 2005.
7. Kalaycı, N. İki Boyutlu Görsel Öğrenme ve Öğretme Araçları / Bolu: Ulusal Eğitim Bilimleri Kongresi. Abant İzzet Baysal Üniversitesi. 2001.Onlayn.istf.tarixi. 20.10.2016
8. Balım, A. G., Evrekli, E. ve Aydın, G. (2006). Zihin Xaritalama Tekniğinin Fen ve Teknoloji ÖğretimindekiYeri.
9. Brightman, J. Mapping Methods for Qualitative Data Structuring. London: IOE Conference. 2003.
10. Sevinç, E. Free Mind: Özgür Yazılım Dünyasından Zihin Özgürlestirme Hareketi. İstanbul: Bilgi Üniversitesi. EMBA Yazılım Gelistirme. 2005.
11. Buzan, T. Aklın Gücü. İstanbul: Epsilon Yayıncılık. 2003.
12. Gelb, M.J. Düsünmenin Tam Zamanı. İstanbul: Arion Yayınevi. 2002.
13. Mento, A.J., Martinelli, P. and Jones, R. Mind Mapping in Executive Education: Application and Outcomes. The Journal of Management Development. 1999.
14. Rabino, G. and Scarlatti, F. The Study of Percetion and Project of The Territory Using Brain Storming. Ersa 2003 Congress, Iyvaskyla: University of Iyvaskyla.


**Н.Мамедова**

## ИСПОЛЬЗОВАНИЕ КОНЦЕПТУАЛЬНЫХ И ИНФОРМАЦИОННЫХ КАРТ КАК ОДНО ИЗ ПРИОРИТЕТНЫХ НАПРАВЛЕНИЙ В ПРЕПОДАВАНИИ ОБЩЕСТВЕННЫХ ДИСЦИПЛИН


***РЕЗЮМЕ***

В отличие от традиционных средств обучения у двумерных визуальных ресурсов, концептуальных и информационных карт, есть много преимуществ. Данные ресурсы, охватывая и принимая во внимание индивидуальные различия учащихся, облегчают восприятие новой темы, помогают строить межличностные отношения, увеличивают силу памяти, и всё это способствует лучшему усвоению учебного материала. В связи с этим, использование двумерных визуальных

ресурсов необходимо для преподавателей общественных наук. В этой статье, принимаются во внимание нужды и потребности общества, обеспечивающие развитие образования с точки зрения содержания и сущности концептуальных и информационных карт. В заключение статьи отмечается, что при подготовке соответствующих предложений необходимо учесть некоторые моменты и вопросы, связанные с этими областями.

**N.Mammadova**

## USING OF CONCEPT AND INFORMATION MAPS AS ONE OF THE PRIORITY DIRECTIONS IN TEACHING SOCIAL SUBJECTS

***SUMMARY***

There are many advantages two-dimensional visual resources, concept and information maps in contrast to the traditional teaching: get into consideration every student's individual differences, help to easier understanding of new material, establishment of relation between thoughts, increases the power of remembrance, provide better remaining in the memory of teaching material. In this regard giving broad information to the social subject teachers on the two-dimensional visual resources, concept and information maps is increased teacher's awareness in this fields is considered as one of the priority directions of nowadays.

İn this article is emphasized importance of the contents of information maps and concept maps in order to ensure the development of student activity, effectiveness of training, quality of education. Here is stressed specifications that should be take into consideration during the preparation these maps and are given relevant proposals.

**Redaksiyaya daxil olub: 25.11.2016**

# ALİ MƏKTƏBDƏ İNGİLİS DİLİNİN ÖYRƏNİLMƏSİNDƏ MÜHÜM MƏSƏLƏ

**Firuzə Rzayeva,**
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Azərbaycan Dillər Universiteti*
E-mail: fira_350@mail.ru

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* A.N. Abbasov,
*ped.ü.fəls.dok.* L.A. Məmmədli

***Açar sözlər:*** *ali məktəb, ingilis dili, ingilis dilinin tədrisi, maraq, motiv, motivasiya, tələbat, səmərəlilik*

***Ключевые слова:*** *высшая школа, английский язык, преподавание английского языка, интерес, мотив, мотивация, потребность, эффективность*

***Keywords:*** *higher school, English language, English language teaching, interest, motive, motivation, need, efficiency*

Dünyada xalqlar, millətlər çoxdur. Onlar müxtəlif dillərdə danışır, yazıb oxuyurlar. İngilis dili həmin dillər arasında özünəməxsus rol oynayır və daha çox ərazini əhatə edir. "İngilis dili (ing. *English, English language*) - Hind-Avropa dillərinin german dillərinə aiddir. Doğma dil kimi 410 milyon insan daşıyıcısıdır. İkinci dil kimi 1 milyard insan danışır. BMT-nin altı rəsmi və işçi dilindən biridir. İngilislərin təbii dili, İngiltərənin, faktiki Böyük Britaniyanın, ABŞ (31 ştatının rəsmi dili), İrlandiyanın, Kanadanın və Maltanın iki rəsmi dilindən biri, Avstraliyanın, Yeni Zelandiyanın rəsmi dili. O, Asiya (məsələn, Hindistan, Pakistan və s.) və Afrikanın bəzi dövrlərində rəsmi dil kimi istifadə edilib" (1). Yüz milyonlarla insan bu dildə ünsiyyət bağlayır, diplomatik danışıqlarda, müxtəlif müqavilələrin (siyasi, iqtisadi, mədəniyyət və s.) ondan istifadə edirlər. İngilis dili beynəlxalq status qazanmışdır. Bu dilə yiyələnməklə bütün dünyanı dolaşmaq, müxtəlif xalqlar və millətlərlə ünsiyyətə girmək mümkündür.

Dünyanın bir çox ölkələrində orta məktəblərdə, liseylərdə, kollec və universitetlərdə ingilis dili keçilir, yaxud da təlim bu dildədir.

Azərbaycanda da ingilis dilinin öyrənilməsi diqqət mərkəzindədir. Demək olar ki, bütün təhsil müəssisələrində ingilis dili tədris olunur. Respublikamızda Azərbaycan Dillər Universiteti fəaliyyət göstərir ki, bu ali təhsil müəssisəsinin bir sıra əsas fakültələri ingilis dili müəllimi, ingilis dili üzrə tərcüməçilər hazırlayır.

Ümumtəhsil, orta ixtisas məktəblərinin, kolleclərin tədris planlarındakı əsas fənlərdən biri də ingilis dilidir. Ali təhsilin bakalavriat və magistratura pillələrində ingilis dili tədris olunur. Respublikamızda ingilis dili təmayüllü uşaq bağçaları və məktəblər (*British School* və s.) də mövcuddur.

Ölkəmizdə elmi tədqiqatla məşğul olmaq istəyənlər doktoranturaya qəbul zamanı ingilis dili imtahanı verirlər. Doktorluq minimum imtahanları zamanı da ingilis, alman, fransız dillərindən birindən imtahanda iştirak edirlər. Deyilənlər hazırki vaxtda ingilis dilinə yiyələnməyin vacibliyini gündəmə gətirir.

İngilis dilinin ümumtəhsil, ali və orta ixtisas məktəblərində, kolleclərdə səmərəli tədrisi xarici dilə yiyələnmədə yüksək nəticələrə səbəb olur. Lakin müsbət göstəricilərlə yanaşı xarici dillərin, o cümlədən ingilis dilinin tədrisində müəyyən qüsurlar da özünü göstərir. Bu, hər şeydən əvvəl xarici dilin tədrisində mükəmməl metodikanın olmamasından irəli gəlir. Sual olunur: xüsusi kurslara, fərdi məşğələlərə gedən şəxslər qısa müddətdə xarici dilə, o cümlədən ingilis dilinə yiyələnə bilirlər, bəs nə üçün orta məktəb, kollec və ali məktəb məzunlarının böyük əksəriyyəti ingilis dili üzrə dərslərdə olmalarına baxmayaraq bu dildə fikirlərini ifadə etməkdə, yazı yazmaqda, müsahibini başa düşməkdə çətinlik çəkirlər?

Qüsurlar bir sıra hallarda ingilis dili üzrə tədris proqramlarının, kurikulumlarının mükəmməl olmamasından, dərsliklərin lüzumsuz materiallarla yüklənməsindən irəli gəlir. Şagirdlərdə, tələbələrdə dilə marağın oyadılmaması, dərslə-

rin darıxdırıcı, cəlbedici olmaması və s. də bu sahədə əhəmiyyətli rol oynayır.

Ali məktəbdə (ilk növbədə ümumtəhsil məktəblərində) ingilis dilinin tədrisi zamanı ilk növbədə tələbələrdə (şagirdlərdə) dilə maraq olmalıdır. bu sahədə müəllimin məqsədyönlü fəaliyyəti lazımdır. Bu məsələni yuxarıda artıq qeyd etmişik. Maraq nədir? Nə üçün dil öyrənmədə o, mühüm rol oynayır? “Maraq hər hansı bir obyekti, yeni faktları və hadisələri daha dərin və dəqiq dərketmə meylindən doğur. Marağın yaranmasına əsas səbəb obyektiv gerçəklikdə mövcud olan həmin hadisələri, predmetləri və prosesləri dərketmə tələbatıdır. Maraq tələbat əsasında yaranır. Ancaq tələbatın ödənməsi üçün onun əsasında yaranan maraq özü-özlüyündə kifayət etmir. “Maraq gerçəkliyin predmet və hadisələrinə qarşı yaranan, fəal və emosional cəhətdən müsbət olan münasibətdir” (2, 83).

Bizi əhatə edən bütün yeni və naməlum olan və eyni zamanda, emosional baxımdan bizim üçün cəlbedici olan hər bir şey bizim maraq dairəmizi yaradır. Bütün bu təriflərdən çıxarılan yekun nəticə odur ki, maraq predmetyönlüdür və emosional xarakter daşıyır. Yəni sadəcə maraq mövcud ola bilməz, maraq hər hansı bir obyektə, məsələn kitaba, hər hansı bir fəaliyyətə ola bilər.

İkincisi, tələbələrdə ingilis dilinə maraq yaratmaq üçün zamanı təlim fəaliyyəti motivasiyası formalaşdırılmalıdır. Mövcud ədəbiyyatda motivasiya orqanizmi fəallığa sövq edən və onun istiqamətini müəyyənləşdirən amillərin sistemi kimi nəzərdən keçirilir. Təlim motivasiyası motivasiyanın xüsusi bir növü olub təlim fəaliyyətinin səmərəliliyini təmin edir. Təlim motivasiyanın formalaşması və inkişaf qanunauyğunluqları haqqındakı biliklər ingilis dilinin təlimi prosesində qarşıya çıxan bir sıra problemləri həll etməyə imkan verir.

Bəzi alimlər “təlim motivasiyası” anlayışının izahında tələbənin mövqeyini deyil, müəllimin mövqeyini əsas tuturaq yazırlar: “Təlim motivasiyası öyrənəni produktiv idraki fəaliyyətə və tədris materiallarının fəal şəkildə mənimsənilməsinə təhrik edən metod və vasitələrin məcmusudur” (3, 95). Təlim motivasiyasına bu cür yanaşma onun yaradılması üçün, hər şeydən əvvəl öyrənən və öyrədənin birgə fəaliyyətini labüdləşdirir. Belə olan təqdirdə isə, motivasiyanın yaradılması yollarının axtarışına ilk növbədə təlim prosesinin əsas subyektləri olan tələbə və müəllimə xas olan xüsusiyyətlərin sistemləşdirilməsi işindən başlamaq lazımdır.

Xarici dilin tədrisi zamanı təlim motivasiyasının yaradılması məqsədilə nəzərdə tutulması mütləq olan və bu prosesə birbaşa təsir edən bir sıra digər amillər də mövcuddur. Çünki “təlim motivasiyası müntəzəm olaraq dəyişən və nəticədə öz aralarında yeni münasibətlər sisteminə daxil olan bir sıra amillərdən yaranır” (4, 55). Bunlar metodik mənbələrdə əsasən sosial kontekst, öyrənənin şəxsiyyəti, linqvistik mühit və tədrisin şərtləri kimi konkretləşdirilir. Sonuncular, yəni tədrisin şərtləri öyrənənin fərdi xüsusiyyətlərinə, sosial və linqvistik mühitə uyğunlaşdırılmalıdır.

Təlim motivasiyasını təlimə qarşı müsbət münasibətin formalaşması və ya təlimə qarşı mənfi münasibətin zəifləməsi prosesi kimi məhdudlaşdırmaq düzgün olmazdı. Buraya həm də motivasiyanın məzmununun mürəkkəbləşməsi və məzmuna daha bitkin və formalaşmış, bəzən də bir-birinə əks mövqelərdə olan yeni münasibətlərin daxil olunması prosesləri aiddir.

A.K.Markova, L.K.Zolotix, T.A.Platonova və digərləri təlim motivasiyasının məzmununa aşağıdakı komponentləri daxil edir: təlimə olan tələbat; təlimin əhəmiyyəti; təlim motivləri; təlimə olan münasibət; emosiyalar, maraqlar, məqsədlər, üstünlüklər və s. (5; 6; 7).

İndi isə biz “təlim motivasiyası” anlayışına ingilis dili təlimim baxımından yanaşaq. Xarici dil üzrə təlim motivasiyasına daxil olan komponentlər hansılardır?

Bu istiqamətdə əsas tədqiqatlar R. Qardner tərəfindən aparılmışdır. Belə ki, müəllif xarici dil üzrə təlim motivasiyasına daxil olan komponentləri ümumiləşdirmək model halına salmış və bu modelə 4 kateqoriyanı daxil etmişdir: 1. Öyrənilən xarici dilin daşıyıcılarına qarşı olan münasibət. 2. Xarici dilin öyrənilməsi prosesinə olan münasibət. 3. Motivasiya indeksləri. 4. Ümumiləşmiş münasibətlər (8).

Birinci komponent öyrənilən xarici dildə danışan insanlara və onların aid olduqları cəmiyyətə olan münasibəti əhatə edir. İkinci komponent isə birbaşa tədris prosesi ilə bağlıdır. Buna əsasən tələbənin tədris prosesinin təşkilinə, müəllimə və onun metodlarına, tədris

vasitələrinə olan münasibəti daxildir. Üçüncü kateqoriyaya tələbənin dil öyrənmə motivləri, məqsədləri və cəhdləri aid edilir. Dördüncü qrupa isə xarici dilə olan ümumi maraqlar, uğura, müvəffəqiyyətə olan tələbat və s. aiddir.

*Üçüncüsü,* təhsilalanlarda ingilis dilini öyrənməyə tələbat yaradılmalıdır. Professorlar Ə.S. Bayramov və Ə.Ə. Əlizadənin fikrincə, "Tələbatlar insanın konkret həyat şəraitindən asılılığını ifadə edən və onun bu şəraitdə aktivliyini şərtləndirilən özünəməxsus psixi halətdir (9, 116-117). Şəxsiyyətin fəallığının mənbəyini tələbatlar təşkil edir. Tələbat insanı fəaliyyətə təhrik edir. Lakin fəaliyyətin məzmunu bilavasitə tələbatla deyil, fəaliyyətin məqsədi ilə şərtlənir. şəxsiyyətin tələbatları ilə onun fəaliyyətinin məqsədi arasında əlaqə psixoloji aspektdə motivlər vasitəsi ilə yaranır" (9 , 121).

*Dördüncüsu*. İstər-istəməz motivlərə münasibət bildirməliyik. Professorlar Ə.S.Bayramov və Ə.Ə.Əlizadə "Psixologiya" dərsliyində yazırlar: "Motiv dedikdə, tələbatların təmin olunması ilə əlaqədar olaraq insanı fəaliyyətə təhrik edən amillər nəzərdə tutulur" (9, 121).

Keyfiyyətinə görə motivlər məzmun xarakterli və dinamik motivlərə bölünür. Məzmun xarakterli motivlər təlim fəaliyyətinin məzmunu ilə, dinamik motivlər isə tələbənin psixoloji və fizioloji xüsusiyyətləri ilə əlaqədar olur. Fəaliyyətə olan münasibətə görə motivlər xarici və daxili olaraq iki yerə bölünür.

Beşincisi, biz müvəffəqiyyət motivini diqqət mərkəzinə gətirmək istərdik Müvəffəqiyyət motivi yüksək nəticələrin əldə olunmasına hesablanmış cəhdlər şəklində realizə olan müvəffəqiyyət motivinə Hekhausen belə tərif verir: "Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün icra olunan fəaliyyət zamanı subyektin daha fəal və çalışqan, daha səylə hərəkət etməsi və bu cür yüksək fəallıq səciyyəsini saxlamaq cəhdidir" (10, 284).

Müvəffəqiyyət motivinin məzmununda iki komponent mövcuddur. Bunlar müvəffəqiyyətsizlik qorxusu və müvəffəqiyyət qazanmaq ümidi, uğur əldə etmək arzusudur. Bu iki komponent bir-birindən asılı olmayan, ancaq eyni bir vahid motivin nəticəsi kimi özünü büruzə verən komponentlərdir. Təlim fəaliyyətində müvəffəqiyyət motivinin intensiv təsir gücündən faydalanmaq üçün, müəllim dərsdə həmin motivin tələb etdiyi şəraiti yaratmalıdır. Əks təqdirdə motiv ancaq birinci, yəni davranışa təhrik etmə funksiyasını yerinə yetirməklə məhdudlaşacaq. Sonrakı mərhələdə davranışın icrası üçün müvafiq situasiya olmadığı üçün motivin intensiv güçü zəifləyəcək (11).

Xarici motivlərin təsiri altında icra olunan fəaliyyətlər bir çox hallarda onu icra edən şəxs üçün maraqsız olur. Bu cür fəaliyyətdə onu maraqlandıran və məhz buna görə də onu icraya vadar edən amil həmin fəaliyyətin nəticəsidir.

Daxili motivlər birbaşa tələbənin özü ilə bağlı olduğundan müəllim tələbənin şəxsi təcrübəsini, fəaliyyət kontekstini, tələbənin maraqlarını və meyillərini, emosiyalarını və hisslərini, dünyagörüşünü və kollektivdəki, qrupdakı statusunu nəzərə almalıdır.

Fəaliyyət motivlərinin prof. S.İ.Seyidov tərəfindən aparılmış təsnifatında digər bölgülər üçün səciyyəvi olmayan yeni bir istiqamətə rast gəlirik. Müəllif yazır: "Müəyyən şeylər, hadisələr, şərait, insanın müvafiq fəallığının mənbəyi kimi insan fəaliyyətinin motivinə çevrilir. Həmin mənbələr 3 əsas hissəyə bölünür: daxili, xarici, şəxsi" (12, 586).

Göründüyü kimi, professor təilm fəaliyyətinin bu cür motivlərinin bölgüsündə "şəxsi motivlər" adlandırdığı yeni bir istiqaməti müəyyənləşdirmişdir.

*Beşincisi.* Xarici dil fənninə xas olan digər vacib bir xüsusiyyət hazırda onun yalnız ünsiyyət vasitəsi kimi deyil, həm də mədəniyyətlərarası dialoq kontekstində tədrisidir. E.M. Vereşşaqın, V.Q. Kostomarov, Q.D.Tomaxin, S.F.Şatilov, E.T.Passov və başqalarının da qeyd etdiyi kimi, dil həm ünsiyyət vasitəsi, həm də əcnəbi mədəniyyətləri dərk etmə vasitəsidir. "Hər bir xalqın öz anlayışlar sistemi mövcuddur və bu da onun dilində təzahür edir. Ona görə də hər bir milli dil, o dildə danışan xalqın milli-mədəni xüsusiyyətlərini, dünyaya baxış tərzini, fərqli dünyagörüşünü əks etdirir" 86 (13, 30). Odur ki, xarici dil fənni tələbənin mürəkkəb sosio-mədəni mənada müstəqil davranması, müasir çoxmədəniyyətli dünyada düzgün istiqamət alması, əcnəbi mədəni mövqeləri və dəyərləri dərk etməsi, mədəni-tarixi subyekt kimi öz dəyərlər sisteminə sahib çıxmaq şərtilə yeni cəmiyyət, yeni sosial situasiyalara inteqrasiya olunması üçün əsas vasitədir.

Tələbələrdə xarici dil fənninə maraq yaratmaq, təlim prosesini onların motivləri əsasında təşkil etmək istəyən hər bir müəllim bu amili, yəni "tələbənin yeni cəmiyyətə, yeni sosial situasiyalara inteqrasiya olunmaq arzusunu, əcnəbi ideya və dəyərlərlə, müxtəlif mədəni üslublar və istiqamətlərlə tanışlıq arzusunun daim diqqət mərkəzində saxlamalı, dili və mədəniyyəti vəhdət şəklində tədris etməyi bacarmalıdır".

İngilis dilinin tədrisi üçün material seçərkən həmin materialın məzmununa mütləq şəkildə ingilis xalqının etnopsixoloji xüsusiyyətləri, əxlaqi dəyərlər sistemi, ümumbəşəri dəyərlər sistemindəki yeri, bədii inkişaf səviyyəsi, adət-ənənələrim realilər, nitq etiketi, rituallar, sosial simvollar, qeyri-verbal ünsiyyət davranışı ilə bağlı olan komponentlər daxil edilməlidir.

*Altıncısı,* ingilis dilinin tədrisi zamanı qeyri standart dərslərin imkanlarından istifadə etmək məqsədəuyğundur. Pedaqoji ədəbiyyatda qeyri-standart dərslərin aşağıdakı formalarının adları çəkilir: "inteqral dərslər: dialoq dərslər; yaradıcılıq dərsləri; müşahidə dərsləri; həqiqəti tapma dərsləri; dərslər ekskursiyalar; səyahət dərsləri; məsləhət dərsləri; dərslər-mətbuat konfransları; yarış dərsləri; möcüzələr aləmi dərsləri; kompüter dərsləri; səhnələşdirilmiş dərslər; dərslər seminarlar; mühazirə dərs; dərs-səyahət; şən və hazırcavablar dərsləri; məqbul dərsləri; fantaziya dərsləri; dərslər konsertlər və s.

Beləliklə, yuxarıda haqqında söz açdığımız məsələlərin nəzərə alınması ingilis dilinin öyrənilməsinə maraq yaradar, onun fəal işlədilməsini təmin edər.

**Problemin aktuallığı.** Məqalə yeni pedaqoji təfəkkür şəraitində ingilis dilinin beynəlxalq dil və ünsiyyət vasitəsi kimi öyrənilməsini, dilin təqdisinin optimallaşdırılmasını aktuallaşdırır.

**Problemin yeniliyi.** Ali məktəbdə ingilis dilinin öyrənilməsində nəzərə alınması vacib bilinən mühüm məsələlər üzərində dayanılır.

**Problemin praktik əhəmiyyəti.** İngilis dili müəllimlərinə öz fəaliyyətlərində kömək edəcəkdir.

## ƏDƏBİYYAT


1. https://az.wikipedia.org/wiki/İngilis_dili
2. Ивончик Г.Ф. Психологические условия формирования у работающей молодежи положительного отношения к учению: Дис. …канд.псих.наук. Киев, 1981.
3. Платонова Т.А. Экспериментальное исследование процесса порождения познавательной мотивации. Автореф. ... дис. канд.пед.наук. М., 1980.
4. Маркова А.К. Формирование мотивации учения в школьном возрасте. Пособие для учителей. М.: Просвещение, 1983.
5. Маркова А.К., Орлов А.Б., Фридман Jl.M. Мотивация учения и ее воспитание у школьников. М.: Педагогика, 1983.
6. Иванов В.Г. Основные положения теории интереса в свете проблемы отношений человека // Ученые записки. ЛГУ, вып.9, №214
7. Психологический словарь . М.: Педагогика, 1988.
8. Зимняя И.А. Педагогическая психология: Учебное пособие. Ростов н/Д.: Изд-во «Феникс», 1997.
9. Ə.S. Bayramov, Ə.Ə. Əlizadə. Psixologiya: Ali məktəblər üçün dərslik. Bakı, 2012.
10. Хуторской А. В. Практикум по дидактике и современным методикам обучения. СПб.: Питер, 2004.
11. Solmecke G. Motivation und Motivieren im Fremdsprachenunterricht. Paderbor
12. Seyidov S.İ., Həmzəyev M.Ə. Psixologiya (yaş və pedaqoji psixologiya məsələləri). Bakı: Nurlan, 2007, 700 s.
13. Томахин Г. Д. Реалии в языке и культуре // Иностранные языки в школе, 1997, № 5

**Ф.А.Рзаева**

## ВАЖНЫЕ ВОПРОСЫ ПРЕПОДАВАНИЯ АНГЛИЙСКОГО ЯЗЫКА В ВУЗЕ

***РЕЗЮМЕ***

В современном мире английский язык пользуется огромной популярностью, более того, этот язык является языком международного общения, его знают во всем мире. На сегодняшний день существует огромное множество методик для преподавания английского языка. Кроме того, регулярно разрабатываются новые, поэтому теперь каждый преподаватель может выбрать для себя оптимально подходящую методику работы. В настоящее время существует немало методик для изучения иностранного языка в высших учебных заведениях. Каждый из методов имеет определенные особенности, некоторые обладают большей популярностью и востребованностью, некоторые меньшей. В этой статье будут рассмотрены основные методики для изучения студентами английского языка.

**F.A.Rzayeva**

## THE MAIN ISSUES IN LEARNING THE ENGLISH LANGUAGE IN HIGHER SCHOOL

***SUMMARY***

Nowadays the English language has won popularity and became an international language. Useful teaching of English in primary, secondary and higher schools can get high results. Besides positive results we can also find mistakes in teaching process. First of all, it is followed by using unprofessional methodology. The question is: why people attending special courses, individual lessons are able to master the language for a short period but people studying in secondary schools and universities are not able to express their thoughts or understand their partners in English though they finish the whole course.

**Redaksiyaya daxil olub**: **02.02.2017**

# 10-11-Cİ SİNİFLƏRDƏ KİMYADAN PRAKTİK İŞLƏRİN TƏŞKİLİ VƏ APARILMASI METODİKASI

**Bəhruz Məmmədov,**

*Naxçıvan Dövlət Universitetinin dosenti*
E-mail:b.mammedov@mail.ru

**Rəyçilər:** *prof.* A. Əliyev,
*dos.* A. Məmmədova

***Açar sözlər:*** *praktik işlər, planlaşdırılması, təşkili, aparılması, eksperimental məsələlər.*
***Ключевые слова:*** *практические работы, планирование, организация, проведение, экспериментальные задачи.*
***Key words:*** *practical works, planning, organization, conducting, experimental tasks.*

Respublikamızın orta ümumtəhsil məktəblərinin 10-11-ci siniflərinin kimya proqramları və dərsliklərinin təhlili göstərir ki, şagirdlərdə zəruri bacarıq və vərdişlərin formalaşması üçün kimyadan praktik işlərin aparılmasına kifayət qədər məşğələ saatları ayrılmışdır. Şagirdlərin kimyadan öyrəndikləri nəzəriyyə və qanunları kimya eksperimentinin müxtəlif formalarından (nümayiş eksperimenti, laboratoriya təcrübələri, praktik işlər və s.) istifadə olunmaqla təsdiq etmələri üçün geniş imkanlar mövcuddur.

Məktəb kimya kursunda praktik iş, mövzuların öyrənilməsinin sonunda şagirdlərin biliyinin sistemləşdirilməsi və möhkəmləndiril-məsi, eksperimental bacarığın formalaşması və inkişaf et-dirilməsi məqsədilə aparılır. Praktik işlərin iki növü məlumdur: a) təlimatla aparılan; b) eksperimental məsələlər. Praktik işin təlimatı şagirdlərin fəaliyyətinin istiqamətləndirilməsi-nin əsasıdır. 10-cu sinfin mövcud proqramında aşağıdakı mövzular üzrə praktik məşğələlərin aparılması nəzərdə tutulmuşdur:

1. Karbon(IV) oksidin alınması və xassələrinin öyrənilməsi.
2. Üzvi birləşmələrdə karbon, hidrogen və xlorun təyini.
3. Etilenin alınması və onunla təcrübələr.

*Praktik iş. Üzvi birləşmələrdə karbon, hidrogen və xlorun təyini.*

*Məqsəd:*

*Şagird bilməli və bacarmalıdır:*

* laboratoriyada təhlükəsizlik texnikası qaydalarına əməl etmək;
* karbohidrogenlərin tərkibi və xassələrini;
* karbohidrogenlərin xlorlu törəmələrinin quruluşu və xassələrini;
* karbohidrogenin tərkibində karbonun olmasını təcrübədə təsdiq edən əlaməti;
* karbohidrogenin tərkibində hidrogenin olmasını təcrübədə təsdiq edən əlaməti;
* üzvi birləşmənin tərkibində xlorun olmasını təcrübədə təsdiq edən əlaməti;
* kimyəvi maddələr və qablardan təcrübələrin aparılmasında istifadə etmək;
* Təcrübələrdə istifadə olunan cihazları quraşdırmağı;
* praktik işin hesabatını cədvəl formasında hazırlamağı.

*Təchizat:* mis(II) oksid, mis(II) sulfat, vazelin, kalsium-hidroksid, mis məftil, xloroform, ştativ, sınaq şüşələri, qazaparan boru, rezin tıxaclar, spirt lampası, fenolftaleinin spirtdə məhlulu.

*Praktik işin təlimatı:*

1. Quru sınaq şüşəsinə 1q. CuO tozu və 0,2 q. vazelin töküb, üfüqi vəziyyətdə ştativə bərkidin.
2. Sınaq şüşəsinin çıxacağına bir qədər susuz mis(II) sulfat qoyun və qazaparan boru keçirilmiş tıxacla bağlayın.
3. Qazaparan borunun ucunu içərisində $Ca(OH)_2$ olan sınaq şüşəsinə salın və CuO və vazelin olan sınaq şüşəsini spirt lampası alovunda qızdırın.
4. Mis məftili spiral formasına salıb spirt lampasının alovunda qızdırın. Sonra onu içərisində xloroform olan sınaq şüşəsinə salıb yenidən qızdırın.
5. Müşahidələriniz əsasında işin hesabatını cədvəl formasında hazırlayın.

***Üzvi birləşmələrdə karbon, hidrogen və xlorun təyininə dair şagirdin hesabatı. Cədvəl 4.***

| Nə etdim? | Nə müşahidə olundu? | Reaksiya tənliyi və nəticə |
|---|---|---|
| 1. Quru sınaq şüşəsinə 1q. CuO tozu və 0,2 q. vazelin töküb, üfüqi vəziyyətdə ştativə bərkidirəm. Sınaq şüşəsinin çıxacağına bir qədər susuz $CuSO_4$ qoyub, qazaparan boru keçirilmiş tıxacla bağlayıram. Qaz-aparan borunun ucunu içərisində Ca $(OH)_2$ olan stəkana salıram. Sonra qarışıq olan sınaq şüşəsini qızdırıram. | Rəngsiz $CuSO_4$ mavi rəngə boyanır, $Ca(OH)_2$ məhlulu bulanır, sınaq şüşəsinin dibində sərbəst mis əmələ gəlir. | $C_nH_{2n+2}+(3n+1)CuO \xrightarrow{t} nCO_2 + (n+1)H_2O +$ $+ (3n+1)Cu$ <br> $C_{20}H_{42} + 61CuO \xrightarrow{t} 20CO_2 + 21H_2O + 61Cu$ <br> $CuSO_4 + 5H_2O \rightarrow CuSO_4 \cdot 5H_2O$ <br> $Ca(OH)_2 + CO_2 \rightarrow CaCO_3 \downarrow + H_2O$ <br> Susuz mis-2 sulfat suyu birləşdirərək kristal-hidrat əmələ gətirir. Suyun əmələ gəlməsi karbohidrogenin tərkibində hidrogenin olduğunu təsdiq edir. <br> $Ca(OH)_2$ məhlulunun bulanması karbon qazının əmələ gəldiyini və karbohidrogenin tərkibində karbonun olduğunu təsdiq edir. <br> Mis(II) oksid karbohidrogeni oksidləşdirir özü isə sərbəst misə reduksiya olunur. |
| 2. Mis məftili spiral formasına salıb spirt lampasının alovunda qızdırıram. Sonra onu içərisində xloroform olan qaba salıb yenidən qızdırıram. | Alov yaşıl rəngə boyanır. | $2Cu + O_2 \xrightarrow{t} 2CuO$ <br> $2CHCl_3 + 5CuO \xrightarrow{t} 3CuCl_2 + 2CO_2 + H_2O + 2Cu$ <br> Reaksiyada mis (II) xloridin əmələ gəlməsi üzvi birləşmənin tərkibində xlor olduğunu təsdiq edir. |

11-ci sinfin mövcud proqramında aşağıdakı mövzular üzrə praktik məşğələlərin aparılması nəzərdə tutulmuşdur:

1. Spirtdən brometanın alınması.
2. Karbon turşularının alınması və xassələri.
3. Üzvi maddələrin alınması və tanınmasına dair eksperimental məsələlərin həlli.
4. Liflərin ayırd edilməsi.

*Praktik iş. Karbon turşularının alınması və xassələri.*

*Məqsəd:*

*Şagird bilməli və bacarmalıdır:*

* laboratoriyada təhlükəsizlik texnikası qaydalarına əməl etmək;

* karbon turşularının quruluşunu izah etmək;

* karbon turşularını laboratoriyada almağı;

* üzvi turşuların qeyri-üzvi turşularla müqayisə edib nəticə çıxarmağı;

* karbon turşularının fiziki və kimyəvi xassələrini;

* praktik işin hesabatını cədvəl formasında hazırlamağı.

*Təchizat:* natrium-asetat, qatı sulfat turşusu, natrium-hidroksid, natrium-karbonat, maqnezium, sink, ştativ, sınaq şüşələri, qazaparan boru, rezin tıxaclar, spirt lampası,

*Praktik işin təlimatı:*

1. Sınaq şüşəsinə 1q. natrium-asetat və 3 ml qatı sulfat turşusu tökün.
2. Sınaq şüşəsinin çıxacağını qazaparan boru keçirilmiş tıxacla bağlayın.
3. Sınaq şüşəsini üfüqi vəziyyətdə ştativə bərkidin.
4. Qazaparan borunun ucunu quru sınaq şüşəsinə salın
5. Qarışığı spirt lampasının alovunda qızdırın.
6. Sınaq şüşəsinə natrium-hidroksid və 2 damcı fenolftalein tökün. Sonra həmin məhlula tədricən sirkə turşusu əlavə edin.
7. Sınaq şüşəsinə natrium-karbonat məhlulu töküb, üzərinə sirkə turşusu əlavə edin
8. İki sınaq şüşəsinin birinə sink, digərinə maqnezium salın. Sonra onların hər birinə eyni həcm-də sirkə turşusu tökün.

| Nə etdim? | Nə müşahidə olundu? | Reaksiya tənliyi və nəticə |
|---|---|---|
| 1. Sınaq şüşəsinə 1q. natrium-asetat töküb üzərinə 3 ml qatı sulfat turşusu əlavə etdim. Sınaq şüşəsinə qazaparan boru keçirilmiş tıxac taxıb üfüqi vəziyyətdə ştativə bərkitdim. Qaz-aparan borunun ucunu quru sınaq şüşəsinə salıb, qarışığı qızdırdım. | Maye halında sirkə turşusu alındı. | $CH_3COONa + H_2SO_4 \xrightarrow{t} CH_3COOH + Na_2SO_4$ Sulfat turşusu qüvvətli turşu olduğu üçün sirkə turşusunu duzundan çıxarır. |
| 2. Sınaq şüşəsinə natrium-hidroksid töküb üzərinə 2 damcı fenolftalein əlavə etdim. Sonra həmin məhlula tədricən sirkə turşusu tökdüm. | Məhlul əvvəlcə moruğu rəng alır, sonra rəngsizləşir. | $CH_3COOH + NaOH \rightarrow CH_3COONa + H_2O$ Turşu ilə əsas arasında neytrallaşma reaksiyası gedir. Fenolftalein qələvi mühitdə moruğu, neytral və turş mühitdə rəngsiz olur. |
| Sınaq şüşəsinə natrium-karbonat məhlulu töküb, üzərinə sirkə turşusu əlavə etdim. | Qaz ayrılır | $Na_2CO_3 + CH_3COOH \rightarrow 2CH_3COONa + CO_2\uparrow + H_2O$ Sirkə turşusu, zəif qeyri-üzvi turşuların duzları ilə qarşılıqlı təsirdə olur. |
| İki sınaq şüşəsinin birinə sink, digərinə maqnezium saldım. Hər iki sınaq şüşəsinə eyni həcmdə sirkə turşusu əlavə etdim. | Maqnezium metalı olan sınaq şüşəsində qazın ayrılması daha sürətlə gedir. | $Mg + 2CH_3COOH \rightarrow Mg(CH_3COO)_2 + + H_2\uparrow$ $Zn + 2CH_3COOH \rightarrow Zn(CH_3COO)_2 + + H_2\uparrow$ Maqnezium daha güclü reduksiya edici metaldır. |

9. Müşahidələriniz əsasında işin hesabatını cədvəl formasında hazırlayın.

Karbon turşularının alınması və xassələrinə dair şagirdin hesabatı. Cədvəl 5.

## ƏDƏBİYYAT


1. Abbasov M.M., Abbasov V.M., Abışov N.Ə., Əliyev V.S. Kimya: Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün dərslik. Bakı, 2014.

2. Abbasov M.M., Əliyev A.H. Kimya 10-cu sinif: Müəllim üçün metodik vəsait. Bakı, 2014.

3. Əliyeva R.Ə., Abbasov V.M., Məhərrəmov A.M., Abbasov M.M, Hacıyeva S.R. və. b. Kimya: Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün dərslik. Bakı, 2015.

4. Abbasov M.M., Əliyev A.H. Kimya. 8-ci sinif: M üəllim üçün metodik vəsait. Bakı, 2015.

5. Mustafa Ş., Lətifov İ. Kimya: Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün dərslik. Bakı, 2016.

6. Mustafa Ş., Lətifov İ. Kimya. 9-cu sinif: Müəllim üçün metodik vəsait. Bakı, 2016.

10. Abbasov V.M., Məhərrəmov A.M., Abbasov M.M. və b. Kimya: Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün dərslik. Bakı, 2005.

8. Abbasov V.M., Məhərrəmov A.M., Abbasov M.M. və b. Kimya: Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün dərslik. Bakı, 2007.

9. Золотников. Э.Г. Химический эксперимент в условиях развивающего обучения // Химия в школе, 2001, № 1

**Б. Мамедов**

## МЕТОДИКА ОРГАНИЗАЦИИ И ПРОВЕДЕНИЯ ПРАКТИЧЕСКИХ РАБОТ ПО ХИМИИ В 10-11 КЛАССАХ

***РЕЗЮМЕ***

В статье, на основании анализа действующих программ и учебников по химии 10-11 классов средней школы, рассмотрена методика организации и проведения практических работ. По конкретным темам дается методика практических работ, проводимые как по инструкции, так и в виде экспериментальных задач. Разработаны методические рекомендации по организации и проведения практических работ в курсах химии 10-11 классов, основываясь на реализации поэтапного формирования теоретических знаний. Это позволяет более эффективному развитию практических умений и навыков у учащихся. Установлено, что наряду с формированием умений и навыков в процессе практических занятий, углубляются и теоретические знания.

**B. Mammadov**

## METHODS OF ORGANIZING AND CONDUCTING THE PRACTICAL WORKS ON CHEMISTRY IN GRADES 10-11

***SUMMARY***

Based on an analysis of existing programs and textbooks on chemistry, 10-11 classes of secondary school, the methods of organization and conducting the practical work were reviewed in the article. Method of practical work carried out both on instruction and in the form of experimental tasks was given on specific topics. Methodical recommendations were worked out on the organization and carrying out practical work in chemistry courses of grades 10-11, based on the implementation of the gradual formation of theoretical knowledge. This allows more efficient development of practical skills and abilities in students. It is determined that the theoretical knowledge is deepened along with the formation of abilities and skills in the process of practical training.

**Redaksiyaya daxil olub: 13.01.2017**

# TƏSVİRİ İNCƏSƏNƏT DƏRSLƏRİNDƏ İNCƏSƏNƏTƏ DAİR DƏRS-SÖHBƏTLƏRDƏN İSTİFADƏ: MÖVCUD ƏDƏBİYYATIN TƏHLİLİ

**Emilya Həsənova,**

*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Gəncə Dövlət Universiteti*
E-mail: emilya-hesenova@bk.ru

**Rəyçilər**: *ped.ü.fəls.dok., dos.* Ç.A. Rüstəmov,
*ped.ü.fəls.dok.* L.A. Məmmədli

***Açar sözlər:*** *incəsənət, təsviri incəsənət, ədəbiyyat, ədəbiyyatın təhlili, dərs-söhbətlər*
***Ключевые слова:*** *искусство, изобразительное искусство, литература, анализ литературы, уроки-беседы*
***Keywords:*** *art, fine art, literature, analysis of the literature, lessons- conversation*

Təsviri incəsənət dərslərində incəsənətə dair dərs-söhbətlərdən istifadə probleminin hansı səviyyədə tədqiqatların obyekti olduğunu müəyyənləşdirmək üçün mövcud elmi-pedaqoji ədəbiyyatı nəzərdən keçirdik. S.A.Yerkovun pedaqoji elmlər namizədi elmi dərəcəsi almaq üçün müdafiə etdiyi "Orta ümumtəhsil məktəbinin 5-6-cı siniflərində təsviri incəsənət dərslərində təsviri incəsənət əsərlərinin bədii baxımdan qavranılmasının formalaşdırılması" adlı dissertasiyasının avtoreferatı ilə tanış olduq.

Müəllif öz əsərində ilk növbədə problemin psixoloji-pedaqoji əsaslarına aydınlıq gətirmişdir. Bu məqsədlə təsviri incəsənət əsərlərinin bədii baxımdan qavranılması və formalaşdırılmasının əsas keyfiyyətlərinin inkişafı probleminin üzərində dayanmış, daha sonra təsviri incəsənətin dil elementlərinin ifadə xüsusiyyətlərinin mənimsənilməsinə münasibət bildirmiş, 11-12 yaşlı şagirdlərdə təsviri incəsənət əsərlərinin bədii baxımdan qavranılmasının inkişaf etdirilməsinin metodoloji problemlərini və bədii qavramanın inkişafının meyarlarını işləmişdir. Daha sonra əsərdə eksperimentin nəticələrini əks etdirmişdir.

A.V.Filatovanın "Dərs-söhbətlər təsviri incəsənət dərsində təlim fəaliyyətinin növü kimi" məqaləsi diqqətimizi cəlb etdi. Müəllifin fikrincə, dərs-söhbətlərin böyük üstünlükləri vardır. Belə ki, söhbətlər uşaqların yaradıcı təxəyyülünü fəallaşdırır, onların nitqini və yaddaşını inkişaf etdirir, öz fikirlərini savadlı ifadə etməyi öyrədir. Dərs-söhbətlər zamanı problemli təlim uşaq təxəyyülünü inkişaf etdirir, yarış ruhu, tədqiqatçılıq ehtirası meydana gəlir. aparılmış söhbətlərdən sonra uşaqların çəkdikləri şəkillər faydalı olur. səhvlər az olur, informasiya mənimsənilir, və uzun müddət yadda qalır, fantaziya yeni güclə işləyir. Bundan başqa, yerli və əcnəbi rəssamların yaradıcılığını öyrənmək nəticəsində dərs-söhbətlər gizli tərbiyəvi məna daşıyır, incəsənətə maraq oyanır, gözəllik hissi, doğma təbiətə, Vətənə məhəbbət hissləri inkişaf edir

Dərs-söhbətlərin şagirdlərin yaş və psixoloji xüsusiyyətlərini nəzərə almaqla təşkil etmək son dərəcə vacibdir. Yalnız bu zaman səmərəli nəticələrə nail olunur. Söhbətin çox mühüm vəzifəsi uşaqlara təsviri incəsənətin dilini anlatmaqdan ibarətdir. Bu dilə yiyələnməklə uşaqlar bədii əsərləri, onların məzmununu, formasını, obraz zənginliyini, özünəməxsusluğunu yaradıcı lazımi səviyyədə qiymətləndirməyi bacarır (2).

O.B.Leontyevanın "Əsas məktəbdə söhbət korreksiya-inkişafetdirici təlim siniflərində tədrisin aparıcı metodlarından biri kimi" adlı məqaləsi də dissertasiyada nəzərdən keçirdiyimiz problemlə bilavasitə əlaqəlidir. Araşdırmalar nəticəsində müəllif müəyyən etmişdir ki:

1. Sorğuya cəlb olunanların böyük qismi (65 %) təlimə maraq göstərmir, təlim və idrak motivasiyası onlarda mövcud deyil.

2. Qeyri-sabit özünüqiymətləndirmə şagirdlərin yalnız 61, 2 %-nə xasdır: 38,7 %-nin özünüqiymətləndirmə səviyyəsi – aşağı; yalnız 22,5 %-nin özünüqiymətləndirmə səviyyəsi yüksəkdir.

3. Şagirdlərin böyük əksəriyyətinə dərslərdə aşağı səviyyəli narahatlıq səciyyəvi-

dir. Bu da onların təlim prosesinə laqeydliyi və marağın olmaması ilə izah edilir.

4. Təlim işində özünütəşkil bacarığı yalnız şagirdlərin 31 %-ində təşəkkül tapıb.

5. Şagirdlərin 62 %-i yeni materialın mənimsənilməsində çətinlik çəkir"(3).

O.B.Leontyevanın nöqteyi-nəzərincə, yuxarıdakı vəziyyəti aradan qaldırmaq üçün dərslərin təlimin əyani və praktik metodları ilə, yeni metodikalar əsasında aparılması, qeyri-standart dərslər, o cümlədən dərs-söhbətlərə müraciət olunmasını məsləhət bilir.

O.B.Leontyeva yazır: "Şagirdləri dərslərdə daim söhbətlərə cəlb etmək mühüm bacarıqlara aiddir ki, hər bir müəllim bu kimi bacarıqlara malik olmalıdırlar. Söhbət zamanı şagirdlərdə narahatlığın, təşvişin səviyyəsi aradan qaldırılır ki, bu da onların təlim prosesinə fəal qoşulmalarına imkan verir. Şagirdlər məlum faktlar, qanunlar və nəzəri müddəalar əsasında biliklərə şüurlu surətdə yiyələnmələrinə və müstəqil şəkildə nəticəyə gəlmələrinə şərait yaradır" (3).

O.B.Leontyeva "söhbət" metodundan istifadənin bir sıra xüsusiyyətlərini diqqət mərkəzinə gətirir. Onları nəzərdən keçirək:

1. Hər bir söhbət dərsin konkret vəzifəsinin həyata keçməsinə istiqamətlənmiş qarşılıqlı əlaqədə olan məsələlər sisteminin özündə ehtiva etməlidir.

2. Söhbətlər çox da vaxt aparmamalıdır. Onların hər biri bir konkret məqsədin yerinə yetirilməsinə yönəlməlidir (Söhbət uzun çəkdikdə şagirdlər çox da əhəmiyyətli olmayan suallara cavab verməklə onun əsas məqsədinin və nəticələrini diqqətdən qaçıra bilərlər).

3. Söhbətlər müəllimin yekun sözü ilə tamamlanmalıdır.

4. Söhbətə uşaqların əksər qismi cəlb olunmalıdır.

Bir çox şagirdlər müəllimlə dialoqa girməyi bacarmırlar, odur ki, sistemli aparılan söhbət şagirdlərdə ümumi dialoqa girə bilmək bacarığı formalaşdırmalıdır.

5. Dərsdə aparılan söhbətlər əyaniliyin müxtəlif növləri ilə müşayiət olunmalıdır.

Dərsin məqsədindən asılı olaraq, söhbətlər reproduktiv və produktiv səviyyəli məsələləri özündə əks etdirməlidir" (3, 70-72).

E.S.Rapatseviçin tərtib etdiyi "Psixoloji-pedaqoji lüğət"lə də tanış olduq. Lüğətdə dərs-söhbətə yer ayrılmışdır. Diqqət yetirək: "Dərs-söhbət bir sıra hallarda müəllimin ciddi şəkildə hazırladığı plan üzrə deyil, hətta müəllimin qabaqcadan görə bilmədiyi məsələlər üzrə də gedə bilər. ona görə də söhbət müəllimdən materiala yaxşı bələd olmağı, metodik hazırlığa və söhbətin gedişində yaradıcılıq nümayiş etdirməyi tələb edir. Söhbət təlim prosesində əlahiddə götürülmür, təlimin digər metodları ilə uzlaşdırılaraq tətbiq olunur" (4, 29-30).

"Psixoloji-pedaqoji lüqət"də tədris materialının konkret vəzifələrindən, məzmunundan, şagirdlərin yaradıcı idrak fəaliyyətinin səviyyəsindən, didaktik prosesdə söhbətin yerindən asılı olaraq söhbətin aşağıdakı söhbət növləri təklif olunur: *evristik söhbət* (müəllim şagirdlərin biliklərinə və praktik təcrübəsinə əsaslanaraq, yeni biliklərin başa düşülməsinə və mənimsənilməsinə, qaydaların və nəticələrin formalaşdırılmasına istinad edir; *məlumatverici söhbət* (yeni biliklərin verilməsi üçün istifadə olunur); *möhkəmləndirici söhbət* (yeni materialın öyrənilməsindən sonra tətbiq edilir); *fərdi söhbət* (suallar yalnız ayrı-ayrı (tək-tək) şagirdlərə ünvanlanır); *frontal söhbət* (suallar bütün sinfin şagirdlərinə (auditoriyaya) ünvanlanır.

"Lüğət"də söhbət metodunun üstünlükləri aydınlaşdırılır: şagirdləri fəallaşdırır, onların intellektual qabiliyyətlərini inkişaf etdirir, bilikləri şagirdlərə aydın edir, əhəmiyyətli tərbiyəvi imkanlarına malik olur.(4, 29-30).

İ.M.Karpeykinanın tədqiqatları qeyri-standart dərslərlə bağlıdır. O, məktəblilərin təlim fəallığının yüksəldilməsi üçün qeyri-standart dərslərin imkanlarından faydalanmağı məqsədəuyğun hesab edir.

İ.M.Karpeykina öz tədqiqatlarında belə bir suala cavab axtarır: "Məktəbdə qeyri-standart dərslər nə üçün lazımdır?"

O, "Şagirdlərin təlim fəallığının yüksəldilməsi məqsədilə qeyri-standart dərslərin tətbiqi" adlı məqaləsində həmin suala cavab verir, qeyri-standart dərslərin mahiyyətinə aydınlıq gətirir. Müəllifə görə, "Qeyri-standart dərslər təlimin çox mühüm vasitəsi olub şagirdlərdə təlimə səbatlı maraq formalaşdırır, gərginliyi aradan qaldırır, təlim fəaliyyəti vərdişlərinin formalaşdırılmasına kömək edir, uşaqlara emo-

sional təsir göstərir, nəticədə uşaqlarda möhkəm və dərin biliklər formalaşır" (5).

Qeyri-standart dərslərin xüsusiyyətlərindən danışarkən qeyd edir ki, müəllim tərəfindən məktəblinin həyatının rəngarəng edilməsi ön plana çəkilməlidir. Rəngarənglik dedikdə, İ.M.Karpeykina nəyi nəzərdə tutur? Onun diqqət mərkəzinə gətirdiyi məsələlər bunlardır:

1. İdraki ünsiyyətə, dərsə, məktəbə marağın oyadılması.

2. İntellektual, motivasiya, emosional və başqa sahələrdə uşağın tələbatının təmin olunması.

Müəllif qeyri-standart dərslərin xüsusiyyətlərin üzərində dayanaraq göstərir ki, "Qeyri-standart dərslərdə şagirdlər qeyri-standart biliklər almalıdırlar. Qeyri-standart tapşırıq anlayışı son dərəcə genişdir. O, ənənəvi (standart) dərslərə xas əlamətlərdən fərqli olan bir sıra əlamətləri özündə birləşdirir. Qeyri-standart tapşırıqların ən fərqləndirici əlaməti – onların (qeyri-standart tapşırıqların – E.H.) psixologiyada "məhsuldar, yaradıcı adlandırılan fəaliyyət"lə əlaqəsindən ibarətdir.

İ.M.Karpeykina haqqında söz açılan xüsusiyyətlərə aid edir:

1. İrəli sürülmüş təlim vəzifələrinin yerinə yetirilməsi yolları və variantlarının şagirdlər tərəfindən müstəqil axtarışı (təklif olunan variantlardan birinin seçilməsi, yaxud öz variantının tapılması və qərarın əsaslandırılması).

2. İşin qeyri-adi şərtləri.

3. Qeyri-müəyyən şəraitlərdə vaxtilə qazanılan biliklərin fəal şəkildə diqqət mərkəzinə gətirilməsi (5).

Müəllifin nöqteyi-nəzərincə, qeyri-standart tapşırıqlar problemli vəziyyətlər (mənimsənilmiş biliklərin köməyilə çətin vəziyyətlərdən çıxmağı bacarmaq), rollu və işgüzar oyunlar, müsabiqələr və yarışlar ("kim daha cəlddir, yaxşıdır" prinsipi üzrə), əyləncəlilik elementləri məişətə aid olan və fantastik vəziyyətlər, səhnələşdirmə, linqvistik nağıllar, tapmacalar, "tədqiqatlar") şəklində təqdim olunmalıdır.

Təsviri incəsənət dərslərində səmərəli formalardan və qeyri-standart texnikalardan istifadə R.V.Həsənovanın tədqiqatlarında (6) özünəməxsus yer tutur. R.V.Həsənova uşağın yaradıcı şəxsiyyət olmasından ötrü onun təxəyyülünün inkişafına diqqət yetirilməsini vacib sayır. Bu, təsadüfi deyildir. Müəllifin fikrincə, təxəyyülsüz arzulamaq, planlaşdırmaq mümkün deyil, anlamaq və problemləri görməyi öyrənmək qeyri-mümkündür. R.V.Həsənova "İncəsənət dərslərində səmərəli formalardan və qeyri-standart texnikalardan istifadə" adlı tədqiqat işində belə bir suala diqqət mərkəzinə gətirir: "Əsas" dərslərdə olduğu kimi şagirdlər üçün təsviri incəsənət dərsini də necə əhəmiyyətli etmək olar?

Həmin sual belə cavablandırılır: Hər bir dərsdə əyləncəlilik atmosferinə geniş meydan verilməlidir (6).

Y.V.Solonina 5-7-ci öz məqaləsində siniflərin təsviri incəsənət dərslərində yaradıcı qabiliyyətlərin inkişaf etdirilməsi problemini əhatə etməyi qarşısına məqsəd qoymuşdur.

Müəllif məqalədə öz iş təcrübəsindən danışır, məktəbdə ünsiyyətlə ünsiyyətdə olmağın uşaqların mənəvi cəhətdən saflaşmasından və ruhən zənginləşməsindən ötrü zəruri olması qənaətinə gəlir. Onun fikrincə, incəsənət dərsi – gözəl dərsdir, burada zaman və əbədilik, xeyir və şər, dahilik və sərsəmlik, məhəbbət və nifrət üz-üzə gəlir, toqquşur.

Y.V.Solonina qeyri-standart texnikalardan istifadə etməklə təsviri sənət dərslərinin keçirilməsi zamanı gözlənilən nəticələri aşağıdakı şəkildə göstərir.

"Qeyri-standart texnikalardan istifadə etməklə təsviri sənət dərslərinin keçirilməsi:

-Uşaq qorxaqlığının qarşısının alınmasına imkan verir;

-öz qüvvələrinə inamı inkişaf etdirir;

-fəza təxəyyülünü inkişaf etdirir;

- öz fikirlərini sərbəst bildirməyi uşaqlara öyrədir;

-uşaqları yaradıcı axtarışa və qərara gəlməyə təhrik edir;

-müxtəlif materiallarla işləməyi uşaqlara öyrədir;

-kompozisiya, ritm, kolorit, işığı qavrama hisslərini inkişaf etdirir;

- həcmi və faktura hissi;

-əllərin xırda motorikasını inkişaf etdirir;

-yaradıcı qabiliyyətləri, təxəyyülü və fantaziyanı inkişaf etdirir;

- uşaqlar iş zamanı estetik həzz alırlar" (7).

Məqalədə şagirdlərin yaradıcı qabiliyyətlərinin səciyyəsi; təsviri incəsənət dərslərində

təhsilalanların yaradıcı qabiliyyətlərini inkişaf etdirməyin metodikası, forma və metodları ("aşkar etmə" metodu; fərdi və kollektiv axtarıcılıq fəaliyyəti metodu; məhdudluq sistemində azadlıq metodu; dialoq metodu; müqayisə metodu; yaradıcı ustalıq); rəsmin qeyri-standart texnikaları vasitəsilə yaradıcı qabiliyyətlərin inkişafı; uşaqların yaradıcı qabiliyyətlərinin inkişaf etdirilməsində müəllimin rolu; təsviri sənət dərslərində yaradıcı qabiliyyətlərin həyata keçirilməsinin imkanları və yolları və s. öz əksini tapmışdır.

M.V.Bardalanın monoqrafiyası "Təsviri incəsənət dərslərində tapşırıqlar prosesində 1-4-cü sinif şagirdlərinin bədii-yaradıcı fəallığının inkişaf etdirilməsi" (8) adlanır. Monoqrafiyanın birinci fəsli "Təsviri incəsənət dərslərində tapşırıqların tətbiqinin nəzəriyyəsi və tarixi" adlanır. Fəsil iki yarımfəsildən ibarətdir: 1. Rus və xarici məktəbdə təsviri incəsənət dərslərində tapşırıqların tətbiqi tarixindən. 2. İbtidai məktəbdə təsviri incəsənət dərslərində tapşırıqlar sisteminin tətbiqinin psixoloji-pedaqoji əsasları.

Monoqrafiyanın "Təsviri incəsənətin təlimi prosesində kiçik yaşlı məktəblilərin bədii-yaradıcı fəallığının inkişaf etdirilməsinin psixoloji-pedaqoji əsasları" adlanan ikinci fəsli də iki yarımfəsli əhatə edir. Həmin yarımfəsillərdə təsviri incəsənət dərslərində ibtidai sinif şagirdlərinin bədii-yaradıcı fəallığının inkişaf etdirilməsi psixoloji-pedaqoji problem kimi nəzərdən keçirilir; ibtidai sinif şagirdlərin bədii-yaradıcı fəallığının qiymətləndirilməsi meyarları və onun formalaşdırılması səviyyələrinin müəyyənləşdirilməsi metodikası öz ifadəsini tapır.

Monoqrafiyanın üçüncü fəsli "Təsviri incəsənət dərslərində tapşırıqlar prosesində ibtidai sinif şagirdlərin bədii-yaradıcı fəallığının inkişaf etdirilməsinin pedaqoji şərtləri" adlanır. Bu fəsildə eksperimental tədqiqatın təsviri və eksperimentin nəticələri verilir və eyni zamanda təsviri incəsənət dərslərində tapşırıqların yerinə yetirilməsi prosesində kiçik yaşlı məktəblilərin bədii-yaradıcı fəallığının inkişaf etdirilməsinin yollarına, metodları və vasitələrinə aydınlıq gətirilir (8).

M.Auezov adına Cənub-Qazaxıstan Dövlət Universitetinin əməkdaşları M.J.Tanirberqenov və Q.A.Nurjanova öz tədqiqatlarında (9) didaktik oyuna təsviri incəsənət təlimi texnologiyalarından biri kimi yanaşırlar. Müəlliflərini qənaəti belədir ki, təsviri incəsənət dərslərində didaktik oyunlardan istifadə aşağıdakı təlim vəzifələrinin həyata keçirilməsinə istiqamətlənir:

1. Şagirdlərdə öyrənilən fənnə marağı artırır;
2. Dərsin hazırlanmasında və keçirilməsində məktəblilərin iştirakını fəallaşdırır;
3. Hər bir şagirdin inkişafından ötrü əlverişli şərait yaradır, onda qabiliyyətlərin və maraqların yaranmasına imkan verir;
4. Özünüdərk inkişaf edir (psixoloji müdafiə baryerinin aşağı salınması və şəxsiyyət səviyyəsində qeyri-səmimiliyin aradan qaldırılması hesabına);
5. Uşaqların bütün psixi proseslərinin, onların emosional-iradi sasəsinin, qabiliyyətlərinin və bacarıqlarının inkişaf etdirilməsi;
6. Dərsdə xeyirxah və qarşılıqlı inam mühitinin yaradılması prosesində uşağın daxili aləmi ilə daha sıx əlaqənin bərqərar olması;
7. Emosional əhval-ruhiyyənin yaradılması öz növbəsində şagirdlərin bədii yaradıcılığının inkişaf etdirilməsinə kömək göstərir;
8. Uşaqların yaddaşının, diqqətinin, fəhmliliyinin, onların ümumi dünyagörüşünün inkişaf etdirilməsi;
9. Biliklərə yiyələnmə prosesində şagirdlərin yaradıcı fəallığının və müstəqillik yüksəldilməsi" (9).

Araşdırmalardan görünür ki, mövcud ədəbiyyatda ayrı-ayrılıqda təsviri incəsənət fənninin tədrisi və eyni zamanda dərs-söhbətlər problemi işıqlandırılsa da, təsviri incəsənət dərslərində dərs-söhbətlərdən istifadə etməklə incəsənətə aid şagirdlərin təsəvvürlərinin genişləndirilməsi, onların idrak fəallığının yüksəldilməsi, təlimin səmərəliliyinin artırılması problemi öz ifadəsini tapmamışdır.

**Problemin aktuallığı və yeniliyi.** Təsviri incəsənət dərslərində incəsənətə dair dərs-söhbətlərdən istifadənin mövcud ədəbiyyatda hansı səviyyədə əks olunduğu araşdırılır və ədəbiyyatın təhlili aparılır.

**Problemin praktik əhəmiyyəti.** Təsviri incəsənət dərslərində incəsənətə dair dərs-söhbətlərdən istifadənin mövcud ədəbiyyatla tanış olmaqda müəllimlərə və gənc tədqiqatçılara öz köməyini göstərəcəkdir.

**ƏDƏBİYYAT**

1. Ерков С.А. Формирование художественного восприятия произведений изобразительного искусства на уроках ИЗО в 5,6 классах средней общеобразовательной школы: Автореф. дис. …канд. пед. наук. М., 2006.
2. Филатова А.В. Уроки-беседы как вид учебной деятельности на уроке изобразительного искусства. uroki-besedy_kak_vid_uchebnoy_deyatelnosti_na_uroke_izobrazitelnogo_iskusstva.doc
3. Леонтьева О.В. Беседа- один из ведущих методов преподавания в классах коррекционно развивающего обучения в основной школе // Современные наукоемкие технологии, 2010, № 12
4. Психолого-педагогический словарь / Сост. Рапацевич Е.С. Минск, 2006, 29-30
5. Карпейкина И. М. Применение нестандартных уроков для повышения учебной активности учащихся. http://pedsovet.su/publ/47-1-0-4006
6. Гасанова Р.В. Использование эффективных форм и нетрадиционных техник на уроках изобразительного искусства. https://open-lesson.net/3646/
7. Солонина Е.В. Развитие творческих способностей учащихся на уроках изобразительного искусства 5-7 классах
http://www.uchportal.ru/publ/23-1-0-5363
8. Бардала М.В. Развитие художественно-творческой активности учащихся 1-4 классов в процессе упражнений на уроках изобразительного искусства. М., 2004, 220 с.
9. Танирбергенов М.Ж., Нуржанова Г.А. Дидактическая игра как одна из технологий обучения изобразительному искусству http://www.rusnauka.com/14_ENXXI_2012/Pedagogica/5_110626.doc.htm

**Э.М.Гасанова**

**ИСПОЛЬЗОВАНИЕ УРОКОВ – БЕСЕД НА УРОКАХ ИЗОБРАЗИТЕЛЬНОГО ИСКУССТВА: АНАЛИЗ СУЩЕСТВУЮЩЕЙ ЛИТЕРАТУРЫ**

***РЕЗЮМЕ***

В статье исследуется и анализируется уровень соответствующей литературы по использованию уроков-бесед об искусстве на уроках изобразительного искусства. Автор отмечает, что уроки-беседы повышают познавательную деятельность учеников и способствуют эффективности обучения. Статья поможет учителям и исследователям ознакомиться с соответствующей литературой по использованию уроков-бесед на уроках изобразительного искусства.

**E.M.Hasanova**

**THE USE OF LESSON-CONVERSATIONS DEALING WITH THE ART IN FINE ART CLASSES: THE ANALYSIS OF AVAILABLE LITERATURE**

***SUMMARY***

İn the article the use of lesson-conversations dealing with the art in fine art classes and the level of their expression in available literature is analyzed and investigated. The article will help the young investigators and teachers about the use of lesson conversations dealing with the art in fine art classes by getting acquainted with the available literature.

**Redaksiyaya daxil olub: 10.01.2016**

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNƏ ÇEVİKLİK VƏ DÖZÜMLÜK HƏRƏKİ QABİLİYYƏTLƏRİNİN AŞILANMASINDA MÜTƏHƏRRİK OYUNLARIN ƏHƏMİYYƏTİ

**Pərviz Quliyev,**

*ADBTİA-nın*
*İdmanın oyun növləri kafedrasının baş müəllimi*
E-mail: pervizquliyev82@mail.ru

**Rəyçilər:** *prof.* R.K. Bağırov,
*ped. ü. fəl. dok., dos.* A.X. Hacıyev

***Açar sözlər:*** *fiziki tərbiyə, dözümlük, çeviklik, mənəvi-iradi, keyfiyyətlər, hərəki bacarıq, vərdişlər, mütəhərrik oyunlar*
***Ключевые слова:*** *физическое воспитание, стойкость, гибкость, нравственно-волевой, качества, умения, качества, подвижные игры*
***Keywords:*** *physical training, endurance, quickness, utter-moral qualities, active ability, habits, active games*

Mütəhərrik oyunları – fiziki tərbiyənin spesifiki metod və vasitələrinin yekun məcmusudur.

Mütəhərrik oyunların metodu - oyunlar üçün xarakterik olan metodiki üsullardan istifadə olunur (obrazlılıq, yarış elementləri, hərəkətlərin təbiiliyi və s.). Mütəhərrik oyunlarının komponentləri (məzmunu, forması və metodiki xüsusiyyətləri) effektli fiziki vasitələri kimi istifadə olunur. Mütəhərrik oyunların məzmunu – süjeti (mövzu, ideya), qayda və hərəki fəaliyyət təşkil edir. Oyunun süjeti – oyun xarakterini, oyunun fəaliyyətinin məqsədini müəyyənləşdirir. Süjet nəinki oyunçuların fəaliyyətini canlandırır, hətta texnikanın ayrı-ayrı üsullarını və taktiki elementlərinin məqsədə uyğunluğuna üstünlük verir, oyunu daha maraqlı edir.

Oyunların qaydaları – iştirakçılar üçün ən vacib tələbat olmaqla yanaşı oyunçuların yerləşməsinə və yerdəyişməsinə səbəb olur.

Bildiyimiz kimi mütəhərrik oyunlarda hərəki fəaliyyət həddindən artıq rəngarəngdir. Oyunların rəngarəngliyi cəldlik, çeviklik, qüvvə, sürət, sürət-güc, elastiklik, dözümlülükdür. Tətbiq edilən mütəhərrik oyunlarda istiqamətin gözlənilmədən dəyişilməsinə, qısa məsafəyə qaçışdan sonra hərəkətin saxlanmasına, müxtəlif hədəfə və uzağa atmalara, hoppanmalar və müqavimət göstərməklə, xüsusi fiziki hazırlıq prosesində əldə olunmuş rəngarəng hərəkətlərin tətbiq etmə fəaliyyətlərinə rast gəlmək olar. Bütün bunlar müxtəlif kombinasiyalarda və müqayisələrdə icra olunur.

Məktəb yaşlı uşaqların fiziki tərbiyəsini, nəzəriyyəsini və metodikasını öyrənən zaman mütəhərrik oyunların pedaqoji xarakteristikasını bilmək zəruridir.

Məktəbdə mütəhərrik oyunlar üzrə məşğələlərin təşkilinin əsas forması mütəhərrik oyunlara istinad etməklə fiziki tərbiyə dərsidir. Bununla yanaşı mütəhərrik oyunları gün rejimində, fiziki tərbiyə-sağlamlıq məşğələlərində də tətbiq edilir (böyük tənəffüslərdə, fiziki tərbiyə dəqiqələrində, oyunlarda və c.), fiziki tərbiyə üzrə sinifdənkənar işlərdə: idman bayramlarında, məktəbdaxili və məktəbdənxaric idman yarışları təşkil edilir.

Göstərilən hər bir məşğələ forması mütəhərrik oyunları dərslərinə təqdim edilən tələbatdır.

Dərsin əsas vəzifəsi – mütəhərrik oyunları dərslərində bir çox sağlamlaşdırıcı, maarifləndirici və tərbiyəvi vəzifələr həll olunur: 1. Məşğul olanların sağlamlığını möhkəmləndirmək, onların fiziki inkişafına təsir göstərmək, mətanətli olmaq, qaməti düzgün formalaşdırmaq; 2. Mütəhərrik oyunları sayəsində məşğul olanların biliyini zənginləşdirmək, gigiyeniki vərdişləri formalaşdırmaq, sərbəst oyunların keçirilməsini aşılamaq, yeni-yeni oyunların məzmunu ilə tanış etmək və s. 3. Müxtəlif səpgili oyunların müvəffəqiyyətlə öyrənməsi üçün lazımi qabiliyyətləri inkişaf etdirmək. 4. Estetik, iradi, mənəvi keyfiy-

yətlərin tərbiyələndirilməsi ilə yanaşı tədris və idman məşğələlərinə düşünərəkdən, vicdanla münasibət bəsləmək, ictimai işlərdə, kollektivçilikdə, vətənpərvərlikdə, yoldaşlıq hissiyyatını aşılamaq.

Yuxarıda göstərilən vəzifələrin müvəffəqiyyətli həlli bütövlükdə məşğul olanların şəxsiyyətinə, şərtlənmiş biliyə, psixoloji vəziyyətə, təcrübəyə yönəlmiş struktura aid olan hərtərəfli pedaqoji təsiri nəzərdə tutur.

Fiziki tərbiyənin tədris prosesi bir-birini üzvi surətdə tamamlayan məzmun xətlərindən ibarətdir.

1. İnformasiya təminatı və nəzəri biliklər;
2. Hərəki bacarıqlar və vərdişlər;
3. Hərəki qabiliyyətlər;
4. Mənəvi-iradi keyfiyyətlərin formalaşması.

İnformasiya təminatı və nəzəri biliklər – təlimin məzmun xətlərindən biridir. Bu məzmun xətti dərsdə icra olunacaq oyunlar və oyunlarda olan hərəkət kompleksləri, qaydalar və s. Haqqında düzgün təsəvvürü formalaşdırır.

Hərəki bacarıq və vərdişlər – fiziki tərbiyənin mühüm hissəsi olub, şagirdlərdə hərəki fəaliyyətin həyata keçirilməsi, icra etmə üsullarına yiyələnmə prosesini özündə əks etdirir.

Bacarıq və vərdişləri formalaşdırarkən ilkin mərhələdə "hissə-hissə", sonra "bütövlükdə" daha sonra isə "təkrar" metodlarından istifadə olunur.

Hərəki qabiliyyətlər – fiziki tərbiyənin məzmununda hərəki qabiliyyətlər xüsusi xətt kimi nəzərdə tutulur. Hərəki qabiliyyətlərin formalaşması şagirdin fiziki cəhətdən hərtərəfli hazırlığının yeganə yoludur. Yaş dövrlərindən asılı olaraq hərəki qabiliyyətlərin inkişafı üçün ən əlverişli vaxt hesab olunur. Bu dövr məxsusi hərəkətlər vasitəsilə hərəki qabiliyyətlərin inkişaf etdirilməsinə imkan yaradır. Hər hansı bir hərəki qabiliyyəti inkişaf etdirmək üçün müvafiq fiziki yükdən və metodikadan istifadə olunmalıdır. Buna görə də ayrı-ayrı siniflərdə fiziki tərbiyə dərsi hərəki qabiliyyətlərin üzərində qurulur.

Mənəvi-iradi keyfiyyətlərin formalaşması – şagirdlərin tərbiyəsində ən mühüm məzmun xəttidir. Dərsdə keçirilən mütəhərrik oyunları tədris prosesinin digər fənlərindən fərqi fəal və mütəhərrik olmasıdır. Bu məzmun xətti şagirdlərin davranış xüsusiyyətlərini təyin edir və tərbiyə metodlarının seçilməsinə imkan yaradır. Qeyd etmək lazımdır ki, mənəvi-iradi xüsusiyyət yalnız müvafiq şəraitin yaradılması nəticəsində mümkün ola bilər.

İbtidai sinif şagirdləri ilə keçirilən mütəhərrik oyunları zamanı hərəki fəallıq göstərməyə çalışırlar və qısa müddətli fasilələrdə böyük enerji sərf etməyi tələb edən müxtəlif fəaliyyətləri böyük həvəslə icra edirlər. Baxmayaraq ki, onlar eyni adlı hərəkətləri icra edərkən daha çox yorulurlar. Kiçik məktəb yaşlı uşaqların yaşlı uşaqlara nisbətən diqqətləri kifayət qədər dayanıqlı deyil, fikirləri tez dağılır. Buna görə onlara qısa müddətli fasilələrlə böyük mütəhərrik oyunlar verilir. 7-9 yaşlı kiçik məktəb yaşlı uşaqların diqqəti kifayət qədər dayanıqlı olmadığından və iradi keyfiyyətləri zəif olduğundan çoxsaylı oyun qaydalarını sadə dildə başa salınmalıdır.

Bu məqalə məhz hərəki qabiliyyətlərdən çeviklik və dözümlülük qabiliyyətlərinə istinad edərək şagirdlərdə bu qabiliyyətlərin inkişaf yollarından bəhs olunacaq.

Çeviklik – şagirdlər tərəfindən yeni hərəkəti tez və asan mənimsəmək, oyunları dəyişən şəraitdə qurmaq və optimal həllini tapmaq qabiliyyətidir. Çeviklik vahid meyarı olmayan və eyni zamanda mürəkkəb kompleks xüsusiyyətli qabiliyyətdir. Hər halda bu qabiliyyət üçün aşağıdakı meyarlar seçilir:

1. Hərəkətin koordinasiya çətinliyi;
2. Hərəkətin icra dəqiqliyi;
3. Hərəkətin icrasına sərf olunan vaxt.

Çevikliyin formalaşması üçün möhkəmləndirilməsi onun komponentlərini ayrı-ayrılıqda inkişafı əsasında həyata keçirilir. Onun təzahürü aşağıdakı amillərdən asılıdır:

1. Şagirdin icra etdiyi hərəkəti təhlil etmək və dərk etmək;
2. Hərəki analizatorların fəaliyyətindən;
3. Hərəkətin koordinasiya çətinliyindən;
4. Digər hərəki qabiliyyətlərin inkişafı səviyyəsindən;
5. Şagirdlərin cəsarət və qətiliyindən.

Koordinasiya bacarığı ilk növbədə şagirdlərin gövdə və ətrafların fəzada yerləşməsinə nəzarətin həyata keçirilməsi ilə formalaşdırılır. Fəza hissi 7-12 yaşlı uşaqlarda sürətlə inkişaf edir və bu hissiyyat bir neçə mərhələdə mənimsənilir. Birinci mərhələdə sadə hərəkətlərin kö-

məyi ilə uşaqlarda öz bədəninin fəzada yerləşdirmə bacarığını inkişaf etdirir. Məsələn, qolu, ayağı, gövdəni 45º, 90º əymək və saxlamaq (topun sinə qarşısından, baş arxasından atılması və s.). İkinci mərhələdə hərəkət xeyli miqdarda çətinləşdirilir. Məsələn, əvvəlcədən müəyyən edilmiş yerdə dayanaraq dönmək, fırlanma icra etmək və yenidən düz xətt üzrə hərəkəti davam etdirmək və s. Üçüncü mərhələdə hər hansı bir hərəki fəaliyyəti icra edən zaman gözləri bağlayırlar. Bu şəraitdə şagird bədənin müəyyən vəziyyətini olmalı və ya səsə görə yeri müəyyənləşdirməlidir. İstənilən hərəki fəaliyyət zamanı bədənin dayanıqlığının (müvazinətin) saxlanılması zəruridir. Bildiyimiz kimi müvazinət statiki və dinamiki formada olur. Statiki müvazinət bədənin hər hansı bir vəziyyətini uzun müddət saxlanması ilə əlaqədardır. Belə hərəkətin çətinləşdirilməsi və şagirdlərin psixofunksional vəziyyətlərin dəyişdirilməsi ilə inkişaf etdirilir (məsələn, hərəkətin mütəhərrik dayaqda və ya gözü bağlı icrası). Dinamik müvazinət daima dəyişən şəraitdə şagirdlərin yerdəyişməsi ilə təzahür olunur (məsələn, yerişdə, qaçışda və s.).

Müvazinət hissi məktəbdə aşağı siniflərdə oxuduqları vaxtlarda sürətlə inkişaf edir. Statiki müvazinət bacarığı koordinasiya çətinliyinin tədricən dəyişdirilməsi ilə formalaşdırılır. Dinamik müvazinət hərəkəti icra edən zaman bədənin fəzada yerdəyişmə vəziyyətini saxlanması ilə xarakterizə olunur. Çevikliyin inkişafı üçün fiziki tərbiyə dərslərində istifadə olunan vasitələr bir neçə qrupa bölünür:

- idman oyunları (basketbol, voleybol, futbol, badminton);
- idman oyun növlərinin elementlərindən ibarət estafetlər;
- koordinasiyanı, müvazinəti şərtləndirən xüsusi hərəkətlər kompleksi və akrobatika;
- bir-birinə yaxın olan maneələrdə hərəkətlərin icrası, hərəki fəaliyyətlərin tez və yenidən qurulmasını zəruri edən, çoxmərhələli estafetlərdən ibarətdir.

Şagirdlərdə çeviklik qabiliyyətini inkişaf etdirmək üçün aşağıdakı mütəhərrik oyunlardan istifadə etməlidirlər: "Boş yer", "Atçapanlar – idmançılar", "Nömrəni çağırmaq", "Topu qonşuya ötür", "Qurd dərədə", "Tullanan sərçələr", "Dovşanlar bostanda" və s.

Dözümlülük qabiliyyəti – müxtəlif intensivli sahələrdə olan fiziki yükü icra etmək qabiliyyəti olmaqla yanaşı yorulmaya qarşı dayanaqlı xüsusiyyəti ilə xarakterizə olunur. İki cür dözümlülük anlayışı mövcuddur: ümumi və xüsusi. Ümumi dözümlülük nisbətən aşağı intensivli fiziki yükü təzahür edən qabiliyyətdir. Xüsusi dözümlülük isə hər hansı bir idman növündə əsas hərəkəti maksimal rejimdə icra etmə qabiliyyətidir.

Dözümlülük aşağıdakı amillərlə şərtlənir:

1. Şagirdin ağciyərinin həyat tutumundan;
2. Əzələ liflərinin xüsusiyyətindən ("qırmızı" əzələ lifləri dözümlü, "ağ" əzələ lifləri dözümsüz olur);
3. Hərəkətin oksigen tələbatından və orqanizmin enerji imkanlarından;
4. Orqanizmin qüvvə və sürət imkanlarından;
5. Yorulma zamanı əzələ işini davam etdirərkən orqanizmin fizioloji funksiyaların dayanıqlığından və s.

Məktəblərdə keçirilən fiziki tərbiyə dərslərində ümumi dözümlülüyün və sürət dözümlülüyünü inkişaf etdirməsi nəzərdə tutulur. Ümumi dözümlülüyə ayrılmış saatlarda müəyyən məsafələrə kross qaçışı formasında həyata keçirildiyindən dərs bir qədər maraqsız keçir. Ən əsası isə şagirdlərin dərsə marağı aşağı səviyyədə olur.

Yuxarıda göstərilən amilləri nəzərə alaraq ilk növbədə dərsdə istifadə olunan vasitələri dörd əsas qrupa bölmək olar:

1. Çoxmərhələli estafetlər;
2. Enişli-yoxuşlu yerlərdə komandalararası kross qaçışları;
3. Təbii və süni maneələri dəf etməklə qaçışlar;
5. Uzun mərhələli estafetlər.

Ümumtəhsil məktəblərində keçirilən fiziki tərbiyə dərslərində şagirdlər əqli, iradi və fiziki cəhətcə möhkəm inkişaf edir və formalaşır. Hər bir fiziki tərbiyə dərslərində dərsin ümumi məqsədilə əlaqədar oyunlar daxil edilməlidir. Çeviklik və dözümlülüyü inkişaf etdirmək üçün çox vaxt qaçışla əlaqədar oyunlar verilir ki, qısa müddətli cəld qaçışdan, sıçrayışlardan, tullanmalardan sonra istirahət verilməlidir.

Kiçik məktəb yaşlı uşaqlarla keçirilən fiziki tərbiyə dərslərində müxtəlif məzmunlu komandalı oyunlar geniş tətbiq edilməlidir. Oyun

zamanı uşaqlar bir-birinə hörmətlə yanaşmağı, dəqiq və vicdanla oyun qaydalarına riayət etməyi aşılamaq vacibdir.

Şagirdlərdə dözümlülük qabiliyyətini inkişaf etdirmək üçün aşağıdakı oyunlar məsləhət görülür: "Tilov", "Balıqçı toru", "Canavar xəndəkdə", "Qarşılıqlı estafet", "Topla müxtəlif estafetlər".

**Problemin yeniliyi:** Ümumtəhsil məktəblərinin ibtidai təhsil mərhələsində şagirdlərin fiziki hazırlığının inkişaf etdirilməsində müxtəlif metodlardan istifadə oluna bilər. Belə ki, müəllim şagirdlərin fiziki hazırlığının yüksəlməsi üçün hər hansı bir yeni hərəkət seçməklə və fiziki hazırlığın inkişafında bu hərəkətin tətbiqi ilə gənc nəslin fiziki cəhətcə yüksək hazırlığına nail ola bilər. Buda öz növbəsində gənc nəslin həyat üçün lazım olan bilik və bacarıqlarının yüksək səviyyədə olmasında mühüm rol oynayır.

**Problemin praktik əhəmiyyəti:** Uzun illərin təcrübəsi göstərir ki gənc nəslin fiziki cəhətdən yüksən hazırlığının olması onların həyatında mühüm rol oynayır. Müasir dövrümüzdə isə fiziki hazırlığın öndə gələn problemlərdən biridir.

## ƏDƏBİYYAT

1. А.П. Матвеев. Методика физического воспитания в начальной школе. М., 2003.

2. Комплексная программа физического воспитания. "Программа общеобразовательных учреждений". М., 2010.

3. H.Y. Ələkbərov, Ə.H. Namazova, E.R. Quliyev, Ç.İ. Salmanov, Mütəhərrik oyunlar. Bakı, 2006.

**П.Н.Гулиев**

## ЗНАЧЕНИЕ ПОДВИЖНЫХ ИГР В ПРИВИТИИ ДВИГАТЕЛЬНЫХ НАВЫКОВ СТОЙКОСТИ И ГИБКОСТИ УЧАЩИХСЯ НАЧАЛЬНЫХ КЛАССОВ ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛ

***РЕЗЮМЕ***

В статье отмечается, о широком использовании подвижных игр в дошкольных и общеобразовательных школьных учреждениях. Отмечается, что их использование также очень важно в средних и высших учебных заведениях. Учителя и тренеры, работающие в данных учреждениях наряду со знанием содержания данных игр, указанных в учебном плане, обязаны изучить теорию и методику подвижных игр и успешно применять полученные знания. В заключение статьи подчеркивается, что применение активных игр развивает у детей гибкость, быстроту, эластичность, силу, скорость и стойкость.

**P.N.Guliyev**

## THE IMPORTANCE OF ACTIVE GAMES AT THE FORMATION OF STUDENTS' QUALITIES SUCH AS ENDURANCE AND QUICKNESS AT PRIMARY SCHOOLS

***SUMMARY***

İt is obvious that active games are applied at preschool and secondary schools. İt is considered to be necessary to be applied at higer schools and schools of specialty. At the same time people who work in these institutions (teachers, trainers), being the graduate of specialty schools, should learn the theory and methods of active games shown in curriculum and have the ability of applying them successfully. The application of active games improves qualities such as quickness, dexterity, flexibility, power and endurance.

**Redaksiyaya daxil olub: 02.02.2017**

# EKOLOJİ PROBLEM YARADAN ƏTRAF MÜHİT AMİLLƏRİNİN TƏDRİSİNƏ DAİR

**Elnarə Seyidova,**

*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*Naxçıvan Dövlət Universiteti*
E-mail: s.elnare@mail.ru

**Rəyçilər:** *ped.ü.fəls.dok.., dos.* K. Camalov,
*ped.ü.fəls.dok.., dos.* V. Rzayev

***Açar sözlər:*** *ətraf mühit, abiotik və biotik amillər, işıq, temperatur, rütubət*
***Ключевые слова:*** *окружающая среда, абиотические и биотические факторы,свет, температура, влага*
***Keywords:*** *environment, abiotic and biotic factors, light, the temperature, dampness*

Ekoloji tarazlığın qorunub saxlanılması insanların təbiətə şüurlu münasibətindən asılıdır. Təbiətə şüurlu münasibət isə insanlarda erkən yaşından aşılanmalıdır. Bu baxımdan ümumtəhsil məktəblərinin, xüsusən uşaq bağçalarının üzərinə böyük məsuliyyət düşür. Tədris müəssisələri uşağın bağçaya və yaxud da məktəbə qədəm qoyduğu ilk gündən onlarda təbiətə məhəbbət hissi aşılamalıdırlar. Əgər uşaqda təbiətə məhəbbət hissi ailədə yaradılıbdırsa təhsil müəssisələrində bunu davam etdirmək çox asan olacaqdır. Əks təqdirdə bu zəruri keyfiyyətlərin aşılanmasında böyük problemlər yaranacaqdır.

İbtidai siniflərdə bu məsələnin həll olunması bir vaxtlar "Ətraf aləmlə tanışlıq", "Təbiətşünaslıq" sonrakı siniflərdə isə "Coğrafiya", "Biologiya" fənləri vasitəsi ilə həyata keçirilirdi. Hazırda "Həyat bilgisi" fənni bunu çox asanlıqla həyata keçirməyə imkan verir. VI sinifdən başlayaraq coğrafiyanın müxtəlif kurslarında bu proses həyata keçirilir.

Şagirdlərlə ekologiya haqqında söhbətlər dərsdə, dərnək məşğələlərində, fakültativ məşğələlərdə, viktorinalarda, səhərciklərdə və s. aparıla bilər. Bunun üçün şagirdlər "Ekologiya nədir?" sualına cavab verməyi bacarmalıdır. Müəllim izahında bildirir ki, uşaqlar, ekologiya sözü iki yunan sözündən "ekos" –"ev", "yaşayış məskəni", "loqos" elm mənasını verən sözlərin birləşməsindən yaranıbdır (1, 4). Ekologiya elmi bizi əhatə edən təbiətin bitki və heyvanlara olan təsirini, onların əlverişli və hətta çirklənmiş ətraf mühitdə qarşılıqlı təsirini öyrənir. Ətraf mühiti çirklənmədən qorumaq, onun mühafizəsi və səmərəli istifadə yolları da ekologiya elminin bir sahəsidir. Müəllim qeyd edir ki, uşaqlar söz və yaxud da cümləni o zaman yaxşı oxuya bilərlər ki, orada bütün hərflər və sözlər öz yerində olsun. Təbiət də elə həmin sözə və yaxud da cümləyə bənzəyir. Ətraf mühitin mühafizəsi, onun ayrı-ayrı elementlərinin qorunub saxlanılması təbiətin tamlığı üçün vacibdir. Burada bir problem meydana çıxır şagird anlaya bilmir: Təbiəti qorumaq nə deməkdir, bunu qorumaq üçün haradan başlamaq lazımdır? Ona görə də istər coğrafiya müəllimləri, istərsə də biologiya müəllimləri şagirdlərə ilk növbədə ətraf mühit amillərini başa salmalıdırlar.

Müəllim şagirdlərə izah edir ki, Yer kürəsinin insan, bitki, heyvan və başqa canlıların yaşadığı şərait bütünlükdə təbii mühit adlanır. Deməli, şagirdə aydın olur ki, insan, bitki və heyvan bir-birindən təcrid olunmuş halda yaşaya bilməz, bunlar daim bir-biri ilə təmasda mövcud olmalıdırlar. Bu birgə yaşayışda qeyd edilən amillər həm bir-birinə, həm də təbiətə təsir edirlər bunun müqabilində isə təbiət də onlara təsir edir.

Müəllim göstərir: Uşaqlar, bizə elə gəlir ki, bu təsir çox qarmaqarışıq, mürəkkəb bir təsirdir. Təbii mühit amilləri ekoloji amillər də adlanır. Ekoloji amilləri bu sahə ilə məşğul olan mütəxəssislər, mənşəyinə görə iki qrupa bölürlər: cansız – *abiotik amillər* və canlı – *biotik amillər.* Müəllim şagirdlər üçün yeni olan bu sözləri yazı taxtasında yazmalı və hər sözü ayrıayrılıqda aydınlaşdırmalı, həmin sözləri terminlər lüğəti dəftərinə yazdırmalıdır. Sonra müəllim yeni sözlərin izahına başlayır.

*Abiotik amillər* izah olunarkən müəllim qeyd edir ki, abiotik amillər hamısı cansız təbiətin tərkib hissələridir. Bu amillər sırasına işıq, temperatur, rütubət, su, hava, torpaq və həmçinin onları təşkil edən elementlər daxildir.

Dərsi təlimin texniki vasitələrindən ayrı təsəvvür etmək qeyri-mümkündür. Xüsusən ekoloji məsələlərin öyrədilməsində təlimin texniki vasitələri əvəzsiz rola malikdir. Odur ki, müəllim öz məşğələlərini elektron lövhədə keçməli və bunun üçün slaydlar, qısa metrajlı video lentlər hazırlamalıdır. Təlimin texniki vasitələri ekoloji məsələlərin tədrisini daha da asanlaşdırmaqla qısa vaxt ərzində daha çox hadisə və prosesləri nümayiş etdirməyə imkan verir.

Müəllim qeyd edir ki, *biotik amillər* dedikdə heyvan və bitkiləri və digər canlıları və onların qarşılıqlı əlaqəsini nəzərdə tuturuq. Biotik amillərin xüsusi qrupunu antropogen amillər təşkil edir ki, bu da insanın təbiətin dəyişməsinə səbəb olan müxtəlif istiqamətlərdə göstərdiyi fəaliyyətidir.

Ekoloji famillər olan temperatur, rütubət, qida orqanizmə ciddi təsir edir. Bunun nəticəsində canlı orqanizmlərdə ciddi morfoloji dəyişikliklər yaranır. Məsələn, iynə yarpaqlı bitkilər, kaktus bitkiləri, səhralarda bitən dəvətikanı və s. bu amillərin təsiri ilə formalaşır. Deməli, ekoloji amillərin uzun müddətli təsiri nəticəsində bitki və heyvan növləri ya sıradan çıxmalı, ya da yeni şəraitə uyğunlaşmalıdır. Ətraf mühit amillərinin təsiri nəticəsində bitki və heyvanların sayı ya arta, ya da azala bilər. Bu məsələ haqqında məlumat verilərkən müəllim şagirdlərə belə bir sualla müraciət edir: Elə isə, uşaqlar, biz nə etməliyik?

İnsan yaşaması üçün o, daim təbiətlə əlaqə saxlamalıdır. Təbiətdən istifadə etməsək, yaşayışımızı təmin edə bilmərik. Pedaqogikada materialın şagirdlər tərəfindən maraqlı dinlənilməsi üçün verilən belə suallar problem situasiya adlanır və mövzunun maraqla dinlənilməsi üçün səmərəli üsuldur. Müəllim bu situasiyanı yaratdıqdan sonra qeyd edir: bunun üçün biz təbiətdə olan canlılar üçün optimal amilləri bilməliyik. O amillər optimal amillər adlanır ki, onlar canlı orqanizmlərin varlığına pis təsir etmir. Məsələn, tropiklər arasındakı temperatur fillərin, zürafələrin yaşayışı üçün əlverişli olduğu halda, qütb və qütb ətrafı ərazilərin temperaturu onlar üçün əlverişli deyil, Azərbaycan iqlimi pambıq bitkisinin inkişafı üçün əlverişli olduğu halda şimal ölkələrinin iqlimi İsveç, Norveç və s. ölkələrin iqlimi isə əlverişli deyildir. Hər bir orqanizm üçün mühitin istənilən amilinin – temperaturun, rütubətin, qidanın özünəuyğun *optimal səviyyəsi* və yaxud *optimumu* mövcuddur.

Biz əsas, yaradıcı amillər kimi abiotik amilləri qəbul etdik. Bu amilləri ayrı-ayrılıqda xarakterizə edək.

*İşıq.* Günəşdən bizə istilik və işıq enerjisi gəlir. Günəş olmasaydı, Yer kürəsi bu amillərdən məhrum olardı və həyat bu günkü formada olmazdı. Canlılar işığın təsir gücü və tərkibi ilə şərtlənib. Günəş şuasının tərkibində üç əsas şua canlı orqanizmlərə müxtəlif cür təsir edir. Bunlar ultrabənövşəyi şualar, infraqırmızı şualar və görünən şualardır (1, 8). Ultrabənövşəyi şualar əsasən həyat üçün qorxulu şualardır. Əgər atmosferdə ozon qatı olmasaydı, onda bu şualar yer kürəsində həyatın məhv olmasına səbəb olardı. Tədqiqatçı alimlər müəyyən etmişlər ki, bizim qorxulu saydığımız ultrabənövşəyi şualar insan və heyvanlarda "D", "A" vitamini əmələ gətirir, bəzi həşəratlar hətta ultrabənövşəyi şualarda görə bilir.

Yerdə istilik Günəşdən gələn infraqırmızı şuaların təsiri ilə yaranır. Bu istilik bütün canlıların həyat fəaliyyətini nizamlayır, hətta soyuqqanlı heyvanlar - qurbağa, ilan, kərtənkələ və s. günəş istiliyi hesabına həyat fəaliyyətlərini nizamlayırlar. Görünən şualar isə Günəşin əsas enerji daşıyıcılarıdır. Bu şuaların hesabına bitkilərdə fotosintez prosesi baş verir, üzvi maddələr yaranır. Həyatın mənbəyi görünən şualardır. Ancaq bəzi heyvanların, həmçinin xlorofili olmayan bəzi bitkilərin, torpaq altında, mağaralarda, suyun dərin qatlarında yaşayan bəzi heyvan növlərinin işığa ehtiyacı yoxdur.

Abiotik amillərdən digəri *temperaturdur.* Təbiətdə temperaturun dəyişilməsi canlı orqanizmlərin varlığına ciddi təsir edir. Canlı orqanizmlərdə baş verən mürəkkəb proseslər müəyyən temperaturda baş verir. Ancaq elə canlılar var ki, onlar öz temperaturlarını sabit saxlama qabiliyyətinə malikdirlər (2, 35). Məsələn, quşlarda orqanizmdəki temperatur $40^0$-dən yuxarı olur.

Ətraf mühit amillərindən digəri *rütubətdir.* Müəllim qeyd edir ki, "Su həyatdır", "hara-

da su varsa, orada həyat var" və s. kimi el deyimləri yaranıb. Bitki hüceyrələrinin 5/4 hissəsi sudan ibarətdir. Müəllim bu anda qeyd edir ki, bəzi canlılar var ki, onlar orqanizmlərində olan piy ehtiyatını parçalamaqla özü üçün su ehtiyatı yaradır, bəziləri isə suyu bitkilərdən alırlar. Suya olan tələbatına görə canlılar təbii mühitə uyğunlaşırlar və qruplaşdırılırlar.

Bu günku tədris prosesini təlimin texniki vasitələrindən ayrı hesab etmək olmaz. Odur ki, müəllimlərin hamısı, xüsusən coğrafiya və biologiya müəllimləri bu vasitələrdən geniş istifadə etməlidirlər. Əks təqdirdə dərslərində təlimin texniki vasitələrindən istifadə etmədən heç cür öz məqsədlərinə nail ola bilməzlər.

Planetimizin gələcəyi gənc nəslin əlində, onların yetişməsi isə müasir pedaqoji kadrlardan və onların pedaqoji ustalığından asılıdır. Gəlin planetimizin işıqlı sabahına aydın və açıq səma altında baxaq.

## ƏDƏBİYYAT

1. Ayna Uşaq Ensiklopediyası. Bakı: Ayna Mətbuat Evi, 2004.
2. Q. Məmmədov, M. Xəlilov. Ensiklopedik ekoloji lüğət. Bakı: Elm, 2008.
3. Q. Məmmədov, M. Xəlilov, S. Məmmədova. Aqroekologiya. Bakı, 2010.
4. Həyat bilgisi: VI siniflər üçün dərslik. Bakı, 2013.

**Е.Я. Сеидова**

## МЕТОДИКА ОБУЧЕНИЯ ФАКТОРОВ ОКРУЖАЮЩЕЙ СРЕДЫ СОЗДАЮЩИХ ЭКОЛОГИЧЕСКИЕ ПРОБЛЕМЫ

### *РЕЗЮМЕ*

В статье говорится об экологическом воспитании учащихся. Отмечается, что для этого необходимо изучение учащимися факторов окружающей среды. Факторы окружающей среды делятся на две группы: абиотические и биотические. К абиотическим факторам относятся: свет, температура, влага, вода, воздух,почва и др. Разработана методика изучения каждого из этих факторов в отдельности, так же пути использования технических средств в этом процессе и их значение.

**E. Seyidova**

## HOW TO TEACH STUDENTS THE METOD OF OUTSIDE EVENTS

### *SUMMARY*

Article talks about the teaching of ecological upbringing. Primarily it is shown that how to teach students surroundings objects. The surrounding objects are divided into abiotic and biotic. Abiotic objects include light, temperature, moisture, water, air, soil. The teaching of subjects were prepared in detal in terms of methodical. Project also mentions how to benefit from teaching instrument.

**Redaksiyaya daxil olub: 23.01.2017**

# V-VI SİNİFLƏRDƏ İNGİLİS DİLİ DƏRSLƏRİNDƏ YAZILI NİTQ BACARIQLARININ FORMALAŞDIRILMASI ZAMANI EDİLƏN ORFOQRAFİK SƏHVLƏR

**Ədilə Əliyeva,**

*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*Azərbaycan Dillər Universiteti*
E-mail: adilka_m@yahoo.com

**Rəyçilər:** *ped. ü. elm. dok., prof.* D.Ə. İsmayılova,
*ped. ü. elm. dok.* N.Ə. Abışov

***Açar sözlər:*** *yazılı nitq, orfoqrafik səhvlər, fonetik prinsip, morfoloji prinsip, tarixi (ənənəvi) prinsip, ieroqlifik (ideoqrafik) prinsip*

***Ключевые слова:*** *письменная речь, орфографические ошибки, фонетический принцип, морфологический принцип, исторический (традиционный) принцип, иероглифический (идеографический) принцип*

***Keywords:*** *written speech, orthographic mistakes, phonetic principle, morphological principle, historical (traditional) principle, hieroglyphic (ideographic) principle*

V-VI siniflərdə ingilis dili dərslərində yazı bacarıqlarının formalaşdırılması və inkişaf etdirilməsi zamanı qarşıya bir sıra orfoqrafik səhvlər çıxır. Bu səhvlər bir tərəfdən yazılı nitqə yiyələnmənin uzun bir proses olması ilə, digər tərəfdən isə bu problemi həll etmək üçün kifayət qədər vaxtın ayrılmaması ilə əlaqədardır. N.E.Solovovanın fikrincə, şagirdlərdə yazı bacarıqlarını formalaşdırılması zamanı uğur əldə etmək üçün onlara ilk növbədə orfoqrafiyanı tədris etmək lazımdır [1, 87].

Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün xarici dil fənni üzrə yeni təhsil proqramının (kurikulumun) yazıya verilən tələblərinə əsasən V sinif şagirdləri ingilis dili dərsi zamanı:

- düzgün yazı bacarıqları nümayiş etdirməli;
- verilmiş sözləri məna və qrammatik cəhətdən əlaqələndirərək cümlələr qurmalı;
- gördüyü əşya və hadisələrin adını yazmalı;
- sözlərdə böyük və kiçik hərflərin yazılış qaydalarına əməl etməlidirlər.

VI sinif şagirdləri isə:

- verilmiş cümlələr əsasında kiçik həcmli mətnlər qurmalı;
- gördüyü əşya və hadisələrin əlamətlərini yazmalı;
- sözləri orfoqrafiya qaydalarına uyğun yazmalı;
- məktub və elan yazmalıdırlar [2, 24].

Ümumtəhsil məktəblərində xarici dil təliminin əsas məqsədi nitq, dil və kommunikativ bacarıqların mənimsədilməsi üzərində iş aparmaqla şagirdlərdə şifahi və yazılı nitq mədəniyyətinin formalaşdırılması kimi müəyyənləşdirilir. Göstərilən məqsədə nail olmaq üçün isə şagirdlərin vacib linqvistik, yəni orfoqrafik, leksik və s. biliklərə yiyələnməsi zəruridir [2, 8].

Orfoqrafik səhv o səhv hesab olunur ki, yazı zamanı səhv buraxılsa belə həmin sözü tələffüz edərkən səs tərkibində heç bir dəyişiklik baş vermir. Məsələn, “city” sözünün əvəzinə “city” yazılması şübhəsiz ki, orfoqrafik səhvlər kateqoriyasına aiddir. Lakin qeyd etmək lazımdır ki, sözün yazılışı zamanı buraxılan səhv onun səs tərkibinə xələl gətirirsə, o zaman söhbət orfoqrafik səhvdən deyil, ingilis dilinin qrafik qaydalarını bilməməkdən gedir. Məhz buna görə də V - VI siniflərdə ingilis dili dərslərində yazılı nitq bacarıqlarını inkişaf etdirən zaman yazının tədrisi prinsiplərini nəzərə almaq lazımdır. Məlum olduğu kimi, metodikada ingilis dilinin orfoqrafik sistemi dörd əsas prinsipə: fonetik prinsip, morfoloji prinsip, tarixi (ənənəvi) prinsip və ieroqlifik (ideoqrafik) prinsipə əsaslanır [3, 257 ].

Yazının fonetik prinsipi : “Dediyin kimi yaz” qaydası ilə müəyyən olunur. Bu halda yazı zamanı dayaq kimi tələffüz əsas götürülür. Yazan şəxs sözlərdəki səsləri tələffüz edərək onları

sözlərdəki hərflərə uyğun ifadə edir. Bununla da sözün tələffüzü ilə yazılışı arasında uyğunluq yaranır, məsələn: *ten, desk, on, frog*. Beləliklə, yazının fonetik prinsipinin əsası səsli analiz olur ki, bu da yazan şəxsdən yazdığı sözlərə uyğun səsləri müəyyənləşdirmək və onları ayırd etmək, daha sonra isə bu səsləri müvafiq hərflərlə qeydə almaq tələb olunur.

Yazının morfoloji prinsipi dedikdə, yazı zamanı bu və ya digər bir morfem şəkilçi qəbul etdiyi zaman həmişə öz qrafik obrazını qoruyub saxlayır. Məsələn, *"read"* morfemi *reread, readable, reader, reading* sözlərində morfemin səslənməsi fərqli olsa da öz qrafik obrazını qoruyub saxlayır. Müasir ingilis dilində yazının morfoloji prinsipi xüsusilə isimlərin cəm formasını "–s, -es" vasitəsilə, indiki qeyri - müəyyən zamanda üçüncü şəxsin təkində felin sonuna "–s, -es" artırmaq vasitəsilə, keçmiş qeyri - müəyyən zaman qaydalı fellərin sonuna "–ed" əlavə etmək vasitəsilə, sifətlərin sonuna müqayisə və üstünlük dərəcələrini düzəltmək üçün "–er, - est " şəkilçiləri vasitəsilə dəyişdikdə qrafik formada öz əksini tapır.

Belə bir fikir mövcuddur ki, yazının morfoloji prinsipinə müəyyən qaydalar tətbiq edilə bilən müasir ingilis dilinin orfoqrafik qaydalarını da aid etmək olar. Bura aşağıdakı orfoqrafik qaydalar aiddir:

1. Səssiz hərf (silent letter) V - VI sinif şagirdləri üçün yazı zamanı əksər hallarda problem yaradır. İngilis dilində bir çox sözlər var ki, onların tərkibində səssiz hərflər mövcuddur. Bu hərflər tələffüz olunmadığına görə, onları transkripsiyada görmək mümkün deyil.

Məsələn: "beautiful" sözünün yazılışı zamanı doqquz hərfdən istifadə olsa da tələffüz zamanı [bju:təfl] altı səsdən ibarətdir, çünki "eau"- [ju:] kimi tələffüz olunur, "u"- isə səssiz (oxunmayan) hərfdir.

Bundan başqa bir çox sözlərin sonunda oxunmayan hərf - "e" hərfidir. V-VI sinif şagirdləri bilməlidirlər ki, "e" sözlərin sonunda yazılır, lakin tələffüz olunmur. Eyni zamanda şagirdlər sözün sonunda işlənən "e" hərfinin özündən əvvəlki hecada işlənən saitin əlifbadakı adı kimi oxunmasına təsir göstərdiyini də bilməlidirlər. Çünki əgər "e" hərfi həmin sözün sonunda işlənməsə, bu, sözdə məna dəyişikliyinə gətirib çıxarır. Məsələn: fine-fin [faın-fin], mate-mat [meıt-mæt], rate-rat, [reıt-ræt].

V-VI sinif şagirdlərinin buraxdıqları səhvlər sırasına tələffüz zamanı bir səs kimi eşidilən, lakin qoşa samit kimi yazılan hərflər də aiddir. Məsələn: press- [pres], grass-[gra:s], pepper-[pepə].

2. Səssiz b sözün sonunda m hərfindən əvvəl gələrsə tələffüz olunmur. Məsələn: limb [lım], thumb [*ϑʌm*].

3. Səssiz g adətən n hərfindən əvvəl gəldikdə tələffüz olunmur. Məsələn: foreign [fɔrin], sign [saın].

4. Səssiz gh saitdən sonra gələrsə tələffüz olunmur. Məsələn: daughter [dɔ:tə], through [θru:]. Bəzən isə gh- f kimi tələffüz olunur. Məsələn: laugh [la:f].

5. Səssiz h- w hərfindən sonra gəldikdə tələffüz olunmur. Məsələn: what [wɔt], when [wen], why [waı]. Bundan başqa h səsi bəzən sözlərin əvvəlində gəldikdə də tələffüz olunmur. Lakin bu zaman həmin sözlərin qarşısında "an" artikli işlədilməlidir. Məsələn: an hour [ən auə].

6. Səssiz k sözlərin əvvəlində n hərfindən qabaq gəldikdə tələffüz olunmur. Məsələn: knee [ni:], knife [naıf], know [nou]

7. Səssiz l- a, o, u saitlərindən əvvəl tələffüz olunmur. Məsələn: could [kud], calm [ka:m].

8. Səssiz u- sözün içində g hərfindən sonra və saitdən qabaq gələrsə tələffüz olunmur. Məsələn: build [bıld], guitar [gıta:]

9. Səssiz w sözlərin əvvəlində r hərfindən əvvəl gələrsə tələffüz olunmur. Məsələn: write [raıt], wrap [ræp]

10. –es, -ed şəkilçiləri artırılan zaman özündən əvvəl samit gələrsə y hərfinin i hərfi ilə əvəz olunması. Məsələn: fly [flaı]-flies [flaız], try [traı]-tried [traıd].

11. –ing şəkilçisi əlavə edilən zaman **y** hərfinin dəyişməməsi. Məsələn: stay [steı]-staying, play [pleı]-playing.

12. Sözün sonunda v hərfindən sonra e hərfinin yazılması. Məsələn: move [mu:v], live [lıv].

13. e, i, y saitlərindən əvvəl c hərfinin yazılması. Məsələn: rice [raıs], city [sıtı], cycle [saıkl].

14. Sual sözləri olan "what [wɔt], when [wen], who [hu:], where [weə], why [waı], whose [hu:z], whom [hu:m]" sözlərində wh hərf birləşməsinin yazılması.

15. Queen [kwi:n], quest [kwest] sözlərində qu hərf birləşməsinin yazılması.

İngilis dilində bir çox sözlərin yazılışı zamanı fonetik və morfoloji prinsiplərə riayət olunmasına baxmayaraq yazının tədrisində əsas prinsip tarixi və ya ənənəvi prinsip hesab olunur.

Tarixi prinsiplə yazılan sözləri nə fonetik, nə də morfoloji cəhətdən izah etmək mümkün deyil. Bu sözlərin yazılışı tələffüzün itmiş qaydalarını, keçmişdə istifadə olunmuş müxtəlif orfoqrafik qaydaları, və yaxud ümumiyyətlə ənənələrlə möhkəmləndirilmiş təsadüfi yazılışları əks etdirir. Məsələn, listen, one, busy, answer, ancient, science, seize, weird, weigh sözləri buna misal ola bilər.

Tarixi yazılış həmcins qrupları özündə əks etdirmir. Ənənəvi prinsiplə yazını dil tarixinin köməyi ilə izah etmək olur, amma bu da həmişə mümkün olmur. Sözlərin orfoqrafik şəkli bir çox hallarda onun etimologiyasını müəyyən etməyə imkan verir. Məsələn, ingilis sözlərinin sonunda [i], [əu], [ju] səsləri eşidilirsə heç vaxt *i, ou, eu* deyil, bu hərflərin əvəzinə y, ow, ew hərfləri yazılmalıdır. Bu cür qanunauyğunluqların V - VI sinif şagirdləri tərəfindən mənimsənilməsi ingilis dili dərslərində onlara orfoqrafiyaya yiyələnməyə kömək edir, çünki təkcə səslər haqqında təsəvvürün olması hələ kifayət etmir. Belə ki, yazının formalaşmasına və inkişafına xidmət edən müəyyən qaydaları bilmək lazımdır [4, 198].

İeroqlifik (ideoqrafik) prinsipə əsaslanan yazı zamanı səs omonimlərini fərqləndirmək üçün sözləri yazarkən xüsusi işarələrdən istifadə olunur. Bütövlükdə söz yazılışının çətinlik dərəcəsi ingilis dilində orfoqrafiyanın bu və ya digər prinsipinin üstünlük təşkil etməsindən asılıdır. Belə ki, fonetik prinsipin dominant olduğu orfoqrafiya daha asan, əsas etibarilə ənənəvi prinsipə əsaslanan orfoqrafiya isə daha çətin hesab olunur. Morfoloji prinsip üstünlük təşkil etdiyi halda isə sözün morfem elementi üzərində işə xüsusi diqqət yetirilməlidir.

Orfoqrafik səhvləri müxtəlif xüsusiyyətlərə görə - onların linqvistik və psixoloji təbiətinə görə, yaranma səbəblərinə görə, aradan qaldırılma çətinliklərinə görə, və digər xüsusiyyətlərə görə təsnif etmək olar. O.İ.Nikiforova orfoqrafik səhvləri psixoloji cəhətdən analiz edərkən onları aşağıdakı şəkildə təsnif etmişdir:

1. Sözün yazılışı və tələffüzünü eyniləşdirən zaman əmələ gələn səhvlər. Məsələn, "hour" sözü əvəzinə "our" yazılması bu cür səhvlərə aiddir.

2. Diqqətsizlikdən edilən səhvlər (sözdə hərfin buraxılması, sözdə hərflərin yerinin qarışdırılması, sözdə artıq hərflərin yazılması). Məsələn, "apple" sözü əvəzinə "aple", "umbrella" sözü əvəzinə "umbrela", "friend" sözü əvəzinə "freind", "forty" sözü əvəzinə "fourty" yazılması diqqətsizlik səbəbindən edilən səhvlərə aid edilə bilər.

3. Azərbaycan dilində olan sözlərin yazılışının ingilis dilinə tətbiq edilməsi nəticəsində meydana gələn səhvlər. Məsələn, bəzən V-VI sinif şagirdləri ingilis dilində olan "telephone" sözünü Azərbaycan dilində analoji olan "telefon" sözü ilə səhv salaraq "ph" hərf birləşməsi əvəzinə "f" hərfini yazırlar ki, bu da yazı zamanı şagirdlərin qarşısına çıxan ən böyük problemlərdən biridir.

4. İngilis dilinin şagirdlərə tanış olan xüsusiyyətlərinin səhvən ümumiləşdirilməsi nəticəsində meydana gələn səhvlər [5]. Məsələn, V - VI sinif şagirdləri ingilis dilində öyrəndikləri "full" sözünə uyğun olaraq " beautiful, wonderful, careful" sözlərini səhvən "beautifull, wonderfull, carefull " kimi yazırlar.

Bütün bu deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, V-VI sinif şagirdlərində ingilis dili dərslərində yazılı nitq bacarıqlarını formalaşdıran və inkişaf etdirən zaman orfoqrafik səhvlərin buraxılmasının qarşısını almaq üçün müəllimlər hər hansı yeni bir sözü izah edərkən onun orfoqrafik xüsusiyyətlərinə diqqət verməli və şagirdlərdə "orfoqrafik hissetmə" və özünüidarəetmə bacarığı inkişaf etdirmək üçün onlara müxtəlif tapşırıq növləri təklif etməlidirlər.

**Problemin aktuallığı:** Ümumtəhsil məktəblərində V - VI siniflərdə ingilis dili dərslərində yazılı nitq bacarıqlarının formalaşdırılması zamanı hələ də şagirdlər orfoqrafik səhvlərə yol verirlər ki, bu da yazı zamanı çox böyük problemlər törədir.

**Problemin yeniliyi:** V - VI siniflərdə ingilis dili dərslərində yazı zamanı edilən orfoqra-

fik səhvlərin buraxılma səbəbləri ətraflı şəkildə məqalədə öz əksini tapmışdır.

**Problemin praktik əhəmiyyəti:** V-VI siniflərdə ingilis dili dərslərində yazılı nitq bacarıqlarının formalaşdırılması zamanı məqalənin nəticələrindən istifadə oluna bilər.

## ƏDƏBİYYAT


1. Соловова Е.Н. Методика обучения иностранным языкам: Базовый курс лекций: Пособие для студентов педвузов и учителей. М.: Просвещение, 2002.
2. www. cdn-media1.teachertube.com,Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün xarici dil fənni üzrə təhsil proqramı (kurikulumu) (I-XI siniflər). Bakı, 2013.
3. Миролюбов А.А., Рахманова И.В., Цетлин В.С. Общая методика обучения иностранным языкам. М.: Просвещение, 1967.
4. Рогова Г.В., Рабинович Ф.М., Сахарова Т.Е. Методика обучения иностранным языкам в средней школе. М.: Просвещение, 1991.
5. Никифорова О.И., Анализ ошибок в письменных работах по иностранному языку, «Иностранные языки в школе», 1954, № 2
6. Конышева А.В., Современные методы обучения английскому языку. Мн.: Тетра Системс, 2005.
7. Рогова Г.В., Верещагина И.Н., Методика обучения английскому языку на начальном этапе в общеобразовательных учреждениях.: Пособие для учителей и студентов пед.ВУЗов. М.: Просвещение, 2000.
8. Səfiquliyev. Ş.Ə., Xarici dildə şifahi nitqin inkişafında yazının rolu. Bakı, 1970.


**А.А.Алиева**

## ОРФОГРАФИЧЕСКИЕ ОШИБКИ, ДОПУЩЕННЫЕ В ФОРМИРОВАНИИ НАВЫКОВ ПИСЬМЕННОЙ РЕЧИ НА УРОКАХ АНГЛИЙСКОГО ЯЗЫКА В V-VI КЛАССАХ


### *РЕЗЮМЕ*

В статье говорится об орфографических ошибках, допущенных в формировании навыков письменной речи на уроках английского языка в V - VI классах. Рассматриваются четыре основных принципа письменной речи- фонетический принцип, морфологический принцип, традиционный (исторический) принцип, иероглифический (идеографический) принцип. Автор статьи отмечает, что ошибки можно предупредить, если при объяснении слов обратить внимание на их орфографические особенности и предложить учащимся разнообразные упражнения, развивая у них «орфографическое чутье» и навык самоконтроля.


**A.A.Aliyeva**

## ORTHOGRAPHIC MISTAKES MADE IN FORMATION OF WRITTEN SPEECH SKILLS IN ENGLISH V-VI CLASSES


### *SUMMARY*

The article deals with the orthographic mistakes made in formation of written speech skills in English V-VI classes. Four main principles of written speech - phonetic principle, morphological principle, historical (traditional) principle, hieroglyphic (ideographic) principle are considered. The mistakes can be informed if attention is paid to the orthographic peculiarities while explaining the words and the students are suggested different types of exercises improving their self control skills and the skill of “orthographic feeling”.


**Redaksiyaya daxil olub: 13.01.2017**

# MÜASİR İNGİLİS DİLİ DƏRSLƏRİNDƏ İNTEQRATİVLİYİN ÖYRƏNİLMƏSİ YOLLARI

**Təzəgül Hüseynova,**
*Nizami rayonu Zəngi liseyinin*
*ingilis dili müəllimi*
E-mail: tezegul_huseynova@hotmail.com

**Rəyçilər:** *ped.ü.fəls.dok., dos. R. Salahov,*
*ped.ü.fəls.dok. F.Ə. Rzayeva*

***Açar sözlər:*** *inteqrasiya, qlobal səriştələr, fənlərarası əlaqə, idraki inkişaf*
***Ключевые слова:*** *интеграция, глобальные компетенции, межпредметная связь, когнитивное развитие*
***Key words:*** *integration, global skills, interdisciplinary relation, cognitive development*

Müasir dövrdə həyatımızda baş verən dinamik dəyişikliklər müxtəlif bilik və bacarıqların qazanılması və inkişafı sayəsində əldə olunur. Bugünkü qlobal səriştələr, müxtəlif mədəniyyətlərin öyrənilməsi və sosial problemlərin həlli məhz təhsildə bu bacarıqların mərkəzləşməsindən asılıdır. Müxtəlif bilik və bacarıqların qazanılması təlimdə fənlərin bir-birinə məqsədyönlü şəkildə inteqrasiya edilməsi, problemin həllində bir-birinə köməyi deməkdir. Şəxsiyyət yönümlü təhsildə də ingilis dilinin inteqrativ bilik və bacarıqlar əsasında dəyərlərə söykənərək qazanılması təhsildə mədəniyyətlər arası əlaqələrin öyrənilməsinə xidmət edir.

İnteraktiv təlimin ən vacib şərtlərindən olan qarşılıqlı təsir nəticəsində qazanılan biliyin qısa müddətə praktikada tətbiqidir. Bu gün peşə bacarıqları zəif olan şagirdlər real həyatda, məişətdə rastlaşdıqları problemi həll etməkdə çətinlik çəkirlər. Bərabərhüquqlu təlim mühiti yarandıqdan sonra isti dil mühiti qarşılıqlı təsir nəticəsində yaranır. Müasir dövrdə ingilis dilində aktual mövzuların müxtəlif aspektlərdən öyrənilməsi və anlaşılmasını kompleks şəkildə şagirdlərdə real həyat bacarıqları formalaşdırır. Digər fənlərdən fərqli olaraq, ingilis dili daha çox inteqrasiya edilən fənn kimi, müxtəlif seçimli imkanları və qabiliyyətləri daha tez üzə çıxarır.

İngilis dilinin tədrisində təkcə bilik və dil bacarıqlarının inteqrasiyası deyil, eyni zamanda qarşılıqlı ünsiyyət zamanı davranışların, nitq etiketlərinin müxtəlif kontekstlərdə dildə işlənməsi əsas götürülür. Burada inteqrasiyaya şagirdlərin qazandığı biliklərin fəndaxili və fənlərarası inteqrasiyası kimi dəyərləndirilməsi kimi başa düşülür. Burada didaktik sistemin tələbləri və nitq qabiliyyətinin formalaşmasına xidmət edən komponentlər daxildir.

Dilin interativ öyrənilməsini təklif edən Koyle (Coyle 2007) onun dörd əsas istiqamətdə mənimsənilməsinin yazır:

- Kommunikasiya: dil kompetensiyalarının təkmilləşdirilməsi
- Məzmun: fənn üzrə bilik və bacarıqlar
- Mədəniyyətlər: mədəniyyətlərarası qarşılıqlı alama
- İdrakı inkişaf: Düşüncə vərdişinin inkişafı




(Cole 2007)

Koyleyə görə, dilin inteqrativ öyrənilməsi fənnin məzmunu belə xarakterizə olunur: lüğətin öyrənilməsi əsasında şagirdlərin kəşf etmə bacarıqlarının, idrakı düşüncələrinin inkişaf etdirilməsini və mövzunun yazılı ifadə olunmasında fikirlərin *müəyyən edilməsi, verilmiş fikirlərə münasibət bildirilməsi, dəyərləndirilməsi, fərziyyələrin, nəticənin və nümunənin verilməsi* və sonda öyrənmə bacarıqlarının qazanılmasında *məlumatların yerləşdirilməsi və şərhi və təsnifatı.*

Bu diaqram göstərir ki, dilin inteqrativ öyrənilməsi fənninin əsas məzmununa mərkəzində qazanır. Bu baxımdan müəllim mövzu üzrə dilin nəyə xidmət etdiyini müəyyən edərək dərsin məqsədlərini asanlıqla müəyyən edəcəkdir. Bizim fikrimizcə də, ingilis dilinin tədrisində inteqrativlik konseptual bir yanaşma olduğu nəzərə alınaraq dilin qazanılmasına xidmət edən müxtəlif sahələri əhatə edir:

- qarşılıqlı anlamanı gücləndirir, söhbətin davam etməsinə imkan yaradır və ümumi anlayışların öyrənilməsinə yer verilir.
- söhbət zamanı qarşılıqlı asılılıq ümumi anlamda başa düşülür, müxtəlif fikirlər, ideyalar və məlumatlar dəyərləndirilir.
- qərar qəbuletmə qabiliyyətini, tənqidi və yaradıcı düşüncəni artırır, və inteqrativ şəkildə biliklərin sintezinə nail olurlar.
- müəyyən etmək, dəyərləndirmək, analiz etmək, məlumatları transfer etmək və problemlərin həllində müxtəlif fikirlər irəli sürmək qabiliyyətləri qazanılır.
- kooperativ təlimə imkan yaradır, müxtəlif yanaşmalarda şagirdlərin cəmiyyətin faydalı bir üzvü olduğunu xatırladır.
- təlimdə motivasiyasını gücləndirir.

İngilis dilinin inteqrativ təlimi eyni zamanda linqvistik bacarıqları qazanılması daxilində lüğət bacarıqlarını formalaşmasına, lazımi söz və ya söz birləşmələrinin yerli-yerində işlənməsinə, uyğun situasiya daxilində mövzuların əlaqələndirilməsinə imkan yaradır. İngilis dilinin gündəlik həyatda işlənməsi kommunikativ bacarıqların formalaşmasına xidmət edərək lüğət və dil bacarıqlarını inkişaf etdirir, öyrəndiklərini gündəlik həyatda olan ehtiyacları ilə əlaqələndirərək məktəb mühitində, ailədə, icmada və cəmiyyətdə tətbiq etməyə başlayırlar.

Fəndaxili inteqrasiyanın nəzərə alınması və həyata keçirilməsi konkret vaxt ərzində şagirddə nitq fəaliyyətinin növlərinin tam – vəhdət halında inkişafı üçün zəmin yaradır.

İngilis dilinin məzmununda inteqrasiya digər fənlərə istinad edərək biliklərin aktuallaşdırılması, eyni istiqamətlilik, perspektiv əlaqələri ümumi faktlar, anlayışlar, mülahizələr əsasında öyrənməkdir. İnteqrasiya dil bacarıqlarının müxtəlif mövzular daxilində inteqrasiyası kimi başa düşülür. Təlim zamanı bu əlaqələri artırmaq üçün müxtəlif tədris materiallarından istifadə edilir. Burada mövzu üzrə problemin həlli

inteqrativ bacarıqların qazanılmasına əsaslanaraq aşağıdakı mərhələlərlə həyata keçirilir:

*1. İzahetmə və məlumatların ötürülməsi;*

*2. Müşahidə və müqayisələrin aparılması;*

*3. Tədqiqat, mənbələrdən istifadə və təhlillərin aparılması;*

*4. Ümumiləşdirmə və yaradıcı işin tətbiq edilməsi;*

1. Təlimdə mövzunun izahı və yeni məlumatların ötürülməsi əvvəlcədən təşkil edilərək şagirdlərə ötürülməlidir ki, mövzunun inteqrativ şəkildə öyrənilməsi planını hazırlayırlar.

2. Müşahidə və müqayisələr aparma mərhələsində şagirdlər ya sinif daxilində ya da sinifdən kənar şəraitdə mövzu üzrə müşahidələr və müqayisələr apararaq problemin yaranma səbəbini müəyyən edirlər.

3. Tədqiqat, təhlil və mənbələrdən istifadə daha çox mövzu ətrafında müxtəlif fənlərə istinad etməyi formalaşdırır. Şagirdlərin mövzu üzrə qoyulan problem ətrafında müxtəlif fikirləri toplayır və təhlillər apararaq həlli yollarını müəyyən edirlər.

4. Ümumiləşdirmə və yaradıcı işin tətbiqi zamanı mövzu ətrafında fənlərarası tapşırıqların həllinin ümumiləşdirilməsi baş verir və yeni yaradıcı iş tətbiq edilir. Tətbiq edilən işin faydasını öyrənilərək təklif və ya layihə formasında həyata keçirilir.

Xarici dil dərslərində inteqrativ əlaqələrin həyata keçirilməsi vasitələri araşdırmalar göstərir ki, fənlərarası və fəndaxili münasibətlərin sadəcə əlaqə deyil, inteqrasiya xarakteri daşıması bu münasibətlərin daha sıx və möhkəm olmasına, onun bütöv bir prosesə çevrilməsinə şərait yaradır.

Bundan əlavə, fənlərarası və fəndaxili inteqrasiya interaktiv öyrənməyə geniş yol açır. Şagirdlərin təbiət, cəmiyyət və insanlar haqqında qarşılıqlı əlaqələr şəraitində qurulmuş biliklərə yiyələnməsini stimullaşdırır. Fənlərarası və fəndaxili əlaqə bu imkanları genişləndirməklə şagird fəaliyyətini məntiqi, tənqidi və yaradıcı məcrada istiqamətləndirir, onun koqnitiv xarakter almasına təsir göstərir, dünyagörüşü, dünyəvi və aksioloji biliklərə marağın inkişaf etdirilməsinə şərait yaradır.

Dilin tədrisində iki tipdə inteqrativ bacarıqları formalaşdıran təlimat mövcuddur: məzmuna əsaslanan təlimatlar və tapşırıqlara əsaslanan təlimatlar. İlk təlimat dilin məzmun daxilində tədrisinə əsaslanır, sonrakı mərhələdə artıq bu tapşırıqların kommunikasiyada işlənməsi tələb olunur. Hər iki halda şagirdlər səmərəli şəkildə materiallardan, dərsliklərdən və müasir texnologiyalardan faydalanırlar.

Məzmuna əsaslana təlim zamanı şagirdlər bütün dil bacarıqlarına yüksək səviyyədə inteqrasiya edirlər. Kommunikativ fəaliyyət zamanı elmi fənlərə, ətraf mühit, ailə dəyərləri, riyazi hesablamalara, tarixi faktların öyrənilməsinə, coğrafi zonaların öyrənilməsi və ekoloji mədəniyyətə, sağlam həyat tərzinə və sosial fənlərə inteqrasiya edərək qlobal səriştələr qazanırlar.

Tapşırığa əsaslanan təlimdə və şagirdlər mətndə verilən hər hansı bir tapşırıq əsasında leksik, qrammatik və kommunikativ bacarıqlarını birlikdə inteqrativ şəkildə inkişaf etdirirlər.

**Nəticə.** Xarici dil müxtəlif xalqların və dövlətlərin ictimai-siyasi, iqtisadi, elmi-mədəni həyatı haqqında biliklərin əldə olunmasına, xarici ölkələrin müxtəlif sahələrdə qazandığı təcrübəni birbaşa öyrənməyə imkan verir. Əldə olunmuş təcrübələr də onu göstərir ki, uyğun elm sahələrinin müəyyən müstəvidə əlaqələndirilməsi, bütövləşdirilməsi və vahid formada təqdim olunması təlim marağını yaradan başlıca vasitələrdən hesab edilir. Təhsilin məzmunu anlayışından danışarkən həmişə onun bilik, bacarıq və vərdişlər sistemindən ibarət olması və proqramlarda, dərsliklərdə əks edilməsi göstərilir. Fənlərin bir-birinə inteqrasiyası təhsildə davamlı inkişafın əsasını qoyur və müxtəlif fənlərin məzmunca əlaqələnməsi deməkdir. İnteqrativ təlim kurikulumların idarə olunması müxtəlif fənlərin təlim nəticələri və gözləntilərinə istinad edilərək öyrənilir. Şagirdlər müxtəlif elm sahələrinin qovşağında, əlaqəli anlayışların sintezində daha məhsuldar çalışmaqla təlim nailiyyətləri qazana bilirlər.

**Problemin aktuallığı.** Məqalənin aktuallığı odur ki, müasir dövrdə ingilis dilinin inteqrativ şəraitdə öyrənilməsi və tətbiqi sahəsində orta ümumtəhsil məktəblərində müəyyən çətinliklər mövcuddur. Təlimdə inteqrativ bacarıqların qarşılıqlı şəkildə formalaşması üçün səmərəli yanaşmalar, çox şaxəli təcrübələr əhəmiyyətli rol oynamağa başlamışdır. Şagirdlərin ingilis dilində dinləyib-anlama, danışma, oxu və yazı bacarıqlarını düzgün formalaşmasında kifa-

yət qədər texnologiyalar mövcud olsa da, pedaqoji prosesdə bu bacarıqların hansı formada bir-birinə inteqrasiya etməsi, digər fənlərlə əlaqə, yaradıcılıq, tənqidi təfəkkürün inkişafı və dəyərlərin öyrənilməsində metodiki çatışmazlıqlarla üz-üzə gəlirik. İslahat dövründə quruculuq işlərinin inteqrasiya prinsipi əsasında aparılmasında başlıca istiqamətlərdən biri məzmunun müasir müstəvidə formalaşdırılması olmuşdur.

**Problemin elmi yeniliyi.** İngilis dilinin inteqrativ şəkildə öyrənilməsinin müasir yolları müəllimlər üçün faydalı bir tövsiyə ola bilər. Ən aşağı səviyyədə belə inteqrativ təlim fərqli fənlər arasında müəyyən edilə bilən araşdırmalar və ya layihələr çərçivəsində, mövzuların sərhədlərin asanlıqla aşa bilir. Məqalə orta ümumtəhsil məktəblərində ingilis dilinin inteqrativ yolla öyrənilməsinin üstünlüklərini düzgün izah etməyin yollarını açıqlayır. İnteqrativ təlimdə şagird maraqlarının nəzərə alınmasını, inteqrasiyanın öyrənilməsinin faydası və yaradıcı təfəkkürün formalaşmasına təsiri şərh edilir.

**Problemin nəzəri və praktik əhəmiyyəti** ondan ibarətdir ki, fənlərin nəzəri və praktik funksiyalarının artırılması üçün onun bir çox elm sahələrinə aid anlayışları əhatə etməsinə əsaslanır, sinkretik xarakterə malik olmasına diqqət yetirilmişdir. İngilis dilinin tədrisində fənlər haqqında ümumi anlayışın, qanunların, nəzəriyyələrin, ideyaların, kompleks problemlərin qavranılması nəzərdə tutulur. İngilis dilinin tədrisində inteqrasiyanın praktiki əhəmiyyəti fənnin məzmununa yenilik gətirəcək, müxtəlif dil bacarıqları müxtəlif funksiyalar nəticəsində qazanılacaq.

## ƏDƏBİYYAT

1. Abbasov Ə., Əhmədov A. Ümumi təhsildə inteqrasiya: müasir yanaşmalar. "Təhsil problemləri" qəz., 2013, 30 iyun

2. Kərimov F.Y., Əhmədova M.C., Varella G., Reyli Ə. İnteqrativ kurikulum: mahiyyəti və nümunələr. Bakı: Adiloğlu, 2006.

3. Coyle, D.A. 2006. Developing CLIL: Towards a theory of practice, Monograph 6, APAC, Barcelona, Spain. 2007. A vision for CLIL: past, present and future action; handout from CLIL Conference, March 2nd, Anglo-European School, Bishop's Stortford, UK.

4. Perez-Vidal C. 2009. 'The integration of content and language in the classroom: a European approach to education (the second time round)' in CLIL across educational levels, Madrid: Santillana / Richmond.

5. Wannagat, U.2007. 'Learning through L2- Content and language integrated learning (CLIL) and English as a medium of instruction' in International Journal of Bilingual Education and Bilingualism, Vol. 10, number 5, 2007.

**Т. Гусейнова**

## ПУТИ ИЗУЧЕНИЯ ИНТЕГРАТИВНОСТИ НА СОВРЕМЕННЫХ УРОКАХ АНГЛИЙСКОГО ЯЗЫКА

***РЕЗЮМЕ***

В статье рассматриваются пути изучения интеграции в преподавании английского языка. Были исследованы полезные ресурсы об интеграции на английском языке, выявлены типы интеграции и проанализированы теоретические и практические вопросы.

**T. Huseynova**

## LEARNING WAYS OF INTEGRATION IN MODERN ENGLISH LANGUAGE LESSONS

***SUMMARY***

The article deals with the learning integration in teaching English. The most useful resources about integration in English have been investigated, the types of integration have been introduced and analyzed theoretically and practically.

**Redaksiyaya daxil olub: 05.01.2017**

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN 6-CI SİNFİNDƏ BİOLOGİYADAN FƏNDAXİLİ İNTEQRASİYANIN TƏŞKİLİ

**Sevinc Mehdiyeva,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant,*
*ADPU*
E-mail: mehdiyeva.82@inbox.ru

**Rəyçilər***: ped.ü.elm.dok., prof.* Ə.M. Hüseynov,
*biol..ü.fəls.dok., dos.* T.Q. Abdullayeva

***Açar sözlər:*** *fəndaxili inteqrasiya, kurikulum, məzmun standartı, dərslik, flora, fauna, qiymətləndirmə, orqanizm*

***Ключевые слова:*** *внутрипредметная интеграция, курикулум, учебник, флора, фауна, оценивание, организм*

***Key words:*** *inter-subject relation, curriculum, content standards, textbook, flora, fauna, assessment, organism*

İnteqrasiya – təhsilin məzmun komponentlərinin bir-biri və həyatla sistemli şəkildə əlaqələndirilməsidir. Tədrisdə inteqrasiyanın tətbiqi obyekt və hadisənin tam, hərtərəfli dərk edilməsini asanlaşdırır, mənimsəməni yaxşılaşdırır.

Təlimin keyfiyyətini yüksəldən amillərdən biri tədrisdə inteqrativ əlaqə imkanlarının yaradılmasıdır. Fənlərin tədrisində tətbiq etdiyimiz fənn kurikulumlarının əsas prinsiplərindən biri inteqrasiyadır. Orada inteqrasiyanın fənlərarası və fəndaxili istiqamətlərindən istifadə edilməsi tələbi qoyulur. Biologiya fənn kurikulumunda canlılar aləmi barədə bilik və bacarıqlar biologiyanın botanika, zoologiya, insan anatomiya, fiziologiya və gigiyenası, ekologiyası, ümumi biologiya və s. kimi ayrı-ayrı sahələr üzrə deyil, canlıların quruluşunun, onlarda baş verən fiziki, kimyəvi, bioloji proseslərin, canlıların bir-biri ilə, ətraf mühitlə, həyatla qarşılıqlı əlaqəsinin vəhdəti kimi təqdim edir. (1) Beləliklə, canlılar aləminin, bütövlükdə dünyanın vahid bir sistem kimi qavranılmasının mümkünlüyü nəzərə çatdırılır.

Kurikulumda hər bir məzmun standartı yuxarı siniflərə qalxdıqca daha da təkmilləşir, spiralvari inkişaf edir. Bu inkişaf tədrisdə fəndaxili inteqrasiyanı şərtləndirir. Məsələn, 2.1.1 alt standartı VI sinifdə "Bioloji proseslərin xüsusiyyətlərini sadalayır", VII sinifdə o, "Müxtəlif canlılarda gedən həyati prosesləri fərqləndirir", VIII sinifdə "İnsan orqanizmində baş verən bioloji prosesləri izah edir", IX sinifdə "Bioloji proseslərin mahiyyət və məzmunu ilə bağlı təqdimatlar hazırlayır", X sinifdə "Bioloji proseslərin mexanizmini şərh edir, məruzə və təqdimatlar hazırlayır", XI sinifdə "Bioloji proseslərin mexanizminin müqayisəli şərhinə dair referat və təqdimatlar hazırlayır" kimi inkişaf etdirilir. Adları çəkilən məzmun xətlərinin reallaşdırılması fəndaxili inteqrasiyasız mümkün deyildir. Bu inteqrasiya siniflər üzrə və ya şaquli inteqrasiyadır. Lakin eyni sinfin materialları arasında da inteqrasiyanın həyata keçirilməsi mümkündür.

VI sinifdə şagirdlərə sadə, bioloji anlayışlar öyrədilir. Onlar arasında fəndaxili inteqrasiyanın yaradılması tədrisin keyfiyyətini yüksəltməklə, canlıların bir-biri ilə və ətraf mühitlə əlaqədə öyrədilməsinə şərait yaradır.

VI sinfin biologiya dərsliyinin (2) mövzularına diqqət yetirdikdə onlar arasında fəndaxili inteqrasiyaya geniş imkanların olduğu aydın görünür. Çünki ilk mövzu "Vətənimizin təbiəti" sonra keçiləcək "Birhüceyrəli və çoxhüceyrəli orqanizmlər", "Çiçəkli bitkilərin əsas orqanları", "Bitki orqanlarının yeraltı şəkildəyişmələri", "Bitki orqanlarının yerüstü şəkildəyişmələri", "Çiçək", "Meyvə", "Tozlanma", "Heyvanlarda böyümə və inkişaf", "Təbii birliklər", "Azərbaycan qoruqları", "Mədəni bitkilərin insan həyatında əhəmiyyəti", "Dərman bitkiləri" mövzuları ilə əlaqələndirilməsinə imkan verir.

"Vətənimizin təbiəti" mövzusunda Azərbaycanın flora və faunası təsvir edilir, bitki örtü-

yü, heyvanlar aləmi, nəsli kəsilməkdə olan bitki və heyvan növləri nəzərə çatdırılır. Onların qorunmasının zəruriliyi əsaslandırılır. Respublikamız üçün xarakterik olan bitki və heyvanların şəkilləri verilir. Digər mövzularda bitki və heyvan nümunələrinin Azərbaycanın təbiətindən götürülməsi mövzular arasında əlaqənin yaradılmasına, şagirdlər tərəfindən ölkənin flora və fauna zənginliyinin öyrənilməsinə kömək edir, mövzular arasındakı əlaqə imkanlarını genişləndirir.

“Biologiya canlı orqanizmləri öyrənən elmdir” mövzusunda canlıların bir əsas xüsusiyyətləri mətn və şəkillər, tapşırıqlar üzrə verilir. Biologiya elminin botanika, zoologiya, mikologiya, bakteriologiya, virusologiya, ekologiya kimi sahələrinin tədqiqat obyektləri aydınlaşdırılır. Bitkilərin quruluşu və müxtəlifliyinə dair mövzuların botanika elmi ilə əlaqəsinin verilməsi mövzunun mənimsənilməsini asanlaşdırır. Heyvanlara dair mövzular onları öyrənən elm sahəsi zoologiya ilə əlaqələndirilir. Bakteriyalar, viruslar, ekoloji problemlər öyrədilərkən biologiyanın müvafiq sahələri ilə əlaqənin yaradılmasını təmin edir.

“Canlı orqanizmlərin əsas xüsusiyyətləri ” mövzusunda da canlılarda gedən fizioloji proseslər öyrədilir. Mövzunun materiallarının digər fizioloji, bioloji proseslərə dair mövzularla əlaqələndirilməsi şagirdlərin canlılarda gedən bioloji proseslər arasındakı oxşar və fərqli əlamətləri müəyyən etmək bacarığını formalaşdırır.

Dərslikdə mövzular yeddi fəsil üzrə verilmiş hər fəslin sonunda ümumiləşdirici dərs üçün müvafiq tapşırıqlardan istifadə olunur. Hər bir ümumiləşdirici dərsdə fəslin mövzuları arasında qarşılıqlı əlaqələrin yaradılması imkanları genişlənir. Ümumiləşdirici dərslərdə fəslin mövzuları və ondan əvvəl tədris olunan fəsillərin mövzuları arasında da əlaqələrin yaradılması təlimin keyfiyyətinin yüksəlməsinə müsbət təsir göstərir. Dərsliyin hər bir mövzusunun digər mövzularla əlaqələrini müəllim qabaqcadan, dərsə hazırlaşarkən müəyyənləşdirməli, onu gündəlik dərs planına daxil etməlidir. Dərsi planlaşdırarkən inteqrasiya hissəsində əlaqələndiriləcək mövzunun adının yazılması fəndaxili inteqrasiyanın həyata keçirilməsinin reallaşdırılmasına imkan verir.

Fənn üzrə keçirilən kiçik və böyük summativ qiymətləndirmə tapşırıq, çalışma və suallarının hazırlanmasında da fəndaxili inteqrasiyanın nəzərə alınması şagirdlərin keyfiyyətli bilik almalarına, tədqiqatçılıq bacarıqlarının inkişafına kömək edir.

Biologiyanın tədrisində fəndaxili inteqrasiyanın keyfiyyətli təşkili müəllimin illik və gündəlik planlaşdırmasından asılıdır. İllik planlaşdırmada müəllim inteqrasiya sütununda mövzuya çox yaxın olan mövzunun və ya mövzuların adlarını verməlidir. Belə planlaşdırma gündəlik dərsə hazırlaşarkən, plan qurarkən müəllimin fəndaxili inteqrasiya yaratmasına kömək edir. Gündəlik planın işlənməsində də inteqrasiyanın qarşısına əlaqələndiriləcək mövzunun adı yazılır. Yeni dərsə hazırlaşan müəllim keçilənlərin təkrarlanmasına, əlaqənin yaradılmasının forma və vasitələrinə, üsullarına diqqət edir, ortaq əyaniliklər, suallar, tapşırıqlar işləyib hazırlayır.

Fəndaxili inteqrasiyanın yaradılması şagirdlərin də keçilənləri yada salmaq, əlaqəli mövzuların oxşar və fərqlərini müəyyən etmək, hər bir mövzunu dərindən öyrənmək və yadda saxlamaq məsuliyyətini artırır. Onlar tərəfindən həyatda rast gəldikləri hər bir obyekt və hadisələr, canlılar, onlarla cansızlar arasında sıx əlaqələrin mövcudluğu dərk olunur.

Fəndaxili inteqrasiyanın dərslərdə uğurlu təşkili aşağıdakı prinsiplərin nəzərə alınmasına əsaslanır:

- Mövzuya əlavə edilən material həyatla əlaqələndirilməli;
- Şagirdlərin yaşına, bilik səviyyəsinə uyğunluğu nəzərə alınmalı;
- Əlavə edilən material şagirdlər üçün maraqlı olmalı, onları cəlb etməli;
- Material mövzunu çətinləşdirməməli, mənimsəməni asanlaşdırmalı;
- Materialın mövzu ilə tam əlaqə imkanı olmalı, süni şəkildə mövzuya əlavə edilməməli;
- Material şagirdlər üçün başa düşülən, anlaşılan tərzdə verilməli;
- Material yalnız mətn formasında deyil, sual, tapşırıq, çalışma, hekayə, əyləncəli oyun formasında olmalı;
- Fəndaxili inteqrasiya dərsin müxtəlif mərhələlərində motivasiya, tədqiqatın aparılma-

sı, yaradıcı tətbiqetmə və başqa mərhələlərdə yaradılmalı;

- Şagirdlərdə obyekt və hadisələr arasında əlaqələrin dərk olunmasına xidmət etməli;
- Şagirdlərdə məntiqi, tənqidi və yaradıcı təfəkkürünü inkişaf etdirməlidir.

Biologiyadan 6-cı sinifdə fəndaxili inteqrasiyanın imkanları genişdir. Mövzuların düzülüşündən görünür ki, dərsliyin "Canlı orqanizmlərin quruluşu" adlanan 2-ci bölmənin 2-ci, 3-cü və 4-cü fəsillərinin mövzuları bitki və heyvanların quruluşunun öyrənilməsinə əsaslanır. Mövzuların əksəriyyəti canlıların quruluşuna aid olduğundan onlar arasında inteqrasiya yaradılması imkanını artırır. Tədrisdə bitkilərin quruluşu bakteriyaların, heyvanların quruluşu ilə müqayisə edilir, əlaqələndirilir, oxşar əlamətləri aydınlaşdırılır. Müəllim "Canlıların quruluşu və müxtəlifliyi" məzmun xəttinin standartlarını reallaşdırarkən bu mövzuları qarşılıqlı əlaqədə öyrətməlidir ki, şagirdlərdə onların quruluşu haqqında real təsəvvür yaransın.

Biologiyanın tədrisində fəndaxili inteqrasiya yaradan müəllim hər dərsdə əvvəl keçilənlərlə əlaqə yaratmaq imkanına malik olur, zəruri ortaq əyaniliklərdən istifadə edir. Bu şagirdlərə keçmiş bilikləri əsasında məntiqi, tənqidi və yaradıcı təfəkkürünün inkişafına və yeni biliklərin müstəqil əldə edilməsinə kömək edir. Sadə quruluşlu orqanizmlərin əlamətlərini öyrənən şagirdə mürəkkəb quruluşlu canlıların əlamətlərinin müstəqil öyrənməsi o qədər çətin olmur, o müəllimin bələdçiliyi ilə istədiyinə nail olur.

Dərsliyin 3-cü bölməsi "Orqanizmlərin həyat fəaliyyəti" adlandırılmış və buraya canlılarda gedən bioloji proseslər hərəkət, dayaq, qidalanma, tənəffüs, 5-ci fəsil isə orqanizmlərdə maddələrin daşınması, ifrazat, çoxalma və inkişaf məsələlərini əhatə edir. Göründüyü kimi bölmənin mövzuları "Bioloji proseslər" məzmun xəttinin reallaşmasına xidmət edir. Onların bir-biri ilə və digər fəsillərin mövzuları ilə inteqrasiya zəminində öyrədilməsi imkanlarının nəzərə alınması məsləhətdir.

"Orqanizm və mühit" adlı dördüncü bölmənin mövzularının bir hissəsi, yəni 7-ci fəslin mövzuları "İnsan və ətraf mühit" məzmun xəttinin standartlarının, 8-ci fəslin mövzuları isə "Bitki və heyvanların insan həyatında rolu" adı altında "İnsan və onun sağlamlığı" məzmun xəttinin standartlarının reallaşdırılmasına əsaslanır. Demək olar ki, tədrisdə hər bir fəslin mövzularının bir-biri ilə və digər fəsillərin mövzuları ilə əlaqələndirilməsi mümkündür.

Canlıların quruluşlarının onların həyat fəaliyyətinə uyğunluğu nəzərə alınarsa, orqanizmlərin quruluşunun onlarda gedən həyat prosesləri ilə əlaqələndirilməsi imkanları aydın təsəvvür oluna bilər .Canlıların quruluşu, onlarda gedən həyat proseslərinin onların yaşadığı mühitlə tam əlaqəli olduğu nəzərə alınarsa, onların təbiətdə, məişətdə, insan sağlamlığında, iqtisadiyyatda, insanların həyatında əhəmiyyəti dərk olunar və əlaqəli tədrisi imkanları genişlənər.

VI sinfin materialları arasında fəndaxili inteqrasiyanın yaradılması, obyekt və hadisələrin əlaqəli öyrədilməsi müəllimdən metodik bacarıq, ustalıq tələb edir. Müəllim ilk növbədə əlaqəli obyekt və hadisələri sistemləşdirməli, illik planlaşdırmada onların yerini müəyyən etməlidir. Gündəlik planlaşdırmada dərsin hansı mərhələsində inteqrasiyanı həyata keçirəcəyinə dair qeydlər aparmalı və resursları hazırlamalıdır. Fənn kurikulumunun məzmun xətləri arasında mövcud inteqrasiya mövzuların da inteqrativ tədrisini tələb edir. Ona görə də hər bir mövzunu tədris etdikdə onun digər mövzularla əlaqə imkanlarına uyğun olaraq inteqrasiya yaradılmalıdır. Mövzulararası inteqrasiyada keçilənlər yada salınmalı, onun əsasında yeni anlayışlar, biliklər şagirdlər tərəfindən müstəqil əldə edilməsinə səy göstərilməlidir. Belə olduqda vaxta qənaət edilir, az vaxtda daha çox bilik öyrənilməsinə zəmin yaranır.

Dərslərdə fəndaxili inteqrasiyanın İKT-dən istifadə edilməklə təşkili çox əhəmiyyətlidir. İKT vasitəsilə mövzu ilə əlaqəli məsələlər göz önünə gətirilir, onlar yada salınır və yeni biliklərin öyrənilməsinə yol açılır. Fəndaxili inteqrasiyanın tətbiqində resurslara diqqət edilməsi də vacib məsələlərdəndir. İnteqrasiyanın həyata keçilməsi üçün mövzuya dair resurslarla yanaşı əlaqə yaradılacaq obyekt və hadisələri əks etdirən resurslar da dərsə gətirilməlidir. Mövzulara dair ortaq resursların hazırlanması və dərsə gətirilməsi də müəllimin işini asanlaşdırır. Çünki şagirdlər resursları görərkən keçmiş biliklərini asanlıqla xatırlayırlar. Dərs prosesində inteqrasiyaya uyğun keçilmiş və yeni bilik-

lərlə bağlı sualların, çalışma və tapşırıqların, rollu və əyləncəli oyunların, testlərin hazırlanması da əsas məsələlərdəndir.

Dərs prosesində yeni mövzunun bir, iki və daha çox mövzularla əlaqələndirilməsi lazım gəlir. Məsələn, "Toxumun cücərməsi" mövzusu tədris edilərkən toxumun quruluşu, kimyəvi tərkibi, onda gedən bioloji proseslər, onun cücərməsinin əhəmiyyəti (təbiətdə, insanların həyatında), cücərməsinə təsir edən amillər kimi digər mövzularda əksini tapmış məsələlərlə əlaqə yaradılır. "Toxumun cücərməsi" mövzusunda (1, 127-128) səməninin cücərdilməsi ilə motivasiya yaradılır. Burada toxumun cücərməsinin əhəmiyyəti toxumun cücərməsinə lazım olan şəraitin fəaliyyət əsasında öyrədilməsi lazım gəlir. Təcrübələrin köməyi ilə toxumun cücərməsinə lazım olan şərait müəyyən edilir. Təcrübənin aparılmasında toxumun quruluşu və laboratoriya avadanlıqlarından istifadə qaydaları ilə əlaqə yaradılır. "Toxumdan yeni bitkinin inkişafı" şəklində lobya toxumunun quruluşu, böyümə və inkişafı ilə əlaqə yaradılır. Toxumların müxtəlifliyinin onların cücərməsinə də təsiri aydınlaşdırılır. Rüşeymin cücərmə dövründə qidalanması ilə bitkinin qidalanması əlaqələndirilir. Tumurcuğun inkişafı, fotosintez prosesi yada salınır, mövzu ilə əlaqələndirilir. Tapşırıqların hazırlanmasında toxumun tərkibi, tənəffüsü və digər proseslərlə əlaqə yaradılır, toxumun və onun cücərməsinin səbəb və nəticələri müəyyənləşdirilir.

Dərsdə fəndaxili inteqrasiyanın yaradılması təlimin keyfiyyətini yüksəldir, obyekt və hadisələr arasındakı əlaqələrin asanlıqla dərk edilməsinə zəmin yaranır, mənimsəmə asanlaşır, şagirdlər mövzunu hərtərəfli öyrənmək imkanı əldə edirlər. Nəticədə öyrənilən biliklər yaddaşda uzun müddət qalır və şagird həmin bilikləri təcrübəyə tətbiq etməkdə çətinlik çəkmir.

**Problemin aktuallığı**. Təlimin keyfiyyətini yüksəldən amillərdən biri tədrisdə inteqrativ əlaqə imkanlarının yaradılmasıdır. Fənlərin tədrisində tətbiq etdiyimiz fənn kurikulumlarının əsas prinsiplərindən biri inteqrasiyadır. Orada inteqrasiyanın fənlərarası və fəndaxili istiqamətlərindən istifadə edilməsi tələbi qoyulur. Bu baxımdan məqalə aktual bir problemə həsr olunmuşdur.

**Problemin elmi yeniliyi.** İlk dəfə biologiyanın tədrisində, xüsusilə 6-cı sinif biologiyanın tədrisində fəndaxili inteqrasiya ardıcıl və sistemli verilir.

**Problemin praktik əhəmiyyəti.** Məqalə ali pedaqoji universitetlərdə biologiya fakültəsi tələbələri üçün yazılmış dərslik və dərs vəsaitlərinin, ümumtəhsil məktəblərinin 6-cı sinifləri üçün dərslik və müəllim üçün metodik vəsaitlərin təkmilləşdirilməsində istifadə edilə bilər.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün biologiya fənn kurikulumu. Bakı, 2013.

2. Seyidli Y., Əhmədbəyli. X., Əliyeva.N. Biologiya: Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün dərslik. Bakı, 2013.

3.Hüseynov.Ə., Hacıyeva.H., Səfərova.E., Qibləliyeva A. Ümumtəhsil məktəblərində biologiyanın tədrisində kurikulumun tətbiqi. Bakı, 2015.

4. Hacıyeva H.M., Abdullayeva T.Q., Hacıbəyova E.Ə. Ümumtəhsil məktəblərində biologiyanın fəal təlim metodları ilə tədrisi metodikası. Bakı: Çaşıoğlu, 2014.

**С.Мехдиева**

## ОРГАНИЗАЦИЯ ВНУТРИПРЕДМЕТНОЙ ИНТЕГРАЦИИ ПО БИОЛОГИИ В VI КЛАССАХ ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛ

### *РЕЗЮМЕ*

В статье анализируется внутрипредметная интеграция при преподавании биологии в 6 классе. Исследуются возможности внутрипредметной интеграции при обучении предмету, определяются пути ее организации. Обобщаются принципы, которые должны быть учтены при создании

внутрипредметной интеграции, указываются ее эффективные пути. В заключение статьи учителям по биологии предлагаются методические рекомендации, касающиеся решения данной проблемы.

**S.Mehdiyeva**

**ORGANIZATION OF INTERDISCIPLINARY INTEGRATION ON BIOLOGY AT 6$^{th}$ CLASS OF GENERAL EDUCATION SCHOOLS**

***SUMMARY***

The article analyses organization of interdisciplinary integration in teaching of biology of 6$^{th}$ class. The possibilities of interdisciplinary integration on textbooks in teaching of the discipline are studied, ways of its organization are determined. The principles that should be taken into account while formation of interdisciplinary integration are generalized and its effective ways are indicated. Teachers are provided with methodological recommendations relating to solving of a problem.

**Redaksiyaya daxil olub: 12.01.2017**

# MÜASİR XARİCİ DİL DƏRSLƏRİNDƏ TƏLİMİN TƏŞKİLİ YOLLARI

**Elvina Abbasova,**
*Bakı şəhəri Yasamal rayonu 158 nömrəli*
*məktəbin ingilis dili müəllimi*
E-mail: feride21@mail.ru

**Rəyçilər:** *ped.ü.elm. dok.* P. Əliyev,
*ped. ü. fəls.dok.* F.Ə. Rzayeva

***Açar sözlər:*** *təlimin təşkili, davranış qaydaları, planlaşma, qruplar, cütlər*
***Ключевые слова:*** *организация обучения, правила поведения, планирование, группы, пары*
***Key words:*** *classroom management, disipline rules, planning, group & pair work*

Müasir təhsil sistemi onun yeni baxışlardan dəyişmə və inkişaf prosesini məqbul sayır və təlim prosesinin daha da təkmilləşdirilməsini tələb edir. Təhsilin yeni məzmuna malik olması müasir pedaqogikada yeni yanaşmaları tətbiq etməyi və təlimin müxtəlif formalarda tədris olunmasını tələb edir. Yeni pedaqoji yanaşmalar artıq bütün fənlərin, eləcə də ingilis dilinin tədrisində əks olunmağa başladı və bu dilin tədrisinin yeni məzmuna, struktura və məqsədlərə malik olmasını özündə ehtiva etdi. [1]

Təlimin təşkilinin ilə bağlı xeyli araşdırılmalar aparılmışdır, bu proses hazırda davam etdirilməkdədir.

Nəticəyönlü təlimdə şagird nailiyyətlərin uğurla əldə olunması onun necə səmərəli təşkil olunmasından asılıdır. Elə bu baxımdan dərsin səmərəliliyinin artırılması onun strukturunun dərk olunmasından xeyli dərəcədə asılı olduğunu sübut edir. Təlimdə məhz didaktik əsasların gözlənilməsi, ona ciddi əməl edilməsi dərsin daha səmərəli, daha canlı qurulmasına səbəb olur, onun qarşısında qoyulan vəzifələrin, bütövlükdə isə təlimin bütün funksiyalarının müvəffəqiyyətli həllini təmin edir.

Xarici dilin tədrisində təlimin düzgün təşkil təlim prosesinin ən vacib faktorlarından biridir. Dilin düzgün mənimsədilməsi üçün təlim prosesinin yüksək metodik səviyyədə təşkili təlim nəticələrinin reallaşmasına xidmət etməlidir. Şagird nailiyyətinin uğurlu nəticələrlə qazanılması təlimin müxtəlif vasitələrlə idarə olunmasıdır. Bu vasitələr nə qədər rəngarəng olsa şagirdlərin mövzu ətrafında daha çox bilik və bacarıqları zəngin olur və ünsiyyətə daha tez daxil olurlar. Sinfin düzgün idarə olunması mövzunun daha ətraflı mənimsədilməsinə xidmət edir. Amerikan dilçi alim R. Riçard bildirir ki, təlimin təşkili təlim prosesində müəllim tərəfindən nəzarət olunan şagird davranışı, hərəkəti və əməkdaşlığı ilə əlaqədar bir çox qaydaları özündə birləşdirən pedaqoji yanaşmadır. (1990, 10). Bu qaydalar aşağıdakılardır:

**1. Davranışa qaydalarına nəzarət və qarşılıqlı hörmət. (Discipline rules)**

Təlimin təşkilində şagird davranışına nəzarət, hörmət və ehtiram çərçivəsində, cəzalandırmadan uzaq və onların təlimə cəlbi prosesində müəllim və şagirdin müəyyən qaydalara riayət etməsidir. (Greenwood and Parkay, 1989). Ən yaxşı müəllim belə çətin şagirdlərlə iş üzrə vacib qaydaları bilmədən təlimin təşkilində uğursuzluğa uğraya bilər. Müəllim bu zaman effektiv şəkildə mahir ustalıqla, qısa, fərdi və ağıllı qaydada hərəkət etməlidir ki, davranış pozulmasını digərləri hiss etməsin. (Cole and Chan, 1987) Qarşılıqlı əməkdaşlıqda və dialoqda ingilis dilinin kommunikativ məqsədləri önə çəkilməli və dil mühiti yaradılmalıdır ki, şagirdlər eyni zamanda şifahi nitq bacarıqlarını inkişaf etdirmiş olurlar. [3]

2. **Dərsin planlaşdırması (Lesson Planning)**

Dərsin səmərəli şəkildə planlaşdırılması müxtəlif dərs elementlərinin tətbiqi əsasında yaranır: məzmun xətti, standartlar, məqsədlər, aydın mərhələlər və hər mərhələyə aid məqsədlər, qarşılıqlı əlaqə, yaxşı seçilmiş proseduralar və yaxşı vaxt bölgüsü, mənbələr seçimi və texniki vasitələr. Dərsin strukturunu təyin edərkən müəllim ilk öncə məqsədləri müəyyən edir edir, yaddaşı möhkəmləndirməyə yardım edən vasitələri seçir, motivasiyanı təyin edir, problemləri və onların həlli yollarını

qabaqcadan təyin edən fərziyyələr seçir, təlim prosesini düzgün mərhələlərə bölür, vaxt barədə düşündürür və qarşılıqlı əlaqə yaratmağa imkan yaradır, qarşılıqlı təsir nümunələri və fəaliyyətin balanslaşdırılmasını təmin edən, tədrisdə irəliləyişlər və professional inkişafda yeniliklər əldə olunmasına kömək edən vasitələri seçir [5].

**3. Sinif qaydalarının hazırlanması (Class Rule)**

Sinif qaydaları dərs ilinin əvvəlində hazırlanır ki, şagirdlər özlərini prosesə hazır hesab etsinlər. Eyni zamanda bu qaydaların ingilis dilində tərtibatı şagirdləri öncədən ünsiyyət modeli ilə təmin etməkdən ibarətdir. Bu zaman şagirdlərə əvvəlcədən onların iştirakı ilə ingilis dilində hazırlanmış sinif qaydaları təqdim edilməli və bu qaydalara necə əməl etmələri izah edilməlidir. Bəzən bu qaydaların yerinə yetirilməsi üzrə ingilis dilində müxtəlif dəyərləndirmə simvollarından da istifadə olunur: *Well Done; Good; Satisfactory; Needs to Improvement*

4. **Şagirdlərin oturmaq qaydaları (Students' Seating)**

Sinif partalarının düzülüşü və ya şagirdlərin sinifdə oturuş qaydalarının təlim mövzusunun məzmununa uyğun olması təlimin dinamikliyini təmin edir. Şagirdlərin qarşılıqlı şəkildə, dairəvi, cütlükdə, qruplarda oturub rahat şəkildə bir-birilərini dinləmələri onlarda xarici dildə ünsiyyəti daha tez formalaşdırır. Həqiqətən də şagirdlərin oturma modelində sadə bir dəyişiklik onlar arasında qrup bağlılığı və inanılmaz məmnuniyyət yaradır. Bir çox hallarda şagirdlərin sinifdə oturması dərsin uğurlu və ya uğursuzluq kimi mühüm bir element olur [6].

Bəzi hallarda, məktəb partalarının hərəkətli olması masaların yerinin asanlıqla müəyyən edilməsinə kömək edir, əks halda hərəkətsiz partalar dərsin uğursuz alınmasına səbəb olur. Təlimin idarə olunmasında sinfin partalarının müxtəlif formalarda düzgün təşkili mövzunun tez mənimsənilməsini təmin edir. Dairəvi, U-hərfi modelində, çiyin-çiyinə, cütlükdə üzbəüz və s. formalar şagirdlər arasında ünsiyyəti daha tez formalaşdırır. İstənilən halda sinfin dinamik dəyişikliyi mövzunun da daha tez mənimsənilməsinə çox böyük təsir edir. Eyni zamanda masalara adların verilməsi şagirdlərin mövzuya daha tez motivə edir və müzakirəyə cəlb edir.

**5. Müəllimin izahı və diqqətinin cəlbi. (Teacher Talk & Drawing Attention)**

Təlimdə şagirdlərin diqqətini eyni vaxtda mövzu ətrafına toplamaq bəzən çox çətin olur. Bu zaman bəzi qaydaları bilmək çox məqsədəuyğundur: şagirdlər mövzunu dinləməyə hazır deyillərsə danışmaq lazım deyil. Bu zaman gözləmək lazımdır, ya da jestikulyasiyadan, siqnallardan, xoşagələn zənglərdən istifadə edərək diqqəti toplamaq lazımdır.

Xarici dilin öyrənilməsində motivasiya xarakterli "*sinif qızdırıcıları*" (warmers or icebreakers) rolu daha çoxdur. Sinif qızdırıcıları gərginliyin aradan götürülməsində rol oynayır, şagirdləri təlimə daha tez motivə edir və əyləncəli mühit yaradır. Dərsin girişində istifadə olunan bu qızdırıcılar 3-4 dəqiqə vaxt aparır və mövzu ətrafında proqnozlaşdırma xarakteri daşıyır.

"Exo" (echoing) –yəni verilən sual və cavabların təkrarlanması, şagirdlərdən keçiləcək mövzu haqqında məlumatların toplanması (eliciting), hər bir şagirdlərin cavabların stimullaşdırılması, qazandığı uğura görə dəyərləndirilməsi nəzərdə tutulur.

İngilis dilində əyləncəli və maraqlı stimul verici nitq modelləri vardır ki, şagirdlər bu modellərdən həvəslə istifadə edirlər.

*a) One, two, three eyes on me*

b) *Turn off the lights*

*c) Clap a pattern with your hands*

*d) Say "Freeze!" and everyone halts right where they are, like a statue.*

*e) Then say "Melt!" when you are ready for them to move again.*

Şagirdləri mövzunu yaxşı dinləmək üçün belə müraciətlər çox faydalı olur. Çünki, bəzi vaxtlar biz oxuyub dinləyirik, bəzən biz oxuyub müzakirə edirik, hər iki halda biz bir-birimizi həmişə dinləyirik.

Əsas mərhələnin (yeni materialın izahı, onun qavranılması, yeni anlayışların mənimsənilməsi, vərdişlərin işlənilməsi və s.) kompleksliyi problemli dərsin əsas xüsusiyyəti kimi müşahidə olunmalıdır.

**6. Təlimatların verilməsi (Giving Instruction)**

Mövzu üzrə təlimatlar, iş vərəqləri şagirdlərə dəqiq və qısa formada verilməlidir. Bəzən təlimatlar aydın olmadıqda və ya çətin olduqda şagirdlər mövzuya cəlb oluna bilmirlər. Dərsin alternativ və diferensial təlimə xidmət edən vasitələrlə təminatı nəticələrin tez əldə olunmasına zəmin yaradır. Dərslik bir vasitə kimi yalnız yaddaş və informasiya xarakteri daşıyır, müəllim mövzunun daha yaxşı mənimsənilməsi üçün öz yaradıcılığı daxilində şagird yaradıcılığını ortaya çıxarmasıdır. Qrup işlərində, müzakirələrdə tapşırıqların aydın izahı çox önəmlidir. Şagirdlərə hətta tapşırıqların tətbiqi zamanı ingilis dilində komplimentlərin deyilməsi onları problemin həllində fəal olmağa həvəsləndirir: *"Oh, I like the way Kamran is ready!"*. Belə müraciətlər digər şagirdləri də az hazır olmağa sövq edir.

**7. Qrup işləri Cütlüklərin tətbiqi (Using Pair and Groupwork)** Təlimin təşkilinin ən uğurlu yollarından biri təlimdə motivasiya xarakterli qrupların və cütlüklərin yaradılmasıdır. Xarici dilin qrup və cütlüklərdə öyrənilməsi şagirdlər arasında əməkdaşlıq və kommunikasiya yaradır, ünsiyyət daha tez formalaşır. İngilis dilində gündəlik ifadə vasitələri, qarşılıqlı müraciətlər, salamlaşmalar, dəvətlər, münasibətə, razılıq və narazılıqlar üzrə nitq etiketləri, nümunəvi modellər qrupda, cütlükdə daha tez qazanılır. Qruplar, cütlərdə şagirdlərin davranış bacarıqları, bir-birinə hörmət və vaxtdan səmərəli istifadə etmək vərdişləri də düzgün formalaşır. Bu da bir faktdır ki, şagirdlər dialoqlarda müxtəlif tapşırıqların həllində iştirak edir, fikir mübadiləsi aparır və müzakirələrə qoşulurlar.

**8. Vaxtın limitinin qoyulması (Setting Time Limits)**

Mövzunun şagirdlər tərəfindən daha uğurlu mənimsənilməsinin ən faydalı yolu müəllimin vaxt limitindən düzgün istifadə etməsidir. Dərsin mərhələlərində aparılan işlərə qoyulan vaxtın düzgün bölüşdürülməsi və bu vaxt çərçivəsində şagirdlərin daha çox bilik və bacarıq əldə etməsi vacib şərtdir. Vaxt limitindən düzgün istifadə etmək üçün müəllim aşağıdakı qaydaları bilməlidir:

1) Hər bir fəaliyyət üçün ayrılan vaxt çərçivəsində müəllim məqsədə nail olub-olmadığına əmin olmalıdır.

2) Müəllim hər bir tapşırığın yerinə yetirilməsi üçün verilən vaxtı şagirdlərə xatırlanmasını təmin etməlidir.

3) Şagirdlər tapşırıqların həlli zamanı vaxta düzgün riayət etməyin vacib bir şərt olmasını bilməli və bu qaydaya hörmətlə yanaşmalıdırlar.

**Nəticə.** Beləliklə, müəllimin təlimi düzgün təşkil etməsi və təlimdə dəstəkləyici mühit yaratması xarici dilin daha səmərəli şəkildə qazanılmasına şərait yaradır. Müasir xarici dilin qazanılmasında müəllimin peşəkar qabiliyyəti uğurlu təlim nəticələrinin əldə olunmasına xidmət edir. Sinfin idarə olunmasında müəllimin düzgün idarəetmə bacarıqlarının olması, öyrədici dil mühiti üçün müxtəlif tiplərdən orijinal formalardan istifadə etməsi, şagirdləri təlimə motivasiya etməsi vacib şərtlərdir. Dərsin mərhələlərlə planlaşdırılması, vaxtdan səmərəli istifadə etməsi təlimin təşkilində ən çox nəzərdə tutulan elementlərdir. Təlim fəaliyyətinin dinamikliyi və inkişafyönlü olması didaktik materiallardan istifadə qaydalarının tətbiqi, müxtəlif instruksiyalardan istifadə edərək şagird fəaliyyətinin qiymətləndirilməsi və nailiyyətlərinin düzgün dəyərləndirilməsidir [5].

**Problemin aktuallığı** onunla aktuallığı onunla səciyyələnir ki, orta ümumtəhsil məktəblərində ingilis dilinin tədrisinin səmərəli təşkili edilməsi və müxtəlif faydalı üsullardan istifadə edilməsi xarici dillərin tədrisi metodikası sahəsində mövcud olan mürəkkəb problemlərdəndir. Bu sahədə müəllim və şagirdlərin təlimin müasir formada təşkili prosesinə marağı daha yüksəkdir. Xarici dilin tədrisinin yeni metodik tipologiyası, eləcə də, fənnin tədrisinin müxtəlif üsullarının işlənib hazırlanması, təlim prosesinin effektiv nəticələrlə başa çatması və s. bu kimi məsələləri özündə birləşdirir [2].

**Problemin elmi yeniliyi** orta ümumtəhsil məktəblərində təhsil alan şagirdlərə ingilis dilinin müasir tədrisinin səmərəliliyinə təsir göstərə bilən amillərin sistemli şəkildə tədqiq və şərh edilməsi ilə şərtlənir. Məqalənin perspektivliyi ondan ibarətdir ki, burada xarici dilin tədrisinin problemləri və imkanları tədrisin psixoloji, linqvistik və metodiki xüsusiyyətlərini nəzərə almaqla xüsusi şəkildə tədqiq olunur. Təlimin təşkilinin xüsusiyyətlərini nəzərə almaqla tədrisin daha məqsədyönlü yol-

larının işlənib hazırlanması sahəsində yeni elmi fikirlər, yanaşmalar mövcuddur.

**Problemin nəzəri əhəmiyyəti** ondan ibarətdir ki, ingilis dilinin tədrisində sonda nitq vərdişlərinin qazanılmasının xüsusiyyətini təmin edən əhəmiyyətli şərtlərdən biri təlimin müxtəlif formalarından istifadə etməklə onun səmərəli təşkili mövcud normalara uyğun həyata keçirilməsinin nəzəri məsələləri özündə əks etdirir.[2]

**Problemin praktik əhəmiyyəti** ondan ibarətdir ki, ingilis dilinə marağın artdığı bir şəraitdə təlimdə müxtəlif səviyyəli formalardan məqsədyönlü şəkildə istifadə olunmasının daha səmərəli yollarının işlənib hazırlanmasına imkan vardır. Təklif olunan fikirlər xarici dilin tədrisi prosesində istifadə oluna bilər.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası -2014
2. Allen, J.D. (1986). Classroom management: students' perspectives, goals, and strategies. American Educational Research Journal, 23
3. Bear, G.G. (2008). Best practices in classroom discipline. In Thomas, A. & Grimes, J. (Eds.), Best Practices in School Psychology V (1403-1420). Bethesda, MD: National Association of School Psychologists
4. Cole, P.G. and Chan, L.K (1987) Teaching principles and practices. New York: Prentice Hall.
5. Lewis, A. (1992) 'From planning to practice'. British Journal of Special Education. 19 (1)


**Э. Аббасова**

## СПОСОБЫ ОРГАНИЗАЦИИ ПРОЦЕССА ОБУЧЕНИЯ НА СОВРЕМЕННЫХ УРОКАХ ИНОСТРАННОГО ЯЗЫКА

***РЕЗЮМЕ***

В статье повествуется о способах организации процесса обучения в преподавании английского языка. Автор статьи подчеркивает, что правильная организация учителем процесса обучения обеспечивает более эффективное овладение иностранным языком. Основными элементами организации процесса обучения являются планирование урока, правильное распределение времени на уроке и т.д.

**E. Abbasova**

## CLASSROOM MANAGEMENT TIPS IN TEACHING ENGLISH

***RESUME***

The article states the classroom management tips in teaching English. The most effective strategies of classroom management highlighted in this article have been investigated in different ways. New ideas and technologies have been presented in applying modern classroom management.

**Redaksiyaya daxil olub: 11.01.2016**

# ОРГАНИЗАЦИЯ ВНЕУРОЧНОЙ РАБОТЫ ПО РУССКОМУ ЯЗЫКУ

**Тахира Пашаева,**
*преподаватель Азербайджанского Университета Языков*
E-mail: Rey.ra@mail.ru

**Рецензенты:** *проф.* Г.Г. Ахмедов,
*проф.* Р.Л. Гусейнзаде

***Açar sözlər:*** *dərsdənkənar məşğələ, rus dili, müəllim*
***Ключевые слова:*** *внеурочное занятие, русский язык, учитель*
***Keywords:*** *after-hour lesson, Russian language teacher*

К специфическим принципам внеурочной работы в методической литературе относят принципы: взаимосвязи классных и внеклассных занятий, научной углубленности, практической направленности, занимательности и добровольности. Внеурочные занятия должны расширять лингвистический кругозор школьников и развивать их языковое чутье, воспитывать любовь и уважение к русскому народу и интерес к его языку, должны прививать учащимся навыки самостоятельной работы с книгой, учить пользоваться словарями и другой справочной литературой, самостоятельно пополнять знания по русскому языку.

Содержание внеурочной работы определяется школьной программой по русскому языку с учетом лингвистических интересов и уровня развития речевых умений и навыков учащихся. Обычно их интересуют такие вопросы, как возникновение русского языка, его развитие и роль в современном мире, языки мира, образование слов и их этимология. Эти внепрограммные вопросы могут быть включены во внеклассные занятия для учащихся старших классов.

В школьной практике сложились определенные формы внеклассной работы, которые успешно используются и в работе с нерусскими учащимися. Они делятся: на индивидуальные, групповые и массовые. Одни из них являются постоянно действующими, другие — эпизодическими [6, 138].

Внеурочная работа по русскому языку является важнейшей составной частью профессиональной деятельности учителя. Не секрет, что для многих учеников русский язык не является любимым предметом. По своему опыту могу сказать, что к 7-8 классам интерес к изучению русского языка пропадает у большинства детей. Объясняется этот факт многими причинами, в том числе и сложностью материала, подлежащего изучению. Именно поэтому главная задача внеклассной работы - развитие у школьников интереса к русскому языку и воспитание потребности изучать его. Педагогами и психологами доказано, что познавательный интерес является основным внутренним мотивом обучения, поэтому развитие познавательного интереса к русскому языку оказывается столь важным для учащихся. Интерес, по мнению методистов, - это «такое эмоциональное отношение учащихся к предмету, которое вызывает у детей желание познать изучаемое и стимулирует увлечение этим предметом. Внешне это отношение выражается в пытливости, в любознательности учащихся, в их внимании и активности на уроке» [1,4]. У учащихся одного и того же класса познавательный интерес часто проявляется по-разному. Выделяются три уровня познавательного интереса. Элементарным уровнем принято считать «открытый, непосредственный интерес к новым фактам, к занимательным явлениям, которые фигурируют в информации, получаемой на уроке. Методы, которые используются во внеурочной работе по предмету, отличаются от основных методов обучения не столько содержанием, сколько формой. Так, широко используется во внеклассной работе и слово учителя, и беседа, и самостоятельная работа

ученика. Однако все эти методы используются в непринужденной обстановке, что создает атмосферу большой заинтересованности в работе.

Формы организации внеурочной работы по русскому языку разнообразны: беседа, конкурсы, викторины, игры, КВН, утренники и вечера, конференции и устные журналы, олимпиады и т. д. Многие из этих форм к настоящему времени перестали считаться пригодными лишь для внеклассной работы, и в практике преподавания русского языка все чаще учителя проводят уроки-игры, уроки-путешествия, уроки-конференции, уроки-сказки и т. д., апробированные сначала во внеклассной работе по предмету.

Внеурочная работа может быть организована в школе по-разному. Это и эпизодические мероприятия, проводимые в отдельных классах, и общешкольные мероприятия, и систематические занятия, например, кружка, клуба. Следует заметить, что проведение эпизодических мероприятий обычно вызывает у учащихся кратковременный интерес низшего уровня, интерес к факту мероприятия, а не к предмету. Поэтому эффективность такой работы сравнительно мала. Принцип системности требует, чтобы внеклассная работа представляла собой единый комплекс разнообразных мероприятий, связанных между собой тематически. Давно доказано, что наиболее эффективна внеклассная работа по русскому языку, когда учитель отбирает для работы с учащимися материал по какому-то одному разделу языка, более или менее обширному, в соответствии с возрастом школьников и во взаимосвязи с изучаемым в урочное время материалом. Вопрос об организации внеурочной работы в школе решается на методическом объединении учителей-словесников, где и выбирается тема, по которой будет вестись работа в учебном году, составляется план, в котором перечисляются планируемые мероприятия по классам, сроки их проведения и ответственные за выполнение.

Традиционными стали в школах Дни, Недели и Декады русского языка. Такие мероприятия являются итогом внеклассной работы, проведенной за год. Подготовка Недели (Декады) ведется в течение длительного времени, ее тема и содержание обсуждаются и утверждаются на заседании методического объединения учителей. Важным этапом подготовки Недели русского языка является избрание оргкомитета, в который входят, кроме ведущих учителей-словесников, учащиеся, проявляющие большой интерес и активность во внеклассной работе по языку. В оргкомитет могут входить по 1-2 ученика от каждого класса. Тогда будет обеспечена гласность при подготовке к Неделе и при ее проведении.

Неделю этимологии можно открыть конференцией о происхождении русских слов или викториной, в которую включить забавные истории о происхождении слов, лингвистические казусы и парадоксы. Желательно не повторять темы Недели в течение нескольких лет, чтобы одни и те же учащиеся, переходя из класса в класс, изучали новые разделы языка. Тематика Недель очень обширна. Примерный перечень может быть значительным: фонетика, лексика (топонимика, ономастика, терминология, этимология и др.), фразеология, орфография, пунктуация, грамматика (морфология, синтаксис), культура речи, стилистика, лингвистика текста и т. д.

Систематически и планомерно осуществляемая внеурочная работа по русскому языку имеет большое образовательно-воспитательное значение и способствует овладению русским языком как средством общения.

**Актуальность темы.** Внеурочная работа по русскому языку является важнейшей составной частью профессиональной деятельности учителя. Этот важный фактор отмечается в Стратегии Образования.

**Новизна темы.** В статье отмечается, что содержание внеурочной работы определяется школьной программой по русскому языку с учетом лингвистических интересов и уровня развития речевых умений и навыков учащихся. Обычно их интересуют такие вопросы, как возникновение русского языка, его развитие и роль в современном

мире, языки мира, образование слов и их этимология.

**Практическая значимость**. Статья имеет практическое значение, то есть учителя могут широко и свободно использовать материалы статьи в своей работе.

**ЛИТЕРАТУРА**

1. Баранов М.Б. Пути развития у школьников 5-8 классов интереса к урокам русского языка / М.: Просвещение, 1965.
2. Виды внеурочной работы по русскому языку / Сост. М. М. Морозова М.: Просвещение, 1968 .
3. Внеурочна и внешкольная работа по русскому языку и литературе в национальной школе / Под ред. К.В.Мальцевой, М.Н.Борисовой. М.: Просвещение,1982.
4. Воспитание творческого читателя: Проблемы внеклассной и внешкольной работы по литературе / Под ред. С.В. Михалкова, Т.Д. Полозовой. М., 1981.
5. Н.Н. Ушаков. Кружковая работа по русскому языку. Пособие для учителей. М.: Просвещение, 1979.
6. Л.З. Шакирова, Л.Г. Саяхова и др. Методика преподавания русского языка в национальной школе: Учеб. Пособие. Л.: Просвещение,1990.

**T.Paşayeva**

**RUS DİLİ ÜZRƏ DƏRSDƏNKƏNAR TƏDBİRLƏRİN TƏŞKİLİ**

***XÜLASƏ***

Məqalə rus dili üzrə dərsdənkənar tədbirlərin keçirilməsindən bəhs edir. Göstərilir ki, tədrisin keyfiyyətinin yüksəldilməsində dərsdənkənar tədbirlərin böyük əhəmiyyət kəsb edir. Dərsdənkənar tədbirlər təlimin keyfiyyətini yüksəltməklə bərabər, şagirdlərin tərbiyəsinə, inkişafına müsbət təsir edir.

**T.Pashayeva**

**ORGANIZATION OF EXTRACURRICULAR WORK ON THE RUSSIAN LANGUAGE**

***SUMMARY***

Extracurricular classes should expand the linguistic horizons of pupils and develop their linguistic flair to bring love and respect for the Russian people and the interest in his language, should impart to students the skills of independent work with a book, learn to use dictionaries and other reference books, self-replenish the knowledge of Russian language.

**Redaksiyaya daxil olub: 29.11.2016**

# TARİXDƏN MƏKTƏB MÜHAZİRƏ VƏ SEMİNARLARININ TƏŞKİLİ VƏ APARILMASI PROSESİNDƏ ŞAGİRD ŞƏXSİYYƏTİNİN FORMALAŞDIRILMASI

**Həliməxanım Abbaszadə,**
*ADPU*
E-mail: adpu.ttm@mail.ru

**Rəyçilər:** *ped.ü.fəls.dok.* L.Əsədova,
*ped.ü.fəls.dok. L.N. Nağıyeva*

***Açar sözlər:*** *tarix, məktəb, mühazirə, şəxsiyyət, analiz, sintez*
***Ключевые слова:*** *история, школа, лекция, личность, анализ, синтез*
***Key words:*** *history, school, lecture, identity, analysis, synthesis*

Ümumtəhsil məktəblərinin X-XI siniflərində mühazirə və seminarların keçirilməsi prosesində şagird şəxsiyyətinin formalaşdırılması həm didaktik, həm də tərbiyəvi əhəmiyyət kəsb edir. Şəxsiyyət ictimai mühitdə konkret həyat şəraitində onun təlim və tərbiyəsində formalaşır. Şəxsiyyətin inkişafının, eyni zamanda onun sabit vəhdət təşkil edən bütün psixi keyfiyyət və proseslərinin inkişafının hərəkətverici qüvvələri insanın fəaliyyətdə dəyişən tələbatları ilə onların real təmin olunma imkanları arasındakı ziddiyyətlərdə meydana çıxır.

Tərbiyə cəmiyyətin izlədiyi məqsədlərə müvafiq olaraq şəxsiyyətin inkişafına istiqamət verir və onu təşkil edir.

Bu problem A.Q.Kovalev (1), Y.L.Kolominskiy (2), İ.S.Kon (3), A.N.Leontev (4) tərəfindən yetərincə tədqiq edilib. Adlarını sadaladıqlarım müəlliflər şəxsiyyəti ancaq psixoloji cəhətdən səciyyələndiriblər. Tarixin tədrisində məktəb mühazirələrinin və seminarların tədrisi prosesində şagird şəxsiyyətinin formalaşdırılması problemi tədqiq edilməyib.

Dünya ölkələrinin bir çoxunun təhsil ocaqlarında mühazirələrdən orta əsrlərdə istifadə olunmuşdur. Azərbaycanda isə ilk dəfə mühazirələrdən 1918-ci ildə Bakı Dövlət Universitetində istifadə olunmuşdur. Bununla əlaqədar demək olar ki, Azərbaycanda görkəmli elm xadimlərinin yetişməsində ali məktəblərimizdə özünün yüksək savadı, pedaqoji ustalığı ilə şöhrət tapmış alimlərimizin böyük rolu olmuşdur. Tanınmış alimlər öz biliklərini tələblərinə əlbəttə mühazirələri vasitəsi ilə çatdırmışdır.

Mühazirələrin təşkilinə verilən psixoloji tələblər aşağıdakılardır:

1. Mühazirə müəllimin vasitəsilə şagirdə çatdırılan informasiya mübadiləsi prosesidir. Bu prosesdə müəllim informasiya daşıyıcısı mənbəyi, şagird isə informasiyanı qəbul edəndir. Mühazirə prosesi isə informasiyanı səsləndirmək, istiqamətləndirmək, şagirdə çatdırmaqdır, şagirdləri informasiyanı qəbul etməyə hazırlıq vəziyyəti, informasiyanın qəbulu prosesi, məlumatların şagirdlər tərəfindən toplanması, analiz və sintez edilməsi, ümumiləşdirilməsi bütün bunlar-informasiya kanalıdır. Məhz bu proses şagirdləri zəngin informasiyalarla silahlandırır.

2. Mühazirəyə hazırlaşmaq, mühazirəni şagirdlərə çatdırmaq, mühazirə prosesində müxtəlif situasiyalardan çıxmaq, şagirdləri narahat edən müxtəlif xarakterli suallara cavab vermək-bütün bunlar müəyyən zaman daxilində mühazirəçini yetkinləşdirir. Mühazirəçidə həm müəllimlik, həm elmilik, həm natiqlik, həm də yüksək pedaqoji ustalıq olmalıdır.

3. Mühazirəçi şagirdlərdə elmi biliklər formalaşdırmaqla yanaşı onlarda əxlaqi hissləri də formalaşdırır. Mühazirənin məzmununda adət və ənənələrimiz, İslam dininin dəyərləri, dövlət tərəfindən qoyulmuş qanunlara əməl edilməsi aşılanmalıdır. Əslində mühazirədən mərifət dammalı, mərifət yağmalıdır. Əslində pedaqoji ustalıqla deyilən mühazirədə şagirdlərin yaş, bilik, bacarıq və vərdişlərinin nəzərə alınması-bütün bunlar onun keyfiyyətini yüksəldir. Təcrübəli müəllimin hər bir mühazirəsi təkrarolunmaz qüvvətli tərbiyəvi təsir vasitəsidir.

4. Mühazirə şagirdlərin bütün duyğu üzvlərinə təsir göstərməlidir. Elmi dünyagörüş

formalaşdırmaqla yanaşı, şagird şəxsiyyətinin formalaşmasında da mühüm rol oynamalıdır.

5. Mühazirələr bir-birindən formasına, məzmununa və çalarlarına görə fərqlənməlidir. Ümumiyyətlə aspektindən asılı olmayaraq şagird şəxsiyyətində müsbət xüsusiyyətlərin formalaşmasına nail olunursa deməli, psixoloji tələblərin gücü və təsiri öz bəhrəsini vermiş olur.

Mühazirələri şərtləndirən dörd amil mövcuddur; 1) müəllim, 2) dinləyici, 3) sinif otağı, 4) dərs vaxtı.

Tədqiqat prosesində mühazirəçi şəxsiyyətinə verilən psixoloji tələbələrin təsnifatını aşağıdakı qaydada müəyyənləşdirmişik:

1. Ümumtəhsil məktəbinin müəllimi hər şeydən əvvəl nümunəvi davranışa və yüksək əxlaqi saflığa malik olmalıdır. Mühazirəçi ixtisasını, onun nəzəri və təcrübi məsələlərini yaxşı bilməlidir. Mühazirəçi şagirdlərin biliyini, bacarığını və vərdişlərini, eləcə də digər fərdi xüsusiyyətlərini nəzərə almalıdır. Bu, ona çıxışını necə qurmağı, mühazirə zamanı özünü necə aparmağı müəyyənləşdirməkdə kömək etməlidir. Mühazirəçinin davranış tərzi, danışığı, çəkdiyi misallar, hərəkətləri cəmiyyətimizin əxlaq normaları çərçivəsində olmalıdır.

2. Tarix müəllimi mütərəqqi dünyagörüşə, əqidə yetkinliyinə, yüksək siyasi mədəniyyətə malik olmalıdır. Mühazirəçi yaşadığı dövrün ideologiyası əsasında düşünməyi, mühakimə yürütməyi və tərbiyə etməyi bacarmalıdır.

3. Mühazirəçi zəngin nəzəri biliyə malik olmalıdır. O, haqqında bəhs edəcəyi mövzunu diqqətlə öyrənməlidir. Mühazirəçinin mühazirəsində elmi yenilik elə səviyyədə olmalıdır ki, o, bu problemlə maraqlanan tədqiqatçıları özünə cəlb edə bilsin. Mühazirəçinin fəaliyyətində əsas rol oynayan elmilik prinsipi də təmin olunmalıdır.

4. Ümumtəhsil məktəbinin mühazirəçisi hər şeydən əvvəl mühazirənin dinlənilməsi prosesində şagirdlərin müstəqil işlərə, təfəkkür fəaliyyətlərinin inkişafına motiv yaratmağı bacarmalıdır.

5. Mühazirəçi şagirdlərin ən kiçik qüsurlarına emosionallıqla reaksiya vermələri, şagirdləri yerli-yersiz danlamaları müəllimin yersiz inzibatçılığı mühazirəni cansıxıcı edir.

6. Mühazirəçi liberallıq etsə, həddindən artıq yumşaqlıq etsə, tələbkarlığı tamam azaltsa təbii ki, belə halda şagirdlərin çoxu mühazirələrdə iştirak etməkdən imtina edərlər. Müəllim mühazirədə hərc-mərcliyə gətirib çıxarmayan səmimiyyətlə tələbkarlığı, hörmətlə ciddiyyəti elə əlaqələndirməli və özünün nəzəri fəaliyyəti ilə hissi-emosional fəaliyyətini elə uzlaşdırmalıdır ki, şagirdlər könüllü şəkildə mühazirəyə gəlsinlər və onu axıra qədər dinləyə bilsinlər.

7. Mühazirədə müəllim nitqinə verilən psixoloji tələblər çox böyük əhəmiyyət kəsb edir. Bunun üçün mühazirənin məzmunu emosional olmalıdır, digər tərəfdən mühazirəçi bu emosionallığı xeyli artırmalıdır.

8. Mühazirənin üslubunun pozulması müəllimin yorucu, uzun-uzadı mühazirəsi, mücərrəd və mürəkkəb cümlələri, yersiz təkrarları, mühazirələrdə fakt və hadisələrin təhlil edilmədən sadalanması onu quru və cansıxıcı edir. Belə mühazirələr hesabat xarakteri daşıyır.

9. Fikri ifadə tərzinin pozulmadığı ifadələrin, sözlərin düzgün tələffüz edilməməsi, bir fikri yarımçıq qoyub o biri fikrə keçən mühazirənin keyfiyyətini azaldır.

10. Sistemsiz izahat. Belə halda müəllim mühazirənin dəqiq planını verə bilmədikdə əsas fikirləri - mətnin struktur vahidlərini bir-biri ilə qarışdırır, qeyri-ardıcıl çıxış etdikdə, materialı yaxşı mənimsəmədikdə mühazirənin keyfiyyətini azaldır.

Mühazirə prosesində nəzərə çarpan bu kimi qüsurları aradan qaldırmaq mühazirəçinin nitqini aşağıdakı keyfiyyətlər zəmnində inkişaf etdirir:

1) Mühazirəçinin nitqi öz aydınlığı ilə fərqlənməlidir. Adətən, mühazirə materialını yaxşı bilən müəllim onu aydın şəkildə izah edə bilir. Ona görə də müəllim mühazirəyə ətraflı hazırlaşmalı, hər bir fikri, ideyanı yaxşı dərk edib əsaslandırmağı bacarmalıdır. Mühazirədə səbəblər və nəticələr açıqlanmalıdır. Müəllimin hər sözü, hər fikri aydın təsir qüvvəsinə malik olmalıdır.

2) Mühazirə sistemli və ardıcıl olmalıdır. Bu məqsədlə mühazirənin əvvəlində onun planı verilməlidir, sonra bu planın hər bir bənd diqqət və səbirlə izah edilməli və daha sonra izah edilən bəndi yekunlaşdırıb, planın yeni bəndi ilə

onun arasında əlaqə quraraq sonrakı bəndin izahına keçilməlidir.

3) Mühazirəçinin şərhi şagirdləri düşünməyə məcbur etməlidir. Mühazirəçi özündən sonra şagirdləri müxtəlif istiqamətlərdə tədqiqatçılığa sövq etdirməlidir. Bunun üçün mühazirəçinin nitqi səlis, rəvan olmalıdır. Mühazirə aydın tələffüzə, dəqiq vurğulara, ritmə, ahəngə malik olmalıdır. Mühazirəçi natiq kimi çıxış etməyi, alim kimi ardıcıl mühakimə yürütməyi bacarmalıdır.

4) Mühazirəçi mühazirəsini əsaslı və sübutlu faktlarla zənginləşdirməli, mühazirə prosesində əyaniliyin müxtəlif növlərindən istifadə etməlidir. Tarix müəllimi daim oxumalıdır ki, onun nitqi zənginləşsin. Mühazirəni cazibədar, canlı və obrazlı ifadə etmək üçün mühazirəçi daim mütaliə etməlidir. Belə hallarda mühazirəçi sorğu ədəbiyyatından geniş istifadə etməlidir.

5) Əlbəttə, Azərbaycanın hazırki durumunda imkan daxilində mühazirəçi təlimin texniki və əyani vasitələrindən istifadə etməlidir.

6) Mühazirə prosesində müəllim-şagird münasibətləri xüsusi diqqət mərkəzində saxlanılmalıdır. Mühazirədə şagirdlərin şəxsi keyfiyyətləri nəzərə alınmalıdır. Müəllim-şagird münasibətlərinin əsasını səmimiyyət, səbirlilik, təmkinlik, qayğıkeşlik və mehribanlıq təşkil etməlidir. Müəllim mühazirə prosesində hər şagirdə fərdi yanaşmağı, ona səmimi müraciət etməyi, şagirdi axıra kimi səbirlə dinləməyi, onun suallarına təmkinlə cavablar verməyi, etirazlarına soyuqqanlı olub, şagirdin iradlarından düzgün nəticələrin çıxarmağı, mühazirənin əvvəlindən axırına kimi diqqətini sinfin hər tərəfinə yönəltməsidir.

Nəticə olaraq deyə bilərik ki, məktəbdə mühazirə və seminarlardan səmərəli istifadə təlimin keyfiyyətini yüksəldir, şagird şəxsiyyətinin formalaşmasına motiv yaradır.

**Problemin aktuallığı:** Müasir mühazirə və seminarları passiv dinləməyə əsaslanmır. Onların hər biri fəal təlimin əsas xüsusiyyətlərini öz məzmununda əks etdirir. Məlum olduğu kimi, həm mühazirələrin, həm də seminarların təşkilində əsas hədəf problemlilikdir. Məhz təlimdə problemlilikdən istifadə şüurlu mənimsəməyə motiv yaradır.

**Problemin yeniliyi:** Problemin yeniliyi ondan ibarətdir ki, tarixdən məktəb mühazirə və seminarlarının təşkili və aparılması prosesində şagird şəxsiyyətinin formalaşdırılmasının nəzəri əsaslarının sistemi yaradılmışdır. Bu sistemdən gənc tədqiqatçılar faydalana bilər.

**Problemin praktik əhəmiyyəti:** Problemin praktik əhəmiyyəti ondan ibarətdir ki, tarixdən məktəb mühazirə və seminarlarının təşkili və aparılması prosesində şagird şəxsiyyətinin formalaşdırılmasından ümumtəhsil məktəblərinin çoxsaylı tarix müəllimləri, məktəb rəhbərləri istifadə edə bilər.

## ƏDƏBİYYAT


1. Ковалев А.Г. Психология личности. М.: Просвещение, 1970.
2. Коломенский Я.Л. Человек среди людей. М.: Молодая гвардия,1973.
3. Кон И.С. Личность как субъект общественных отношений. М.: Знание, 1966.
4. Леонтьев А.Н. Деятельность. Сознание. Личность. М.: Политиздат, 1975.


**Х.Аббасзаде**

## ФОРМИРОВАНИЕ ЛИЧНОСТИ УЧАЩИХСЯ В ПРОЦЕССЕ ОРГАНИЗАЦИИ И ВЕДЕНИИ ШКОЛЬНЫХ ЛЕКЦИЙ И СЕМИНАРОВ ПО ИСТОРИИ


### РЕЗЮМЕ

В статье изучен уровень исследования и обоснована актуальность проблемы. Определены требование выдвинутые к формированию личности учащихся в процессе организации и введении школьных лекций и семинаров по истории. Также исследованы факторы, определяющие лекции. Рассмотрена классификация психологических требований, выдвинутых к формированию личности учащихся. В статье исследованы воспитательные и дидактические возможности лекций и семинаров.

**H.Abbaszade**

## FORMATION OF THE PERSON OF PUPILS IN THE ORGANIZATION AND CONDUCT LECTURES AND SEMINARS SCHOOL HISTORY

**SUMMARY**

The paper examined the research level and proved the problem to date. It defines the requirements put forward to the formation of the person of pupils in the organization and administration of school lectures and seminars on history. factors determining the lectures are also investigated. The classification of psychological demands made to the formation of students' personality. The article explores the possibility of educational and didactic lectures and seminars.

**Redaksiyaya daxil olub: 29.11.2016**

# MÜASİR DƏRSİN QURULMA YOLLARI

**Şəhla Ələkbərova,**

*Elçin Qaranzadə adına*
*270 nömrəli tam orta məktəbin*
*Azərbaycan dili və ədəbiyyat*
*müəllimi*
E-mail: xuraman.salimova@mail.ru

**Rəyçilər:** *ped. ü. fəl.dok., dos.* A.M. Bəkirova,
*ped. ü. fəl.dok.* N.L. Axundov

***Açar sözlər:*** *texnoloji bilik, həyati bacarıqlar, keyfiyyət-kəmiyyət, praktik məsələlər*
***Ключевые слова:*** *технологическое знание, жизненные навыки, качество-количество, практические задачи*
***Key words:*** *technological knowledge, life skills, quality-quantity, practical tasks*

Bu gün yeni informasiya texnologiyalarının sürətli inkişafı və gündəlik həyatımıza nüfuz etməsi müasir gəncin şəxsiyyət kimi formalaşmasında və inkişafında öz izini buraxmışdır. Bu prosesdə şagirdlərin şəxsiyyət kimi formalaşmasında texnoloji bilik və bacarıqların mənimsənilməsinin də mühüm əhəmiyyəti vardır. Belə ki, ibtidai sinif təhsil sistemində ən vacib və əhəmiyyətli pillə olduğundan, bu məsələlərin müasir tətbiqi tədris olunan dərslərdən başlayır. Buna görə də bu problem bütün dövrlərdə aktual mövzu kimi tədqiqatçıların diqqətini cəlb edir. Kurikulum islahatı çərçivəsində şagirdlərin həyati bacarıqlar qazanmasına xüsusi əhəmiyyət verilir. Yer üzərində yəqin ki, elə bir insan yoxdur ki, dərsin nə olduğunu bilməsin. Məktəbdə təlim hər bir kəsin qəlbində bir iz buraxır və müəllimin də vəzifəsi təhsildə bu "izi" yaşatmaqdır. Ona görə də bu gün dərsdə zamanın gedişi ilə nəyin dəyişdiyi üzərində düşünmək çox vacibdir.

Beləliklə, müasir dərs necə olmalıdır? Gündəlik dərs planını hazırlayan zaman, müəllim ilk olaraq öz işini mövzunun, standartın, məqsədin, iş forması və iş üsulunun, inteqrasiya imkanlarının, resursların müəyyənləşdirilməsi ilə başlamalıdır. Alt standartlar təlim məqsədlərinin düzgün müəyyən edilməsində mühüm rol oynayır. Təlim məqsədlərini həyata keçirmək üçün müəllim mütləq mövzuya, standarta və məqsədlərə müvafiq təlim forması və təlim üsulu müəyyənləşdirməlidir. Düzgün seçilmiş təlim üsulu vasitəsilə şagirdləri uğurlu tədqiqata cəlb etmək, onların düşünmə və tədqiqatçılıq qabiliyyətini inkişaf etdirmək, təhsilə marağı artırmaq mümkündür.

Bu gün ənənəvi "müəllim şagird dərslik "sxeminə yeni halqa daxil olur kompüter, məktəb şüuruna isə İKT. Deməli, müasir dərsin ayrılmaz hissəsi informasiya kommunikasiya texnologiyasıdır. Belə ki, dərsin aktual praktik məsələlərindən biri uşaqların özünü inkişaf və yaradıcılığını üzə çıxaran pedaqoji şəraitin yaradılması və adaptasiyasına imkan verən elmi-effektiv texnologiyaların dərsdə istifadəsi yolu ilə şagirdlər üçün rahat, ekoloji, psixoloji sağlam təhsil mühitinin yaradılmasıdır. Sirr deyil ki, əgər müəllim tədris olunan mövzuya yaradıcı, yaş xüsusiyyətlərin uyğun yanaşarsa, heç şübhəsiz bu dərs şagird üçün maraq doğurar və müəllim nəticəyə nail olar. Ona görə də müəllim elə bir iş forması seçməlidir ki, dərslərdə oyun texnologiyası elementləri olsun.

Təlimin təşkili formalarından biri də qeyri-standart dərslərdir. Onlar mahiyyət etibarilə standart struktura malik olmurlar. Mən də həmçinin çalışıram ki, dərslərimi qeyri-standart formada qurum, oyun elementlərindən, praktik məşğələlərdən, İKT - dan daha çox istifadə edim. Adətən, İKT və digər texnologiyalardan istifadə etmək şagirdlərin diqqətinin bütün müddət ərzində cəlb olunmasına zəmanət verir.

Qeyd etmək lazımdır ki, qeyri - standart dərslərdə didaktiv məsələlər kölgədə qalmamalı, əksinə, onların həyata keçirilməsinə imkanlar açılmalıdır. Hesab edirəm ki, interaktiv lövhələrin, oyun texnologiyalarının birgə istifadəsi ilə keçirilən dərs öz əyaniliyi, rənga-

rəngliyi və sadəliyi ilə müsbət nəticələr verir. Bu isə tədris materiallarının mənimsənilməsi zamanı şagirdlərin psixoemosional fonunun yüksəlməsi nəticəsində əldə olunur.

Belə ki, ilk dəfə uşağın əsas fəaliyyəti tədris fəaliyyəti olur. Onun necə formalaşmasından, şagirddə biliyin artmasına marağın nə dərəcədə yaradılmasından, tədris üçün nə dərəcədə rahat şəraitin olmasından, şagirdin özünü təşkil və özünü reallaşdırmaq bacarığından, bütün ömür boyu tədris olunan öz təhsilini kamilləşdirmək istəyi və bacarığından da asılıdır. Dərs şagirdlərdə fənnə müsbət emosional dəyər münasibəti formalaşdırmağa yönəldilməli və onların düşüncələrinin inkişafı, təsəvvür, intellektual və yaradıcılıq bacarıqlarının inkişafı vasitəsi olmalıdır. Ona görə də hər bir dərsdə tapşırıqlar ardıcıllığı elə nəzərə alınmalıdır ki, şagirdlərdə ortaya çıxan problemləri sərbəst həll etməyə maraq oyansın, müxtəlif kommunikativ məsələlərin effektiv həlli üçün nitq vasitələrindən istifadə edə bilsinlər.

İnformasiya kommunikativ və oyun texnologiyalarının istifadəsi ilə düzgün təşkil olunmuş tədris fəaliyyəti proqramı tələblərə uyğun bilik, bacarıq, vərdişlərlə silahlandırır: şagirdlərin bir sıra şəxsi mənəvi keyfiyyətləri tərbiyəyə təsir göstərir: onların bilikləri, şəxsi təhsilləri, aktivliyi, müstəqilliyi, biliyə marağı artırır; şagirdlərin potensial imkanları üzə çıxarılır və həyata keçirilir; onlar axtarış və yaradıcı fəaliyyətə qoşulurlar. Dərsdə müasir texnologiyalardan istifadə etməklə iki əsas üstünlüyü əldə etmək olar: keyfiyyət və kəmiyyət. Yeni imkanların keyfiyyəti fənn üzrə nəticələrdə aydın görünür. Kəmiyyət üstünlükləri isə sonrakı mərhələdə özünü ifadə edir: multimedia mühiti informasiya sıxlığına görə çox yüksəkdir. Oyun isə uşağı aktiv işə sövq edir ki, bu da müəllimə uşağın yayınmış diqqətini daha da cəmləşdirilmiş hala gətirməyə imkan verir (tədris materialı maraqlı olduqda, əyaniliyi ilə seçildikdə şagirddə müsbət emosiyalar doğurur). İşin qruplarla aparılması kommunikativ kompetensiyaları formalaşdırmaq imkanı yaradır.

Beləliklə, yuxarıda deyilənlərə əsaslanıb nəticə çıxarsaq, deyə bilərik ki, müasir müasir dərs adi dərsdir, lakin bu yalnız ilk baxışdan belədir. Onda müəllimin bir neçə il əvvəl apardığı dərsdən fərqli olan nə isə var. Bu dərsin xüsusi emosional vəziyyəti, öz gücü və bacarığına inam hər bir şagirddə yaşayır. Nəhayət, dərsin hazırlanması və aparılmasında mütləq uşaqların iştirak etməsidir.

Müasir dünyada sürətlə gedən sosial, mədəni və texnoloji dəyişikliklər qlobal düşünmə tərzinin əhəmiyyətini xeyli artırır. Belə olan halda, şagirdlər müasir dərslərdə ayrı-ayrı fənlər üzrə verilən bilik və bacarıqların passiv iştirakçısı olmur, inteqrativlik şagirdlərə ətraf aləmin dərk edilməsinə yaradıcı idrakı münasibət bəsləyən aləmin dərk edilməsinə yaradıcı idrakı imkan yaradır. Bu, o zaman mümkündür ki, öyrənilən fənlər və onların əhatə etdiyi mövzular ayrı-ayrı deyil, əlaqəli, inteqrativ şəkildə tədris olunsun.

Sonda qeyd etmək istərdim ki, şagirdləri müstəqil işləmək bacarıq və vərdişlərinə alışdırmaqla bugünkü müasir müəllimin müasir təlim prosesini yeni tələb və metodlar əsasında qurmasına zəmin yaradır.

**Mövzunun elmi yeniliyi:** şagirdlərin şəxsiyyət kimi formalaşmasında texnoloji bilik və bacarıqların mənimsənilməsinin də mühüm əhəmiyyəti vardır.

**Mövzunun aktuallığı:** təhsil sistemində ən vacib və əhəmiyyətli pillə olduğundan, bu məsələlərin müasir tətbiqi tədris olunan dərslərdən başlayır. Buna görə də bu problem bütün dövrlərdə aktual mövzu kimi tədqiqatçıların diqqətini cəlb edir.

## ƏDƏBİYYAT

1. Ümumtəhsil məktəblərinin I - IV sinifləri üçün fənn kurikulumları. Bakı: Təhsil, 2008.
2. Mehrabov A. Azərbaycan təhsilinin müasir problemləri. Bakı: Mütərcim, 2007.
3. Ağayev Ş. və b. Texnologiyadan didaktik materiallar. Bakı: Nasir, 2011.
4. Nadejdina V. Kniqa tanqram (1000+1 fiqura), Minsk, 2007.
5.Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2006-cı il tarixli 233 nömrəli qərarı "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulum)"un təsdiq edilməsi haqqında.
6.Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 103 nömrəli qərarı "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)"nın təsdiq edilməsi haqqında, Bakı, 3 iyun 2010.
7. ARTPİ , Ümumtəhsil fənlərinin tədrisi məsələləri. Bakı, 2016.

**Ш.Алекперова**

## ПУТИ ПОСТРОЕНИЯ СОВРЕМЕННОГО УРОКА

### *РЕЗЮМЕ*

В статье говорится о том, что современный урок - это приобщение учащихся к совокупности достижений человечества в тесной связи с современностью в течение учебного часа. Современный урок - это высокий уровень мастерства, умение педагога донести до учащихся нечто поучительное, соответствующее уровню своего времени и позволяющее сделать вывод для будущего.

Современный урок способствует более широкому развитию познавательных возможностей учащихся.

**Sh.Alekperova**

## THE WAYS OF ORGANIZING MODERN LESSONS

### *SUMMARY*

The article said that lesson that introduces students to the aggregate achievements of humanity in close relation with modernity during the school hours. Modern lesson is a high level of skill, the ability of the teacher to convey to students something instructive, reflecting his time and allowing to draw a conclusion for the future. Modern lesson fosters the development of cognitive capabilities of students.

**Redaksiyaya daxil olub: 24.01.2017**

# MÜZAKİRƏLƏR METODUNUN YUXARI SİNİF ŞAGİRDLƏRİNİN PRAKTİK FƏALİYYƏTİNƏ TƏSİRİ

**Aygün Abbasova,**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
E-mail: aygunabbas84@gmail.com

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* M.M. Əmirov,
*ped.ü.fəls.dok.* L.N. Nağıyeva

***Açar sözlər:*** *şəxsiyyətin formalaşması, yuxarı sinif şagirdləri, praktik, fəaliyyət, təsir, müzakirə metodu*
***Ключевые слова:*** *формирование личности, старшеклассники, практическая деятельность, воздействие, метод обсуждения*
***Key words****: the formation of personality, high school students, practical work, the impact, the method of discussion*

Müzakirələr metoduna həm Azərbaycan, həm də xarici ölkə alimləri həmişə diqqət yetirmişlər. Bunun əsas səbəbi müzakirələrin insan şəxsiyyətinin formalaşdırılmasındakı müsbət roludur. Bu baxımdan dahi alman filosofu İmmanuel Kant demişdir: "Əxlaq təkcə xeyirxah əməllər deyil, həm də xeyirxah niyyətlər fəlsəfəsidir" (1, 468).

Müzakirələrin, mübahisələrin tarixi qədim fəlsəfi fikirlərin tarixindən də qədimdir. Bu aktual problem haqqında M. Mehdizadə yazırdı: "Elmi mübahisə mənasını verən disput-müzakirə məktəblərdə çox vaxt tərbiyə metodu kimi istifadə edilir… vaxtaşırı istifadə edilən disput dərsdə şagirdlərin fəallaşdırılmasına kömək edir ki, bu da təlimin məqsədlərindən biridir" (2,135).

Müzakirələr, diskussiyalar, disputlar pedaqoqların daim diqqət mərkəzində olmuşdur. H.R.Həsrətov "Disputlara hazırlıq və onun keçirilməsi metodikası" məqaləsində yazır:" Müasir sivil dünya məktəbi həyata vəsiqə olan şəxsiyyətdə üç əsas keyfiyyətin olmasını meyar sayır:

- şəxsiyyət müstəqil olaraq düşünə, müxtəlif problemləri müəyyənləşdirə bilər və aldığı biliklərlə bu problemlərin həllinə nail olur;
- şəxsiyyət tənqidi və yaradıcı təfəkkürə malikdir;
- humanitar bilikləri dərindən qavramaq üçün şəxsin lüğət ehtiyatı vardır" (3, 26-28).

Tərbiyəvi iş prosesində məqsədəuyğun olaraq müsbət dəyişikliklər etmək bütünlükdə dövlət işidir. Belə ki, bu işin həyata keçirilməsi üçün bütün imkanları nəzərə almaq vacibdir. Məhz bunun üçün tərbiyə işinin təşkilinə məhəlli yanaşma konsepsiyası, yəni pedaqoji cəmiyyətin, alimlərin və təhsilin rəhbər orqanlarının respublikanın tərbiyə işinin inkişafına dair fikirlərin inteqrasiya olunmuş müəyyən bir struktur kompozisiyası lazımdır. Belə bir konsepsiyanın əsas hissəsini konkret təşkilatı formalarda tədbirlər proqramının yaradılması təşkil edir.

Ümumtəhsil məktəblərində tərbiyə işinin əsas məqsədi böyüməkdə olan gənc nəsli mənəvi cəhətdən inkişaf etdirərək, onu cəmiyyətinin həyatında fəal iştirak etməyə hazırlamaqdır. Bu iş şagirdlərin bir şəxsiyyət kimi inkişafına və onlarda mənəvi keyfiyyətlərin formalaşdırılmasına yönəldilməlidir.

Tərbiyə işinin inkişaf proqramında deyilir: "Ümumtəhsil məktəblərində tərbiyə prosesi tərbiyənin bir sosial institut kimi keyfiyyətcə yeni status əsasında həyata keçirilir. Bu zaman milli ənənələr, ümumbəşəri dəyərlər, müasir təcrübənin nailiyyətləri, müxtəlif tərbiyə sistemləri, onların məktəb və məktəbdənkənar mexanizmlərinin möhkəmləndirilməsi, ailə tərbiyəsi və ictimai tərbiyədə mütənasiblik nəzərə alınır".

Tərbiyə işinin təşkilində sinifdənxaric tədbirlərin böyük rolu var. Müzakirə olunan mövzuların və sualların gənclərin milli ruhda tərbiyə olunmasında, onların milli özünüdərkində əhəmiyyəti olduqca böyükdür.

Müəllimin əsas işi şagirdin fərdiliyinin əsasını təşkil edən bütün insani keyfiyyətlərinin

inkişafına kömək etməkdir. Şəxsiyyətin inkişaf etməsi prosesi şagirdlərdə sosial əlaqələr sisteminin iqtisadi, siyasi və mənəvi sferalarında iştirak etmək hazırlığını formalaşdırmağını ehtimal edir.

İqtisadi sahədə şagirdlər öz professional imkanlarını təsdiq etməyi, eləcədə bazar münasibətləri sistemində müxtəlif rolları (sahibkar, aksioner, təşkilatçı, istehsalçı və i.a) mənimsəməyi bacarmalıdırlar.

Siyasi sahədə gənc insan nəinki öz siyasi mövqeyini müəyyənləşdirməli, eləcə də özünü lider rolunda sınamalı və ona məsuliyyətlə yanaşmağı bacarmalı, qanun –qaydanı başa düşməli və bütün bu məqsədlərə çatmağı özündə formalaşdırmalıdır.

Mənəvi sahədə gənc insan ətrafdakılarla qarşılıqlı münasibətləri formalaşdırmalı, dinə olan münasibətini araşdırmalı, əxlaqi əməllərdə öz gücünü sınamalı, estetik fəaliyyətdə öz imkanlarını təyin etməlidir.

Bu əlaqələrin əsas tənzimləyicisi şagirdin mənəviyyatı, onun müxtəlif sosial mövqelərdə davranışını müəyyən edən əxlaq normalardır.

Tarix təlimində yuxarı sinif şagirdlərinin mənəvi tərbiyəsinin əsas vəzifələrinə daxildir:

1) şagirdlərin emosional aləmini mənəvi hisslərlə zənginləşdirmək və onlarda mənəvi keyfiyyətləri formalaşdırmaq;

2) şagirdləri mənəvi biliklərlə silahlandırmaq, onlara əxlaq normalarının sosial və psixoloji faydasını açıqlamaq, onlarda əxlaq normalarına müsbət münasibəti formalaşdırmaq;

3) əxlaqi davranış vərdişlərinin və mədəni əlaqələrinin formalaşdırılması;

4) şagirdlərin mənəvi davranış təcrübəsinin – onların təcrübə fəaliyyətinin, kollektiv münasibətlərinin, müəllim və valideynlərlə qarşılıqlı əlaqəsinin təşkili, yolu ilə sistemli şəkildə zənginləşdirilməsi;

5) şagirdlərin mənəvi cəhətdən özünü - tərbiyə işinin təşkili.

Mənəvi tərbiyəyə aşağıdakı komponentlər əlavə olunmalıdır:

a) mənəvi tərbiyənin məqsədyönlü şəkildə maarifləndirilməsi (bu, məhəlli təhsil proqramına əlavə edilmiş etik dərslərdir);

b) şagirdlərin əxlaqi təcrübəsinin bütün mənbələrinin aktuallaşdırılması (tədris, ictimaidəyərli sinifdənxaric iş, şagirdlərin sinif daxili münasibəti, valideynlərlə münasibəti, "müəllim-şagird", "müəllim-valideyn", şagirdlərarası münasibət, məktəbin gündəlik iş üslubu);

c) mənəvi keyfiyyətlərin meyarının şagirdlərin bütün fəaliyyət növlərinə daxil edilməsi;

d) müxtəlif yaş dövrlərində şagirdlərin praktik fəaliyyət formaları ilə onların mənəvi cəhətdən maarifləndirilməsinin əlverişli əlaqəsinin yaradılması və s.

Hazırda yuxarı sinif şagirdlərinin öhdəsinə çox çətin iş düşür: qarşıda duran çətinliklərlə baş-başa qalmaq, gələcək planlar qurmaq, həyat yolundakı ağır sınaqlarla üzləşmək, özünə yeni həyat, yeni dünya qurmaq və s. Ona görə də gənclik dövrü həm çətin, həm də maraqlı və mənalı bir dövrdür.

Gənclik dövrü tərəddüdlə, şübhə ilə və hətta, ümidsizliklə müşayiət olunan dünyagörüşün və mənəvi əqidənin intensiv formalaşması dövrüdür. Yuxarı sinif şagirdlərinin tədris proqramları çərçivəsindən kənar, ciddi məşğuliyyətə marağı disput kimi tədbirlərin keçirilməsi ilə təmin oluna bilər. Bu yaş dövründə həyat yolunun seçimi baş verir və ona görə də müzakirə tələb edən mövzular şagirdləri peşə yönümü üzrə fəallaşdırmaq imkanına malikdir.

Müzakirələrdə şagirdlərin yaş və fərdi xüsusiyyətləri ona görə nəzərə alınmalıdır ki, hər bir şagirdin özünəməxsus xüsusiyyəti, marağı, idealı, həvəsi, vərdişləri, zövqü var ki, bu da ona fərdi yanaşmanı tələb edir.

Fərdi xüsusiyyətlər heç də dəyişilməz deyil. Məktəbin, sinifdənxaric tədbirlərin, müxtəlif insanlarla görüşün və müxtəlif faktorların təsiri şagirdləri dəyişə bilər. Bəzilərində bu dəyişikliklər gözlənilmədən, digərlərində isə tədricən baş verir. Şagirdlərin fərdi keyfiyyətləri həm də özünütərbiyə prosesində dəyişir ki, burada müzakirələrin böyük rolu var. Şagirdlərin fərdi xüsusiyyətlərini bilməklə, onları müzakirələrində hərtərəfli inkişaf etdirmək üçün istifadə etmək olar. Müzakirənin təşkili-məktəbi, onun fəaliyyət üslubunu, müəllimlərin və rəhbərliyin peşəkar ustalığını xarakterizə edir.

Yuxarı sinif şagirdləri öyrənmək həvəsi, müstəqilliyə can atmaq, mübahisə etmək, həyat problemlərinə öz fikrini bildirmək və s. xüsusiyyətlərə malikdir. Gənclər düzgünlük və ədalətliliyi sevdiyindən, onlar müzakirə tipli tədbir-

lərə çox böyük maraq göstərir. Yuxarı sinif şagirdi öz müstəqil həyatının ilk addımlarından vətəndaşlıq, mərdlik, xeyirxahlıq ruhunda tərbiyə olunmalıdır. Xeyirxahlıq böyük qüvvədir, bu qüvvə ürəkdə təmiz, nəcib hisslər oyadır.

Şagirdlərin biliklərə, mənəvi keyfiyyətlərə yiyələnməsi onların idrak qabiliyyətinin inkişafından, habelə əxlaqi, intellektual, estetik hisslərin inkişafından asılıdır. Onların münasibətlər sistemi müxtəlif istiqamətlərdə formalaşır. Yuxarı siniflərdə şagirdlərin təlimə münasibəti də başqa cür olur. Onların bir şəxsiyyət kimi formalaşması prosesində müxtəlif fəaliyyət sahələri mühüm rol oynayır. Bu fəaliyyət sahələri də bu və ya digər dərəcədə təlimlə bağlıdır. Şagird şəxsiyyətinin formalaşmasına təlimin geniş yayılmış forması olan müzakirələr vasitəsilə təsir göstərmək olar.

Nəticə olaraq deyə bilərik ki, yuxarı sinif şagirdlərinin həm dərslərdə, həm də sinifdənxaric tədbirlərdə müzakirələr metodundan əldə etdikləri həyata bilik və bacarıqlar onları gələcək həyata hazırlamağa kömək edir.

**Problemin aktuallığı**: Metodik ədəbiyyatların analitik təhlilindən aydın oldu ki, müzakirələr metodunun yuxarı sinif şagirdlərinin praktik fəaliyyətinə təsiri problemi bu vaxta qədər tədqiqat obyekti kimi seçilməyib. Təqdim olunan məqalə bu sahədə boşluğun doldurulmasında mühüm əhəmiyyətə malikdir.

**Problemin yeniliyi** ondan ibarətdir ki, müzakirələr metodunun yuxarı sinif şagirdlərinin praktik bacarıqlarının formalaşdırılmasına təsiri problemi sistemli şəkildə tədqiq edib və ümumiləşdirib.

**Problemin praktik əhəmiyyəti** ondan ibarətdir ki, yaradılmış iş sistemindən ümumtəhsil məktəblərinin tarix müəllimləri faydalana bilərlər.

## ƏDƏBİYYAT

1. Əli Polat. Üç min ilin hikməti. Bakı: Yurd nəşriyyatı. Poliqrafiya Birliyi, 2002.
2. Mehdizadə M.M. Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları. Bakı: Maarif, 1982.
3. Həsrətov H.R. Disputlara hazırlıq və onun keçirilməsi metodikası // Gənc fəhlə, 1981, № 6

**А.Аббасова**

## ВЛИЯНИЕ МЕТОДА ОБСУЖДЕНИЯ НА ПРАКТИЧЕСКУЮ ДЕЯТЕЛЬНОСТЬ СТАРШЕКЛАССНИКОВ

***РЕЗЮМЕ***

В статье обоснована актуальность темы. Рассмотрена степень изученности данной проблемы. Раскрыты дидактические и воспитательные пути воздействия метода обсуждения на практическую деятельность учащихся. Разработаны примеры по проведению занятий с использованием метода обсуждения. Обоснованы факты воздействия метода обсуждения на старшеклассников. В статье особое внимание уделено влиянию метода обсуждения на формирование воспитания учеников.

**A.Abbasova**

## THE IMPACT ON THE PRACTICAL ACTIVITIES OF HIGH SCHOOL STUDENTS THE DISCUSS METHOD'S

***SUMMARY***

The article substantiates the relevance of the topic. We consider the degree of knowledge of the problem. Disclosed didactic, educational influence discussion method. Developed examples for the discussion. Substantiated facts influence the method of discussion at the high school students. The paper paid attention to the formation of the students education during the use of the method of discussion.

**Redaksiyaya daxil olub: 09.12.2016**

# BOSTAN-TƏRƏVƏZ BİTKİLƏRİNİN TƏSƏRRÜFAT ƏHƏMİYYƏTİ VƏ BÖLGƏLƏR ÜZRƏ YAYILMALARI

**Zərifə İsmayılova,**

*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*ADPU*
E-mail: hacıyeva_53@mail.ru

**Rəyçilər:** *ped.ü.fəls.dok., dos.* H. Hacıyeva,
*ped.ü.fəls.dok.* L.N. Nağıyeva

***Açar sözlər:*** *fillireya ağcaqanadlısı, Kələm ağqanadlısı, Xaççiçək yarpaqyeyəni, Dalğalı birəcik*
***Ключевые слова:*** *капустная белянка, комары филируя, волнистая блока, крестоцветная радужница*
***Key words:*** *fillerya white winged insect, cabbage white-winged insect, wavy flea*

Bostan - tərəvəzçilik ənənələrinə malik bir çox bölgələrdə iqtisadi cəhətdən qiymətli və keyfiyyətli təmiz məhsullar becərilir. Bu sahənin genişləndirilməsinə və məhsuldarlığına geniş diqqət yetirilir.

Təbiətdə müxtəlif bioloji proseslərdə mürəkkəb funksional fəaliyyətləri ilə fərqlənən həşəratların əksər növləri, yaşayış sahəsi kimi bostan-tərəvəz bitkilərinə üstünlük verirlər. Bu həşəratlar əvvəllər müxtəlif yabanı bitkilərin vegetativ və generativ orqanları ilə qidalanmış, sonra isə mədəni bitkilərə keçib orada yaşamağa uyğunlaşaraq təhlükəli zərərvericilər sırasına daxil olmuşlar.

Aşağıda, ən çox və geniş yayılan zərərvericilərinin biologiyası və zərərvermə xüsusiyyətləri haqda məlumat verməyi lazım bilirik.

***Fillireya ağcaqanadlısı –Siphoninus phillyreae Hal.***

Azərbaycanda fillireya ağcaqanadlısını ilk dəfə olaraq Qəbələ rayonunda armud yarpaqları üzərində tapılmışdır. Sonrakı tədqiqatlar zamanı Oğuz, İsmayıllı kimi nəm iqlimli dağətəyi və dağ rayonlarında geniş yayıldığı müəyyən edilmişdir. Bu ağqanadlı xüsusilə İsmayıllı rayonunun Topçu, Buynuz, Qalacıq, Diallı, Talıstan, Basqal kəndlərinin ətrafındakı meşələrdə və bağlarda daha geniş yayılmışdır. Son illərdə Lənkəran bölgəsinin əkin sahələrində geniş yayıldığı müşahidə edilmişdir. Fillireya ağcaqanadlısının yumurtası çox xırda olub uzunluğu 0,2 mm-dir, uzunsov oval şəkillidir. Səthi hamardır, ön yuxarı ucu bir qədər sivri, dal aşağı ucu isə şişkindir və kiçik saplaqla təchiz olunmuşdur. Yumurta bu saplağın vasitəsilə yarpağa bərkidilir. Cavan sürfələr uzunsov-oval şəkilli, qarın tərəfdən yastılaşmış, bel tərəfdən bir qədər şişkin olur, cavan sürfələrin uzunluğu 0,25 mm-dir. Açıq yaşıl rənglidir, şəffafdır, yaxşı inkişaf etmiş bığlara, gözlərə, ayaqlara və dəlib-sorucu ağız aparatına malikdir. Puparinin uzunluğu 1-1,1 mm-dir. Fincanşəkilli dəliyin uzunluğu 0,05 mm, eni 0,035 mm-dir. İmaqonun uzunluğu 1,25-1,80 mm-dir. Bədəni ağımtıl – sarı rənglidir. Başı demək olar ki, üçbucaq şəkillidir. Bığlar uzun olmaqla, sap şəkillidir, yeddi buğumludur, gözlərin ön tərəfində çoxda dərin olmayan xüsusi çuxurcuqda yerləşir. Bığın birinci iki buğumu qısa və yoğundur, ikinci buğum armud şəkillidir. Üçüncü buğum nazik və çox uzundur, qalan buğumlar nazik silindr şəkillidir, axırıncı, yeddinci buğum diz şəkilli tüklə qurtarır. Fillireya ağcaqanadlısının Siphoninus phillyreae Haliday biologiyası üzrə Mərdəkan dendrarisində yemişan və innab kolları üzərində aparılmışdır. Ağqanadlı yumurtalarını əsas etibarilə yemişan, göyrüş, armud, təsadüfi hallarda isə alma, əzgil və s. ağacların yarpaqlarının alt səthində halqalar şəklində, koma halında, yaxud da tək-tək qoyur. Belə halqaların diametri 2,5-3 mm olur. Bu halqalarda, yaxud komalarda 10-12 dənə yumurtaya təsadüf olunur. Təzə qoyulmuş yumurtaların rəngi yaşıla çalır və şəffaf olur. Qoyulandan 3 gün sonra yumurtanın rəngi tədricən dəyişməyə başlayır. Belə ki, rəngi əvvəlcə tündləşir, daha sonralar isə qonur rəng alır.

2013-cü ilin iyul ayında apardığımız müşahidələrə görə fillireya ağcaqanadlısının yumurtası 14 günə inkişaf edir. Sürfələr yumurtanın ön üst tərəfində əmələ gələn yarıqdan xaricə çıxır.

Sürfə öz inkişafında 2 dəfə dəri dəyişməklə 3 faza keçirir. Birinci fazada sürfə çox zəif hərəkət etməklə qidalanır. Bu yaşda sürfələrin yaxşı inkişaf etmiş gözləri, dördbuğumlu bığları və ayaqları olur. Fincanşəkilli dəlik nisbətən böyük, dilcik isə bir qədər uzun və yoğun olur. Sürfənin kənarındakı qılcıqlar çox uzun olur. Cavan sürfə 4 gündən sonra dərisini dəyişib ikinci fazaya keçirir. İkinci fazada olan sürfələrdə mum borucuqları zəif də olsa inkişaf etməyə başlayır. Sürfənin rəngi isə bir qədər tündləşib açıq qəhvəyi rəng alır. İkinci fazada sürfənin inkişafı 5 gün davam edir. Bundan sonra sürfə yenə də dərisini dəyişib bir qədər böyüyür və 3-cü fazaya keçir.

Üçüncü fazada sürfələrin çox yaxşı inkişaf etmiş uzun mum borucuqları olur. Bu sürfələrin fincan şəkilli dəliyi üzərində həmişə bir damla şəffaf maye görmək olur. Bu damla sürfə tərəfindən ifraz olunan bal şirəsidir.

Yaşlı sürfə inkişaf edərək nimfa halına keçir. Bu ağqanadlıların nimfasına pupari deyilir.

Yaşlı sürfə ilə pupari arasında kəskin hüdud qoymaq mümkün deyildir, çünki yaşlı sürfə inkişaf edərək pupari halına öz dərisi içərisində keçir. Yaşlı sürfə ilə puparinin inkişafı birlikdə 7 gün çəkir. Puparinin inkişaf dövrlərinin onun içərisində tam formalaşmış cinsi yetişkən ağqanadlı asanlıqla görünür. Tam inkişaf etmiş puparinin bel hissəsində dəri T şəklində yarılır. Cinsi yetişkən ağqanadlı bu yarıqdan xaricə çıxır. Puparinin dərisi içərisindən yenicə azad olunmuş ağqanadlı qanadlarını tədricən açaraq onu düzəldir, bu hal 5-7 dəqiqə davam edir, sonra ayaqları vasitəsilə həm bədəninə və həm də qanadlarına mum tozu yaxır. Bundan sonra isə qidalanmağa başlayır.

Müşahidələrimizdən məlum olmuşdur ki, bu ağqanadlılar mayalandıqdan bir gün sonra yumurta qoymağa başlayır. Ümumiyyətlə ağqanadlılara xas olan patogenez hadisəsinə filleriya ağqanadlısında rast gəlinmir.

Fillireya ağqanadlısının (*Siphoninus phillyreae Haliday*) yayılma dinamikasına dair müşahidələr 2013-2015-ci illərin iyul ayında Yardımlı rayonunun əkin sahələrində aparılmışdır.

Fillireya ağqanadlısı həmin rayonda iyunun sonu iyulun əvvəllərində görünməyə başlayır. Kütləvi çoxalmağa başladığı dövr iyul, avqust aylarında olur. İyulun birinci ongünlüyündə yemişan yarpağı üzərində yalnız yumurtalara, təsadüfi hallarda isə cavan sürfələrə rast gəlmək olur. İkinci 10 günlüyün axırlarında isə həm yumurtalara, həm də sürfələrə rast gəlmək olur. Məsələn diametri 4 sm olan yemişan yarpağının alt səthində yalnız 44 dənə cavan sürfə olmuşdur. İyulun axırlarında və avqustun əvvəllərində əksəriyyəti ilə puparilərə təsadüf olunmuşdur ki, bunlardan da cinsi yetişkən ağqanadlılar çıxmışdır. Yeni çıxmış ağqanadlılar cavan yarpaqlara və ya digər kollara uçur.

Fillireya ağqanadlısının yayılma dövrü avqustun ortalarından sentyabr ayına qədər olur. Payızda aparılmış tədqiqatlar göstərmişdir ki, oktyabr ayından başlayaraq ağqanadlıların miqdarı azalmağa başlayır. Noyabr ayında isə bunlara təsadüfi hallarda rast gəlmək olur. Noyabrın birinci yarısında bəzi yemişan yarpaqları üzərində puparilərin qabığına, ara-bir isə ağqanadlının özünə rast gəlmək olur. Həmin dövrdə ağqanadlının nə yumurtası, nə də cavan sürfəsi tapılmışdır.

**Kələm ağqanadlısı** – *Aleyrodes brassicae*

Puparidən çıxdıqdan 2-3 gün sonra ağqanadlı yumurta qoymağa başlayır. Yumurtalar həm mayalanmış, həm də mayalanmamış ola bilir. Yumurtalar adətən yarpağın alt, bəzən də üst tərəfinə qoyularaq kiçik zoğlarda yerləşdirilir.

Yumurta qoyma zamanı dişi fərd xortumunu yarpağın üst səthinə sancır və xortumdan mərkəz kimi istifadə edərək onun ətrafında fırlanır və yumurtalarını dairəvi formada yarpağın səthinə düzür. Başqa hallarda dişi fərdlər yumurtaları topa halında qoyur və ya tək-tək atır. Belə dairələrdə və ya topalarda 6-10 yumurta olur. Bondarenkoya görə yumurtaların ümumi sayı 60-540 ədədə çatır. Məsələn, sitrus ağqanadlısının 211 yumurta, istixana ağqanadlısının 540-a yaxın yumurtası sayılmışdır.

Aparılan müşahidələrə əsasən laboratoriya şəraitində ağqanadlının yumurtasının inkişafı 12 gün davam edir. Bu temperaturdan, havanın rütubətliliyindən asılıdır. Belə ki, davamlı isti temperatur olan havalarda yumurtanın inki-

şafı qısa müddətdə başa çatır, amma nisbətən aşağı temperaturda daha uzun müddət davam edə bilər.

Embrional inkişafı bitdikdən sonra sürfə yumurtanın uzunsov dəliyindən çıxır. Azhərəkətli sürfələr inkişafının ilk fazalarında yaxşı inkişaf etmiş ağız aparatı, dördbuğumlu bığcıq və ayaqlarla təchiz olunmuşdur. İki dəfə qabıq dəyişdikdən sonra nimfa və ya pupari fazasına keçirlər. Pupari mərhələsinə keçidlə əlaqədar olaraq bığcıq və ayaqları atrofiya olunur. İlkin mərhələlərdə pupari sürfənin o biri mərhələsindən çoxda seçilmir, inkişafının sonlarına yaxın puparinin aktivliyi azalır, çünki daxildən dəyişmə gedir. Bu dəyişiklik tədricən baş verir və metamorfoz adlanır.

Sürfədən yetkin fərdə çevrildikdə həzm sistemində az dəyişiklik olur.

Yetkin fərd puparidən T şəkilli dəlikdən çıxır. Hələ qırağa çıxmamışdan puparinin içərisində yetkin fərdi görmək olur. Dəlikdən ilk olaraq həşəratın döş hissəsi, sonra baş, daha sonra bığcıqları çıxır. Bu proses cəmi bir neçə dəqiqəyə baş verir. Bəzi hallarda puparinin qabığı qalın olduqda bu proses uzun vaxt tələb edir, hətta bəzən həşərat puparidən çıxa bilmir və məhv olur.

Qanadlı fərdlərin puparidən çıxma tezliyi temperatur və rütubətlilikdən asılıdır. Havanın temperaturunun yuxarı olması bu prosesi sürətləndirir, aşağı olması isə zəiflədir. Puparidən çıxan böyük ağqanadlılar qidalanmağa başlayırlar. Onlar xortumları ilə yarpağın toxumlarını deşirlər və onun şirəsini sorurlar. Əlverişli bioloji mühit-yəni normal hava temperaturu, rütubətlilik və yemlik bitkilər olduğu halda ağqanadlılar bir neçə həftə yaşa bilirlər. Ağqanadlının generasiyalarının sayı məlum deyil, çünki generasiyalar bir birinə qarışdığı üçün onları saymaq mümkün olmur.

**Dalğalı birəcik** – *Phyllotreta undulata Kutsch.*

Bu zərərvericilər kiçik, hoppanan böcəklərdir. Qurda bənzər sürfəsinin 3 cüt döş ayaqları olur. Bədənin rəngi ağımtıl- sarıdır. Yaşlı sürfənin bədəninin uzunluğu 4 mm-ə qədərdir.

Xaççiçəkli birəciklərin əksəriyyəti bioloji və zərərvermə xüsusiyyətinə görə bir-birinə çox bənzəyir.

Cinsi yetişkənliyə çatmayan yaşlı böcəklər tarlalarda, bağlarda, meşə kənarlarında yerə tökülmüş yarpaqların, müxtəlif bitki qalıqlarının altında, torpağın üst qatlarında və başqa yerlərdə qışlayırlar.

Bu birəciyin rəngi qara və bozumtuldur. Hər qanadının üstündən sarı, uzun xətt keçir. Uzunluğu 2-2,8 mm-dir. Dağətəyi və dağlıq ərazilərdə geniş yayılmışdır. Böcəklər martın ikinci yarısında qışlamadan çıxırlar. Əvvəl onlar müxtəlif xaççiçəkli alaq otları ilə qidalanırlar. Şitillərin sahələrə köçürüldüyü və xaççiçəkli bitkilərin cücərtiləri əmələ gəldiyi vaxtlarda birəciklər mədəni bitkilər üzərinə keçirlər. Əsasən yarpaqları, bəzi hallarda isə yarpaqların saplaqlarını, çiçək və toxumların qınlarını zədələyirlər. Birəciklər yarpaqların üzərində çoxlu deşiklər açırlar. Toxumlar zədələndiyi üçün yarpaqlar quruyur.

Kiçik zədələnmələrə bitkilər asanlıqla dözürlər. Lakin zərərvericinin miqdarı xeyli artdıqda yeyilmiş yarpaqlar quruyur, bitkilər boyatmadan qalır, bəzən isə məhv olurlar. Bitkinin orta yarpaqları və boy nöqtəsinin məhv edilməsi daha təhlükəlidir. Yaz fəslində isti və quraq günlərdə böcəklərin fəallığı və qidalanmaya hərisliyi artır. Temperatur aşağı düşəndə və rütubət nisbətən artanda isə böcəklər az fəallıq göstərirlər.

Bu böcəklərə ilin yaz, yay və payız fəsillərində rast gəlmək olar. Əsasən ildə bir nəsil verirlər.

**Xaççiçək yarpaqyeyəni** – *Entomoscelis suturalis Wse*

Respublikanın yüksək dağlıq ərazilərindən başqa hər yerdə yayılmışdır. Daha çox çöl və meşə-çöl zonalarında rast gəlinir.

Rəngi qara və ya metal parıltısına bənzəyir. Uzunluğu 2-3 mm-dir. Bu yarpaqyeyənlər nəmişliyi az olan yerlərdə yaşayırlar. Başqa növlərə nisbətən onlar respublikamızda geniş yayılaraq daha çox zərər vermələrinə baxmayaraq, çox az öyrənilib. Adətən kələmi, ağ turpu, qırmızı turpu, az miqdarda soğanı, kökü və turşəngi, alaq otlarından isə ən çox vəzərini zədələyirlər. Ədəbiyyat məlumatlarına əsasən bu böcəklər şəkər çuğunduruna, qatıqotuna, xardala, günəbaxana və s. bitkilərə də zərər verirlər.

**Lənkəran bölgəsinin bostan-tərəvəz əkin sahələrində xaççiçək yarpaqyeyənin (Entomoscelis suturalis Wse.) fenologiyası (2014-2015-illər)**

| Mart | | | Aprel | | | May | | | İyun | | | İyul | | | Avqust | | | Sentyabr | | | Oktyabr, fevral |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Dekabr | | | | | | | | | | | | | | | | | | | | | |
| I | II | III | I | II | III | I | II | III | I | II | III | I | II | III | I | II | III | I | II | III | |
| 0 | - | - | | | | | | | | | | | | | | | | | | | |
| | | - | - | - | 0 | | | | | | | | | | | | | | | | |
| | | | | | 0 | 0 | 0 | + | | | | | | | | | | | | | Qışlama |
| | | | | | | | | + | + | + | + | | | | | | | | | | |
| | | | | | | | | | | | + | + | + | + | | | | | | | |
| | | | | | | | | | | | | | | + | + | + | + | + | + | | |
| | | | | | | | | | | | | | | | | | | | | 0 | |
| | | | | | | | | | | | | | | | | | | | | 0 | |

**Şərti işarələr:** 0 - yumurta; - sürfə; 0 - pup; + imaqo

Çoxillik tədqiqatlar nəticəsində bizim tərəfimizdən qışlama yerləri, inkişaf siklləri, təsərrüfat əhəmiyyəti və təbii düşmənləri öyrənilmişdir. Xaççiçək yarpaqyeyəni kserofil növ olub əsasən xaççiçəkli bitkilər olan açıq sahələrdə çoxalır. Astara, Masallı və Lənkəran rayonlarının meşə-çöl zonalarında yarpaqyeyən işlənməmiş sahələrdə, yol kənarlarında, çöl zonalarda (Masallı, Cəlilabad) isə çəmənliklərdə yayılmışdır.

Aparılmış müşahidələrə əsasən aşkar olunmuşdur ki, embrionların inkişafı payızda yumurta qoymadan sonra başlayır. Sürfələr yumurtalardan mart ayının birinci yarısında çıxırlar. İlk olaraq günəş şüalarının çox düşdüyü ərazilərdə torpağın üst qatlarında qışlayan yumurtalardan sürfələr çıxmağa başlayırlar. İki həftədən sonra yumurtalardan sürfələr çıxırlar. 1-2 gün sonra sürfələr öz qidalanacağı bitkilərə tərəf gedərək yarpaqlarla qidalanmağa başlayırlar. Sürfə və yetkin fərdlər üçün qida bitkiləri əsasən yabanı və mədəni xaççiçəkli bitkilər olur. Sürfələr yarpaqların yumşaq hissələrini yeyir, ancaq skeleti qalır. Çox vaxt sürfələr bitkilərin çiçək və gövdələri ilə də qidalanaraq zərər verirlər. Sürfələr azhərəkətlidirlər, amma bitki üzərində qidalanarkən çox məsafə qət edirlər. Bitki üzərində adətən tək-tək olurlar. Kütləvi çoxalma zamanı bir neçəsi də ola bilər. Belə ki, Qızılağac qoruğu ərazisində kələm üzərində 27 sürfə sayılmışdır. Onlar günəşli günlərdə aktiv olur və qidalanırlar, axşamlar və yağışlı günlərdə isə yarpağın alt səthlərində gizlənirlər və demək olar ki, qidalanmırlar.

## ƏDƏBİYYAT


1. Гасанов М.Б. К изучению вредителей капусты в зависимости от сортов и сроков посадки и уточнение кратности химических и биологических обработок в условиях Куба-Хачмасской зоны Азербайджана: Автореф. дис. …канд. биол. наук. Баку 1972.
2. Кулиева А.М. К изучению паразитов вредителей капусты в условиях Ленкорань-Астаринской зоны Азербайджана. Мат. сессии Зак. Сов. по корд.-н. исс. работ по защите растений, Баку.
3. Səfərova İ.M. Quba-Xaçmaz bölgəsində kələmin başlıca zərərvericilərinin bioekoloji xüsusiyyətləri, parazit və yırtıcıları // AMEA Zoologiya ins. əsərləri XXVIII-ci cild, Bakı: Elm, 2006.
4. Мирзоева Н.Б. Жуки-листоеды (*Coleoptera, Crysomelidae*), вредители огородно-бахчовых культур и их энтомофаги в Азербайджане // AMEA Zoologiya ins. əsərləri XXIX-ci cild, Bakı: Elm, 2011.

**З.Р. Исмаилова**

## ХОЗЯЙСТВЕННОЕ ЗНАЧЕНИЕ ОВОЩНЫХ РАСТЕНИЙ И РАСПРОСТРАНЕНИЕ ИХ ПО РАЙОНАМ

***РЕЗЮМЕ***

В статье повествуется о вредителях овощных растений и об экологических факторах, влияющих на их деятельность. На основе исследований, проведенных в лабораторных условиях, доказано, что развитие яиц белокрылых продолжается в течение 12 дней. При продолжительной теплой температуре развитие яиц заканчивается за более короткий срок, а при относительно низкой температуре продолжается довольно долго.

**Z.R.Ismailova**

## THE ECONOMIC IMPORTANCE OF KALEYARD-VEGETABLE CROPS AND REGIONAL DISTRUBITUION

***SUMMARY***

In the article bio ecological characteristics, phonology and flying dynamics of economically valuable parasites and despoilers widely covered and learned.

According to observation, the evaluation of winged insect egg continues 12 days. In continuous hot weather conditions, the evaluation is completed in a short period but in cold weather condition the evaluation could take long time.

**Redaksiyaya daxil olub: 22.12.2016**

# KİÇİK YAŞLI MƏKTƏBLİLƏRİN ELMİ DÜNYAGÖRÜŞÜNÜN FORMALAŞMASINDA ƏMƏK TƏLİMİNİN İMKANLARI

**Lalə Əbilova,**

*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*Bakı Dövlət Universiteti*
E-mail: Reraro@mail.ru

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* L.N. Qasımova,
*ped.ü.elm.dok., prof.* R.L. Hüseynzadə

***Açar sözlər:*** *ibtidai sinif, şagird, dünyagörüşü, əmək, tərbiyə*
***Ключевые слова:*** *начальный класс, ученик, мировоззрение, труд, воспитание*
***Key words:*** *primary school, a pupil, world outlook, labour, education*

Əməyin insan mənəviyyatına təsiri haqqında görkəmli pedaqoqlar çox yüksək fikirlər söyləmişlər. Azərbaycanda pedaqoji fikrin görkəmli nümayəndələrindən N.Gəncəvi, N.Tusi, M.Füzuli, M.Axundov və başqaları əməyin qüdrətli tərbiyə vasitəsi olduğunu qeyd etmişlər. N.Gəncəvi göstərirdi ki, biz dünyaya zəhmət üçün gəlmişik, boş hədyanlar xatirinə gəlməmişik. Dünya elminə böyük töhfələr vermiş N.Tusi kiçik yaşlarından uşaqların əmək tərbiyəsi ilə məşğul olmağı vacib saymışdır. N.Tusi göstərirdi ki, insan cəmiyyətinin yaşaması üçün əməyin əhəmiyyətini uşağa başa salmaq, onlarda əməyə məhəbbət hissi aşılamaq vacibdir. Azərbaycanın böyük mütəfəkkir alimi A. Bakıxanov əməyin insan mənəviyyatına təsirindən danışaraq göstərirdi ki, "İşləmədən, çalışmadan Allahdan nemət gözləmək özünü sərgərdanlıq zəncirinə bağlamaq deməkdir. İşdən cansağlığı bilik və təcrübə hasil olur, fitnələrin çoxu işsizlikdən törəyir.

Ölkə Prezidentinin 24 oktyabr 2013-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Təhsilin inkişafı üzrə Dövlət Strategiyası" məktəblərdə əmək təlimi dərslərinin kurikulum əsasında daha da təkmilləşdirilməsini bir vəzifə olaraq qarşımıza qoymuşdur (1).

Ümumən cəmiyyətin yarandığı ilk gündən etibarən əmək tərbiyə işinin əsasında durmuşdur və bu gün də durur. Uşaq və gənclərin zəhmət prosesində boya-başa çatdırılması, əməkdə mətinləşdirilməsi, ilk həyatı tələbat kimi əməksevərlik ruhunda yetişdirilməsi çoxdan sübut edilmiş bir həqiqətdir. Həyatın mənasını yaradıcı əməkdə görən zəhmət adamları gəncləri qeyrətli olmağa, çətinliklərdən qorxmamağa çağıraraq demişdir: "Dildən pərgar olma, işdə sərkər ol", "İşin canını işləmək alar", "İstəyirsən bol çörək, al əlinə bel, kürək", "Tənbəllik bədbəxtliyin açarıdır", "Bekarlıq korluq gətirər" (3, 123) və s. kimi xalq kəlamları insan həyatında əməyin müstəsna rolunu bir daha sübut edir.

Ona görə də hələ kiçik yaşlarından uşaqları yaradıcı əməyə alışdırmaq valideyn və müəllimlərin mühüm vəzifəsi olmalıdır. Təcrübə göstərir ki, valideynin ailədə, iş yerində, ictimaiyyət içərisində əmək sahəsindəki şəxsi nümunəsi uşaqlarda əməyə həvəs yaratmaqla yanaşı, həm də onlarda güclü əmək vərdişləri yaradır. Məktəbdə tədris edilən əmək dərsləri şagirdlərin bir şəxsiyyət kimi formalaşmasına təsir edir. Belə ki, əmək prosesində şagird həyatı, insanları, insani münasibətləri və həm də özünü dərk edir.

İbtidai siniflərdə "Əmək təlimi" fənninin əsas məzmununu "Qrafik savad elementləri", "Kağız və kartonla işlər", "Parça ilə işlər" mövzusu təşkil edir. Dərsdə təlimatı və texnoloji xəritələrdən, sxem və diaqramlardan, digər təsviri əyanilikdən istifadə etdikdə, şagirdlərin müstəqilliyinə və təfəkkürün fəallaşmasına şərait yaratdıqda, beynin işi ilə əlin işi birləşir və nəticədə praktik tapşırıq elmi əsasda yerinə yetirilir ki, bu da şagirdlərin elmi dünyagörüşü ruhunda tərbiyə olunmasına böyük imkan yaradır. Məktəb təcrübəsi göstərir ki, ibtidai siniflər üçün müvafiq tədris kabinetləri, o cümlədən hazırlıqlı müəllimlər olduqda məktəblərdə şagirdlər əmək tapşırıqlarını maraqla yerinə yetirirlər. lakin təəssüflər olsun ki, bu tələblərin əksəriyyəti yerinə yetirilmir. Əmək

təlimi dərslərində şagirdlərin elmi dünyagörüşü ruhunda tərbiyə olunması üçün böyük imkanlar vardır. Belə ki, kağızdan fiqurlar kəsməyi, ağac üzərində incə naxışlar açmağı öyrənən şagirdlər, özündə gözəlliyə hörmət, həssaslıq, özünənəzarət tərbiyə edir.

Əmək, məktəbəqədər təhsil müəssisələrində, məktəbdə, məktəbyanı sahədə, ailədə, təbiətdə, insan şəxsiyyətinin formalaşması üçün mühüm tərbiyəvi mənbədir. Məktəbyanı sahədə şagirdlərin kənd təsərrüfatı əməyi ilə tanışlığı, bağda meyvə ağaclarının calaq edilməsi işləri təkcə praktik vərdiş və bacarıqların aşılanması deyildir. O, həm də hər şeyi bilmək həvəsi və yaradıcı düşüncə tərzi tərbiyə etmək üçün ən mühüm vasitədir. Şəxsiyyətin təşəkkülündə əməyin həlledici rol oynaması, həqiqətin başa düşülməsi şagirdlərdə xüsusi ləyaqət hissi yaradaraq onu möhkəmləndirir.

Əmək təlimi dərslərində müəllimin istər təlim prosesində və istərsə də sinifdənxaric tədbirlərdə müxtəlif sxem və diaqramlardan, əyaniliyin imkanlarından, interaktiv metodlardan, səmərəli istifadə etməsi şagirdlərdə müstəqilliyin və fikri fəallığın formalaşması üçün xüsusi şərait yaradır ki, bu da şəxsiyyətin mənəvi keyfiyyətlərinin formalaşmasına imkan verir.

Əmək təlimi proqramında I-IV siniflər üzrə verilmiş mövzuların məzmununu nəzərdən keçirərkən belə qənaətə gəldik ki, proqramda verilmiş mövzuların əksəriyyəti şagirdlərin elmi dünyagörüşü ruhunda tərbiyə olunması üçün zəngin imkanlara malikdir. Bununla əlaqədar biz tədqiqata cəlb etdiyimiz qabaqcıl müəllimlərin bir qisminin əmək təlimi dərslərində müəyyən etdik ki, ayrı-ayrı mövzuları tədris edərkən onlar şagirdlərin elmi dünyagörüşü ruhunda tərbiyə olunmasını diqqət mərkəzində saxlayırlar. Belə müəllimlərin iş nümunələrindən bəzilərini verməyi məqsədəuyğun hesab edirik:

Məsələn, "Xalçanın hazırlanması" mövzusunu tədris edərkən müəllim təlim tapşırıqları ilə bərabər onun tərbiyəvi cəhətini də nəzərdən qaçırmır. O, bu gün respublikamızda hazırlanan xalçaların tarixindən, bunların bir çoxunun dünya sərgilərində birinci yer tutmasından, xalçaların hazırlanmasında yüksək əməyi olan insanların vətənə, xalqa xidmətlərindən söhbət açır.

Proqrama uyğun olaraq əmək təlimi dərslərində "Kağızla iş" mövzusunu keçərkən müəllim milli bayrağımızın kağızdan necə hazırlanmasının məna və məzmununu belə açıqlaya bilər:

"Azərbaycanın dövlət bayrağı üçrənglidir: göy, qırmızı və yaşıl. Göy rəng türkçülüyü, qırmızı rəng – müasirliyi və demokratiyanı, yaşıl islamçılığı bildirir. Bayrağın ortasındakı aypara və ulduz aya və günəşə işarədir. Ulduzun arasındakı alov dilləri odlar yurdu olan Azərbaycana işarədir. İndiki dövlət bayrağımız 1918-1920-ci illərdə fəaliyyət göstərmiş, Azərbaycan Demokratik Cümhuriyyətinin bayrağı olmuşdur. Bugünkü bayrağımız bizim dövlətimizin atributu və dövlətçilik rəmzidir. Azərbaycan vətəndaşının namus və qeyrət emblemi olan bayrağımız azadlıq və istiqlal rəmzi olmaqla ona hörmət və ehtiram gətirir" (2, 97).

Qabaqcıl müəllimlərin iş təcrübəsi göstərir ki, əmək təlimi dərslərində keçdiyi mövzudan asılı olaraq müəllim əvvəlcə dərsin ideya-siyasi istiqamətini uşaqlara aşılayır. Məsələn, ibtidai sinif müəllimi proqram əsasında "Bizim şəhərimiz" mövzusunda qurğuların konstruksiya edilməsindən danışarkən şəhər haqqında şagirdlərin təsəvvürlərini genişləndirmək üçün şəhərdə aparılan tikinti, quruculuq işlərində insanların fədakar əməyindən, 20-25 mərtəbəyə ağır yükləri qaldıran qaldırıcı kranların gecə-gündüz işləməsindən söhbət açaraq onlarda görüləcək işlərə şüurlu münasibət tərbiyə edir və onlarda vətən üçün işləmək arzusu oyadır. Müəllim istər işin məqsədini izah edərkən və istərsə də işi yekunlaşdırarkən görüləcək və ya görülmüş işin ictimai mahiyyətini və vətənimiz üçün faydasını kiçikyaşlı məktəblilərə ətraflı başa salır. Belə olduqda, hər bir şagird işə başlamazdan əvvəl dərk edir ki, vətən üçün faydalı iş görməlidir. Başqa sözlə, şagird bu prosesdə öz əməyinin konkret ictimai mənasını şüurlu surətdə dərk edir.

**Problemin elmi yeniliyi:** Məqalədə şagirdlərin elmi dünyagörüşünün inkişafında əmək təlimi dərslərinin rolu və əhəmiyyəti elmi şəkildə təhlil edilir və ilk dəfə olaraq göstərilir ki, əmək təlimi dərslərində təlimatı və texnoloji xəritələrdən, sxem və diaqramlardan, digər təsviri əyanilikdən istifadə edildikdə, şagirdlərin müstəqilliyinə və təfəkkürün fəallaşmasına şərait yaradıldıqda, beynin işi ilə əlin işi birləşir və nəticədə praktik tapşırıq elmi əsasda yerinə

yetirilir ki, bu da şagirdlərin elmi dünyagörüşü ruhunda tərbiyə olunmasına böyük imkan yaradır.

**Problemin praktik əhəmiyyəti:** Məqalə ilk növbədə əmək təlimi müəllimləri üçün praktik əhəmiyyətə malikdir. Məqalədə verilən məktəb təcrübələri, dəyərlik elmi fikirlər nəinki əmək müəllimləri həmçinin geniş pedaqoji müəllim kollektivi üçün praktik əhəmiyyətə malikdir.

**Problemin aktuallığı:** Müasir dövrdə şagirdlərin elmi dünyagörüşünün inkişaf etdirilməsi çox mühüm və əhəmiyyətli həmçinin böyük aktuallıq kəsb edir. Ölkə prezidentinin Təhsil strategiyası haqqında sərəncamında göstərilir: "Təhsil insanlara texnologiyaları çevik mənimsəmək, əmək bazarında layiqli yer tutmaq və ömür boyu təhsil prosesinə qoşulmaq, sağlam həyat tərzi, ətraf mühitə münasibətdə düzgün mövqe seçmək imkanı verir" (1) Bu cəhətdən əmək təlimi dərslərində əldə olunun təhsil insanlara texnologiyaları çevik mənimsəmək, əmək bazarında layiqli yer tutmaq və ömür boyu təhsil prosesinə qoşulmaq və müasir elmi dünyagörüşünə yiyələnmək imkanı qazanır. Bu dəyərli fikirlər məqalənin aktuallığına əsas verir.

## ƏDƏBİYYAT

1. Ölkə Prezidentinin 24 oktyabr 2013-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Təhsilin inkişafı üzrə Dövlət Strategiyası" “Xalq” qəz., 2013, 25 oktyabr
2. Mərdanov M.C., Quliyev Ə.Q. Azərbaycan Respublikasının dövlət rəmzləri. Bakı: Çaşıoğlu, 2001.
3. Azərbaycan folklor antologiyası. Bakı: Səda, 2002.

**Л. Абилова**

## ВОЗМОЖНОСТИ ТРУДОВОГО ОБУЧЕНИЯ В ФОРМИРОВАНИИ НАУЧНОГО МИРОВОЗЗРЕНИЯ МЛАДШИХ ШКОЛЬНИКОВ

***РЕЗЮМЕ***

В статье показаны пути формирования чувства любви к труду у младших школьников и показана возможность их развития на основе труда, а также обобщено их влияние на мировоззрение школьников. Опыты показывают, что в начальных классах уроки Трудовое обучение содержат такие темы как: "Графические элементы грамотности", "Работа на бумагах и на картоннах", "Работа на ткани" и другие соответствующие работы. Статья имеет практическое значение, поэтому учителя и студенты могут использовать данный материал в своей практической работе.

**L.Abilova**

## LABOUR TRAINING OPPORTUNITIES OF YOUNG STUDENTS IN FORMATION OF THE SCIENTIFIC WORLDVIEW

***SUMMARY***

The paper shows the way of forming feelings of love to work in primary school children and the possibility of their formation on the basis of labor, and summarized their influence on the outlook of schoolchildren. Experience shows that, in primary school lessons Employment Training contains "graphic element literacy", "works on paper and cardboard work", "work on the cloth" and other related works. The article is of practical importance for the teachers and students can use in their pract.

**Redaksiyaya daxil olub: 10.01.2016**

# DƏRS-SEMİNAR: "FİLİZLƏRİN TULLANTISIZ TEXNOLOGİYA ƏSASINDA KOMPLEKS EMALINDAN METALLARIN ALINMASI" MÖVZUSUNUN TƏDRİSİNDƏ EKOLOJİ BİLİKLƏRİN VERİLMƏSİ

**Ələkbər Qurbanov,**
*Ümumi kimya və kimyanın tədrisi metodikası kafedrasının müdiri , professor*
*Üzvi kimya və kimya texnologiyası kafedrasının müəllimi*

**Ülviyyə Baxşıyeva,**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
E-mail:bakh.ulviyya@gmail.com

**Rəyçilər:** *dos.*M. Hüseynov,
*dos. A. Məmmədova*

***Açar sözlər:*** *metal, filiz, qalıq, sənaye, şlak*
***Ключевые слова***: *метал, руда, отходы, промышленность, шлак*
***Key words***: *metal, ore, waste, industrial, slag*

Dərs-seminarın əsas məqsədi ümumiləşdirilmiş mövzuların dərindən mənimsənilməsinə nail olmaq, şagirdlərin müstəqilliyini və aktivliyini artırmaqdan ibarətdir. "Metallar" mövzusu ilə əlaqədar bu dərs seminarda filizin kompleks emalının tullantısız texnologiyanın əsasları ilə şagirdləri tanış etməkdir. Müəyyən materialın nəzəri əsasları öyrənildikdən sonra, yuxarı siniflərdə onun dərs-seminar formasında öyrənilməsi əhəmiyyətlidir. Şagirdlər müəllimin məsləhəti ilə dərslik və əlavə ədəbiyyatdan istifadə edərək bu dərsə hazırlaşır. Bu zaman ayrı-ayrı şagirdlərə müəllim yaxud yoldaşları tərəfindən köməklik edilir. Bundan sonra ən mühüm və mürəkkəb sualların müzakirəsinə başlanır.

Bu şagirdlərin aktivliyini artırır və dərslikdə olan materialın mənimsənilməsinə kömək edir. Onların bilik və bacarığını artırır. "Materiallar" mövzusuna aid dərs-seminarın keçirilməsi üçün müəllim əvvəlcədən tapşırıq verir. Burada şagirdlər aşağıdakı məsələləri öyrənməlidirlər.

Kimya sənayesi üçün xammala olan tələbat və onun konkret istehsalında istifadəsi;

İstehsal olunan metalın fiziki coğrafiya xəritəsində yataqlarının yerləşdiyi yerləri göstərməli;

Filizlərdən metalların alınmasının texnologiyasını və gedən kimyəvi proseslərin reaksiya təntiklərini yazmaq;

Bu dərsdə şagirdlərə müəllim arasında fikir mübadiləsinin aparılması onların müstəqilliyini artırır. Şagirdlər öz çıxışlarını öyrəndikləri faktlara əsaslandırmalıdır.

Dərs-seminar üçün müəllim ədəbiyyat verməli və ondan istifadə metodunu şagirdlərə öyrətməlidir. Bu məqsədlə müəllim dərsliklə yanaşı aşağıdakı əlavə ədəbiyyatı onlara verməlidir [1-5].

Dərs-seminar mərhələlər üzrə aparılır [1,3].

*1-ci mərhələ:* Şagirdlərin qrup halında tapşırığı yerinə yetirmək üçün hazırlıq işlərinin aparılması;

*2-ci mərhələ:* Dərsin müəllim tərəfindən motivasiyası: mövzunun əhəmiyyəti, onu məqsədi və aparılma qaydaları.

*3-cü mərhələ:* Yaradıcılıq işləri haqda şagirdlərin hesabatı;

*4-cü mərhələ:* Şagird qrupları tərəfindən icra edilən tapşırığın müzakirəsi (diskussiyası);

*5-ci mərhələ:* İstehsal prosesi zamanı əmələ gələn çirkləndiricilər və onların zərərsizləşdirilməsi üsulları ilə şagirdlərin tanışlıq səviyyəsinin müəyyən edilməsi;

6-cı mərhələ: Ətraf mühitin qorunması üçün texnoloji dəyişikliklərin aparılmasının nəticələrinə şagirdlərin münasibəti;

*7-ci mərhələ*: Dərs-seminarın yekunlaşdırılması, müəllim tərəfindən şagirdlərə verilən tapşırıqların yerinə yetirilməsinin qiymətləndirilməsidir.

Kimya müəllimi bu dərsdə ekoloji məsələni, dərsin bilik verici və tərbiyə edici vəzifəsini əsas tutaraq planlaşdırmalıdır.

Birinci qrup şagirdlər öz hazırladıqları materialı aşağıdakı kimi izah edirlər:

Metalların filizlərdən alınması və təmizlənməsində geniş tətbiq olunan metod – hidrometallurgiyadır. Bu metodun geniş istifadə olunmasına və ion mübadiləsi qətranları yaxud elektrokimyəvi üsulla ayrılması və alınmasına əsaslanır.

Məsələn, nikelin sulfid filizlərindən ayrılması xüsusi avtoklavlarda $9\cdot10^5$Pa təzyiqdə və 70-80°C temperaturda aşağıdakı reaksiya tənliyi üzrə alınır:

$$NiS\cdot FeS+3FeS+7O_2+10NH_3+H_2O\rightarrow Ni(NH_3)_6SO_4+2Fe_2O_3\cdot H_2O+2(NH_4)_2S_2O_3$$

Reaksiya tənliyindən göründüyü kimi zərərli tullantılar alınmır və nikel kompleks birləşmə şəklində ayrılır. Bu üsul ümumi qəbul olunmuş üsul olub xalkopiritdən ($CuFeS_2$) və digər sulfidli filizlərdən misin ayrılmasında istifadə olunur [7]. Burada oksigenlə zəngin məhluldan istifadə edilir. Bu üsul filizin zənginləşdirilməsi və metalın ayrılmasında istifadə edilir.

Misin əlvan metal sulfidlərindən alınmasına baxaq: misi ayırmaq üçün xalkopirit ($CuFeS_2$) əlavə olaraq qatılaşdırılır. Yəni boş süxurlardan təmizlənir. Bunun üçün *köpük flolasiya* üsulundan istifadə edilir [6]. Alınan konsentrat dəmir-xlorid (Ill) məhlulu ilə işlənir. Bu zaman mis-xlorid (I) dəmir-xlorid məhlulu və sərbəst kükürd əmələ gəlir. Alınan məhlul elektroliz edilir. Elektroliz zamanı katodda mis iona ($Cu^{2+}$) reduksiya olunur və çökərək ayrılır.

Dəmir-xlorid (Ill) xalkopiridi məhlula keçirmək üçün istifadə edildiyindən anodda yenidən regenerasiya olunur. Bu zaman katodda təmiz dəmir alınır. Bu prosesin üstünlüyünü göstərir. Təmiz Cu və Fe alınır. Əmələ gələn şlamın süzülərək yuyulmasından təmiz kükürd alınır. Beləliklə, tullantısız texnologiya əsasında təmiz Cu, Fe və S alınır.

Prosesin ayrı-ayrı mərhələlərini müəllim izah edilir:

a) Xalkopritin elektrolitik həlli:

$6FeCl_3+2CuFeS_2\rightarrow 2CuCl+8FeCl_2+4S^0$

Anod prosesi:

$CuFeS_2+3HCl\rightarrow CuCl+FeCl_2+2S°+3H+3e$

Katod prosesi:

$$3CuCl+3\bar{e}\rightarrow 3Cu^0+3Cl^-$$

b) Dəmir xlorid (II) regenerasiyası:

Anod prosesi:

$$6FeCl_2+6\bar{e}\rightarrow 6FeCl_3+6Cl^-$$

Katod prosesi:

$$6FeCl_2+6\bar{e}\rightarrow 6Fe^0+6Cl^-$$

c) Ümumilikdə prosesin gedişi:

$3CuFeS_2\rightarrow 3Cu°+3Fe^0+6S^0$

Bu üsul təmiz və yüksək çıxımla metal almağa imkan verir. Tullantılar flotasiya üsulu ilə kənar edilir. Şlamdan kükürd ayrılaraq istifadə üçün köməkçi sexə verilir. Sulfid filizlərindən əlvan metalların alınmasında filizin qatılaşdırılma və yandırma üsulundan istifadə olunur. Müəllim burada mis, qurğuşun və sink sulfidlərin yanmasından 4-10% kükürd oksidin (IV) əmələ gəldiyini və qüvvətli çirkləndirici olduğunu şagirdlərə izah edir. Bu qaz atmosferin ən təhlükəli çirkləndiricisidir. Ayrılan $SO_2$ yeni texnoloji proseslərdən istifadə edilərək, uducu qurğularda udularaq sulfat turşusu və gübrə istehsalı üçün istifadə edilir [6]. Ədəbiyyatdan [3, 4, 7] məlumdur ki, bir çox ölkələrdə metallurgiya sənayesi tullantılarında olan kükürddən istifadə edilərək, həmin ölkənin gübrə sahəsində olan tələbatını ödəyir.

Müəllim kükürd qazının təhlükəli çirkləndirici olduğunu bildirərək, onun misin yandırılması və əridilməsi prosesində əmələ gəldiyini göstərir, bu zaman tullantı qazında 8%-ə qədər $SO_2$ olduğunu göstərir. İzah olunmalıdır ki, yanmış məhsul mis və dəmirin sulfidləri və oksidlərinin qarışığından ibarətdir. Həmin qarışığa flyus kimi eyni vaxtda əhəng daşı yaxud silikat verilir. Prosesi gedən sobada flyus metal oksidləri ilə qarşılıqlı təsirdə olur.

Şagirdlər sxem əsasında kükürd oksidin (IV) zərərsizləşdirilməsi, təmiz Cu, S və $H_2SO_4$-ün alınmasını izah edirlər.

Bu zaman ərintinin səthində mis və dəmirin sulfidləri Şeyn əmələ gətirir. Çıxan qazda 1-2% $SO_2$ olur. Bu qədər $S0_2$-ni udmaq üçün xüsusi metod tələb olunur. Şeyn konvertorda qızdırılır. Burada eyni vaxtda dəmir və qalan kükürd $SO_2$-yə qədər oksidləşir. Tullantı qazında onun miqdarı 3-5% olur.

Fasiləsiz proseslə alınan $SO_2$-i $H_2SO_4$ istehsalı üçün yararlıdır. Müəllim burada öz izahatını davam etdirərək qurğuşun və sinkin ən çox sulfid mineralından: qalenit (PBS) və kükürd oksidin (IV) əmələgəlmə və kənar edilmə mənbəyini göstərən mis istehsalının texnoloji sxemi sink parıldayıcısından (ZnS) alındığının, bu sulfidlərin əsasən bir yerdə olduğunu göstərir



Filiz hərəkət edən sobalarda yandırılır. Çıxan qazda ~6 % $SO_2$ olur. Bundan sulfat turşusu istehsalında istifadə edilir. Prosesin əsas çətinliyi, sobadan çıxan qazda $As_2O_3$, HCl, HF və digər qarışıqların olmasıdır. Bu qarışıqlar katalizatoru ($SO_2+O_2 \rightarrow SO_3$) zəhərləyir və prosesin getməsini çətinləşdirir. Ona görə də bunlar və digər bərk qarışıqlar ayrılmalıdır.

Müxtəlif kimyəvi proseslərdə alınan $SO_2$ suda pis həll olduğundan, uducu olaraq qələvi məhluldan yaxud bərk qələvidən istifadə edilir [2,6]. $SO_2$ tutularaq $H_2SO_4$, S və ammonium sulfat istehsalına verilir.

Yanma kamerasına əhəngdaşı ($CaCO_3$), sönməmiş əhəng (CaO) yaxud dolomit ($CaCO_3$, $MgCO_3$) daxil etdikdə kalsium sulfat alınır:

$$2CaO+2SO_2+O_2 \rightarrow 2CaS0_4$$

Alınan quru $CaSO_4$ tozu qaz qarışığından ayrılır, yaxud skuberdə yuyulur. Quru təmizləmənin effektliyi 40-70%, yaz təmizləmədə isə bu 90%-dən çox olur. $SO_2$-ni kənar etmək üçün eyni zamanda CaO və MgO-dən ibarət Şlamdan istifadə edilir. Bu zaman maqnezium sulfit alınır

$$MgO+SO_2 \rightarrow MgSO_4$$

Bu metod nöqsanlı olmasına baxmayaraq ABŞ-da və Yaponiyada tətbiq olunur [4,7].

Ən çox ikiqat qələvi metodundan istifadə edilir. Bu məqsədlə $SO_2$-ni udmaq üçün ammonyak məhlulundan birləşməyə çevirmək üçün isə $CaCO_3$-dan istifadə edilir. Alınan gips ($CaSO_4 \cdot 2H_2O$) satışa verilir, yaxud sement istehsalına aparılır.

$SO_2$-nun udulmasında effektiv reagent kimi 150° C temperaturda qaz halında $NH_3$-dən istifadə olunur:

$$2NH_3+S0_2+H_2O \rightarrow (NH_4)_2SO_3$$

$$NH_3+SO_2+H_2O \rightarrow NH_4HSO_3$$

Ammonyakın regenerasiya olunması üçün skuberə su vurulur, alınan məhlula NaOHCaO, yaxud ZnO ilə təsir edilir. Bu zaman $NH_3$ regenerasiya olunur:

$$(NH_4)_2SO_3+2NaOH \rightarrow Na_2S0_3+2NH_3+2H_20$$

$$NH_4HSO_3+NaOH \rightarrow NaHSO_4+NH_3+H_2O$$

Bu proseslə SO2-nin kənar edilməsi 95%-dən çox olur. Proses aşağıdakı sxem üzrə aparıldıqda bir başa $H_2SO_3$ alınır. Təmiz su adsorbent kimi işlədilir və burada aktivləşdirilmiş kömür katalizatorunun iştirakı ilə $SO_2$ havanın $O_2$ ilə oksidləşdirilir. Proses katalizatorun həm səthində gedir və 10-15%-li $H_2SO_4$ alınır. Ən sadə üsul $SO_2$-ni adi şəraitdə $SO_3$-ə birbaşa oksidləşdirilməsidir:

$$2SO_2+O_2\ 2SO_3$$

Son dövrdə [6, 7] aşağıdakı tənlik üzrə ammonyak məhlulu ilə udulmuş $SO_2$- nin əməli gətirdiyi sulfit və tiosulfat duzları arasında gedən oksidləşmə-reduksiya prosesi nətiəsində sərbəst kükürd ayrılır

$$2(NH_4)_2SO_3+(NH_4)_2S_2O_3 \xrightarrow{170^0} 2(NH_4)_2SO_4+2S$$

Alınan kükürd və ammonium sulfat sənayedə geniş tətbiq olunur. Bununla yanaşı 450°-də $SO_2$-nin $Li_2CO_3$, $Na_2CO_3$, $K_2CO_3$ və bu karbonatlar qarışığının ərintisi ilə udulması texnologiyasından istifadə edilir [3, 4, 5] Katalizatorun səthində adrorasiya gedir:

$$SO_2+M_2C0_3 \rightarrow M_2SO_3+CO_2$$

(M - qələvi metaldır)

Alınan sulfit oksidləşir:

$$2M_2SO_3+O_2 \rightarrow 2M_2SO_4$$

Hidrogen-sulfidin ayrılmasında aşağıdakı absorbsiya üsulundan da istifadə olunur:

Absorbsiya:

$$3H_2S+2Fe_2O_3 \rightarrow 2Fe_2S_3+3H_2O$$

Regenerasiya: $2Fe_2S_3+6O_2 \rightarrow 2Fe_2O_3+3SO_2$

Alınan kükürd oksid (IV) hərəkət edən kömür absorbent səthində katalizator iştirakı ilə oksigen və su ilə qarşılıqlı təsirdə olub, $H_2SO_4$ əmələ gətirir:

$$2SO_2+O_2+2H_2O \xrightarrow[Kat]{} 2H_2SO_4$$

Absorbentin səthində toplanmış kül ayrılır. Absorbent regenerasiya olunur. Kömür qızdırılır, termiki parçalanma gedir və $SO_2$ kül birləşmələrindən ayrılaraq 25-30%-i yenidən turşu istehsalına verilir. Kömür və qum birlikdə Vibratora verilir.

Bu dərsdə müəllim kükürdlü filizlərin kompleks emalını izah etməklə şagirdlərə tullantısız texnologiya haqda yeni biliklər vermiş olur.

Sulfat və sulfit duzları absorbsiya olunduqdan sonra neft köksü ilə $300^0C$ reduksiya edilir:

$$2M_2SO_3+3C \rightarrow 2M_2S+3CO_2 \quad \xrightarrow{450\text{-}600^0}$$

$$M_2SO_4+2C \rightarrow M_2S+2CO_2$$

Bu prosesdə müəyyən qədər sulfid və sulfat əmələ gəlir: $4M_2S0_3 \rightarrow M_2S + 3M_2SO_4$

İstifadə edilən karbonatları regenerasiya etmək üçün $450^0C$ temperaturda su buxarı və karbon dioksiddən istifadə edilir:

$$M_2S + CO_2H_2O \xrightarrow[450^0C]{} M_2CO_3 + H_2S$$

Alınan $H_2S$ sərbəst kükürdə oksidləşdirilir:

$$2H_2S + O_2 \xrightarrow[450^0]{} 2S + 2H_20$$

Hidrogen-sulfid göstərilən hava oksigeni ilə oksidləşmə üsulundan başqa həm də tioarsenatla adsorbsiya olunur:

$$H_2S + Na_4As_2S_5O_2 \leftrightarrows Na_2As_2S_6O + H_2O$$

Tioarsenat regenerasiya olunur:

$$2Na_4As_2SO_6 + O_2 \rightarrow 2Na_4As_2S_5O + 2S_4\downarrow$$

Müəllim dərsi yekunlaşdıraraq tullantısız texnologiyanın üstünlüklərini şagirdlərə izah edir. Daha sonra şagirdlərin hesabatları qiymətləndirilir. Dərs seminara aid evə tapşırıq verilir.

**Problemin elmi yeniliyi:** Müasir təlim texnologiyası əsasında metalların tullantısız metodla alınmasının nəzəri və eksperimental cəhətdən şagirdlərə öyrətmək və bu sahədə onların bilik və bacarıqlarının formalaşdırılmasından ibarətdir. Mövzu ilk dəfə metodik cəhətdən müəllimlərə kömək edəcəkdir.

**Problemin aktuallığı:** Müasir dövrdə istehsalatın əsaslarından baş çıxara bilən, müstəqil eksperiment aparmaq bacarığına malik şəxsiyyətlərin formalaşmasında bu tip mövzuların orta məktəblərdə tədrisi üçün yeni metodikaların işlənməsi çox aktualdır.

**Problemin praktik əhəmiyyəti:** Müəllim multimediadan istifadə edərək mövzunu yüksək səviyyədə tədris edərkən alınan tullantıların təkrar emalı texnologiyası ilə şagirdlərə yeni biliklər verir.

## ƏDƏBİYYAT

1. Полосин В.С. Семинарские занятия по химии // Химья в школе, 1976, № 2
2. Abdullayeva S.A. Şagirdlərin ekoloji tərbiyəsi // Kimya və biologiya tədrisi, 1984.
3. Abbasov M.M. Məktəb kimya kursunun tədrisi prosesində ekoloji biliklərin formalaşdırılması və inkişaf etdirilməsi problemləri // Kimya məktəbdə , 2004 , № 4
4. Nərimanova N.Ə. Ekoloji biliklərin verilməsi haqda // Kimya və biologiya tədrisi, 1990, № 2
5. Abbasov V.M. və b. Kimya 8-9-cu siniflər üçün dərslik. Bakı, 2015.
6. Məmmədov N.M. Ekologiya: 9-11-ci siniflər üçün dərslik. Bakı: Maarif, 2000.
7. Боровский Е.Э. Проблемы экологии промышленные и бытовые отходы // Химья в школе, 2010.
8. Химия окружающей среды / Под. ред. О.М. Бокриса. М.: Химия, 1982.

**А. Гурбанов, У. Бахшыева**

## УРОК-СЕМИНАР: «ПОЛУЧЕНИЕ МЕТАЛЛОВ НА ОСНОВЕ БЕЗОТХОДНОЙ ТЕХНОЛОГИИ КОМПЛЕКСНОЙ ПЕРЕРАБОТКИ РУДЫ».

***РЕЗЮМЕ***

Основная цель урока – семинара достичь глубокого усвоения обобщающих тем, повышения самостоятельности и активности учащихся. Урок-семинар помогает ознакомить учащихся с темой повествующей о получение металлов на основе безотходной технологии комплексной переработки руды. Учащиеся также знакомятся с эффективными технологиями защиты окружающей среды. Усвоенные знания студенты могут продемонстрировать при помощи схем.

**A.Gurbanov, U.Bakhshıyeva**

## LESSON-SEMINAR: ON THE BASIS OF WITHOUT TECHNOLOGY OF ORES COMPLEX PROCESSING ACQUISITION OF METALS

***SUMMARY***

The main purpose of the lesson-seminar is to achieve deeper understanding of summarized themes and to increase student's independence and activity. İn conection with the subject of "metals" in this lesson-seminar, is to acquaint students without waste technology.

Students use production of raw materials associated with the external environmental technique during the learning process. Students learn about effective technologies about environmental issues. At different stages of the re-manufacturing process of muddy of and recovering of new raw materials scientifically enrolled in active conditions by students. Students demonstrate their knowledge of the scheme.

**Redaksiyaya daxil olub: 11.01.2017**

# TƏLƏBƏLƏRİN PEŞƏKAR HAZIRLIQ MƏRHƏLƏLƏRİNDƏ ŞƏXSİYYƏTLƏRARASI ZİDDİYYƏTLƏRİN HƏLLİ YOLLARI

**Qızxanım Qəhrəmanova,**

*psixologiya üzrə fəlsəfə .doktoru, dosent*
*ADPU*
E-mail: asil_zade@mail.ru

**Rəyçilər:** *psixol.ü.elm.dok. prof.* R.İ. Əliyev,
*ped.ü.fəls.dok.* S.Q. Həsənli

***Açar sözlər:*** *şəxsiyyətlərarası ziddiyyətlər, kollektivdə gender fərqləri, natamamlıq kompleksi,cinsi fəaliyyət, cinsi rollar*
***Ключевые слова:*** *межличностный конфликт, половое различие в коллективе,комплекс неполноценности, гендерная деятельность, половая роль*
***Key words:*** *gender entity, sex differences, gender activity, sex role*

Hər bir insanın həyatında peşəkarlıq mühüm yer tutur. Peşəkarlıq məkanında və zamanında şəxsiyyətin hərəkəti subyektin fəaliyyətinin peşəkar inkişafı adlandırıldı. Peşəkar inkişaf insan həyatının (təqribən 35-40 il ərzində) ən uzun dövrüdür. Bu dövr ərzində peşəkar və həyat planları transformasiya edilir, şəxsiyyətin strukturunun yenidən qurulması, fəaliyyətin aparıcı növünün, sosial situasiyanın modifikasiyası baş verir. Ölkə və xarici psixoloqlar bu prosesi mərhələyə bölürlər. T.V.Kudraytsev [3, 27] şəxsiyyətin peşəkar inkişaf problemini dərindən araşdıran tədqiqatçılardan biridir və meyarlar kimi, o şəxsiyyətin peşəyə, fəaliyyətin yerinə yetirilməsi səviyyəsinə, münasibətə öz seçimini saxladı:

1) peşəkar məqsədlərin yaranma və formalaşma mərhələsi;

2) peşəkar təlim və peşəkar fəaliyyətə hazırlıq;

3) peşəyə yiyələnmə, adaptasiya, peşəkar fəaliyyətin fəal mənimsənilməsi və kollektivdə özünü tanıma;

4) peşəkar mühitdə şəxsiyyətin reallaşması.

E.A.Klimov peşəkar istiqamətin şüurlu seçiminə hazırlıq; peşəkar hazırlıq mərhələsi (15-23 yaş) – gələcək peşəkar fəaliyyətin bilik, bacarıq və vərdişlərinin mənimsənilməsi; mütəxəssisin inkişaf mərhələsi (16-23 yaşdan təqaüd yaşına qədər) – peşəkar birlikdə şəxsiyyətlərarası münasibət sisteminə daxil olma və fəaliyyət subyektinin gələcək inkişafı.

Mütəxəssisin həyat yolunun mərhələləşməsini E.A.Klimov daha aydın təklif edir:

- optasiya – peşəkar tədris müəssisələrində ixtisasın seçim mərhələsi;
- adaptasiya (uyğunlaşma) – ixtisasa giriş və ona öyrənmə;
- internalın mərhələsi – peşəkar təcrübənin əldə edilməsi;
- ustalıq - əmək fəaliyyətinin ixtisaslaşmış formada yerinə yetirilməsi;
- nüfuz mərhələsi – mütəxəssisin yüksək ixtisaslaşmaya çatması;
- müəllimlik – mütəxəssisin öz təcrübəsini ötürməsi.

A.K.Markova peşəkarın inkişaf mərhələsinin ayırd edilməsi meyarları kimi, şəxsiyyətin peşəkar səviyyəsini seçdi [4, 205]. O, beş səviyyə və doqquz mərhələni ayırd edir:

- peşəkarlığa qədərki mərhələ - ixtisasla ilk tanışlıq;
- peşəkarlığa inkişafın üç mərhələsi daxildir: ixtisasa adaptasiya, özünüaktuallaşma və peşə, sənət formasında ixtisasa sərbəst yiyələnmə;
- superpeşəkarlığa üç mərhələ daxildir: ixtisasa sərbəst yiyələnmə, bir – birinə çox yaxın ixtisasın mənimsənilməsi, yaradıcı özünülayihələşmə;
- qeyri-peşəkarlıq, təhrif olunmuş normalar üzrə əməyin yerinə yetirilməsi, şəxsiyyətin deformasiyasının bərpası;
- peşəkarlıqdan sonrakı dövr - peşəkar fəaliyyətin bitməsi.

Ölkə hüdudlarından kənarda Ç. Syuperin mərhələləşdirməsi geniş vüsət aldı və o, peşəkar yetişmənin beş əsas mərhələsini ayırd etdi:

1) böyümə - maraq, bacarıqların inkişafı (0 – 14 yaş);

2) tədqiqat – öz gücünün bəyənilməsi (aprobasiya);

3) təsdiq – peşəkar təhsil və cəmiyyətdə mövqelərin möhkəmləndirilməsi (25 – 44 yaş);

4) dayaq – sabit peşəkar vəziyyətin yaranması (45 – 64);

5) aşağı enmə - peşəkar fəallığın azalması (65 yaş və yuxarı).

Mütəxəssisin peşəkar inkişafına sosial iqtisadi amillər və E.F.Zeyerin əsasını qoyduğu mərhələdə fəaliyyətin aparıcı növü təsir edir. Müəllif bunları ayırd etmişdir: amorf optasiya mərhələsi ( 0 – 12 yaş); optasiya mərhələsi (12-16 yaş); peşəkar hazırlıq mərhələsi (16 – 23 yaş); peşəkar adaptasiya mərhələsi (18 – 25 yaş) başlanğıc və təkrar peşəkarlıq mərhələsi və peşəkar bacarıq mərhələsi. Tələbənin peşəkarlıq inkişafı mərhələsinin qısa təhlilindən belə qənaətə gəlmək olur ki, müəllif meyarlara və bu prosesin diferensasiyasının əsasına baxmayaraq, təxminən eyni mərhələlər ayırd edilir. Gənclik çağı tələbənin inkişafında fövqəladə əhəmiyyətə malikdir, bu mərhələnin yekunu davranışın formalaşmış bütövlüyü, daxili birlik, qarşılıqlı əlaqənin anlaşılması, sosial normativlərlə və qrupun cəhdləri ilə həmrəylikdir. A.V.Dmitriyev və V.T.Lisovski sosial qrup kimi, tələbəliyin aşağıdakı standart əlamətlərini ayırd edir:

- tələbənin nüfuzlu sosial vəziyyətinin başa düşülməsi, gələcək karyeranın qurulmasında, tədris pilləsi üzrə irəliləmə mərhələsi kimi, ali məktəbdə təlimin dərk edilməsi;

- məzmunluq, qarşılıqlı təsirin intensivliyi, sosiallaşmanın şərti kimi – ünsiyyət, başqa sosial qruplar və institutlarla əlaqənin qurulması və möhkəmlənməsi;

- həyatın mənasının intensiv axtarışı, yeni ideyalara, innovasiya, proqressiv ictimai təhsilə meyl. Şəxsiyyətin təşəkkülünün mərkəzi mərhələsi kimi, B.Q.Ananyev tələbəlik dövrünü, onun əxlaqi, etik, estetik hisslərin fəal inkişafında əhəmiyyətini, xarakterinin stabilləşməsini, yetişmiş insanın funksiyalarını mənimsənilməsini ayırd edir. Gənclik çağının mərkəzi psixoloji prosesi – şəxsiyyətin xüsusi “Mən” obrazı ilə, müəyyən olunmuş prinsiplərlə hərəkətlər, özünün bütün səylərini özü ölçüb – biçməyə vadar edən – özünüşüurun inkişafıdır. İnkişafın əsas hərəkət qüvvəsi – “Mən fəaliyyət göstərən” və “Mən - əks etdirilən” arasında şəxsiyyətlərarası ziddiyyətdir [ 1, 24].

İ.S. Konun göstərdiyi kimi cəmiyyətdə müstəqil həyata daxil olma, xüsusi fərdi bioqrafiyanın başlanğıcı hamar və ziddiyyətsiz keçmir [ 2, 191].

Ölkə və xarici tədqiqatçıların fikirlərinə görə, gənclik çağının əsas psixoloji ziddiyyəti, formalaşma ilə xüsusiləşmədə aktuallaşmış tələblərlə və identifikasiya mexanizminin təkmilləşməsi arasında qarşıdurmadır. V.V. Stolinin fikrinə görə, gənçlik çağının başlanğıc törəməsi mühüm psixoloji proses kimi şəxsi identikliyin formalaşmasıdır. Özünün təkrarsızlığını, fərdiliyini, şəxsi həyatın intimləşdirilməsinin, öz davranışının motivlərini dərketmə - yeniyetməlik dövründə özünüdərkin fundamental təzahürüdür [8, 327].

V.S.Muxinanın fikrincə, dialektik əlaqəli, lakin vəhdətdə yerləşən identifikasiya və xüsusiləşmə mexanizmləri öz dərin varlığına görə məhz gənclik illərində insanın şəxsiyyət kimi təşəkkülünü şərtləndirir. Başqa insanlarla ontogenetik identifikasiyanın çətin yolunu keçərək, gənc oğlan, qız, şəxsiyyətin sosial əhəmiyyətli xüsusiyyətlərini mənimsəyir, ictimai təcrübəni interiorizasilaşdırır [5, 401]. Gənclik dövründə identifikasiya mexanizmi, özlərini başqa insanların vəziyyətində hiss etmək və bu vəziyyəti özününki kimi emosional olaraq yaşamağa icazə verir. Bununla belə, məhz gənclik dövründə, birləşməyə, xüsusiləşməyə tələb aktuallaşır, öz fərdiliyini saxlamaq şəxsiyyət hisslərini möhkəmləndirmək, öz iddialarını etirafla reallaşdırmaq üçün daxili dünyasını kənar müdaxilələrdən qoruması da mühüm sayılır. Hadisələrlə dolu birlik məkanında şəxsiyyətin inkişafının nəzərdən keçirərək, V.İ.Slobodçikov və Q.A.Sukerman [7, 59] insanın özünüinkişaf vektorunda xüsusi diqqəti, yəni, xüsusi həyatın, şəxsi bioqrafiyanın müəllifi və sahibi kimi subyektin əmələ gəlməsini aksentləşdirir. Subyektivliyin inkişaf mərhələlərini təhlil edərək, alimlər gənclik və cavanlığa, gənc insanın fəaliyyət münasibətlərində öz insanlığı ilə çıxış etdiyi dövr kimi baxırlar. Şübhəsiz, bu münasibətlər ictimai dəyərlər, norma və ideallar sistemi ilə vasitəlidirlər. Subyektivliyin təqdim olunmuş inkişaf

pillələrinin mərkəzi ideyası, ictimai norma, dəyər, ideaalların insanın şəxsi pozisiyasının əmələ gəlməsi vasitəsilə fərdiləşməsidir. Öz dövrünün pozisiyalı, peşəkar, siyasi, yaxud konfessional determinasiyasının təzyiqinə üstün gələrək, gənc insan bilmədən tez formalaşır, xüsusi müstəqilliyə görə cavabdehlik əldə edir. V.İ.Slobodçikov və Q.A.Sukerman gənclik dövrünü reallığın və idealın dissonansla xarakterizə edilən mərhələşmə sistemində tənqidi qəbul edirlər.

Müəlliflərin fikrinə görə, gənclik böhranı; bu "yaranma böhranı"dır, necə ki, yeni doğulmuş körpə onun üçün yeni olan ətraf aləmə daxil olur, eləcədə gənc insan onun üçün yeni olan birliyə daxil olur. Alimlər hesab edirlər ki, yaranma böhranı – həmişə hadisələrlə dolu yeni formaların axtarış böhranıdır, müstəqillik böhranı isə onların işlənib hazırlaması və kultivasiya məsələlərini qeyri aktualsslığı, subyektlərin birgə həyat fəaliyyətinin hadisələrlə dolu masştab formalarının ictimai mədəniyyətdə mövcudluğu ilə bağlı konstruktiv həllidir. A.V.Petrovski gənclik çağı dövründə inkişaf situasiyasına, şəxsiyyətin daxili dinamik inkişaf mənbəyinə xidmət edən qeyri – peşəkarlıq böhranı kimi araşdırır. Gənclik dövründə yaranan gənc insan necə "şəkil çəkir", - başqa insanların onun haqqında təsəvvürləri (ekzoterik mən) arasında qarşıdurma və özünün xüsusi təqdimat ilə (ezoterik Mənlə) şəxsiyyət üçün (orijinal Mənlə) ziddiyətə girərək, başqalarından fərqlənməyən adi ("diqqətə alınmayan Mənlə) "məndə başqaları kimi" prinsipi ilə çıxış edir. Şəxsən hərəkatın bu təşkili pilləsini A.V.Petrovski "personalizasiyaya tələb" adlandırır [6, 235]. Xüsusi fərdi orijinallıq subyektinin axtarışı məhz gəlmə yox, özününkü olması təsəvvür edilən "Mən" identifikasiyası yaşa dolma mərhələsində şəxsiyyətin inkişafının gələcək aktuallığı mənbəyi olan yeni ziddiyyətə gətirir. Peşəkar inkişafın yuxarıda sadalanan mərhələsində mərkəzi mərhələlərdən birini, peşəkar hazırlıq mərhələsini hesab edirik, ona görə ki, bu mərhələdə sosial situasiya şəxsiyyətin kollektivdə yeni sosial rolu qarşılıqlı münasibətin yeni sistemi: sosial müstəqilliklə, siyasi və vətəndaş mükəmməlliyi ilə xarakterizə edilir.

Peşəkar hazırlıq mərhələsi gənclik çağı ilə uyğun gəlir. Həyat fəaliyyətinin subyekti kimi, insanın özünün yaranma ideyaları ilə bağlı, gənclik çağının bu aspektlərində, şəxsiyyətin böyüməsinin əsasını təşkil edən psixoloji yenitörəmələrdə, bununla belə adekvat davranış strategiyalarının hazırlanmasına və destruktiv təsirlərə rezistentliyi artmasına vurğu edilir.

**Məqalənin aktuallığı:** Məqalədə vurğulanan məsələlər aktuallığı ilə diqqət çəkir və araşdırılması gərəkən mövzulardandır.

**Məqalənin elmi yeniliyi:** Məqalədə əsaslandırılmış məsələlər praktik əhəmiyyətə malik olduğu kimi elmi cəhətdən də əsaslandırılıb. Problemin təhlili və həlli yolları məqalənin elmi yükünü artırır.

**Məqalənin praktik əhəmiyyəti:** Ali təhsil ocaqlarında, gənclərlə işləyən psixoloq və müəllimlər üçün praktik əhəmiyyətə malikdir.

## ƏDƏBİYYAT

1. Ализаде А.А. Половой диформизм и психологические проблемы формирования личных взаимоотношений: Автореф. докт. дис. Баку, 1974.

2. Кон. И.С. Меняющиеся мужчины в меняющемся мире / И.С. Кон // Гендерный калейдоскоп: курс лекций; под общ. ред. М.М. Малышевой. М.: Академия, 2001.

3. Кудрявцев Т.В. Психолого-педагогические проблемы высшей школы [Текст] / Т. В. Кудрявцев // Вопросы психологии. 1981, №2.

4.Маркова, А.К. Психология профессионализма / А.К. Маркова. М., 1996.

5.Мухина, В.С. Возрастная психология, феноменология развития, детство, отрочество / Мухина В.С. М.: Академия, 1998.

6. Петровский, В.А. Личность в психологии: парадигма субъективности / В.А. Петровский. Ростов н/Д.: Феникс, 1969.

7. Слободчиков, В.И. Интегральная периодизации общего психического развития [Текст] / В.И. Слободчиков, Г.А. Цукерман // Вопросы психологии, 1996, № 5

8. Столин. В.В. Самосознание личности / В.В. Соломин. М. : Изд-во Моск. универ-та, 1983.

**Г. Гахраманова**

## ПУТИ РЕШЕНИЯ МЕЖЛИЧНОСТНЫХ КОФЛИКТОВ НА ЭТАПЕ ПРОФЕССИОНАЛЬНОЙ ПОДГОТОВКИ СТУДЕНТОВ

### РЕЗЮМЕ

Таким образом, обобщая вышеизложенное, можно сделать вывод, что на протяжении всего периода обучения в вузе у студентов не только не устраняются уже имеющиеся внутренние конфликты, но и, напротив, актуализируются процессы их углубления, возникают новые противоречия. При обсуждении специфики внутриличностных противоречий основное внимание ученых сосредоточено на выявлении факторов, обуславливающих внутриличностные конфликты на этапе адаптации к обучению в вузе, в меньшей степени - на всех этапах профессионального обучения.

Несмотря на большой интерес исследователей к проблеме внутриличностных конфликтов, актуализирующийся в студенческом возрасте, данная проблема не рассматривается целостно, анализируются лишь отдельные виды внутриличностных конфликтов, не рассматривается их гендерная специфика.

**Q. Qahramanova,**

## WAYS OF SOLVING INTERPERSONAL KOFLIKTOV AT THE STAGE OF TRAINING STUDENTS

### SUMMARY

Thus, summarizing the above, we can conclude that during the entire period of study in high school students not only mouth-injuring existing internal conflicts, but, on the contrary, actualized processes of their deepening, new contradictions. At about the judgment-specificity of intrapersonal contradictions focus of scientists focused on identifying the factors that lead to intrapersonal conflicts on the stage of adaptation to training in high school, to a lesser extent - in all phases of training. Despite the great interest of researchers to the problem of intrapersonal conflicts, actualized in the student's age, this the problem is not considered holistically analyze only certain types of intrapersonal conflicts, is not considered their gender specificity.

**Redaksiyaya daxil olub: 11.01.2017**

# PRAKTİK TƏFƏKKÜRÜN XÜSUSİYYƏTLƏRİ VƏ PROBLEMLİ SİTUASİYALARLA ƏLAQƏSİ

**Rima Əyyubova,**
*Sumqayıt Dövlət Universitetinin müəllimi*
E-mail: rimabdu2016@mail.ru

**Rəyçilər:** *ped.ü.fəls.dok., dos.* M. İsmayılova,
*ped.ü.fəls.dok., dos.* T.M. Məmmədov

***Açar sözlər:*** *problemli situasiya, əyani-obrazlı təfəkkür, əyani əməli təfəkkür, praktik təfəkkür, dərketmə konsepsiyası, intellekt tipi, strategiya, koqnitiv proseslər, koqnitiv strukturlaşma*

***Ключевые слова****: проблемные ситуации, образно-визуальное мышление, визуально практическое мышление, практическое мышление, тип интеллекта, стратегия, когнитивные процессы, когнитивная структура*

***Key words:*** *problematic situations, visual-figurative thinking, practical thinking, concept of understanding, type of intellect, strategy, cognitive processes, cognitive structuring*

Müasir dövrdə müxtəlif peşə sahələri üzrə informasiyaların həcmi xeyli artıb. Ona görə də bu informasiyaları təcrübəyə tətbiq etməkdən ötrü onlara seçici yamaq, ən vacib olanlardan yararlanmaq lazım gəlir. Xüsusilə ali təhsil prosesində tələbələr peşə sahəsi üzrə praktik təfəkkürə yiyələnməli olurlar. Təfəkkürün praktik xüsusiyyətlərini öyrənərək onunla digər təfəkkür növləri arasında keçidin qanunauyğunluqlarının öyrənilməsi belə çətinliklərin aradan qaldırılması üçün vacibdir. Bu baxımdan, praktik təfəkkürünün xüsusiyyətlərinin öyrənilməsi, problemli situasiyalarda onun prosessual-koqnitiv xarakterinin aydınlaşdırılması hazırda xüsusi aktuallıq kəsb edən məsələlərdəndir.

Beynin mürəkkəb abstraksiyalarla, məntiqlə əməliyyat aparmaq bacarığı insanın həyatdakı praktik təcrübəsi, dil normalarını, məntiqi, mədəniyyəti mənimsəməsi nəticəsində mümkün olur. Bu məsələlər təfəkkürün psixologiyasına daxildir. Belə ki, təfəkkür özündə fikri əməliyyatların müxtəlif növ və səviyyələrini birləşdirir. Bu səviyyələrin idrakı quruluşu fərqlidir. Məsələn, uşağın qarşısına çıxan çətin tapşırığı həll etməsi ilə alimin qarşısına çıxan hər hansı elmi problemi həll etməsi vasitəsi fikri əməliyyatlar sistemidir. Bu əməliyyatlar sistemində yaş fərqləri ilə yanaşı keyfiyyət və kəmiyyət fərqləri də var. Hər iki halda təfəkkür prosesləri mərhələlərlə baş verir. Bu mərhələlər fikirlərin ümumiləşdirilməsi, təhlili, əqli nəticəyə gəlmə proseslərinə görə səciyyələndirilir. Fikri mərhələlərdə obrazdan hadisəyə, hadisədən mahiyyətə keçmə baş verir. Onun məhsuldarlığı isə təfəkkürün dərinliyindən, fikri proseslərin bir müəyyən etmədən, daha dərin, dəqiq və aydın müəyyən etməyə keçmə xüsusiyyəti ilə müəyyən olunur. Təfəkkürün belə müxtəlif səviyyələri elementar formada olan əyani və nəzəri təfəkkür sayəsində baş verir.

Psixologiyada təfəkkürün iki: nəzəri və praktik növləri fərqləndirilir. Dərketmə fəaliyyəti zamanı təfəkkür prosesində gerçəkliyin məqsədyönlü qaydada dərk edilməsi baş verir, lakin bu prosesdə təfəkkürün bir deyil, bir neçə növü iştirak edir. Təfəkkür psixologiyasında onun bu və digər əməliyyatları özündə birləşdirən növləri ayırd edilir. Öz növbəsində, bu bölgü üzrə də təfəkkür növlərinin qruplaşdırılması aparılır:

- nəzəri təfəkkür: obrazlı və anlayışlı;
- praktik təfəkkür: əyani-obrazlı, əyani-əməli.

Sadə və mürəkkəb növlərə görə təfəkkür növləri aşağıdakı kimi qruplaşdırılır:

- sadə təfəkkür növləri: əyani-əməli, əyani-obrazlı;
- mürəkkəb təfəkkür növləri: məntiqi, operativ, mücərrəd və b.

Ə.Ə.Əlizadə praktik təfəkkür probleminə xüsusi həssaslıqla yanaşır. Onun qənaətinə görə, "təfəkkürün tipologiyası psixologiyada sistemli araşdırılmayıb. Bir ənənə olaraq təfəkkürü nəzərə və praktik növlərə bölürlər. A.Q.Maklakovun qeyd etdiyi kimi, nəzəri təfəkkürdə məfhumlu və obrazlı təfəkkürü, praktik təfəkkürdə isə əyani obrazlı və əyani əməli təfəkkürü ayırd edirlər" (1, 82).

Praktik təfəkkürün əsasında duran əyani-əməli təfəkkürdə insan təfəkkürünün bütün əlamətləri toplanıb. Belə ki, təfəkkürün bu növü

real gerçəkliyin münasibətlərini və gizli əlaqələrini ümumiləşmiş şəkildə əks etdirir. Əyani obrazlı təfəkkür inkişaf əyani əməli təfəkkürdən sonra formalaşır. O, real aləmi praktik fəaliyyətin köməyi olmadan dərk etməyə imkan yaradır. Obrazlı təfəkkürdə problemlə bağlı ətraflı təhlil və mühakimə yürütmədən əyani situasiya və obraz üzərində təhlil aparılır.

Praktik təfəkkür ontogenezin ilk dövrləri üçün aktual olan əyani əməli və əyani obrazlı təfəkkür əsasında yaranır, lakin o, yalnız yetkin şəxslərə xas olmayıb psixoloji yaşın bütün dövrləri üçün aktualdır. Müxtəlif problemli situasiyalarda təfəkkürün bu növünün aktuallığı daha da artır. Hər bir tələbənin peşə fəaliyyəti ilə bağlı olan dərketmə fəaliyyətində isə praktik təfəkkür öz aktuallığını xüsusilə qoruyub saxlayır.

Təfəkkürün sosial şəraitdə, praktik fəaliyyətdə daha yaxşı formalaşması fikrini müdafiə edən tədqiqatçılarda biri S.L.Rubinşteyndir. Onun izahına görə, nəzəri və praktik təfəkkürün qarşısında, hər şeydən əvvəl, müxtəlif tapşırıqların həlli durur. Bununla yanaşı, praktik təfəkkürə münasibətdə müxtəlif vəziyyətlər mümkündür: bir halda praktik fəaliyyətlə bağlı olan praktik və digər təfəkkür formaları elə xarakterli vəzifələri həll etməlidirlər ki, onlardan nəzəri fəaliyyətin nəticələrində istifadə etmək mümkün olsun. S.L.Rubunşteyn qeyd edir ki, daxili və xarici qüvvələrin yaradıcı fəaliyyətə təsirinin reallaşması və materiallaşması üçün yalnız praktik fəaliyyətə yönəlişlik kifayət etmir. Təfəkkür fəaliyyətində instinktiv reaksiyalarla yanaşı əzələyə nəzarət, təfəkkür gərginliyinin məqsədə yönəlişliyi, hərəkət ritminə, mimika, jest və informasiyaya nəzarət aktlarına aydınlıq gətirilir (2, 3).

C.Bruner özünün dərketmə konsepsiyasında təfəkkür proseslərinin qurulmasındakı bir sıra məsələlərin izahını verir. Onlardan ən mühümü qərar qəbul etmənin strategiyasıdır. O, məsələn, hansısa anlayışın mənimsənilməsi prosesində bu strategiyanın təfəkkür prosesləri səviyyəsindən qurulmasının necə baş verdiyini izah edir (3, 137):

- anlayışın onunla əlaqəli hadisələr əsasında öyrənilməsi;
- verilmiş nümunədən asılı olmayaraq anlayışın yaranmasına subyektiv əminlik;
- hafizəni və təfəkkürü minimal yükləyərək anlayışın dəqiq öyrənilməsi;
- anlayışın öyrənilməsində yanılmaların ən az sayda olması.

M.Məhərrəmov təfəkkür fəaliyyətini "fikri fəaliyyət" kimi ifadə edir. O yazır: "Müəyyən məqsədlə hər hansı bir cisim, hadisə haqqında fikirləşən zaman icra edilən əməliyyata fikir deyilir. Təhlil, tərkib, müqayisə, ümumiləşdirmə, sistemləşdirmə, təsnifat, mücərrədləşdirmə və konkretləşdirmə, fikri, yaxud əqli əməliyyatların bir-biri ilə sıx və qarşılıqlı vəhdət halında cərəyan edən əsas növləridir" (4,32). Bu izahda təfəkkür fəaliyyəti əqli fəaliyyətin tərkib hissəsi kimi götürülür.

Ə.S.Bayramov təfəkkür proseslərinin tənzimlənməsində şəxsiyyət strukturlarının birgə çalışmasını zəruri sayır. Deməli, burada yalnız mühit faktoru deyil, həm də fərdilik və genotip iştirak etmiş olur: "Ağılı yaxşı təşkil edilmiş biliklər sistemi hesab edirlər. Mütəşəkkil, sistematik biliklərin olması ağıl üçün kifayət hesab edilə bilməz. Əsas məsələ mövcud biliklərdən ciddi surətdə, seçiciliklə istifadə etməyi bacarmaqdır. Yeni məsələni həll etmək üçün yeni biliklərdən istifadə etməyə qədəm qoyana qədər təfəkkür fəaliyyətə başlayır" (5,16-17).

A.A.Rean da bu sahədə yaranan problemlərin şəxsiyyətin inkişaf səviyyəsi ilə əlaqəli olduğunu göstərir. "Mən"in həqiqiliyinə münasibətdəki ziddiyyətlər problemli uşağın orta uşaqlıq dövründən başlayaraq şəxsiyyətin bütün psixoloji quruluşunda özünü göstərir. Məsələn, "xarici Mən" in neqativ təsiri sosial məqsədlərdə və prinsiplərdə dominantlıq edir. Frustrasiya zamanı tələbatlarda stereotip qaydada hiddət, nifrət baş qaldırır. Bundan əlavə, belə şəxsiyyət üçün patoloji hövsələsizlik və tənqidə qarşı dözümsüzlük xasdır " (6, 294).

Psixologiyada təfəkkür növlərinin fərdi xüsusiyyətlər daşıması, kimində obrazlı, kimində, operativ, kimində isə məntiqi təfəkkürün üstünlük təşkil etməsi fikri qəbul olunur. Həmçinin, fəaliyyət prosesində təfəkkür növlərinin üstünlüyünə yaş qanunauyğunluqları aspektində baxılır. Bununla bağlı olaraq H.Qardnerin intellekt tipinin təyini testi çox məşhurdur. Bu testə görə tələbələrin praktik təfəkkür imkanlarını da müəyyənləşdirmək mümkündür. H.Qardnerin nəzəriyyəsi əsasında işlənmiş bu testin bir çox variantlarından istifadə edilir. Biz onun onlayn variantından yararlandıq (http:// www. psychologos.ru). H.Qardnerin nəzəriyyə-

si əsasında hazırlanan bu testi tətbiq edərək insanın intellekt tipini müəyyənləşdirmək, bu əsasda da onun praktik təfəkkürünün təbii imkanlarını aydınlaşdırmaq olar.

Praktik təfəkkürün inkişafı bir sıra mərhələlərdən keçir. Bu mərhələlərin hər birində öyrədici təlim ona əhəmiyyətli dərəcədə təsir göstərir. Aparılmış müxtəlif xarakterli tədqiqatlar göstərir ki, müasir psixoloji təfəkkür koqnitiv və ya fikri manipulyasiya kimi təqdim edilir. Bu proses anlayışların, məsələ həllinin intellektual funksiyalarla, yaradıcılıqla, informasiyaların simvolik işlənməsi, təxəyyüllə əlaqədar olan fikri əməliyyatları analiz, sintez, ümumiləşdirmə və s. əhatə edir. Belə təfəkkür özündə praktik təfəkkürün bir çox imkanlarını birləşdirir. Göstərilən keyfiyyətlər təfəkkürə problemli situasiyaları uğurla həll etmək imkanı da verə bilir, lakin burada digər məsələləri də nəzərə almaq lazımdır.

Ə.Ə.Əlizadə problemli situasiyalarda praktik təfəkkürdə dəyişmələrin baş verdiyini iddia edir. “Gəlin problemli situasiyalarda, xüsusilə hər hansı bir siyasi və əxlaqi məsələ həll olunanda insanların davranış və rəftarına diqqət yetirək. Onlar çox vaxt müxtəlif səhvlərə yol verirlər. M.Lipman onların kökünü araşdıranda yenə də ata-babalarımızın “arpanı bölmək ” effektinə gəlib çıxmışdı. Onun fikrincə, hər hansı bir problemli situasiya ilə rastlaşanda insanlar yaxşı mühakimə yürüdə bilmirlər. Onlar situasiyanı müəyyən stereotiplərlə, mövhumi fikirlərlə, emosiyalarla qiymətləndirdikləri halda, öz qənaətlərini lazımi dərəcədə əsaslandıra bilmirlər, anlayışların mənasını təhlil etmirlər, onların kontekstdən asılı olmasına diqqət yetirmirlər, müxtəlif meyarlardan refleksiv surətdə istifadə etmirlər və müxtəlif məntiqi səhvlərə yol verirlər” (6, 90).

S.V.Duxnovskiyə görə, situasiyanın spesifikliyinin qavranılması fərdin mühit haqqındakı məlumatlarından asılıdır. Situasiyada həmişə iki açar sözü ayırd etmək mümkündür: fərdin özünü və onun qavrayışını. Obyektin sərhədlərinin qavranılması subyektin qavrama resursları, hər şeydən əvvəl fərdin özünün tam varlığı üçün mühüm və vacibdir. Qavrayış obyekti kimi situasiya və insan həyatının əsas tərkib hissələri aşağıdakı münasibətlər sisteminə malikdir (7, 10 ).

- fiziki münasibətlər sistemi maddələrin aqreqat halını ifadə edir (fiziki bədən, maye, qaz və s.) ki, onların təşkili mexaniki, akustik, optik və d. xassələrlə abiotik hadisələrin təşkilini, məkan və zamanın qeydə alınmasına malikdir;
- münasibətlərin bioloji sistemi obyekt qismində fərdin iştirakçısı olduğu həyat hadisələri çıxış edir, gerçəklik ona tələbatlar və hərəkətlər sahəsi kimi görünür;
- münasibətlərin sosial sistemi - insanlar arasındakı qarşılıqlı münasibətlər məkanı, obyektin qavranılmasını məzmununa insanların davranışı, onun vəziyyəti, rollar, cəmiyyətdə tutduğu mövqe, mədəni ənənələr və d. (7, 11).

Nəzərə almaq lazımdır ki, insan öz davranışında yalnız situasiyanı ifadə eləmir, özünü də həmin situasiyada hiss edir. Eynilə, şəxsiyyət fəal şəkildə yaşadığı sosial mühitin yaradılmasında iştirak edir, onun, öz həyatının və dünyanın fəal yaradıcısı kimi çıxış edir. Bu baxımdan situasiyanın subyektiv interpretasiyası prosesində tədqiqatçıların diqqətini 2 aspekt cəlb edir (7, 14):

a) bu və digər situasiyanın adlandırılması, onlara etiketlərin qoyulması, yaxud kateqoriyaların formalaşdırılması, hadisələrin, situasiyaların hansısa sinfinə aid edilməsi, bu əsasda obyektlərin ayrıca xassələri və ya xarakterinə münasibəti gözləmək;

b) ikili fikrə imkan yaratmaq – informasiyanı digər mənbələri və onların interpretasiyasını əldə etmək, lazımsız məlumatlara yer verməmək.

L.F.Burlaçuk və N.B.Mixaylova insan şüurunda situasiyaların subyektiv təsəvvürünü aşağıdakı paramertlərə görə təhlil edirlər (8, 12):

- situasiya ilə üzləşən subyektin psixi vəziyyəti (situasiyaya hazırlıq, ona münasibət və onun təxmini qiymətləndirilməsi, eləcə də gözləmə və proqnozlaşdırma);
- qoruyucu psixoloji mexanizmlərin yaranması situasiyanın interpretasiyası;
- situasiyanın şəxsi təmsilçiliyindən yaranan emosional təəssüratlar;
- koqnitiv reprezentasiyanın tematik məzmunu, onların ierarxiyası, və diferensiallaşdırma dərəcəsi;
- reprezentasiyanın subyektin özünün, başqalarının maraqlarına, situasiyanın real tələblərinə istiqamətlənməsi;
- koqnitiv reprezentasiyaların davamlılıq dərəcəsi.

Situasiyalarda insanların davranışını nizamlayan koqnitiv proseslərə nəzər salarkən "koqnitiv strukturlaşma" anlayışına da toxunmaq lazım gəlir (O.Harvay, D.Hunt, M.Driver, 1961). Koqnitv sturkturlaşma – subyektin koqnitiv sistemindəki ikitərəfli asılılığın nəticəsi olaraq strukturlaşması, informasiyanın yenidən işlənməsi qabiliyyətidir. Koqnitiv strukturlaşma - zəif quruluşu olan, pis formalaşdırılmış koqnitiv vəzifələrin yerinə yetirilməsinin əlverişli vasitəsidir. Koqnitiv strukturlaşma problemi dərindən anlamağa, ziddiyyətləri üzə çıxarmağa, onları keyfiyyət baxımından təhlil etməyə imkan verir. Koqnitiv strukturlaşmanın məqsədi həll edilən problemlərin formalaşdırmaq və dəqiqləşdirməkdir. Mürəkkəb koqnitiv sistemləri koqnitiv yanaşmanın fərziyyəsini köməyi ilə başa düşmək, təhlil etmək onun səbəb-nəticə əlaqələrinin quruluş sxemi hazırlanır (http://sardismusic.com).

Koqnitv sturkturlaşma informasiyanın yenidən işlənməsindəki fərdi fərqləri də şərtləndirir. Belə ki, situasiyanın mürəkkəbləşməsi informasiyanın təsirini zəiflədir. Bu, böhranlı və fövqəladə situasiyalarla bağlı aparılan eksperimentlərdə aydın şəkildə təzahür edir. Zəif koqnitiv strukturlaşmağa malik olan insanlar stereotip hərəkət edirlər. Onlar situasiyanın yeni tələblərinə çevik şəkildə alışmağa qadir deyillər. Onlar həm də geniş ümumiləşdirməyə malik olmaqla xarici şəraitdən asılı olurlar. Belə "ümumiləşdirmə" bələdləşmənin fərdi cizgilərinin əsasında durmaqla situasiyanın aktual şərtlərinə uyğun gülməyə də bilər. Əlbəttə, davranışda eyni hərəkət yaradan situasiyanın xarici görünüşə görə eyni cür, oxşar olması vacib deyil. Yəni, situasiya subyektin gözündə eyni cür görünür, ondan eyni nəticələr gözlənilir. Bu nəticələr aktual situasiyaya bağlanan aktual keçmiş hadisələrdir. Onları görməkdən və gözləməkdən ötrü insanda informasiyanı diferensiallaşdırmaq və artırmaq qabiliyyəti olmalıdır.

İnsan davranışını onun situasiya ilə qarşılıqlı münasibətləri mövqeyindən izah edərkən aşağıdakı koqnitiv prosesləri nəzərə almaq lazımdır:

- aktual situasiyanın qiymətləndirilməsi;
- situasiyanın nəticələrini əvvəlcədən bilərək qiymətləndirmək;
- hərəkətin istiqamətini seçməyə imkan verən proyeksiya;
-əldə edilmiş nəticələrə görə özünü-qiymətləndirmə;
- retrospeksiya.

Situasiyanın koqnitiv qiymətləndirilməsində stimulyasiyanın xüsusiyyəti (həm insandan kənarda yerləşən xarici, həm də orqanizmin daxili vəziyyətinə keçən stimul kimi) informasiyanın mənbəyi kimi çıxış edir. Bunun ardınca situasiyanın tərkibinə daxil olan ayrı-ayrı hadisələrin koqnitiv ifadəsi baş verilir.

Koqnitiv reprezentasiyalar sayəsində müxtəlif hadisələr, ətrafdakı vəziyyət bütöv halda transformasiya olunur. A.V.Qrişina situasiyanın koqnitiv reprezentasiyanın qavrayışın nəticəsi olmasına münasibət bildirərək qeyd edir ki, qavrayışın mahiyyəti yaradıcı varlıq kimi öz aləmində, öz ətrafında müəyyən olunur. İnsan bir situasiyadan qaçaraq digərinə üz tutur. Ona iştirakçısı olmadığı situasiyalar da təsir göstərir. Eyni qaydada, o özü də özündə və başqalarında dəyişmələr yaradır. Bu həlledici məqam onu ifadə edir ki, insan situasiyanı, onun stimullarını və hadisələri hansı şəkildə seçirsə, özünün koqnitiv proseslərində onu eləcə də qəbul edir, konstruksiyalaşdırır və qiymətləndirir (9,130).

Deyilənlərdən belə aydın olur ki, praktik təfəkkür 2 mühüm funksiya yerinə yetirir:

1) bir tərəfdən ətraf aləmdə, eləcə də peşə fəaliyyəti zamanı üzləşdiyimiz situasiyalara tənqidi, fərqləndirici, situativ və təcrübi baxımdan yanaşır, lazım olanları ümumiləşdirir (interiorizasiya);

2) digər tərəfdən, ümumiləşdirilmiş bilikləri əlverişli qaydada təcrübəyə tətbiq etmək üçün lazım olan hərəkət sxemi hazırlayır (ekteriorizasiya).

Göstərilənlərdən bu nəticəyə gəlmək olur ki, ali məktəblərdə aldıqları təhsil prosesində tələbələrdə üzləşdikləri problemli situasiyaların həll etmək üçün onlarda praktik təfəkkür inkişaf etdirilməlidir. Bu yolla tələbələrdə sosial-psixoloji problemləri aradan qaldırmaq bacarıqlarını inkişaf etdirmək, təcrübə formalaşdırmaq, ümumilikdə isə tədris materiallarını mənimsəməklə fəallığın subyektinə çevrilmək olar. Bu, bir tərəfdən tələbələrdə hələ təhsil müddətində üzləşdikləri çətinlikləri dəf etmək, digər tərəfdən peşə fəaliyyətində problemli situasiyaların həlli yollarını öyrənmək baxımından vacibdir. Bunlarla yanaşı, tələbələr problemli situasiyalardan qaçmamağa

alışdırılmalıdırlar. Müxtəlif xarakterli texnologiyalar tətbiq etməklə buna nail olmaq mümkündür. Həmin texnologiyaların tətbiqi imkan verəcəkdir ki, onlar üçün, ya təbii olaraq baş verən, ya da süni yaradılmış problem situasiya ciddi narahatlıq yaratmasın, əksinə, bəzi hallarda, hətta, əhəmiyyət kəsb etsin, lakin belə situasiya tələbələrin əvvəlki təcrübə ilə bağlı olmalıdır. Daha böyük problem situasiya özündə hissələri birləşdirməlidir. Onlar biri-digəri ilə əlaqəli olmalı, birinin həlli digərinin də aydınlaşmasına imkan verməlidir. Bu halda tələbələri problemli situasiyaların həllinə həvəsləndirmək və stimullaşdırmaq daha asan olar.

**Problemin aktuallığı**. Praktik təfəkkür ontogenezin ilk dövrləri üçün aktual olan əyani əməli və əyani obrazlı təfəkkür əsasında yaranır, lakin o, yalnız yetkin şəxslərə xas olmayıb psixoloji yaşın bütün dövrləri üçün aktualdır. Müxtəlif problemli situasiyalarda təfəkkürün bu növünün aktuallığı daha da artır. Hər bir tələbənin peşə fəaliyyəti ilə bağlı olan dərketmə fəaliyyətində isə praktik təfəkkür öz aktuallığını xüsusilə qoruyub saxlayır.

**Problemin yeniliyi.** Son dövrlərdə problemli situasiyalarla praktik təfəkkürün əlaqəsi haqqında mülahizələr irəli sürülür.

**Problemin praktik əhəmiyyəti.** Tələbələrdə praktik təfəkkürünün xüsusiyyətləri ilə bağlı problemli situasiyalarının həlli yollarını araşdırılmasında əhəmiyyəti vardır. Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## ƏDƏBİYYAT

1. Əlizadə Ə.Ə. İdrak prosesləri və hisslər. Psixopedaqoji məsələlər. Bakı: ADPU-nun mətbəəsi, 2006.
2. Рубинщтейн С.Л. Основы общей психологии. М.: Педагогика, 1982.
3. Брунер Д. Психология познания. М.: Прогресс, 1977.
4. Məhərrəmov M.C. Yaxşı oxumağın sirri. Bakı: ANB, 1965.
5. Bayramov Ə.S. Şagirdlərdə təfəkkür müstəqilliyinin inkişafı və tərbiyəsi. Bakı: Maarif, 1966.
7. От рождения до смерти. Под ред. А.А. Реана. М.: Алма-пресс. 2002.
8. Духновский С.В. Психологическое сопровождение подростков в критических ситуациях. Учебное пособие. Курган: Изд-во Курганского Гос. Ун-та, 2003.
9. Бурлачук Л.Ф., Михайлова Н.Б. К психологической теории ситуации // Психологический журнал, 2002, № 1
10. Гришина Н.В. Психология социальных ситуаций // Вопросы психологии, 1997, №1

http://sardismusic.com

http://www.psychologos.ru

**R.Ayyubova**

## FEATURES OF PRACTICAL THINKING AND ITS CONNECTION WITH PROBLEMATIC SITUATIONS

### SUMMARY

From the above it can be concluded that the practical thinking should be developed in students to solve the problematic situations they face during their educational process in High schools. İn this way, the students can be turned into the subject of activism by eliminating their social and psychological problems, developing their skills, creating experience and in general by adopting teaching materials.

**Р.Аюбова**

## СВЯЗЬ ПРАКТИЧЕСКОГО МЫШЛЕНИЯ С ПРОБЛЕМНЫМИ СИТУАЦИЯМИ

### РЕЗЮМЕ

Из указанного в статье можно сделать вывод, что в высших учебных заведениях у студентов в процессе получения образования для решения встречающихся проблемных ситуаций, надо развивать практическое мышление. Таким путем можно устранить социально-психологические проблемы у студентов, развить их способности, формировать опыт, а в целом путем усваивания учебного материала превратить в субъект активности.

**Redaksiyaya daxil olub: 11.01.2017**

# VALİDEYNLƏRLƏ PSİXOKORREKSİYA İŞİNİN TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ

**Masuma Kargarzademiandobad,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Bakı Dövlət Universiteti*
E-mail: dr.masoumeh.kargarzadeh@gmail.com

**Rəyçilər:** *prof.* R.F. İbrahimbəyova,
*dos* .R. Cavadov

***Açar sözlər:*** *ailə, valideynlər, psixokorreksiya işi, Azərbaycan ailəsi, valideyn-övlad münasibətləri, müasir proyektiv metodikalar*

***Ключевые слова****: семья, родители, работа по психологической коррекции, азербайджанская семья, отношения между родителями и детьми, современные проективные методы*

***Key words****: family, parents, work on psychological treatment, family, relationships between parents and children, modern projective techniques*

**Problemin aktuallığı**. Müasir cəmiyyəti tez-tez böhranlar sarsıdır, dünyada açıq və ya gizli şəkildə sərvətlər uğrunda mübarizə gedir. Eyni zamanda dünya bütövlülüyü və vəhdəti də artır, ona görə də ümumi inkişaf paradiqmaları yaradılmalı və tətbiq edilməlidir. Əks təqdirdə dünya nizamı pozular, bəşər nəsli fəlakətə doğru yuvarlanacaqdır. Sosial münasibətlər getdikcə daha mürəkkəb xarakter alır, insan bir şəxsiyyət olaraq bir çox statusları və rolları həyata keçirmək məcburiyyətindədir. Buna baxmayaraq o, həmin vəzifələri yerinə yetirməyə hələ də tam hazır deyil. Söhbət həm də valideyn vəzifələrindən gedir. Ailənin vacib funksiyalarından biri övlad böyütmək, cəmiyyət üzvü kimi onu formalaşdırmaqdır. Bu sahədə onlara cəmiyyət tərəfindən də yardım göstərilir.

Bununla belə elə situasiyalar yaranır ki, adi vasitə və metodlarla, yəni təlim-tərbiyə, tibbi tədbirlər, sosial-psixoloji yardım, icma səviyyəsində görülən tədbirlərlə vəziyyəti düzəltmək, məsələni düzgün həll etmək mümkün olmur. Söhbət həm adi, gündəlik vəzifələrdən, həm də yaranmış qeyri-adi, bəzən fövqəl vəziyyətlərdən gedir. İstənilən halda valideyn öz problemləri ilə tək qalmamalı, ona cəmiyyət hərtərəfli yardım göstərilməlidir. Bu məqalədə söhbət psixoloji yardımdan, daha dəqiq desək, psixoloji korreksiya tədbirlərindən gedəcək.

**Problemin işlənmə dərəcəsi** ilə bağlı demək lazımdır ki, beynəlxalq təcrübə geniş olduğu ilə bağlı nəzəri və praktiki məsələlərin elmi ədəbiyyatda əks olunması kifayət qədər zəngindir. İngilis dilində olan ədəbiyyatda problem daha geniş işıqlandırılıb. Bunun da səbəbi inkişaf etmiş ölkələrdə sosial və psixoloji yardımın daha yüksək səviyyədə təşkil olunması, elm sahələrinin inkişafı dövlət üçün prioritetli olması ilə əlaqədardır. Valideynlərlə aparılan iş ilk növbədə xüsusi qayğıya ehtiyacı olan uşaqlarla bağlı tədqiq edilir. Xüsusi psixoloji və sosial işin metodlarından başqa, insan fiziologiyası, səhhəti, sağlamlığı, sosial mühitin təsiri problemləri kimi sahələr üzrə də tədqiqatlar kifayət qədər geniş və zəngindir.

Valideynlərə aid psixoloji korreksiya işi uşaqlarla bağlı aparılan psixoloji korreksiya işinin ayrılmaz tərkib hissəsidir. Ona görə də metodikalarda müxtəlif variantlar təklif olunur: ayrılıqda valideynlərlə, uşaqlarla, sonra valideynlər qrupu, uşaqlar qrupu ilə, nəhayət, valideyn və övladlarla birgə aparılan iş metodikaları [3].

Beləliklə, qarşımıza valideynlərlə psixoloji korreksiya işin təşkili xüsusiyyətləri probleminin təhlili məqsədi qoyulur. Bununla bağlı biz həm mövcud elmi ədəbiyyatı təhlil etməyə, həm də bu sahədə toplanmış beynəlxalq təcrübəyə müraciət etmək fikrindəyik.

Valideyn-övlad münasibətlərinin əsasında, digər amillərlə yanaşı həm də sosial-psixoloji amillər durur. Bu münasibətləri dərindən araşdırmaq üçün valideynin özünün bir şəxsiyyət olaraq xüsusiyyətlərinə müraciət etmək lazımdır. Həmin xüsusiyyətlər sırasında aşağıdakıları qeyd etmək lazımdır:

- yaşı, səhhəti, o cümlədən psixi və psixoloji sağlamlığı;
- nikah yaşı, ər və ya arvad ilə qurduğu münasibətlərin xarakteri;
- ailədaxili mühit (maddi durum, məişət şəraiti);

- valideynlərin uşaq tərbiyəsinə aid baxışları, pedaqoji və psixoloji savadlılığı;
- onların cəmiyyət, həyat ilə bağlı mental təsəvvürləri, dünyagörüşü;
- səhiyyə sahəsinə aid biliklər, hüquqi biliklər.

**Problemin yeniliyi.** Gördüyümüz kimi, valideyn şəxsiyyəti hərtərəfli təhlil olunmalıdır ki, uşaqların tərbiyəsi ilə yaranan problemlər vaxtında öz həllini tapsın. Müasir cəmiyyətdə valideynlərlə aparılan metodik və öyrədici iş formaları getdikcə genişlənir. Bunun səbəbi bir neçədir. İlk növbədə informasiya məkanı genişlənir, valideynlərin məşğulluq dövrü artır, uşaqlarla ünsiyyət qurmaq imkanı yuxarıda göstərilən amillərə görə bir qədər azalır. Şübhəsiz, valideynlər kifayət qədər müxtəlif təsəvvürlərə malikdirlər, çünki indiki gənclərdə dünyagörüşü olduqca genişdir. Ailə cəmiyyətin əsas sosial qrupu olduğu üçün valideyn-övlad münasibətlərinin öyrənilməsi böyüməkdə olan nəslin düzgün yetişib formalaşmasında mühüm əhəmiyyət kəsb edir.

Valideynlərin öz ailə vəzifələrinə, o cümlədən uşaqların tərbiyə edilməsinə münasibəti barədə təsəvvürləri tarixən formalaşıb. Sosial mühit, adət-ənənə, həm də öz ata-anasının bu vəzifələrə olan münasibəti onların dəyərlər və normalar sistemini təyin edir. Bundan əlavə qeyd etmək lazımdır ki, hər bir ölkədə hüquqi tənzimlənməsi ilə yanaşı valideyn borcu və vəzifələri həm də ictimai rəy ilə müəyyən dərəcədə tənzim olunur. Azərbaycanda, demək olar ki, psixoloji yardım səviyyəsində valideynlərlə iş çox məhdud şəkildə həyata keçirilir. Əsasən bu işi özəl klinikalar, psixoloji reabilitasiya mərkəzləri görür. Digər ölkələrdə bu sahədə vəziyyət müxtəlifdir.

Bunun da bir neçə səbəbi var, məsələn, həmin ölkədə yaşayan xalqların keçdiyi tarixi yol və topladıqları sosial təcrübə, qəbul olunmuş adət-ənənələr, ailə-məişət münasibətləri, mədəni dəyərlər sistemi, dini dəyərlər və s. Bütün ölkələrdə həm də qloballaşma meylləri, yəni ümumi inkişaf xüsusiyyətləri öz təsirini göstərməkdə davam edir. Bir neçə xarici ölkələrin bu sahədə təcrübəyə müraciət edək. Artıq qeyd olunmuşdur ki, valideynlər arasında uşaq tərbiyəsi ilə bağlı təlim və məşqlərin məqsədyönlü şəkildə həyata keçirilməsi bəzi ölkələrdə sistemli şəkildə həyata keçirilir.

Bununla belə tədqiqatçılar vurğulayırlar ki, valideyn təlimi uşaq davranışı problemlərinin profilaktikası və müalicəsi üçün səmərəli bir vasitədir, amma belə təşəbbüslərin reallaşdırmasında kimlərin iştirak etdiyi barədə məlumat məhduddur.

Finlandiyada tədqiqatçılar tərəfindən İnternetin köməyi ilə valideynlərin hazırlıq proqramında iştirakını təmin etmək üçün uşaqlar və ailələrlə bağlı amillər öyrənilmişdir. Təcavüzkar davranışın yüksək səviyyəsi olan 4 yaşlı uşaqların valideynlərinə Strongest Families Smart Website intervention veb-saytında (SFSW) nəzarət edilən tədqiqatda iştirak etmək imkanı verilmişdi. İştirakçılar və qeyriiştirakçılar Strengths and Difficulties Questionnaire (SDQ) testindən istifadə etməklə müqayisə edildi, buraya həm də uşaqlarla bağlı ailə problemləri haqqında məlumat əlavə edildi.

Aydınlaşdırıldı ki, davranışda və tərbiyədə ciddi problemləri olan uşaqların valideynlərinin böyük faizi valideyn məsafədən təlim proqramında iştirak etmək üçün özlərini hazır bilirlər. Bundan sonra da uşaqların davranışında erkən müdaxilə proqramlarında iştirak etmək üçün valideynlərin fikrini öyrənmək və stimullaşdırmaq lazımdır [1]. Göründüyü kimi, burada həyat tərzi, ailə həyatına yanaşma elə bir hal almışdır ki, hər bir valideyn təlimatlandırılmaya daima hazır olduğunu nümayiş edir. Aparılan dövlət siyasəti də bu işləri lazımi istiqamətə yönəldir.

Onu da qeyd edək ki, valideynlərə göstərilən yardım, yəni təlimlərin keçirilməsi səbəbləri müxtəlif olur. Buraya fiziki və əqli məhdudluqları olan uşaqlara qulluq etmək, post travmatik stress və davranış pozuntuları olan uşaqları reabilitasiya etmək, uşaqların asudə vaxtını təşkil etmək və digər vəzifələr daxildir.

Araşdırmalar göstərir ki, inkişaf etmiş ölkələrin əksəriyyətində mütəxəssislər istifadə edəcəkləri metodları onların terapevtik mexanizmlərini nəzərə alaraq seçirlər. Məsələn, Böyük Britaniyada mütəxəssislər təbii ki, ilk növbədə yeniyetmələr və uşaqlarla işləyərkən onlar arasında olan fərdilikləri və fərqlilikləri nəzərə alaraq metod seçimi edirlər, lakin hər bir sahədə olduğu kimi burada da daha çox işlənən metodlar vardır. Bu metodlardan konsultasiya, koordinasiya və böhran vəziyyətlərinin qarşısının alınması metodları xüsusilə

diqqət cəlb edir. Konsultasiya metodunun terapevtik mexanizmi adətən uşaqla aparılan ilk iki görüşdən sonra özünü büruzə verir. Uşaqda müsbət irəliləyişlər başlayır. Bu dərslərə davamiyyətin artması, dərsə məsuliyyət, fərdi davranışlarda münasibətlərin tənzimlənməsi şəklində özünü büruzə verir.

Koordinasiya metodu isə adətən daha çox natamam ailələrin uşaqları ilə iş zamanı istifadə olunur. Bu metod adətən uşaqların boşanma prosesində ana və ya ata seçimi arasında qalması zamanı istifadə olunur. Metod uşaqlara seçim zamanı kömək etmək və məqsəd vermək mahiyyəti daşıyır. Sosial iş və psixoloji yardım yüksək səviyyədə aparıldığından və sosial işçilər arasında rəqabət güclü olduğundan burada mütəxəssislər daim yeni metodlar axtarmağa və onu tətbiq etməyə meyl göstərirlər.

Müxtəlif ölkələrdə mütəxəssislər üçün metodikaların tətbiqi və valideynlər üçün terapevtik sessiyaların keçirilməsi nə yerdədir? Nümunə üçün Böyük Britaniya təcrübəsinə müraciət edək.

Bunu xüsusi olaraq qeyd etmək lazımdır ki, ingilis təcrübəsində yuxarıda göstərilən metodikaların tətbiqi geniş vüsət almışdır. Hazırda ən sadə belə metodikaları artıq valideynlər öz uşaqlarına tətbiq edə bilirlər. Buna səbəb isə sosial işçilərlə və psixoloqlarla valideyn əməkdaşlığının daim mövcud olması, məsələ həll olunduqdan sonra belə sosial işçinin tez-tez ailəyə səfər etməsi, artıq ailənin bunu normal bir hal kimi qarşılaması və bu mövzuda olan yeniliklərin sosial işçi tərəfindən ailəyə sadə anlaşıqlı dillə göstərilməsi və öyrədilməsidir. Mütəxəssislərin daim yeniləşən texnologiyalar və metodlarla öyrədilməsi, onlar üçün bu sahədə müxtəlif seminarların və treninqlərin təşkili işçilərin daim yeniliklərlə təmin olunması vacib sayılır. Sosial mütəxəssisin daim öyrədilməsi isə öz növbəsində ailə tərəfindən çox vaxt müsbət rəylə qarşılanır ki, bu da psixoloqun işini asanlaşdırır və ona ailəyə lazım olan rasional fikri aşılamaqda kömək edir.

Zədədən alınan stress və davranış pozuntuları elə bir simptomlardır ki, onlar tez-tez yeniyetmə yaşında rast gəlinir və yan-yana gedirlər. Eyni zamanda qeyd edilməlidir ki, uşaqlar informasiya emalı zamanı ümumi və ya özünəməxsus emosional məhdudiyyətləri göstərirlər ya da ki yox. Amerika tədqiqatçıları tərəfindən keçirilmiş xüsusi araşdırmalar göstərdi ki, emosional reaksiyalar bəzi hallarda gecikə bilər.

Alınmış məlumatlar göstərir ki, posttravmatik stress nasazlığında və emosional qavrama simptomları ilə davranış nasazlığı münasibətlərində özünəməxsusluq var. Keçirilmiş tədqiqatlar təsdiq edir ki, koqnitiv qavrama məhdudluğu gənc yaşda yaranan depressiyanın genezisində müəyyən rol oynaya bilər. Eyni zamanda qeyd edilir ki, yalnız bəzi tədqiqatçılar kliniki şəraitdə bu məsələni öyrənməyə cəhd etdilər [2].

Real praktikada Azərbaycanda valideynlərlə aidiyyatlı orqanlar necə işləyirlər? Orta məktəbləri götürək. Bir neçə məktəb kollektivləri ilə aparılan tədqiqat əsasında bəzi nəticələri əldə etdik (sentyabr-noyabr 2016-cı il, Bakı ş. və bölgələr).

Xüsusilə natamam və problemli ailələrin uşaqları ilə görüşməyə çalışdıq. Psixoloqla və sinif rəhbərləri ilə söhbətlər aparıldı. Məlum oldu ki, əksər hallarda sinif rəhbərləri uşaqların hər biri ilə yaxından maraqlanır və demək olar ki, əksəriyyətinin problemi ilə yaxından tanış idilər. Natamam və problemli ailələrin uşaqlarla da mütəmadi olaraq söhbət aparılır, özlərini digər uşaqların yanında pis hiss etməmələri və dərslərindən geri qalmamaları üçün davamlı olaraq ailələri ilə məsləhətləşmələr həyata keçirilirdi. Dəyişən hər bir vəziyyət və yeni yaranan hər hansı bir hal barədə valideynləri sinif rəhbərləri dərhal məlumatlandırır. Uşaqlarla söhbət apardıqdan sonra bəzi, sinif rəhbəri tərəfindən tərbiyə işinin daha müntəzəm və ardıcıl aparılan siniflərdə problemli ailələrdən olan uşaqların davranışlarının digər siniflərdə olanlarla müqayisədə daha qənaətbəxş olduğunu müşahidə etmək olurdu. Təbii ki, sinif rəhbərləri sosial və ya psixi sahədə bir mütəxəssis deyildilər, amma, buna baxmayaraq onların uşaqlarla apardığı iş uşaqların inkişafına müsbət təsir etmişdi. Belə inkişafın özü də məktəblərdə psixoloq köməyinə ehtiyacın labüdlüyünü vurğulansa da, təəssüf ki, bu sahədə hələ də yetərli addımlar atılmır.

Məktəb psixoloqları söhbət zamanı bildirirdilər ki, onlar bacardıqları qədər ehtiyacı olan uşaqlara kömək edib, məsləhət verməyə çalışırlar. Əgər uşaqda hər hansı problem

varsa, uşağın valideynləri ilə birlikdə bu problemi həll etməyə çalışdıqlarını qeyd edirlər.

Psixoloqlar bildirirdilər ki, məktəbdə elə şərait yaradılmalıdır ki, uşaq hər hansı bir problemlə üzləşdikdə və onu həll edə bilmədikdə mütəxəssisə, yəni psixoloqa müraciət edə bilsin. Çünki uşaqlar sinif rəhbəri və direktordan asılıdır və problemini onlara deməyə çəkinir. Bəzən elə psixoloqun özünə də problemini deməyə çəkinir. Yəqin, düşünürlər ki, psixoloqa nəsə desə o ailəsinə və ya kiməsə nəsə deyəcək. Həm də məlum oldu ki, məktəb psixoloqları orta məktəbdə repititor yanına gedən 11-ci sinif şagirdləri ilə bəzən dərsdən sonra 1-2 saat məşğul olmağa çalışırlar. Çünki onların bəzilərində özlərinə inamsızlıq hissi, qorxu, həyəcan var. Hətta ən balaca bir şeyi problem halına gətirirlər. Psixoloqlar onlarla söhbət edib məsləhətlər verirlər. Məlum oldu ki, bu uşaqlarda qorxu hissi boşuna deyil. Onlardan bəzilərinin valideynləri onlara psixoloji olaraq təsir edir. Misal üçün "universitetə girməsən belə olacaq, elə olacaq" və yaxud hədə-qorxu gəlirlər. Onsuzda 11-ci siniflər olduqca stressli olduqları vaxtda ailələri də onlara böyük təsir göstərir. Bunu nəzərə alaraq psixoloqlar valideyn iclasında valideynlərlə söhbət aparırlar. Onlara da məsləhətlər verilir. Uşaqların üstünə buna görə çox düşməməklərini, onlara dəstək olmalarını tövsiyə olunur.

Aparılan metodlardan biri də məktəbdə bəzən uşaqlara psixoloji testlərin paylanmasıdır. Onların testə verdiyi cavablara görə vəziyyəti qiymətləndirilir. Lakin bu iş mütəmadi olaraq aparılmır. Əgər məktəb psixoloqları üzərlərinə düşən işləri lazımınca yerinə yetirsələr uşaqlar arasında intihar, kriminal, davamiyyətsizlik və s. kimi hallar azalar. Uşaqların psixi inkişafında, dünyagörüşündə inkişaf əldə olunar.

Bütün məktəblərdə belə bir hal aşkarlandı ki, şagirdlərin öz istəyi ilə yada valideynlərin istəyi ilə psixoloqa müraciət olunmur. Müraciətlərin çox hissəsi dərs deyən müəllimlər və ya sinif rəhbərləri tərəfindən olub. Daha sonra, valideynlərə müraciət etdikdə uşaqlarında hər hansısa problemin olduğunu bildirdikdə valideynlər bundan boyun qaçırıb və belə bir şeyin olmadığını bildiriblər. Sinif rəhbərlərinin müraciəti əsasında işlədiyi şagirdlər haqqında söz açdı. Belə uşaqlarla işləyərkən sinifdəki uşaqların yaşını, ailədaxili münasibətlərin münaqişəli olub-olmamasını, ailənin maddi durumunu necə olduğunu nəzərə almaq zərurəti aşkar olunur.

Müşahidələr göstərir ki, problemli uşaqların sinifdəki əsas davranışları belə olur: sinif yoldaşları ilə ünsiyyətdən yayınma, aqressiv davranış, sinfə adaptasiyada çətinlik, dərsə hazırlıqlı olmama və s. Bu problemlərin yaranmasının əsas səbəbi kimi ailə daxilindəki münasibətlərin konfiktli olması, ailə daxilində məişət zorakılığının olması qeyd olunmalıdır. Həmdə məlumdur ki, məişət zorakılığının ilk zərər çəkənlərindən biridə övladlar olur. Bəs belə uşaqların ailələri ilə əlaqə saxlanılıbmı və ya görüş təyin edilibmi? Təbii ki, əlaqə saxlanılır və məktəbə dəvət olunurla. Lakin valideynlərin çox hissəsi bundan imtina etdiyini məlum olundu. Belə problemli uşaqlarla iş apararkən təkcə uşağın özü ilə deyil, valideynlərdən biri ilə ya hər ikisi ilə iş aparılsaydı təbii ki, daha səmərəli olardı.

Ən əsas sual olaraq psixoterapiyanın hansı metodundan daha çox istifadə edildiyini söyləməyə çalışdıq. Məlum oldu ki, psixoterapiyanın şəxslərarası ünsiyyət metodundan daha çox istifadə olunur. Bu metodun digər adı da interpersonal terapiyadır. Bu terapiyanın əsas məqsədi şəxsin yaxın insanlarla münasibətindəki problemlərin həllidir. Bu terapiya metodu həftədə an azı 1 dəfə olmaqla keçirilməlidir. Son olaraq qeyd etmək lazımdır ki, bu sahədə çalışan mütəxəssislər müəyyən qədər lazım olan işi aparmağa çalışırlar. Lakin ailələrində bu işdən boyun qaçırmamaları lazımdır. Göründüyü kimi, cəmiyyətimizdə psixoloqa müraciət etmək, psixoloqdan dəstək almaq, psixoloqun köməyi ilə müəyyən problemləri həll etmək kimi fikirlərə ziddiyyətli yanaşmalar var. Ən əsası cəmiyyətə psixoloq anlayışını aşılasaq, o zaman problemli ailələrlə iş aparmaq daha asan olar.

Aydındır ki, valideynlərlə psixokorreksiya işini uşaqlığın hər bir mərhələsində aparmaq lazımdır. Qərb tədqiqatçıları tez-tez belə bir fakta müraciət edirlər. Bir çox qadınlar üçün körpənin dünyaya gəlməsi ailə üçün xoşbəxt, şən anların yaşaması deməkdir. Bəzən əksinə də olur. Hamiləlik zamanı və doğuşdan sonrakı dövründə əhval-ruhiyyədə depressiv simptomlar və dəyişikliklər baş verə bilər. Hesablanıb ki, doğumdan sonrakı depressiya təxminən 13% qadınlarda özünü göstərir.

Doğum sonrası dövrdə subklinik depressiya əmələ gələrək qadınların psixoloji durumuna əhəmiyyətli dərəcədə özünü ifa edir. Tədqiqatlar göstərir ki, yoxsulluq içində yaşayan qadınlarda depressiv vəziyyətlər əhalinin digər təbəqələrindən təxminən iki dəfə yüksək olur. Bu halın əmələ gəlməsinə gətirib çıxaran əlavə risk faktorları hamiləlik zamanı ailə münasibətləri, hamiləlik zamanı depressiya, stressli həyat hadisələri, zəif sosial dəstək və digər sosial problemlər daxildir. Simptomları olduqca oxşar olsa da, doğum sonrası dövründə depressiya daha şiddətli və daha təsirli ola bilər [4].

Aydındır ki, belə anaların uşaqları çətin xasiyyət, məhdud fiziki inkişaf kimi problemləri yaşaya bilər. Bu mənfi təsir davranış problemlərində, idrak və sosial-emosional kəsirlərində, özü də daha çox yeniyetməlik dövründə özünü ifadə edə bilər. Tədqiqatçıların gəldiyi qənaət belədir ki, ana depressiyası (iqtisadi çətinlik daxil olmaqla) bir çox risk faktorları yaratmaqla uşaqlar üçün böyük risk mənbəyi ola bilər. Bu təsirlər yoxsulluq şəraitində yaşayan ailələr üçün xüsusilə zərərli ola bilər [4].

Azərbaycanda bu sahədə fəaliyyət göstərən həkimlər və psixoloqlar dünya təcrübəsində tətbiq olunan tibbi preparatlardan və müalicə metodikalarından istifadə edirlər. Qeyd olunmalıdır ki, həyat tərzi, o cümlədən ailə münasibətləri, qadın statusu, həyat səviyyəsi qadınların bu vəziyyətə düşməsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Psixoloqlar qarşısında duran vəzifələrindən biri də ailədaxili münasibətlərin vaxtında tənzimləmək, psixoloji məsləhətxanalara gənc ər-arvadı cəlb etməkdir. Psixoloji xidmətin kifayət qədər inkişaf etməməsini nəzərə alaraq çıxış yolunu ənənəvi üsullara, yəni adət-ənənəyə əsaslanan ünsiyyətə və münasibətlərinə müraciət etməsində görürük. Həkim nəzarəti də daim olmalıdır. Belə yardımı xüsusi balanslaşdırılmış proqramlar və layihələr əsasında, dövlət himayəsi altında həyata keçirmək lazımdır.

Diqqəti cəlb edən hallardan biri də intiharla bitməyən, lakin özünə qəsd kimi qiymətləndirilən hal da valideynlər arasında psixokorreksiya işinin vacib məsələlərindən biri hesab edilməlidir. Bu sahə ilə məşğul olan mütəxəssislər bildirirlər ki, belə hadisələr daha çox yeniyetmələr arasında baş verir. Nonsuisidal özünü zədəyə hər hansı bir intihar niyyəti olmadan öz bədəninə zərər vurma cəhdləri daxildir. Son 10-15 il ərzində klinik və tədqiqat parametrlərinə diqqət artmışdır. Belə hallara gətirib çıxaran sosial mühit və yaşanan stresslərdir [5]. Azərbaycanda da yeniyetmələr arasında belə halların artması müşahidə olunur. Valideynlər və sosial əhatə tərəfindən diqqətin az olması, lazımi profilaktik işlərin aparılmaması belə hallara gətirib çıxarır. Yenə də burada həyat səviyyəsi, ər-arvad münasibətləri, diqqətsizlik və qayğısızlıq öz təsirini göstərir. Valideyn və məktəb kollektivi, icma (sosial mühit) arasında əlaqələrin zəifliyi, sosial şəbəkələrin təsiri belə halların artması ilə nəticələnir.

Valideynlərlə psixososial işin aparılması istiqamətlərindən biri də məhz belə hallarda, yəni depressiv vəziyyətlərdə olan yeniyetmələrə və gənclərə yardımın göstərilməsidir. Mütəxəssislərin gəldiyi qənaət belədir ki, ruhi xəstəlikləri olan uşaqların yalnız 50% hər hansı bir müalicə alır. Və uşaqlar və yeniyetmələr tərəfindən maddələrin(spirt və ya narkotik) istifadəsi mövcud psixi sağlamlıq problemləri daha da kəskinləşdirə bilər. Nəticədə sosial, psixi sağlamlıq, davranış və idrak problemlərini yaradan risk arta bilər. Məlumdur ki, bəzi uşaqlar və yeniyetmələrdə narahatlıq, depressiv durum, diqqət çatışmazlığı, hiperaktiv vəziyyət simptomları və travmatik anları idarə etmək üçün spirt və ya narkotiklərdən istifadə halları müşahidə olunur [6].

Azərbaycanda da, digər ölkələrdə olduğu kimi, psixosomatik və ya ruhi xəstəlikləri olan uşaq və yeniyetmələrin müalicəsində müxtəlif psixotrop maddələrdən istifadə olunur, həkim nəzarəti altında. Amma həm də məlumdur ki, zərərli maddələrin, spirtli içkilərin qəbulu halları da yeniyetmələr və gənclər arasında artmışdır. Belə halların qarşısını almaq üçün dövlət tərəfindən xüsusi proqram hazırlanıb həyata keçirilməlidir.

**Nəticə**. Belə bir qənaətə gəlmək olar ki, valideynlərlə aparılan psixokorreksiya üzrə metodik iş ayrı-ayrı sosial qruplarla aparılan psixososial işin tərkib hissəsidir. Ailə həyatının hər bir mərhələsində valideyn-övlad münasibətlərində yeni zəruri anlar yaşanır. Burada uğurlarla yanaşı problemlər də yaranır. Valideynlərin həyat təcrübəsi, münasibətlər xüsusiyyətləri, genetikası, sosial mühit və həyat tərzi bir tərəfdən, digər tərəfdən isə

müasir dövrün inkişaf öxünəməxsusluğu (qlobal proseslərin insan həyatına təsiri) uşaqların təlim və tərbiyəsinə, bütövlükdə sosiallaşmasına mühüm təsir göstərir. Valideynlərin uşaqların fiziki və psixi durumuna təsir imkanları həm də onların buna hazırlıq dərəcəsindən asılıdır. Məlumat əldə etmək imkanları genişlənir, lakin bunun tətbiqi valideynlərin xüsusi hazırlığından asılıdır.

**Problemin praktik əhəmiyyəti.** Dünyanın müxtəlif ölkələrində valideynlərlə aparılan psixoloji hazırlıq işi elmi zəmində və xüsusi təşkilatların və qurumların fəaliyyəti əsasında qurulur. Burada həkimlər, psixoloqlar, sosial işçilər prosesdə yaxından iştirak edirlər. Yardım həm dövlət, həm də qeyri-dövlət təşkilatları tərəfindən aparılır. Hüquqi baza da gündəlik yaranan tələblərə və dəyişən şəraitə uyğun təkmilləşdirilir. Iş müntəzəm olaraq aparılır. İlk növbədə bu inkişaf etmiş ölkələrə aiddir. İnkişaf etməkdə olan ölkələrdə görülən tədbirlər əsaslı şəkildə həyat səviyyəsindən, səhiyyə və təhsil sistemlərinin fəaliyyət keyfiyyətində asılıdır. Bununla belə tətbiq olunan psixoterapevtik metodikalar və texnologiyalar daim təkmilləşir və daha çox fayda gətirir. Bu sahənin ictimai və humanitar elmləri nümayəndələri tərəfindən öyrənilməsi olduqca faydalıdır.

## ƏDƏBİYYAT

1. 1. Sturla Fossum, Terja Ristkari, Charles Cunningham, Patrick J. McGrath, Auli Suominen, Jukka Huttunen, Patricia Lingley-Pottie, Andre Sourander. Parental and child factors associated with participation in a randomised control trial of an Internet-assisted parent training programme 10 November 2016 // *Child and Adolescent Mental Health*November 2016 Volume 21, Issue 4

2. Shabnam Javdani, Naomi Sadeh, Geri R. Donenberg, Erin M. Emerson, Christopher Houck, Larry K. Brown. Affect recognition among adolescents in therapeutic schools: relationships with posttraumatic stress disorder and conduct disorder symptoms // *Child and Adolescent Mental Health*, November 2016 Volume 21, Issue 4

3. Ждакаева Е.И. Психологическая коррекция негативного отношения родителей к детям дошкольного возраста // журнал «Психология и педагогика. Методика и проблемы практического применения», 2009, № 5

4. Rebecca P. Newland, Stephanie H. Parade. Screening and treatment of postpartum depression: Impact on children and families // The Brown University Child and Adolescent Behavior Letter, Volume 32, Issue 1, January 2016.

5. Richard Liu. Understanding risk for nonsuicidal self-injury // The Brown University Child and Adolescent Behavior Letter, Volume 32, Issue 1, January 2016.

6. Alison Knopf. To reduce teen substance use, create resilience and treat mental illness // The Brown University Child and Adolescent Behavior Letter, Volume 32, Issue 1, January 2016.

**М.М. Кяргарзадемиандобад**

## ОСОБЕННОСТИ ОРГАНИЗАЦИИ РАБОТЫ ПО ПСИХОЛОГИЧЕСКОЙ КОРРЕКЦИИ С РОДИТЕЛЯМИ

***РЕЗЮМЕ***

В Азербайджане решение любой проблемы, возникающей в контексте семьи, основано на традиционных подходах. Несмотря на то, что в отношениях между мужчиной и женщиной лидерство принадлежит мужчине, социальные процессы оказали влияние на изменения в статусе женщины в обществе, ее отношение к миру, ее самооценку, систему мотиваций. В основе противоречий, возникающих в семье, лежат материальное положение, воспитание детей, отсутствие положительной нравственно-психологической атмосферы. Финансовое положение

женщины, уровень образования, положение в обществе, позволяют ей строить отношения с мужем и его родственниками в новой плоскости.

**M.M. Kargarzademiandobad**

## DISTINCTIVE FEATURES OF WORKING WITH PARENTS DURING PSYCHOLOGICAL CORRECTION

***SUMMARY***

In Azerbaijan, the solution of any problem which occurs in the context of family is based on traditional approaches. Despite the fact that the man leads the relationships between him and the woman, social processes have influenced the change in the status of women in society and her attitude to the world, her self-esteem and motivation system. Financial situation, upbringing of children, negative spiritual and psychological atmosphere are the basis of the conflicts in the family. Women's financial status, her education and social status allow her to build relationships with her husband and his relatives in new format. Authoritarian tendencies prevailing in the family are connected with the fact that that the husband is responsible for the family's financial security, organization and planning of family life.

**Redaksiyaya daxil olub**: **13.01.2017**.

# TƏLƏBƏ QIZLARDA İDENTİKLİK

**Şənay Quliyeva-Kabaoğlu,**

*Kastamonu Universitetinin Psixoloji danışmanlı və rəhbərlik fakültəsinin müəllimi Türkiyə Respublikası*

E-mail: shanay_gl@hotmail.com

**Rəyçilər**: *prof.* Q.Y. Abbasova,
*dos.* A.M. Allahverdiyev

***Açar sözlər**: ali təhsil sistemi, Azərbaycanda gender, təhsildə qızlar, identiklik, baza dəyərləri və tələbatları, "Mən" obrazı"*

***Ключевые слова**: система высшего образования, гендер в Азербайджане, образование девушек, идентичность, базовые ценности и потребности, «образ «Я»*

***Keywords**: higher education, gender in Azerbaijan, girls' education, identity, core values and needs, "the image of"I"*

**Problemin aktuallığı**. İnsan öz həyatında yaşadığı hər bir an öz müqəddəratı, gələcəyi və indiki haqqında düşünür və bu zaman ona olan özünü təyinetmə, özü haqqında olan təsəvvürlərdir. Bu təsəvvürlərin formalaşmasına sosial mühit, sosial qruplar, əhatəsində olan insanlar yardım edir. Bundan başqa, insan ictimai şüura malik olduğu üçün o, xüsusi sosial stereotipləri qavrayır, onları mənimsəyərək, özü haqqında müəyyən təsəvvürlər yaradır. Bunu identiklik, özünü təyinetmə adlandırırlar. Bu bir növ insanın vərdiş etdiyi bir məkandır ki, ondan bir sığınacaq kimi istifadə olunur, insanın ləyaqəti, daxili qiymətverməsi qorunur və inkişaf edir. Gənclərdə, xüsusilə tələbələrdə bu proses daha mürəkkəb olur. Onların həyatının bu mərhələsində çoxlu yeniliklər baş verir, sosiallaşma davam edərək yeni yetkinlik mərhələsinə onları ucaldır.

**Problemin işlənmə dərəcəsi**. İdentiklik insan həyatının vacib tərkib hissəsidir. Psixoloqlar insan təfəkkürünün bu fəaliyyət sahəsini müxtəlif istiqamətdə öyrənirlər. Ilk dəfə problemi bu səpgidə E.Erikson öyrənməyə başlamışdır. E.Semüelz, B.Şorter, F.Plot, digər Avropa və ABŞ tədqiqatçıları araşdırmışlar. Rusiyada V.S.Malaxov, A.S.Krılov bir sıra digər alimlər problemi müxtəlif istiqamətlərdə təhlil etməyə çalışmışlar. Azərbaycanda identiklik problemi sahəsinə öz münasibətini B.Əliyev, R.Qədirova, S.Məcidova, E.Şəfiyeva və s. bildirmişlər. Bununla belə Azərbaycanda tələbə qızların identikliyi məsələsi indiki sosial mühit və şərait baxımından nəzərdən keçirilməmişdir.

Tədqiqatın məqsədi və metodikası. Qarşımıza qoyduğumuz məqsəd – ali məktəbdə təhsil alan tələbə qızların identiklik haqqında təsəvvürləri öyrənməkdir. Seçdiyimiz metodika – "20 Mən" metodudur. Bu metod 50-ci illərdə M.Kun (M.Kuhn) və T.Makparlend (T.Mc. Partland) tərəfindən öz şəxsi «Məninin» obrazını öyrənmək üçün, həyatda öz yerini təyin etməyi və ya şəxsiyyətin özünüidentifikasiya etməsini öyrənmək üçün işlənmişdir [1, 21].

**Əldə edilən nəticələr**. İdentlik insan həyatının ayılmaz tərkib hissəsidir. Cəmiyyətdə tutduğumuz mövqe, sosial dəyərlər və normalar sistemi insanın özü haqqındakı təsəvvürlərinə, daxili qiymətverməyə, dünyagörüşünə təsir göstərir. Özünə əminlik, yüksək motivasiya məhz identlik anlayışı ilə bağlıdır. İdentlik, mənəvi-psixoloji təsəvvürlər sistemi ilə də bağlıdır. İdentlik, mənəvi – psixoloji təsəvvürlər sistemi olaraq, bir çox amillərin təsiri altında formalaşır: etnik özünü dərk, tarixi şüur, gündəlik həyat hadisələri, sosial-siyasi təsəvvürlər, ailə dəyərləri, cəmiyyətdə qəbul olunmuş sosial davranış normaları. İdentlik formaları və növləri müxtəlifdir. Əsasən onlar özündə cəmiyyətin sosial strukturunun, insanın sosial strukturları haqqında təsəvvürləri ehtiva edir. İdentikliyin itirilməsi və yaxud təhrif edilməsi insana mənfi təsir göstərir. O, özünü bir növ keyfiyyətsiz, əyri aynada gördüyü obraz ilə müqayisə edərək, dəyərindən narazı qalır, özünə əminliyi itirir.

Belə halda ümumi ictimai rəy, xüsusi bir ab-hava formalaşır. İnsanlar özgələşmə prosesi-

nə məruz qalır, cəmiyyət onlar üzərində yüksələn yabançı və qorxulu bir qüvvəyə çevrilir, insanı müsbət emosiyalardan, həyata, gələcəyinə inamdan çəkindirir. İdentiklik cəmiyyətin fəaliyyət sahələrinə də uyğun olaraq müxtəlif növlərə bölünür. Tədqiqatçılar burada gender identikliyini (qadın və kişi haqqında təsəvvürləri), fiziki identikliyini (sağlamlıq və gözəllik anlayışlarla bağlı fikirlər), fəaliyyət identikliyini (müxtəlif fəaliyyət sahələri) və s. fərqləndirirlər.

Bundan əlavə, ailə, qohum-əqrəba, təhsil, asudə vaxt, dostluq və sevgi münasibətləri ilə bağlı olan identiklik xüsusiyyətlərini təyin edirlər. Tədqiqatın nəticəsi olaraq hətta bütöv cəmiyyət, ya ayrılıqda götürülmüş etnik ya hər hansı bir sosial qrup üçün identikliyi təyin etmək olar. Bunun üçün lazımi ümumiləşdirmə aparmaq lazımdır. Bu sahədə Azərbaycan tədqiqatçıları sırasında psixoloq S.Məcidovanı göstərmək olar [8; 9]. Öz elmlər doktorluğu dissertasiyasında S.Məcidova Azərbaycan cəmiyyəti üçün səciyyəvi sosial-psixoloji, mental xüsusiyyətlərini təyin etmişdir. O, göstərmişdir ki, xalqımızda həm müsbət identikli, həyatla, günümüzlə addımlaya bilən adamlar var. Amma elə xüsusiyyətlər də var ki, onlar kütləvi şəkildə insanın düşüncə tərzinə, həyata münasibətinə təsir göstərir. Milli identiklik problemi ümumiyyətlə hal-hazırda geniş təhlil edilən, bir çox alimlərin diqqətini özünə cəlb edən bir amildir. Bakı Dövlət Universitetinin Psixologiya kafedrasında son illər ərzində elmi araşdırmalar məhz həmin istiqamətdə aparılır.

Bizi maraqlandıran məsələlərdən biri tələbə qızlarda identiklik haqqında təsəvvürlərin formalaşması xüsusiyyətləridir. Məlumdur ki, hal-hazırda Azərbaycan cəmiyyətində ənənəçilik və yenilik bir-biri ilə mübarizə aparır. Tələbə kütləsinin bu problemlərə daha həssas olduğu məlumdur. Bildiyimiz kimi, gənclər həyatın tələbələrinə və çağırışlarına daha həssasdırlar. Onlar həyatın tələblərinə cavab olaraq həmişə yeniliyi qəbul etməyə hazırdırlar, hətta radikal mövqe tutmağa çalışırlar. Eyni zamanda gənclər həyata, öz gələcəyinə nikbin baxmağa çalışırlar. Bütün bunlar, üstəlik ailədə keçirilən sosiallaşma xüsusiyyətləri, məktəb həyatı, ərazidə və regionda formalaşmış sosial mühit və şərait gənclərin həyat haqqındakı təsəvvürlərinə təsir göstərir.

Təbii ki, bu təsəvvürlər sırasında həm də gender identikliyi özünəməxsus yer tutur. Bildiyimiz kimi, Azərbaycanda qadın və kişi identikliyinə islam dini, patriarxal cəmiyyətə xas olan adət və ənənələr, eyni zamanda müasir, sivil cəmiyyətin bir sıra dəyərləri təsir edir ki, bunlar, hər bir cinsin nümayəndəsinə təsir edərək, onun identikliyini formalaşdırır. Müasir Azərbaycan cəmiyyəti dünyəvi cəmiyyət olaraq insanlarda ümumbəşəri dəyərlər üzərində qurulan təfəkkürü formalaşdırmağa çalışır. Bu işdə təhsil sistemi xüsusi əhəmiyyət kəsb edir. Tələbə qızların identiklik xüsusiyyətlərini aşkar etmək üçün biz 2016-cı ildə Bakı Dövlət Univeristetinin tələbələri arasında xüsusi tədqiqat keçirdik. Aprel-may aylarına təsadüf edən bu sorğuya təsadüfi seçmə əsasında humanitar fakültələrin tələbələri cəld olunmuşdur. Bütövlükdə test sorğusunda 16 oğlan və 34 qız (cəmi 50 nəfər) cəlb olunmuşdur. Sorğu məlum "20 Mən" testin əsasında həyata keçirilmişdir. Burada hər bir sorğu iştirakçısından tələb olunurdu ki, o, 20 dəfəyə qədər özünün hər hansı bir xüsusiyyətini və yaxud əlamətini qeyd etsin.

Aldığımız cavabları metodikanın tələblərinə müvafiq olaraq təsnifatlaşdırdıq. Nəticədə qeyd edə bilərik ki, sorğuda iştirak edən tələbələr, istər qızlar, istərsə də oğlanlar baza və instrumental dəyərlərini ifadə edərək, etnik mentallıq çərçivəsində, Şərq mənəviyyatına uyğun özünü dərk edir və hiss edirdilər. İlk növbədə həm qızlar, həm də oğlanlar özlərində göstərdiyi xüsusiyyətləri mənfi və müsbət keyfiyyət kimi xarakterizə etməli idilər. Cədvəldə müsbət və mənfi qiymətlərin nisbəti gətirilir:

*Cədvəl 1*

| Qiymətləndirmə | Qızlar | Oğlanlar |
|---|---|---|
| Daha çox müsbət qiymətləndirirlər | 26 | 14 |
| Daha çox mənfi qiymətləndirirlər | 8 | 2 |

Eyni zamanda qeyd etməliyik ki, müsbət və mənfi qiymətləndirmədə bəzi cavabları 1) tam müsbət olanlar və 2) nisbətən müsbət olanlar kimi fərqləndirmək lazımdır. Beləliklə, 1 qrupa aid 16 cavab, 2-ci qrupa aid 9 cavab aldıq. İkinci qrupa "həm mənfi, həm müsbət" kimi keyfiyyətləri qiymətləndirən tələbələr də daxil edilmişdir. Söhbət öz keyfiyyətlərindən xoşu gəlib-gəlməməsindən gedir. Bildiyimiz kimi, metodikaya görə, müsbət qiymətləndirmə 65-80%, mənfi qiymətləndirmə isə 35-20% olmalıdır. Əgər ya bu, ya da ki, əks tərəfə doğru qiymətləndirmə azdırsa, deməli, burada qeyri-adekvatlıqdan danışmaq olar. Bu cədvəldə həmin hal öz əksini tapmışdır:

*Cədvəl 2*

| Qiymət | Qadın | Kişi |
|---|---|---|
| Adekvat | 11 | 7 |
| Qeyri-adekvat müsbət | 15 | 6 |
| Qeyri-adekvat mənfi | 8 | 3 |

Cədvəldən göründüyü kimi, respondentlərin gənc olması onlara öz təsirini göstərir. Burada müəyyən nikbinlik, romantizm, eyni zamanda radikalizm öz ifadəsini tapır. Həm qızların, həm də oğlanların təxminən 1/3 adekvat olaraq (yəni öz təsəvvürlərini, onların obyektiv əsaslarını təsdiqləməyə hazır olmaq) özünüqiymətləndirmədə öz vəziyyətlərinə həmin qiyməti yazdılar. Beləliklə, burada özünüqiymətləndirmə həddi həmin şəxsin özü haqqında real, ideal və yaxud arzulanan təsəvvürləri əks etdirir.

Cədvəldən məlum olur ki, tələbələrin əksəriyyəti özü haqqında yüksək təsəvvürlərə malikdirlər. Eyni zamanda özünü mənfi, tənqidi qiymətləndirənlərin sayı oğlanlarda az olsa da (3 nəfər (5%), qızlarda 8 nəfərdir (ümumi saydan 27,2%). Adekvat qiymətləndirmə o deməkdir ki, insan özünün əsil dəyərini bilir, özünün həm üstünlüklərini, həm də çatışmayan cəhətlərini düzgün qiymətləndirməyə bacarır. Nəticədə o, özünə hörmətlə yanaşır, cəmiyyətin tamhüquqlu bir şəxs olduğunu başa düşür. Qızlardan 11 nəfər (37,4%), oğlanlardan isə 7 nəfər (10,2%) öz qarşılarına real məqsədlər qoyur, digər insanlarla münasibətlərini düzgün qura bilir, davranışında sosial normalara riayət edir.

Həddindən artıq özündən razı qalanlar və əksinə, narazı qalan tələbə qızlar və tələbə oğlanlar öz müsbət xüsusiyyətlərini həddindən artıq şişirdir, mənfilər isə heçə endirməyə çalışırlar. Nəticədə onlar sosial mühitlə, ətraf aləmlə düzgün münasibət qura bilmir, qarşılarına bacardıqlarından daha yüksək məqsədlər qoyur və əlbəttə ki, onların öhdəsindən gələ bilmirlər. Belə adamlar digər adamlarla ziddiyyətdə olur, öz uğurlarına sevinmir, hesab edirlər ki, bundan da artıq nəyə isə nail ola bilərlər və s.

8 qız və 3 oğlan öz imkan və bacarıqlarını çox aşağı qiymətləndirdilər. Bu o deməkdir ki, bunlar bacardığından daha aşağı məqsəd qarşılarına qoyur, uğursuzluqları daha yüksək dəyərləndirirlər. Belə çıxır ki, onlar özünü olduğu kimi qəbul etmək istəmirlər, özü-özünü inkar edir və öz uğurlarına və bacarıqlarına daha aşağı qiymət verirlər. Belə adamlarda özünə əminlik aşağı olur, nəticədə onlar vəziyyətlə barışır, passiv olur, onlar daha aşağı özünəqiymətə malikdirlər. +/- işarələrindən ümumiyyətlə az istifadə olunmuşdur. Bu cür işarə onu bildirir ki, belə adamlar öz problemlərinin həllində özünü itirmir və vəziyyətdən çıxış yolunu tezliklə tapırlar.

İndi isə gender identikliyi ilə bağlı əldə edilən nəticələr barədə. İnsan öz gender identikliyini birbaşa, dolayısı, neytral, emosional – müsbət, emosional-mənfi, təcrid vəziyyətdə qeyd edə bilər. Növbəti cədvəldə əldə etdiyimiz nəticələri göstərək:

*Cədvəl 3 (qızlar)*

| **Hansı formada göstərilir** | **Misallar** | **İnterpretasiya** |
|---|---|---|
| Neytral | Nəvə, qadın | Burada düşüncə səviyyəsindədir |
| | Gələcəyin anasıyam, balaca qızam, ananın qızı, xanımıyam, qardaşımın bacısı, gələcəyin bibisiyəm, anamın ortancıl qızıyam, ata-ananın ikinci övladı, evin balacasıyam, ailənin ən kiçik qızıyam, gələcəyin anasıyam, gələcəyin bacısıyam | Refleksiv münasibətlər bildirilir |
| Uzaqdan, təcrid edilmiş halda qiymətləndirmə | Ailənin ən kiçik üzvüyəm, ailənin böyük uşağıyam, bir ailənin qızıyam, ailəsinə daima dəstək olmaq istəyən, evin tək uşağıyam, nənəmin ilkiyəm, | Öz cinsi identikliyinə tənqidi yanaşır, burada ironiya var |
| Emosional müsbət | Yaxşı övladam, anamın ürəyiyəm, evin ağıllısıyam, sevimli bir qızam, bir dənəyəm, mən mənəm, hamı tərəfindən sevilənəm, valideynlərimə layiqli övladam, ailəsinə bağlı birisiyəm, atamın prinsessası, dünyada ən çox Allahı, daha sonra atasını sevən, valideynlərin fəxriyəm, ailəmə həddən bağlı birisiyəm | Öz cazibəsini qəbul etmək əlamətidir |
| Emosional mənfi | Valideynlərimin baş ağrısı, özümə belə tam məlum olmayan, 16-17 yaşına nifrət edən | Öz cinsi identikliyinə tənqidi yanaşmasının təzahürü, daxili narahatlıq |

**Oğlan tələbələrdə həmin göstəricilər aşağıdakı kimi olmuşdur**

*Cədvəl 3 (oğlanlar)*

| **Hansı formada göstərilir** | **Misallar** | **İnterpretasiya** |
|---|---|---|
| Neytral | Oğulam, nəvəyəm, qardaşam, gələcəyin ailə başçısıyam, evin kiçik oğlu, qardaşımın qardaşı, ailənin ən kiçik fərdiyyətiyəm | Refleksiv münasibət |
| Emosional müsbət | Valideynlərimə layiq bir övladam | Öz cazibəsini qəbul etmək deməkdir |

Hər iki cədvəldən göründüyü kimi, refleksiv emosional-müsbət cavablar üstünlük təşkil edir. Bir xüsusiyyət də qeyd edilməlidir. Qızların cavablarında genderlə bağlı cavab verənlərin sayı anketlərin sayına bərabərdir. Oğlanların təxminən 40%-i ümumiyyətlə gender tərəfini xarakterizə etməmişlər. Onlar daha çox sosial və mənəvi keyfiyyətlərini göstərməklə kifayətlənmişlər. Eyni zamanda məlumdur ki, gender identikliyini dolayısı ilə göstərmək imkanlarından da geniş istifadə edilmişdir.

Tədqiqatçıların qeyd etdikləri kimi, bunu müxtəlif sosial rolları göstərməklə ifadə etmək olur. Əgər insan özünün gender identikliyini həm birbaşa, həm də dolayısı ilə ifadə edə bilirsə, deməli, burada müsbət cinsi identiklik formalaşıb, müxtəlif rol davranış ifadələri qavranılıb və gələcəkdə digər insanlarla müsbət əməkdaşlıq münasibətlər qurula bilər. Yuxarıda qeyd edilmişdir ki, sorğuda iştirak edən oğlan tələbələrin cavablarında gender identikliyi hələ formalaşmayıb və həmin insan identiklik böhranı mərhələsindədir.

Bununla belə bütün sorğu iştirakçılarında gender identikliyinin dolayısı olsa da, ifadələri var: respondentlərin 80-90%-də cinsə aid məlumatlar siyahının ya əvvəlində, ya da ki, siyahının birinci yarısında yerləşdirilmişdir. Deməli, respondent qızların hamısı, oğlanların isə 60-65%-i üçün cins anlayışı əhəmiyyətli və aktualdır.

Qeyd etmək lazımdır ki, şəxsiyyətin identikliyini, onun daxili aləmini müsbət xarakterizə edən amil cavablarda gələcək müqəddəratını xarakterizə edən anlayışların sayı və məzmunudur. İndiki vəziyyətlə gələcək planlar arasında uyğunluq, müsbət mütənasiblik olmalıdır. Əgər mətndə fel halında və keçmişə aid yazılar çoxdursa, belə nəticəyə gəlmək olar ki, insan bugünkü vəziyyətindən narazıdır, çalışır ki, keçmişə qayıtsın (ola bilsin ki, hətta keçmişdə travma almışdır).

Əgər gələcək fellər vasitəsilə təsvir edirlərsə, onda həmin adamda özünə inamsızlıq üstünlük təşkil edir, insan indiki çətinliklərdən qaçmaq istəyir. Nəhayət, indiki zamanda olan fellər onu bildirir ki, insan həyatda fəal və şüurlu mövqe tutur.

Demək olar ki, bütün tələblərdə fellər indiki halda daha çox istifadə edilir.

Daha bir parametr – cavablarda göstərilən sosial rolların və fərdi keyfiyyətlərin göstərilməsinin nisbətidir. Əgər insan özündə daha çox sosial rolu axtarıb göstərirsə, belə bir nəticə çıxarmaq olar ki, o, o qədər də özündə əmin deyil, özünün daxili mahiyyətini açıqlamaqdan bir qədər çəkinir. Əksinə olanda isə burada iki cürə nəticə çıxarmaq olar, ya bu şəxs bir fərd kimi güclüdür, ya da ki, sosial rolları ifa edərkən bir çox çətinliklərlə rastlaşır. Burada sosial və fərdi identikliklər bir növ bir-biri ilə toqquşur.

Qız tələbələrdə sosial və fərdi keyfiyyətlər tarazlaşdırılmış bir şəkildə təmsil olunub (adekvat qrupuna aid olanlarda).

Digər qruplarda daha çox fərdi xarakteristikalar (bəzən çox geniş şəkildə, izahatlarla müşayiət olunan) verilir. Oğlan tələbələrdə sosial rolların və mənəvi keyfiyyətlərin göstərilməsi əsas yer tutur.

Qızlarda, oğlanlara nisbətən nikaha psixoloji hazırlıq daha geniş təmsil olunub. Onların cavablarında "mən gələcək anayam", "ailəm üçün çox çalışacağam", "öz ailəmi qurmağa arzulayıram" ifadələrdən daha çox istifadə olunur. Beləliklə, cavablarda biz, gənclərin özü üçün əhəmiyyətli olan sosial strukturların qeyd olunmasını müşahidə edirik. Sosial rolların və fərdi xüsusiyyətlərin qeyd olunması tərzi müxtəlif identikliklərə işarə verir. Yuxarıda qeyd etdiyimiz kimi, sosial rolların əhatəliliyi və genişliyi özünə əminliyin az olmasını, özünümüdafiəyə meylli olmasını göstərir. Aydındır ki, gənclər müəyyən həyat yolunu keçməlidirlər ki, onlarda özünə əminlik artsın, şəxsiyyət identikliyi daha möhkəm olsun.

Tədqiqatçılar belə bir qənaətə gəlmişlər ki, siyahıda göstərilən ilk xüsusiyyətlər insan üçün daha əhəmiyyətlidir, çünki bunlar onun şüurunda daha çox həkk olunub. Təhlil göstərir ki, istər qızlar, istərsə də oğlanlar üçün fiziki identiklik olduqca əhəmiyyətlidir. "Mən" və "qeyri-Mən" fərqliliyinin hüdudları fiziki imkan və reallıqları ilə əlaqəlidir. "Mən" obrazının genişlənməsi və zənginləşməsi məhz emosional durum və cismani duyumlar ilə sıx bağlıdır.

Müsbət keyfiyyətləri özündə çox göstərməklə qeyri-adekvat mövqedə duran tələbə - qızlardan biri özü haqqında yazıb ki, "mən gənc qızam", "mən baxımlıyam", digəri "sağlamam", "gəncəm" keyfiyyətləri qeyd etdi. Daha bir qız tələbə göstərdi ki, "gözəl saçların olmasını istəyən birisiyəm", digəri isə "mən güclüyəm" əlamətini vurğulamışdır. Yenə də yaş vurğulanır: "Mən 18 yaşında bir gəncəm". Beləliklə, gördüyümüz kimi, fiziki identiklik ilə bağlı xüsusiyyətlər, demək olar ki, çox az, özü də ümumi şəkildə vurğulanıb.

Oğlanlarda vəziyyət belədir: mən xarici görünüş cəhətdən balacayam" (bu keyfiyyətləri respondent müsbət qiymətləndirib), "mən qaranlıqdan qorxanam" (mənfi işarə qoyulub), "mənim 18 yaşım var", "güclüyəm", "idmanla məşğul oluram". Bu xarakteristikaları özünü adekvat qiymətləndirənlər göstəriblər. Bütövlükdə oğlanlardan az adam fiziki keyfiyyətləri göstərməyə çalışmışdır.

Fəaliyyət identikliyi yüksək səviyyədə inkişaf etmişdir. İlk 5-7 göstəricilər sırasında mütləq gələcək peşə barədə qeydlər aparılırdı. Qızlar və oğlanlar sevdiyi məşğuliyyətləri (oxumağı, musiqini dinləmək və ifa etmək, şeir yazmaq, futbol azarkeşliyi və s. kimi işləri) qeyd edirdilər. Burada əldə edilən biliklər, bacarıqlar və nailiyyətlər mütləq qabardılır və yüksək qiymətləndirilirdi. Demək olar ki, həm oğlanlarda, həm də qızlarda emosional-

iradi və kommunikativ qabiliyyətlər kifayət qədər yüksək qiymətləndirilirdi. Göstərilən əlamətlər:

Qızlarda: oxuyanam, dinləyənəm, seçiciyəm, sosial işçiyəm, tələbəyəm, kitab oxumağı xoşlayıram, gələcəyin diplomatiyam, rəsm çəkməyi bacaran biriyəm, qrup nümayəndəsiyəm, əlaçı olmaq arzusu ilə yaşayan zərbəçiyəm, savadlıyam, Tələbə Gənclər Təşkilatının üzvüyəm, gələcəyin iş adamıyam, gələcəyin işçi kadrıyam, zərbəçiyəm, verdiyim qərarları dəfələrlə düşünən biriyəm, savadlıyam, ətrafdakılara yardım etməyi sevirəm, özümü inkişaf etdirməyi sevirəm, şəkil çəkməyi sevirəm, məktəbdən ötrü darıxan insanam, həmişə dərslə maraqlanan insanam və s.

Oğlanlarda: tələbəyəm, təşkilat üzvüyəm, kömək edənəm, sosial işçiyəm.

Testin daha bir metodik işləməsi psixolinqvistik təhlil ilə bağlıdır. Əgər cavablarda isimlər üstünlük təşkil edirsə, deməli, həmin insanda sabitliyə, əminliyə ehtiyac var. Əgər isimlər azdırsa, deməli, həmin insanda məsuliyyət hissi bir qədər aşağıdır. İsim ilə özünü qiymətləndirən respondentlərin cavabları belə olmuşdur:

***Cədvəl 4***

| **Tələbələrin cavablarının sayı** | **0** | **2** | **3** | **4** | **5** | **6** | **7** | **8** | **9** | **10** | **11** | **12** | **13** | **14** | **15** | **16** | **17** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Qızlar | 8 | 2 | 1 | 3 | 1 | 2 | 4 | 4 | 1 | 2 | 3 | - | 1 | - | 1 | - | 1 |
| Oğlanlar | - | 1 | - | 1 | 1 | - | 1 | 1 | - | 1 | 4 | 2 | 3 | - | - | - | 1 |

Qeyd etmək lazımdır ki, əksər respondentlərdə sifətlər vasitəsilə özlərinə qiymət verilib, bu da insanın emosionallığına işarə verir. Fellərdən də kifayət qədər geniş istifadə olunub, lakin az adam tapılar ki, onların psixolinqvistik imkanları ahəngdar şəkildə özünü xarakterizə etməyə imkan versin. Əksər tələbələrdə isimlər və sifətlər üstünlük təşkil edir.

Demək olar ki, qızların və oğlanların cavablarında identikliyin bütün sahələri təmsil olunmuşdur: "sosial mən" (cinsin göstərilməsi, təlim-peşə nöqteyi, ailə ilə bağlılıq, etnik-regional identiklik (mən avaram, talışam, naxçıvanlıyam, tovuzluyam və s.); dünyagörüşü identikliyi (konfessional, siyasi mənsubiyyəti) – müsəlmanam, Allahın quluyam, şiəyəm, Allahı sevənəm, azərbaycanlıyam, YAP-çıyam, sosialistəm və s.; qrup identikliyi və s.

Kommunikativ identiklik də özünü kifayət qədər təmsil etmişdir. Tələbələr fəal şəkildə dostluğunu, dostluq əlaqələrini, ünsiyyəti qeyd edirdilər.

Gələcəklə bağlı həm qızlar, həm də oğlanlar peşəkar fəaliyyətini, ailə ilə bağlı arzularını və s. göstərməyə çalışmışlar. Lakin ən çox məlumat hər bir respondentin mənəvi keyfiyyətləri haqqında toplanmışdır. Özünə emosional münasibətlə yanaşı, həm də bütün anketlərdə qlobal, ekzistensial "Mən" haqqında təsəvvürlər verilir (insanam, şəxsiyyətəm, mövcud olan varlığam, vətəndaşam, mələyəm və s.).

**Nəticə**. Tələbə qızların identiklik haqqında təsəvvürləri müasir cəmiyyətin inkişaf xüsusiyyətləri ilə təyin olunur. Əsas identiklik formaları və sahələri – "sosial Mən", "kommunikativ Mən", "fəaliyyətdə olan Mən", "gələcəkdə Mən" və "Refleksiv Mən" olmuşdur. Daha zəif ifadə olunan sahələr "Maddi Mən" və "Fiziki Mən"dir.

**Problemin yeniliyi.** Müasir cəmiyyətdə gənclərin identiklik haqqında təsəvvürlərə milli-etnik xüsusiyyətlərlə yanaşı həm də dünyada cərəyan edən qlobal proseslər əsaslı şəkildə təsir edir. Tələbə gənclərin identikliyi həm də gender özünəməxsusluqlarına malikdir.

**Problemin praktik əhəmiyyəti.** Tələbə gənclər arasında identiklik probleminin öyrənilməsi onlarda bütövlükdə sosiallaşma prosesinin necə təşəkkül tapması barədə də qənaətə gəlməyə bizə imkan verir. Bu psixoloji xüsusiyyətlə bağlı biliklərin əldə edilməsi tədqiqatçı üçün həm də digər şəxsiyyət keyfiyyətlərinin, o cümlədən iradə, empatiya, frustrasiya, istiqamətlənmələr və tələbatlar haqqında bilikləri əldə etməyə imkan yaradır.

## ƏDƏBİYYAT

1. Тест Куна. Тест «Кто Я?» (М.Кун, Т. Макпартленд; модификация Т.В.Румянцевой) / Румянцева Т.В. Психологическое консультирование: диагностика отношений в паре. СПб., 2006.
2. Абушенко В. Л. Идентичность // Социология: Энциклопедия. М.: Книжный Дом, 2003.
3. Крылов А. Н. Эволюция идентичностей: кризис индустриального общества и новое самопознание индивида. М: Издательство Национального института бизнеса, 2010.
4. Малахов В. С. Идентичность // Новая философская энциклопедия / Ин-т философии РАН. М.: Мысль, 2010.
5. Лё Кэн Л. Этнографическое исследование в тюрьме. От «роли» заключённого к поискам идентичности осуждённого // Социальная антропология во Франции. 21 век / под ред. Б. Петрика и Е. Филипповой. М.: ИЭА РАН, 2009.
6. Софронова Л. А. О проблемах идентичности // Культура сквозь призму идентичности. М.: Индрик, 2006.
7. Сэмьюэлз Э., Шортер Б., Плот Ф. Идентичность // Сэмьюэлз Э., Шортер Б., Плот Ф. Критический словарь аналитической психологии К. Юнга. М.: МНПП «ЭСИ», 1994.
8. Эриксон Э. Идентичность: юность и кризис. М.: Флинта, МПСИ, Прогресс, 2006.
9. Меджидова С. Типологический подход к личности с точки зрения профессионального выбора // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, 2005, № 1
10. Меджидова С. Методологические трудности исследования самосознания // Sosial bilgilər, 2005, № 2

**Ш. Гулиева**

## ИДЕНТИЧНОСТЬ У ДЕВУШЕК-СТУДЕНТОК

### *РЕЗЮМЕ*

Проблема идентичности связана с образом жизни и социальными условиями формирования личности. Исследование, проведенное в одном из вузов Азербайджана в Бакинском государственном университете, показало, что на представления идентичности у девушек-студенток влияют многие факторы. Среди них следует выделить духовно-нравственные ценности, уровень жизни, уровень самооценки, возраст, влияние социальной группы, или внутригрупповые ценности. У девушек, по сравнению с юношами, выше выражена ориентированность на семейные ценности, самооценка также высокая, однако иногда заниженная. Речь идет о части (менее одной трети) девушек, у которых оценка собственных качеств или очень завышена, или же очень занижена. В целом они достаточно целеустремленны, уверены в себе, практичны. Как у девушек, так и у юношей сбалансированы социальные и индивидуальные ценности.

**Sh. Guliyeva**

## IDENTITY AT FEMALE STUDENTS

### *SUMMARY*

The issue of identity is tied to the way of life and social conditions of the formation of personality. A study conducted in one of the higher educational institutions of Azerbaijan, Baku State University, showed that representations of female students about their identity are influenced by many factors. Among those there are spiritual and moral values, quality of life, self-esteem, age, influence of social groups or intersociety values. Compared with boys, the girls have higher focus on family values, their self-esteem is equally high and underestimated at the same time. Here we imply the share of the girls (less than one third), whose self-esteem is either very high or very low. As a whole, they are quite confident, goal-oriented and pragmatic. Both the girl and the boys have balanced social and individual values.

**Redaksiyaya daxil olub: 13.01.2017**

# <u>*İNFORMASİYA KOMMUNİKASİYA TEXNOLOGİYALARININ TƏHSİLƏ TƏTBİQİ*</u>

## PEDAQOJİ PROSESDƏ YENİ PEDAQOJİ TEXNOLOGİYALARDAN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

**Zəkiyyə Abdullayeva,**

*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*Naxçıvan Dövlət Universiteti*
E-mail: prof.rufat@mail.ru

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* L.N. Qasımova,
*ped.ü.elm.dok., prof.* R.L. Hüseynzadə

***Açar sözlər:*** *pedaqoji texnologiyalar, innovativ metodlar, elmi dünyagörüş*
***Ключевые слова:*** *педагогические технологии, инновационные методы, научное мировоззрение*
***Key words***: *pedagogical technologies, innovative techniques, scientific world view*

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 15 iyun 1999-cu il tarixli "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramının təsdiq edilməsi haqqında" sətəncamı ilə başlanan təhsil islahatı bu gün yeni mərhələdə davam etməkdədir (1).

İslahatın əsas məqsədi yeni pedaqoji təfəkkür işığında təhsilin humanist və demokratik prinsiplər əsasında qurulması, yeni səriştəli pedaqoji kadrların hazırlanması, təhsilin müasirləşdirilməsi, fərdiləşdirilməsi, diferensiallaşdırılması və ənənəvi təhsildən fəal, interaktiv təlimə keçid məsələləri dururdu. Bütün bunların həyata keçirilməsi isə məhz təhsilin keyfiyyətinin yüksəldilməsinə, təhsilimizin dünya standartlarına uyğun şəkildə qurulmasına istiqamətlənmişdir (1).

Müasir dövrdə dünyada gedən qloballaşma prosesi bütün ölkələrə və bu ölkələrdə iqtisadiyyat, təhsil, istehsalat, hətta dövlətlərin siyasətinə göstərdiyi təsir Azərbaycan dövlətinin təhsil siyasətinə öz təsirini göstərmiş və onun inkişaf etmiş ölkələrin təhsil sisteminə inteqrasiya olunmasına, yeni təlim texnologiyalarından, İKT-dən, distant təhsildən istifadə etməsinə əlverişli şərait və imkanlar yaratmışdır. Aydındır ki, təhsilinin rəqabətə davamlılığı bir çox cəhətdən onun yetişən gənc nəslin intellektual potensialından, yaradıcılığının inkişaf etdirilməsindən innovasiyaların mənimsəməsi və tətbiqindən asılıdır.

Ölkəmizin prezidenti möhtərəm İlham Əliyev milli təhsil sisteminin inkişafı məsələsinə Azərbaycanın gələcək inkişafının əsas şərti kimi baxır və hesab edir ki, Azərbaycanın inkişafının yeganə yolu təhsildən, müasir biliklərdən, şagirdlərin elmi dünyagörüşündən, intellektual əməyin inkişafından, informasiya kommunikasiya texnologiyasından, kompüter texnologiyalarının tətbiqindən keçir. Bu da təlim tərbiyə prosesində yeni pedaqoji texnologiyalardan istifadənin aktuallığını artırır. O demişdir: "Müasir dünyada bilik və yeni pedaqoji texnologiyalar olmasa, uğur qazanmaq mümkün deyildir" (2). Təsadüfi deyildir ki, ölkə Prezidenti İlham Əliyev 2013-cü ili "İKT ili" elan etməklə, bu məsələnin aktuallığına bir daha önəm verilmişdir. Məqsəd elmdə, təhsildə, iqtisadiyyatda yeni texnologiyalardan istifadə edərək, ölkənin sosial-iqtisadi inkişafının yüksəlişini təmin etməkdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası" 24 oktyabr 2013-cü il tarixli sərəncamı (3) təhsilimizin inkişafında, pedaqoji elmimizin inkişafında yeni bir səhifəni açmışdır. Bu mühüm dövlət sənədini təhsil sistemimizin təməl prinsipi hesab edə bilərik. Bu sənəd ölkə prezidentinin təhsilə göstərdiyi ardıcıl diqqət və qayğısından, onun təhsil haqqında dediyi müdrik kəlamlarından və xüsusilə "maddi kapitalın insan kapitalına çevirmək" ideyasından qaynaqlanır ki, bu da yenə də təhsildən, yetişən gənc nəslin müasir biliklərə yiyələnməsindən, yeni

texnologiyaları mənimsəməsindən və elmi dünyagörüşünün inkişafından keçir.

Təhsil strategiyasının ikinci istiqaməti təhsil sahəsində insan resurslarının müasirləşdirilməsini və təhsildə yeni innovasiyalardan istifadəni nəzərdə tutur. Bu istiqamət təhsildə innovativ təlim metodlarının, yeni pedaqoji texnologiyaların geniş tətbiqini nəzərdə tutur. Sənəddə göstərilir ki, informasiya-kommunikasiya texnologiyalarına əsaslanan, yaradıcı düşüncəni inkişaf etdirən və təhsilalanın fərdi xüsusiyyətlərini nəzərə alan müasir pedaqoji texnologiyalar, fəal-interaktiv təlim metodları təhsildə daha yüksək nəticələr verir, şagirdlərin bilik və dünyagörüşü yüksəlir (2). Bu gün müasir təlim texnologiyaları, fəal təlim metodları, İnteraktiv təlim metodları tələb edir ki, təhsilimiz dünya standartlarına uyğun qurulsun, dünya təhsilinə inteqrasiya olunsun, qloballaşan dünyamızda elmin və texnikanın ən yeni, son nailiyyətləri yetişən gənc nəslimizin istifadəsində olsun. Alimlərin fikrinə görə pedaqoji texnologiyalar təlim – tərbiyə vasitələrinin pedaqoji texnoloji quruluşunun forma, metod, üsul və yollarının məcmusu olub pedaqoji prosesin təşkilatı metodik alətidir. Pedaqoji texnologiya tədris prosesinin reallaşmasının, fəallaşmasının, yaradıcı mühitin məzmunudur.

Yeni pedaqoji texnologiyalar üzrə tədris edilən mövzularda şagirdlər müstəqil olaraq idrak fəaliyyətini nümayiş etdirərək fərziyyələri təsdiqləməyə çalışırlar ki, bu da onlarda tədqiqatçılıq bacarığını inkişaf etdirir. Fəallıq şəraitində interaktiv metodla təşkil olunmuş dərslər şagirdlərin dərin marağına, intellektual səviyyələrinin yüksəlməsinə, yaradıcı fəaliyyətinə, tədqiqatçılıq bacarığının formalaşmasına səbəb olur.

Ənənəvi təlimdə başlıca diqqət şagirddə biliklərin mənimsənilməsinə yönəldilirsə, müasir təlim metodlarında əsas diqqət şagirdin müstəqil inkişafına, şəxsiyyət kimi formalaşmasına, dünyagörüşünün genişlənməsinə istiqamətlənir. Bu prosesdə müəllimin başlıca vəzifəsi şagirdlərə yardımçısı olmaq, təlim prosesində onların fəaliyyətini əlaqələndirmək, şagirdlərdə yaradıcı axtarışa həvəs yaratmaqdır.

Yeni pedaqoji texnologiyaların ümumtəhsil məktəblərində tətbiqi zamanın tələbidir. Məktəb praktikasında müasir təhsil texnologiyaları çoxdur. Bura inkişafetdirici təlim, fəal və interaktiv metodlar, kompüter texnikasından istifadə, tədris prosesində dialoqlar, debatlar, müzakirələr, diskussiyalar, interaktiv oyunlar və s. daxildir.

Müəllim hər bir şagirddə düşüncəni, məntiqi təfəkkürü gücləndirməli, hadisələrə yanaşmaq bacarığı tərbiyə etməli, müstəqil qərarlar qəbul etməyi öyrətməlidir. Şagirdlərdə tədris ediləcək mövzu ilə bağlı müstəqil bilik əldə etmək, yaradıcı fəaliyyət göstərmək, tədqiqatçılıq nümayiş etdirmək dərsin əsas məqsədi və vəzifələri olmalıdır. Müəllim yeri gəldikcə ümumiləşdirmə aparmalı, şagirdə istiqamət verməli, mənalı, məntiqli axtarışlar aparmağa şərait yaratmalı və istiqamət verməlidir.

**Problemin aktuallığı**. Təhsil islahatının tələblərindən irəli gələn yeni pedaqoji texnologiyaların tətbiqinin əhəmiyyəti və müəllimlərin pedaqoji prosesdə ondan geniş istifadə etməsinin vacibliyi qarşıya bir vəzifə olaraq qoyulmuşdur

**Problemin elmi yeniliyi.** Məqalədə yeni pedaqoji texnologiyaların təsnifatı verilir, pedaqoji prosesdə onların əhəmiyyəti elmi şəklidə öz təsdiqini tapır.

**Problemin praktik əhəmiyyəti**. Elmi-nəzəri və praktik materiallar müəllimlərin pedaqoji fəaliyyətinə istiqamət verəcəkdir.

.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı. Bakı: Çaşıoğlu, 1999.
2. İlham Əliyev. Dünya Azərbaycanlılarının III qurultayında nitq. 5 iyul, 2011. “Xalq qəzeti”, 2011, 6 iyul,
3. “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası”. Azərbaycan Respublikası Prezidentinin 24 oktyabr 2013-cü il tarixli sərəncamı. “Xalq” qəzeti”, 2013, 25 oktyabr

**З.Абдуллаева**

## ВАЖНОСТЬ ИСПОЛЬЗОВАНИЯ НОВЫХ ПЕДАГОГИЧЕСКИХ ТЕХНОЛОГИЙ В ПЕДАГОГИЧЕСКОМ ПРОЦЕССЕ

***РЕЗЮМЕ***

В статье говорится, что новые педагогические технологии обеспечивают личностное развитие ребенка, развивают интеллектуальность, творческий подход к делу, исследовательские способности и научное мировоззрение учащихся. Новые педагогические технологии можно рассматривать как ключевое условие повышения качества образования, снижения нагрузки учащихся, более эффективного использования учебного времени.

**Z. Abdullayeva**

## THE VALUE OF NEW PEDAGOGICAL TECHNOLOGIES IN THE DEVELOPMENT OF THE SCIENTIFIC OUTLOOK OF PUPILS

***SUMMARY***

The article says that the new educational technology provides personal development of the child, develops intelligence and creative approach to business, research capacity and scientific outlook of pupils. New educational technology can be seen as a key condition for improving the quality of education, reduce the burden of students, more effective use of instructional time.

**Redaksiyaya daxil olub: 10.01.2017**

# YENİ MATERİALIN ÖYRƏDİLMƏSİNDƏ İNTELLEKTUAL TƏLİM SİSTEMLƏRİ

**Əyyub Əzizov,**
*BDU-nun kimyanın tədrisi metodikası kafedrasının müdiri, professor,*

**Kamil Haqverdiyev,**
*kimya üzrə fəlsəfə doktoru, dosent,*

**Rena Abdinbəyova,**
*kimya üzrə fəlsəfə doktoru,*

**Arzu Paşayeva,**
*fəlsəfə doktoru proqramı üzrə dissertant,*
*BDU*
E-mail: pasayeva-1969@mail.ru

**Rəyçilər:** *prof.* F.M.Sadıqov,
*prof*.T.M.İlyaslı

***Açar sözlər:*** *təlim-tərbiyə, təhsil sistemi , interaktiv, səviyyə, tədqiqat*
***Ключевые слова:*** *учебно-воспитательный процесс, система образования, интерактивное, уровень, исследование*
***Key words:*** *training, the education system, interactive, level, research*

Kimyanın tədrisi metodikası öz əyaniliyi ilə digər fənlərdən seçilir. Kompüterdən istifadə bu fənnin tədrisində əyaniliklə yanaşı , şagirdlərin yaradıcılıq vərdişləri yaradılmasına əsaslı kömək edir. Təhsilin kompüterləşdirilməsində əsas məqsəd gənc nəsli informasiya bolluğu şəraitində formalaşmaqda olan informasiyalı cəmiyyətə , yeni əsas fəaliyyətin informasiya emalı təşkil edən cəmiyyətə hazırlamaqdan ibarətdir. Kompüter tədris prosesində yerinin və rolunun qiymətləndirilməsi meyarı dəyişmişdir, kompüter tətbiqi interaktiv təlim metodunu daha səmərəli edir. İntellektual təlim sistemlərində tədrisin idarə olunması öyrədici proqram tərəfindən tədrisin səviyyəsinə uyğun olaraq müəyyənləşdirilir. Burada tədris fəaliyyəti dinamiki olaraq konkret vəziyyətə uyğun şəkildə müəyyənləşdirilir. Yeni informasiya texnologiyalarının köməyi ilə yaradılan və orta məktəblərdə tədrisin keyfiyyətini yüksəltmək məqsədi ilə istifadə oluna biləcək tədris sistemlərinə böyük ehtiyac vardır. Belə sistemlərin yaradılması süni intellektlə birbaşa əlaqədardır. Bu tədqiqatımızın məqsədi orta məktəbin kimya materialı əsasında intellektual təlim sisteminin layihələndirilməsi və reallaşdırılmasıdır. İnteraktiv təlim metodları və üsullarının tətbiqi tədris prosesini xeyli intensivləşdirir, onu hər bir şagird üçün əhəmiyyəti və maraqlı fəaliyyət sahəsinə çevirir. İnteraktiv – təlim metodlarının tətbiqi şagirdlərdə müstəqil düşünmək, rəy söyləmək, hər hansı problem barədə başqasının fikrinə münasibət bildirmək, təfəkkürün tənqidliyinə, müstəqilliyə və çevikliyə zəmin yaradır.

Təlimdə şəxsiyyətyönlü konsepsiyanın reallaşdırılması, inkişafetdirici pedaqoji texnologiyaların layihələşdirilməsi və praktikada (məktəbdə) daha geniş tətbiqi onların müxtəlif şəraitdə, müxtəlif mövzular üzrə sınaqdan çıxarılmasını, bu sahədə pedaqoji təcrübələrin öyrənilməsini tələb edir. Məktəblərdə tətbiqinə böyük maraq göstərilən yeni pedaqoji texnologiyalardan biri də modul texnologiyasıdır. Modul üzrə təlim texnologiyası daha tam şəkildə P.U.Tsyaviçene (Kaunas, 1989) tərəfindən işlənib hazırlanmışdır.

İndiki zamanda ölkəmizin təhsil sistemində həyata keçirilən yeniləşmə və modernləşmənin əsas istiqamətlərindən biri, təhsilin yüksək səviyyədə keyfiyyətinə nail olmaqdır. Təhsilin keyfiyyətinin yüksəldilməsində ona nəzarətin ,idarə olunmanın indiki zamanın tələblərinə uyğun yeni metod və formalarla yanaşma , yeni yollar və vasitələrin

tapılması aktual bir problem kimi qarşıda duran vacib məsələlərdən biridir.

Məktəblərin inkişafı ilə bağlı məqsədlərdən biri onun informasiyalaşmasıdır. Çünki, o aşağıdakı göstərilənlərin yaranmasına səbəb olur: təhsilin əsaslandırılması; nəzəri təfəkkürün inkişafı; kommunikativ qabiliyyət; özünə nəzarət və özünü müəyyənləşdirmə qabiliyyətinin məsələlərini həll etmək bacarığı. Təlimdə "modul" anlayışı dedikdə, tədris materialının bitkin məzmunu və onu mənimsəmək texnologiyasını özündə birləşdirən bir kompleks (informasiya bloku) nəzərdə tutulur. Modulların mənimsənilməsi qarşıya qoyulmuş didaktik məqsədlərə müvafiq olaraq həyata keçirilir. Təlimalan (şagird) üçün müəyyən olunmuş didaktik məqsəddə yalnız biliklərin həcmi deyil, həm də onların mənimsənilmə səviyyəsi əks olunur. Modul təlim texnologiyası təlimi subyekt-subyekt əlaqələri əsasında qurmağa ayrı-ayrı şagirdlərlə fərdi işlər təşkil etməyə, şagirdlərə öyrənilən təlim məsələlərini hissə-hissə, xırda dozalarda mənimsəməkdə köməklik göstərməyə, müəllim-şagird ünsiyyəti formalarını çevik sürətdə dəyişməyə imkan verir. Əməkdaşlıqla təlim, layihələr metodu və modullarla təlim texnologiyaları XXI əsrin geniş yayılmış texnologiyaları hesab olunur. Bu təlim texnologiyaları başqaları ilə müqayisədə pedaqogikanın humanist mahiyyətini daha çox əks etdirməklə yanaşı, həm də sənayeləşmiş cəmiyyətdə uşaqları həyata daha yaxşı hazırlamağa imkan verir. Bu texnologiyalar təkcə təlimverici deyil, həm də tərbiyəedici xarakter daşıyır, şagirdlərin sərbəst düşünmə qabiliyyətini, özünün və yoldaşlarının müvəffəqiyyətləri üçün məsuliyyətini artırır. Bu təlim texnologiyalarında müəllimin rolu əsaslı surətdə dəyişir. O, hər şeyi bilən və öyrətməkdən daha çox şagirdlərin biliyinə nöqsan axtaran nəzarətçidən, tələb olunan nəticəni almaq üçün şagirdlərə həmişə kömək edən, onların işini istiqamətləndirən rəhbərə çevrilir.

Müasir informasiya texnologiyaları idarəetmədən tərbiyəyədək, təhsilin ardıcıllığından sadəliyinədək və bütövlükdə məktəbin təkmilləşdirilməsinin mühüm alətlərindən birinə çevrilir. Azərbaycan Respublikasında təhsil prosesi vasitəsi ilə, kommunikasiya texnologiyalarına yiyələnməklə əldə olunan təhsilin informasiyalaşması vətəndaşların informasiya mədəniyyətinin artmasına istiqamətlənmişdir.

İnformasiya cəmiyyəti dedikdə ,özünün intellektual və informatik imkanlarını bəşəriyyətin gələcəyi üçün istifadə edən cəmiyyət başa düşülür. Son zamanlar kompüterin bazasında yaradılan intellektual təlim sistemlərinə çox diqqət yetirilir. Belə sistemlər təlim prosesinin səmərəliliyinin yüksəlməsinə xidmət edir. İntellektual təlim sistemləri vasitəsilə tədrisdə əsas məqsədlər aşağıdakılardır;

- Tədris materiallarını şagirdlərin dərindən mənimsənilməsi üçün zəmin yaratmaq, onların tədrisə olan maraqlarını artırmaq və onlarda müstəqil düşünmə qabiliyyətini formalaşdırmaq;
- əldə etdikləri bilik, bacarıq və vərdişləri qiymətləndirmə bacarığını vermək.

**Məqalənin aktuallığı.** Yeni materialın öyrədilməsində intellektual təlim sistemləri böyük əhəmiyyətə malikdir. İntellektual təlim sistemlərini şagirdlərə aşılamaq, onları hər bir situasiyada başa düşmək və xüsusiyyətlərini anlamaq qabiliyyəti mühüm əhəmiyyət kəsb edir. İntellektual təlim sistemləri konkret sahənin məsələlərinin həlli üçün nəzərdə tutulduğundan onların qurulması yuxarıda qeyd etdiyimiz kimi funksional imkanlar saxlanılmaq şərti ilə tipik ekspert sistemləri şəklində reallaşdıra bilər.

**Məqalənin elmi yeniliyi.** Tədris materiallarını şagirdlərin dərindən mənimsənilməsi üçün zəmin yaratmaq, onların tədrisə olan maraqlarını artırmaq və onlarda müstəqil düşünmə qabiliyyətini formalaşdırmaq; əldə etdikləri bilik, bacarıq və vərdişləri qiymətləndirmə bacarığını vermək.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** İnteraktiv təlim metodları və üsullarının tətbiqi tədris prosesini xeyli intensivləşdirir, onu hər bir şagird üçün əhəmiyyəti və maraqlı fəaliyyət sahəsinə çevirir. Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbələr, metodistlər istifadə edə bilərlər.

## ƏDƏBİYYAT

1. Abbasov V.M., Abbasov M.M., Əliyev A.H. və b. Kimya: Ümumtəhsil məktəblərinin 8-9-cu sinifləri üçün dərslik. Bakı: Təhsil, 2002.
2. Abbasov M.M. Ümumtəhsil məktəblərində kimyanın tədrisinin hazırkı vəziyyəti və müasirləşdirmənin zəruriliyi // Kimya məktəbdə, 2003, № 3
3. Abbasov M.M., Əliyev A.H. Kimyanın tədrisində müasir təlim texnologiyaları // Kimya məktəbdə, 2009, № 1
4. Həşimov Ə.Ş. Müəllimin ixtisas fəaliyyətinin xarakteristikası // Azərbaycan məktəbi, 1990, № 9

**А. Азизов, К. Хаквердиев, Р.Абдинбекова, А. Пашаева**

## ИНТЕЛЛЕКТУАЛЬНЫЕ ОБУЧАЮЩИЕ СИСТЕМЫ ПРИ ИЗУЧЕНИИ НОВОГО МАТЕРИАЛА

***РЕЗЮМЕ***

В статье рассматриваются актуальные проблемы создания интеллектуальных обучающих систем при изучении нового материала. Отмечается, что в настоящее время одним из направлений обновления и модернизации системы образования нашей страны является достижение высокого уровня образования. Автор статьи выдвигает необходимость создания основы для глубокого освоения учащимися учебных материалов, повышения их интереса к обучению и формированию навыков самостоятельно мыслить, обучить их оцениванию полученных знаний, умений и навыков. В заключении подчеркивается, что использование интерактивных методов и приёмов обучения способствуют ускорению процесса обучения, превращая его для каждого ученика в интересную и значимую сферу деятельности.

**A.Azizov, K.Haqverdiyev, R. Abdinbayova, A. Pashayeva**

## INTELLEKTUAL TEACHING SYSTEMS IN THE TEASHING NEW MATERIALS

***SUMMARY***

In the article actual problems of creation of intelligent tutoring systems in the study of new material. It is noted that at the moment one of the areas of renovation and modernization of our education system is to achieve a high level of education. The author puts forward the need to establish the foundations for deep development of teaching materials students, enhance their interest in learning and development of skills to think independently, to train their evaluation of acquired knowledge and skills. In conclusion it emphasizes that the use of interactive teaching methods and techniques accelerate the learning process, transforming it for each student in an interesting and meaningful activity.

**Redaksiyaya daxil olub: 23.12.2016**

# TƏLƏBƏ AUDİTORİYASI: İDARƏETMƏNİN PSİXOLOJİ ƏSASLARI

**Sahib Məmmədov,**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*elmlər doktoru proqramı üzrə dissertant*
*ARTİ*
E-mail: inqilab1962@mail.ru

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* İ.H. Cəbrayılov,
*ped.ü.elm.dok.. prof.* F.N. İbrahimov

***Açar sözlər:*** *psixoloji əsaslar, idarəetmənin psixoloji əsasları, tələbə auditoriyası, idarəetmə, auditoriyanın idarə olunması*

***Ключевые слова:*** *психологические основы, психологические основы управления, аудитория студентов, управление, управление аудитории*

***Keywords:*** *psychological foundations, psychological bases of management, the audience of students, management, audience management*

Auditoriyanın idarə olunması prosesində idarəetmə psixologiyası bir sıra metodlardan istifadəni nəzərdə tutur. Onların sırasında müşahidə və eksperiment xüsusilə özünəməxsus rol oynayır.

Məlum olduğuna görə, müşahidə metodu xarakterinə və mahiyyətinə görə gerçəkliyi əks etdirmənin mürəkkəb obyektiv psixoloji prosesidir. Müşahidənin mürəkkəb olması təsadüfi deyildir. O, tələbə auditoriyasının təşkili zamanı təbii şəkildə aparılır. Bu vaxt müşahidəçi kimi müəllim bir tərəfdən müşahidə olunanlara (tələbələrə) müvafiq təsir göstərir. Digər tərəfdən, zəruri məlumatları toplayır, ümumiləşdirir və müəyyən nəticəyə gəlir.

Eksperiment tələbələrə aid zəruri məlumatların əldə olunması sahəsində son dərəcə özünəməxsus səciyyəyə malik olan, müəyyən çətinlikləri ilə müşayiət edilən bir metoddur.

Eksperimenti aparmaqda məqsəd müəllim tərəfindən irəli sürülmüş fərziyyənin doğruluğunu yoxlamaq, müvafiq nəticələrə nail olmaqdır.

Tələbə auditoriyasının idarə olunması müəyyən psixoloji qanunlara tabedir. Auditoriyanın idarə olunmasının psixoloji qanunları şəxsiyyətlərarası münasibətlər və qrup və kollektiv münasibətləri gedişində təzahür edir. Müəllim, yaxud tələbələrin bu qanunları bilib-bilməməsindən asılı olmayaraq, həmin qanunlar mövcuddur və fəaliyyət göstərir. Tələbə auditoriyasının idarə olunma psixologiyasının və idarəetmə fəaliyyətinin başlıca qanunlarına aid ola bilər:

“1. Cavabın qeyri-müəyyənliyi qanunu.

2. Qarşılıqlı (birgə) qavrayışın qeyri-adekvativliyi qanunu.

3. Özünüqiymətləndirmənin qeyri-adekvativliyi qanunu.

4. İnformasiyanın təhrif edilməsi.

5. Özünü mühafizə, özünü saxlama qanunu.

6. Kompensasiya (razılaşma) qanunu” (1).

Auditoriyanın idarə olunmasının müvəffəqiyyəti eyni zamanda ali məktəb müəlliminin bir sıra sosial-psixoloji keyfiyyətlərindən və xüsusiyyətlərindən asılıdır. Bu sahədə tələbələrə etibar və rəhbər sevgisi mühüm rol oynayır. Tələbəyə etibar o deməkdir ki, müəllim onu qiymətləndirir, ona hörmətlə yanaşır, onun yüksək ləyaqətli olduğunu qəbul edir. Bunu anlayan tələbə müəlliminin nüfuzunu da qoruyur, özünü doğrultmağa çalışır. Tələbə şərəf və ləyaqətini uca tutur.

Amerikalı alimlər Fred və Reyven hakimiyyətin (idarəetmənin) aşağıdakı növlərinə diqqəti cəlb edirlər:

- vadaretməyə əsaslanan;
- mükafatlandırmaya əsaslanan;
- ekspert (başqalarının xəbərdar olmadığı xüsusi biliklərə əsaslanan);
- etalon, yaxud nümunə hakimiyyəti (idarəetmə) (tabe olanlar özlərinin cəlbedici və hörmətli rəhbərlərinə bənzəməyə çalışırlar);

- qanuni, yaxud ənənəvi (insanlardan biri digərinə tabe olur, ona görə ki, təşkilatda onlar müxtəlif ierarxik dərəcələrə malikdirlər).

Rəhbərin (bizim tədqiqatda müəllimin) idarəetmənin göstərilən növlərinin hər birinə yiyələnməsi arzuolunandır.

R.Diksonun qənaətincə, səriştəsiz rəhbər aşağıdakı xüsusiyyətlərə malikdir:

1. İnsan (bizim tədqiqatda tələbələrin – S.M.) resurslarını nəzərə almır, insanlarla işləməyi bacarmır;
2. Mühafizəkarlıq edir, köhnə baxışların tərəfdarıdır;
3. Özünə aydın olmayan informasiyaya məhəl qoymur, yaxud mövcud konsepsiyaya zidd olur;
4. Rəqiblərini qiymətləndirməməyə meyllidir;
5. Qərarların qəbulu zamanı qətiyyətsizdir, yaxud məsuliyyətdən qaçır;
6. Dəyişilən vəziyyətlərdə problemlərin həlli zamanı səbatsızlıq, yaxud təkidlilik (tərslik) göstərir.
7. Problemə aid məlumat toplamağa və onu yoxlamağa, "yaranmış vəziyyətdən çıxmağa" qadir deyil, tez həvəsdən düşür;
8. Frontal hücuma qabiliyyətlidir, kobud gücə inanır, diribaş, hazırcavab və diplomatik deyil;
9. Gözlənilməz hadisələrdən faydalanmağa qabil deyil;
10. Çətinlik hallarında "günahı, təqsiri yüngülləşdirən fədakarlığa" hazır deyil;
11. "Əxlaqla və təhlükəsizliklə uyğunlaşmayan" motivlərlə faktları və hazırlamağa və informasiyanı genişləndirməyə meyllidir;
12. Fövqəltəbii qüvvələrə - taleyə, uğursuzluğun qaçılmaz olduğuna inanmağa meyllidir və s.

Psixoloji ədəbiyyatlarda, " Psixologiya " dərsliklərində, fəlsəfi tədqiqatlarda rəhbərliyin bəzi üslublarını qeyd edirlər.

S.K.Samiqin və L.D.Stolyarenko rəhbərlik üslubuna aşağıdakı tərifi verirlər: "Rəhbərlik üslubu öz tabeçiliyində olanlara münasibətdə rəhbərin davranış manerasıdır".

Q.M.Kocasirova və A.Y.Kicaspirova görə, rəhbərlik üslubu "tabeçiliyində olanlara, tərbiyə olunanlara liderin (rəhbərin, müəllimin) səciyyəvi təsir sistemidir.

Əslində həm birinci, həm də ikinci tərifdə müəyyən məhdudiyyət vardır. müəlliflər "rəhbərlik (idarəetmə)" və "liderlik" anlayışlarını qarışdırırlar. Halbuki onları eyniləşdirmək olmaz, onların hər birinin özünəməxsus səciyyəvi xüsusiyyətləri vardır.

A.Q.Sokolovun tərifi daha optimaldır. Onun fikrincə, səciyyəvi vəzifə və problemlərin həllinin daha xarakterik və səbatlı metodlarının məcmusu rəhbərlik üslubu adlanır.

Bu təriflərdən çıxış edərək, tələbə auditoriyasının idarə olunması üslubunun mahiyyətinə aydınlıq gətirə bilərik. Beləliklə, tərifimizi aşağıdakı kimi formalaşdırdıq: "Tələbə auditoriyasının idarə olunması üslubu dedikdə, tələbələrə münasibətdə müəllimin davranış manerası, - səciyyəvi vəzifə və problemlərin həllinin daha xarakterik və səbatlı metodlarının məcmusu və tələbə auditoriyasının xüsusiyyətlərini nəzərə alaraq, idarəetmə qərarları qəbul etmək başa düşülməlidir.

Amerika sosial psixoloqu K.Levin avtoritar, demokratik və qeyri-fəal idarəetmə üslubunu qeyd edir.

Başqa təsniflər də vardır. Onlarla tanış olaq:

1. Avtoritar (direktiv, diktator) üslub. Bir adminstrator kimi yaxşıdır, lakin hər bir işdə tək rəhbərliyi, qərarların özü tərəfindən verilməsini üstün tutur ("minimum demokratiya"), tələbələri cəzalandıracağı ilə hədələyərək, tapşırıqların yerinə yetirilməsinə sərt nəzarət edir. İstər tələbə şəxsiyyətinə, istərsə də onun fəaliyyətinə münasibətdə maraqlı deyil. belə şəraitdə, təbii ki, nöqsanlardan azad olmaq, sadəcə, mümkün deyil. həmin nöqsanları nəzərdən keçirək:

1. Səhv qərarların mümkünlüyü;
2. Tələbələrin təşəbbüslərinə, yaradıcılığına, rəylərinə, laqeyd yanaşmaq, durğunluq, tələbələrin qeyri-fəallığı, yeniliklərdən uzaq düşmək və s.;
3. Öz fəaliyyəti, münasibəti ilə tələbə oğlan və qızlarda narazılıq yaratmaq;
4. Əlverişsiz psixoloji atmosfer (yalançıların, yaltaqların, ikiüzlülərin, ixtilafların meydana gəlməsi) stressi artırır; tələbələrin psixi və fiziki sağlamlığı üçün təhlükə yaradır və s.

2. Avral üslub. Belə rəhbərin şüarı belədir: "Edək, edək, sonra araşdırarıq".

3. İşgüzar üslub. Əlverişli və nəzərdə tutulmuş sxem üzrə işin görülməsidir.

4. Demokratik (kollegial). Bu idarəetmə üslubunu əsas götürən müəllim belə bir

prinsipə üstünlük verir: "Mənim mövqeyim – mümkün variantlardan biridir. Başqa nə kimi təklif var ?" Belə idarəetmə üslubu daha yaxşı nəticələrin əldə edilməsinə imkan və şərait yaradır.

Tələbə auditoriyasında bu və ya digər qərar, problemin müzakirəsindən sonra, gənclərin rəyləri və təklifləri nəzərə alınmaqla ("maksimum demokratiya") qəbul olunur, qəbul edilən qərarın yerinə yetirilməsinə nəzarəti müəllim və tələbələrin özləri həyata keçirirlər ("minimum nəzarət ").

Tələbə auditoriyasının idarə olunmasında ən səmərəli rəhbərlik üslubu demokratik-kollegial üslubdur. Kollektiv üzvlərinin yüksək göstəricilər qazanmasına kömək göstərir, tələbələr özlərini rahat, qayğısız hiss edir, üzərlərinə düşən vəzifələri həvəslə yerinə yetirirlər. Bütün bunlar onlarda məmnunluq duyğusu yaradır. Nəticədə tələbə auditoriyasında əlverişli psixoloji iqlim bərqərar olur.

Demokratik-kollegial üslub zamanı müəllim və tələbələr arasında səmimiyyət başlıca yer tutur.

Fəqət demokratik (kollegial) idarəetmə üslubunu yüksək intellektual, təşkilatçılıq və kommunikativ qabiliyyətlərə malik müəllim tətbiq edə bilər.

F.Fidlerin qənaətincə, demokratik (kollegial) üsluba əsasən idarəetməyə üstünlük verən müəllim aşağıdakı hallarda uğurlu nəticələrə nail olur (bax: şək.)




***Şəkil. Səmərəli idarəetmənin qrafik təsviri (F.Fidler.***

5. Liberal (neytral) üslub eyni fikirdə olan möhkəm kollektiv üçün yarayır Belə idarəetmə üslubu şəraitində müstəqilliyin yerini məsuliyyət və laqeydlik tutur.

Liberal - anarxik idarəetmə üslubu həm "maksimim demokratiya" kimi (hər kəs öz mövqeyini bildirə bilər, fəqət real olaraq, həmin təkliflərin, təşəbbüslərin uçotu aparılmır və həyata keçməsinə heç kim nəzarət etmir), həm də "minimum nəzarət" kimi (qəbul olunmuş qərarlar yerinə yetirilmir, onların həyata keçirilməsi üzərində nəzarət yoxdur, hərə öz işindədir, hətta müəllim də) səciyyələnə bilər.

İşin nəticəsi, adətən aşağı səviyyədə olur, tələbələr öz işlərindən və müəllimdən razı qalmırlar.

Liberal - anarxik idarəetmə üslubu şəraitində tələbə auditoriyasında xoşagəlməz, əlverişsiz şərait yaranır, əməkdaşlıq, həmrəylik, qarşılıqlı yardım və kömək olmur, nümunəvi davranmaq və oxumaq üçün stimul olmur və s.

6. Güzəşt üslubu. Müəllim müxtəlif maraq və meylli tələbələrə güzəştə gedərək, öz istəyinə nail olur. Bu, adət halını alarsa, başqa sözlə, prinsipiallıq razılığa gəlmə ilə əvəz olunarsa, yaxşı nəticədən söz açıla bilməz.

Beləliklə, belə bir nəticəyə gəlmək mümkündür ki, tələbə auditoriyasının idarə olunması üslubu gənclərlə qarşılıqlı münasibətlərin, psixoloji atmosferin və tələbələrin təlim fəaliyyətinin nəticəsini müəyyən edir.

Müəllim şəxsiyyətinə bir sıra psixoloji tələblər verilir. Professorlar S.İ.Seyidov və M.Ə.Həmzəyev bu xüsusda yazırlar: "Müəllim şəxsiyyəti onun peşə fəallığının mənbəyi və hərəkətverici qüvvəsidir. Ona görə də müəllim

əməyində onun şəxsiyyəti aparıcı yerlərdən birini tutur. Müəllim şəxsiyyəti lazımi səviyyədə formalaşmazsa, cəmiyyətin onun qarşısında qoyduğu sosial sifarişi həyata keçirə bilməz" (2).

Professor-müəllim heyəti tələbələrdə təlimə maraq oyatmalı, onların diqqətini cəlb etməlidir. Diqqət öyrənməyə şərait yaradan əhəmiyyətli daxili amil hesab olunur. Mühazirə və seminar məşğələlərində tələbələrin diqqətini təşkil etməklə onları yeni biliklərə yiyələndirmək mümkündür.

Təlim fəaliyyətində diqqətin oynadığı roldan danışarkən K.D.Uşinski qeyd edirdi: "Diqqət şüurumuzun elə bir yeganə qapısıdır ki, şüurumuzda olan hər bir şey mütləq buradan keçir. Ona görə də şagirdləri təlim prosesində həmin qapını açıq saxlamağa alışdırmaq lazımdır" (3).

Həmin sözlərdə dərin həqiqət vardır.

Professorlar S.İ.Seyidov və M.Ə.Həmzəyev göstərirlər: "Bizə hər an saysız-hesabsız cisim və hadisələr təsir edir. Bunların içərisindən hal-hazırda bizə lazım olan, tanımaq və öyrənmək, mənimsəmək istədiyimiz cisim və hadisələri ayıra, seçə bilmədən qarşımıza qoyduğumuz məqsədə nail ola bilmərik. Bunlar isə diqqətin bilavasitə iştirakı olmadan mümkün deyildir" (2).

Tələbə auditoriyasının idarə olunmasının səmərəlilik meyarı nədir? Bu suala belə cavab vermək mümkündür: müəllimin nüfuzunun səviyyəsi! Mövcud ədəbiyyatda nüfuzun bir neçə növünə müraciət edirlər. Onları nəzərdən keçirək:

1. Formal nüfuz. Nüfuzun bu növünün təbiəti belədir ki, müəllim öz mövqeyindən istifadə edərək, hakimiyyət səlahiyyətlərini, hüquqları öz əlində toplayır. Təhsil alanların hüquqlarını unudur. Halbuki "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu"nda təhsil verənlərlə yanaşı təhsil alanların da hüquq və vəzifələri öz əksini tapmışdır. Ali məktəb müəllimi tələbələrin hüquqlarına hörmətlə yanaşmalıdır.

2. Müəllimin tutduğu vəzifədən irəli gələn nüfuzu. Belə şəraitdə müəllim yalnız 60-65 faiz nüfuz sahibi ola bilər. Tam nüfuz qazanmaq üçün o, əxlaqi və funksional nüfuzundan irəli gələn psixoloji nüfuzuna əsaslanmalıdır.

3. Mənəvi nüfuz müəllimin mənəvi keyfiyyətləri ilə bağlıdır. Buraya onun davranışı, özünü tələbə auditoriyasında necə aparması, nəzakət və mərifəti, etikası, əxlaqı, səliqə-sahmanı, oturuşu-duruşu, geyimi, nitqi, ünsiyyəti, kommunikativ bacarıqları, danışığı və s. daxildir.

Nəzərdən keçirilən məsələlərlə bağlı gəldiyimiz qənaət belədir, tələbə auditoriyasının idarə olunması üzrə işin psixoloji əsaslarını bilməklə tələbə auditoriyasının mənəvi və psixoloji iqlimini saflaşdırmaq, müəllim-tələbə münasibətlərini optimal qurmaq mümkündür.

**Problemin aktuallığı.** İdarəetmənin pedaqoji və psixoloji əsasları müəyyənləşdirildikdə tələbə auditoriyasının lazımi şəkildə idarə olunması mümkün olur. Təqdim olunan məqalə tələbə auditoriyasının idarə olunmasının psixoloji əsaslarına həsr edilib.

**Problemin yeniliyi.** Tələbə auditoriyasının idarə olunmasının psixoloji əsaslarına aydınlıq gətirilir.

**Problemin praktik əhəmiyyəti.** Məqalə tələbə auditoriyasını səmərəli şəkildə idarə etməkdə ali məktəb müəlliminə kömək edəcəkdir.

## ƏDƏBİYYAT

1. Психология управления психологический словарь http://psychology.net.ru)
2. Seyidov S.İ., Həmzəyev M.Ə. Psixologiya: Ali məktəblər üçün dərslik. Bakı, 2007.
3. Uşinski K.D. Seçilmiş pedaqoji əsərləri. Bakı, 1953.

**С.А.Мамедов**

## СТУДЕНЧЕСКАЯ АУДИТОРИЯ: ПСИХОЛОГИЧЕСКИЕ ОСНОВЫ УПРАВЛЕНИЯ

***РЕЗЮМЕ***

Управление студенческой аудитории подвластно определенным психологическим законам. Психологические законы управления аудиторией проявляются в ходе межличностных, групповых и коллективных отношений. Независимо от знания преподавателями и студентами этих законов, они существуют и действуют.

В статье обоснованы психологические основы управления студенческой аудитории.

**S.A.Mammadov**

**STUDENT AUDIENCE: PSYCHOLOGICAL BASES OF MANAGEMENT**

***SUMMARY***

Student audience management is subject to certain psychological laws. Psychological audience control laws occur in the course of interpersonal, group, and collective relations. Regardless of the knowledge of teachers and students of these laws, they exist and operate.

In the article the psychological basis of the student audience management.

**Redaksiyaya daxil olub: 13.01.2017**

# PEDAQOJİ PROSESİN TƏŞKİLİNDƏ İNKİŞAFYÖNLÜLÜK PRİNSİPİNİN NƏZƏRİ VƏ TƏTBİQİ MƏSƏLƏLƏRİNƏ DAİR

**Rüxsarə Tağıyeva,**
*ARTİ-nin böyük elmi işçisi*
E-mail: ruxsare_mirzazade@yahoo.com

**Rəyçilər:** *prof.* İ.H. Cəbrayılov,
*dos.* L.K. Cəfərova

***Açar sözlər:*** *pedaqoji proses, inkişafyönümlü təlim,şəxsiyyətin inkişafı, təhsil, müəllim, şagird, tərbiyə, təxəyyül, təfəkkür,inteqrasiya*

***Ключевые слова:*** *педагогический процесс, обучение направленное на развитие, развитие личности, образование, учитель, ученик, воспитание, мышление, воображение, интеграция*

***Key words:*** *The teaching process, developing training, development of personalit, the education, the teacher, the students, educated, imagination, thinking,integration*

Azərbaycan inkişaf etmiş ölkələrin təhsil sistemləri ilə tanış olan və mütərəqqi ideyaları təhsil sistemində tətbiq etməklə öz təhsilini inkişaf etdirən müasir bir ölkədir. Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra, xüsusilə son illərdə təhsilin inkişafı sahəsində böyük uğurlar qazanmışdır. Bu uğurların əldə olunması ilk növbədə dövlətimizin təhsil siyasəti ilə, təhsilə aid dövlət proqramlarının qəbul olunması ilə bilavasitə bağlıdır. Dövlət proqramlarının yerinə yetirilməsi ölkəmizin bütün bölgələrində ümumi təhsilin infrastrukturunun əsaslı şəkildə yeniləşməsinə imkan yaratmışdır.

Bu prosesdə şəxsiyyətin tərbiyəsi, təlimi və bacarığı ilə bağlı aparılan məqsədyönlü, planlı və mütəşəkkil işlər öz həllini tapmaqdadır.

Araşdırmalar göstərir ki, ümumtəhsil sistemində pedaqoji prosesin səmərəli təşkili müvafiq prinsiplərin təşkilindən xeyli dərəcədə asılıdır. Həmin prinsiplərə aşağıdakı müddəalar aiddir:

- pedaqoji prosesin tamlığı - pedaqoji prosesdə təlimin məqsədləri kompleks şəkildə (inkişafetdirici, öyrədici, tərbiyə edici) həyata keçirilir, real nəticələrlə yekunlaşan müəllim və şagird fəaliyyətini əhatə edir;
- təlimdə bərabər imkanların yaradılması - bütün şagirdlərə eyni təlim şəraiti yaradılır və pedaqoji proses onların potensial imkanları nəzərə alınmaqla tənzimlənir;
- şagirdyönlülük - şagird pedaqoji prosesin mərkəzində dayanır. Bütün tədris və təlim işi şagirdlərin maraq və tələbatlarının ödənilməsinə, onların istedad və qabiliyyətlərinin, potensial imkanlarının inkişafına yönəldilir;
- inkişafyönlülük - şagirdlərin əqli fəallığı izlənilir, nailiyyətləri təhlil edilir, bilik, bacarıq və vərdişlərinin inkişaf səviyyəsi tənzimlənir;
- fəaliyyətin stimullaşdırılması – pedaqoji prosesin səmərəli və effektiv qurulması, şagirdlərin təlimə marağının artırılması üçün onların fəaliyyətindəki bütün irəliləyişlər qeyd olunur və dəyərləndirilir, nəticə etibarilə şagirdlərin daha uğurlu təlim nəticələrinə istiqamətləndirilməsi təmin olunur;
- dəstəkləyici mühitin yaradılması - pedaqoji prosesin münasib maddi-texniki baza əsasında və sağlam mənəvi-psixoloji mühitdə təşkil edilməsi keyfiyyətin və səmərəliliyin yüksəldilməsi üçün əlverişli və təhlükəsiz təlim şəraiti yaradır.

Bu prinsiplər sırasında inkişafyönlülük prinsipi xüsusi əhəmiyyət daşıyır.

Təcrübə göstərir ki, bu prinsiplərin pedaqoji prosesdə qarşılıqlı əlaqəsinin təmin olunması təlim nəticələrinin keyfiyyətini artırır. Pedaqoji prosesdə təlimin öyrədici, tərbiyə edici və inkişaf etdirici funksiyaları həyata keçirilməlidir. Nəticələr müəllim və şagird fəaliyyətini əhatə etməlidir. Pedaqoji prosesdə bütün şagirdlərə eyni təlim şəraiti yaratmaqla onların potensial inkişafı tənzimlənir.

Pedaqoq alimlərin müasir təhsil konsepsiyasının təhlili, bununla əlaqədar irəli sürülən fikir və mülahizələr belə nəticəyə gəlməyə imkan verir ki, təlimin keyfiyyətinin yüksəldilməsində digər prinsiplərlə yanaşı, inkişafyönlülük prinsipinin də tətbiqi imkanları genişdir.

İnkişafyönlülük prinsipinin mühüm tələblərindən biri budur ki, təlim prosesində müəllim şagirdlərə kifayət qədər dəstəkləyici mühitin yaradılmasına səy göstərməlidir. Onda şagirdlərin özünə qarşı inamı artır, sağlam mənəvi-psixoloji mühitlə əhatə olunduqda onun təlimdə fəallığı artır. Şagirdin fəaliyyəti səviyyəsində izlənən yüksəliş və enişi izləməklə şagird fəaliyyətinin zəifləmə nöqtəsini müəyyən edir və zəifləmə səbəblərini araşdıraraq şagirdə mənəvi, psixoloji dəstək olaraq irəliləməsinə şərait yaradır. Təlim, tərbiyə, təhsil və psixoloji inkişaf kateqoriyaları inteqrasiya olunmaqla yanaşı, həm də pedaqoji prosesin tamlığını əks etdirir.

Şagird şəxsiyyətinin ahəngdar inkişafını təmin edən pedaqoji prosesin inkişafyönlülüyü dərsdə təmin olunduqda intellektual, ideya-mənəvi, əmək və peşə hazırlığı, estetik zövq, fiziki sağlamlıq, gümrahlıq, iqtisadi, ekoloji, hüquq mədəniyyəti kimi başlıca keyfiyyətlərin inkişafı üçün əlverişli zəmin yaranır.

İnkişafyönlülük prinsipi ümumi təhsil sistemində ilk növbədə məzmunun nəticəyönlü standartlar əsasında müəyyənləşdirilməsini, istər hər bir təhsil pilləsi, istərsə də tədris fənləri üzrə ümumi təlim nəticələrinin reallaşdırılmasını tələb edir. Belə ki, şagirdlərin dünyagörüşünün, intellektual səviyyəsinin, onların şəxsiyyətinin inkişafına rəvac verir. Yəni, əldə edilən biliklər əsasında formalaşan bacarıqlar şagirdlərin gələcək həyatlarının qurulması, cəmiyyətdə öz yerini tapmasını təmin etməlidir. Ona görə də nəticələr əsasında müəyyən edilmiş standartların reallaşması hər bir dərsin qarşısında duran əsas məqsəd kimi həm də inkişafyönlülüyə xidmət edir.

Ümumtəhsil məktəblərində şagirdlərin elmin əsasları üzrə biliklər sisteminə yiyələnməsi vəzifəsi uşaqların və gənclərin tərbiyəsi sahəsində başlıca amil olaraq qalır.

Fikrimizcə, inkişafyönlülük prinsipində digər vacib məsələ şagirdlərin tənqidi təfəkkürünün inkişaf etdirilməsidir ki, bu da məntiqi təfəkkürün əsas tərkib hissələrindən biridir. Bundan ötrü dərs zamanı müəllim sinfə şagirdlərin öz fikir və rəylərini söyləməyə imkan verən suallarla müraciət etməlidir. Bu da nəticə etibarilə şəxsiyyətin inkişafına müsbət təsir göstərir.

Məlumdur ki, müasir dövrdə düşünüb araşdıra, yaradıcı fəaliyyət göstərə bilən şəxsiyyətin yetişdirilməsi məktəbin qarşısında duran ən mühüm vəzifələrdən biridir. Bu vəzifənin müvəffəqiyyətli həlli dərsin səviyyəsinin yüksəldilməsindən asılıdır. Bu baxımdan inkişafyönlülük prinsipinin nəzərə alınması, dərsdə şagirdin fərdi xüsusiyyətlərinə, meyl və maraqlarına xüsusi diqqət yetirilməsi vacibdir.

Prof. İ.Cəbrayılov "Müasir təhsil: axtarışlar və perspektivlər" kitabında göstərir: "Şəxsiyyətin formalaşdırılmasında ən mühüm halqa təhsil prosesidir. Ümumi təhsilin hər iki səviyyəsində (ümumi orta və ümumi tam orta) şagirdlərin müasir dövrün tələblərinə uyğun şəxsiyyət kimi yetişməsi imkanları genişdir. Araşdırmalar göstərir ki, ümumi təhsilin məzmun standartları keyfiyyətin yüksəldilməsinə, ənənəvilikdən fərqli olaraq inteqrasiyanın tətbiqinə istiqamətlənmişdir. Lakin bu sahədə işin təkmilləşdirilməsi, təhsil alanların tədris, psixoloji və fiziki cəhətdən artıq yüklənməsinin qarşısının alınması, bu baxımdan optimallığın təmin olunması, məzmunun müəyyən qədər yüngülləşdirilməsi zəruridir" (2, 17). Fikrimizcə, müasir dövrdə şagirdlərin bilik və bacarıqlarının, şəxsiyyətinin inkişafı həm də bu məsələlərlə bağlıdır.

Sözün əsl mənasında, pedaqoji prosesi öyrənmək üçün uşağın psixikasını, xüsusilə duyğu, qavrayış, hafizə, təxəyyül, təfəkkür, hiss, iradə, diqqətini, temperament tipini, xarakterini, qabiliyyətlərini müəyyənləşdirmədən ona düzgün yanaşmaq mümkün deyil. Yalnız belə yanaşma zamanı şəxsiyyətin düzgün tərbiyəsinə, təlim fəaliyyətinin stimullaşmasına, elmi dünyagörüşünün formalaşdırılmasına nail olmaq mümkündür. Bunlar, həm də inkişafyönlülüyün başlıca tələbləri kimi qeyd oluna bilər.

Göründüyü kimi, pedaqoji prosesdə uşaqların təlimi, tərbiyəsi və təhsili üçün onlara həm də psixoloji cəhətdən düzgün yanaşılmasına zəruri ehtiyac vardır.

Akad. M.M.Mehdizadə "Ümumi təhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları" adlı monoqrafiyasında göstərir ki, şagirdlərin mənimsəmə prosesi həm canlı müşahidələrdən, həm geniş ölçüdə müəllimin canlı sözündən başlanır, həm empirik materialın öyrənilməsindən, empirik təfəkkürdən, həm də rasional təfəkkürə istinad etməklə başlanır (4).

Müasir dövrdə Azərbaycan Respublikasında ümumi təhsilin qarşısında duran başlıca vəzifə yüksək mədəni səviyyəyə malik, cəmiyyət həyatına adaptasiya oluna bilən, lazımi bilik və bacarığa sahib olan, ləyaqətli vətəndaşlar formalaşdırmaqdır.

Biz isə apardığımız müşahidə və təcrübələrə əsasən belə qənaətdəyik ki, bu gün tədris prosesində inkişafyönlülük prinsipindən istifadə etməklə təlimin keyfiyyətinin artırılmasında daha böyük uğur qazanmaq artıq bir tələbatdır. Bu, bir tərəfdən şagird şəxsiyyətinin daim inkişafda olması ilə əlaqədardırsa, digər bir tərəfdən pedaqoji prosesin öz mahiyyəti ilə bağlıdır.

**Problemin aktuallığı:** Məqalə nəzəri və praktik cəhətdən bütün təhsil işçiləri, tələbələr və gənc tədqiqatçılar üçün maraqlı mənbə kimi əhəmiyyətə malikdir.

**Problemin elmi yeniliyi:** Pedaqoji prosesin təşkilində inkişafyönlülük prinsipinin nəzəri və tətbiqi məsələləri tədris mühitinin xüsusiyyətləri və təlim mühiti amili nəzərə alınaraq tədqiq olunmuşdur.

**Problemin praktik əhəmiyyəti:** Pedaqoji prosesin təşkilində inkişafyönlülük prinsipinin nəzərə alınması tədrisin optimal təşkili baxımından xüsusi aktuallıq kəsb edir.

## ƏDƏBİYYAT


1. Mehrabov A.O. Azərbaycan təhsilinin müasir problemləri. Bakı: Mütərcim, 2007.
2. Cəbrayılov İ.H. Müasir təhsil: axtarışlar və perspektivlər . Bakı: Mütərcim, 2013.
3. Cəbrayılov İ.H. Şəxsiyyətyönlü təhsil və vətəndaş cəmiyyəti. Bakı 2011.
4. Mehdizadə M.M. Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi


**R.Taghiyeva**

## THEORETICAL AND PRACTICAL ISSUES OF DEVELOPMENT-ORIENTED PRINCIPLE ON THE ORGANIZATION OF THE PEDAGOGICAL PROCESS

### SUMMARY


In the general education system development-oriented principle initially requires to determine the content in accordance with the outcome standards, or to implement any education level, as well as academic subjects of the overall learning outcomes.

Thus, it contributes to the development of the students' perspective, the intellectual level and their personality. So, the skills which are formulated on the basis of the acquired knowledge should provide the students with building their future life and finding their place in society.

Therefore, the implementation of the standards established on the basis of the results which assumes simultaneously as the main goal for each lesson, performs to development-oriented principle.


**Р.Тагиева**

## О ТЕОРЕТИЧЕСКИХ И ПРАКТИЧЕСКИХ ВОПРОСАХ ПРИНЦИПА НАПРАВЛЕННОСТИ НА РАЗВИТИЕ ПРИ ОРГАНИЗАЦИИ ПЕДАГОГИЧЕСКОГО ПРОЦЕССА

### РЕЗЮМЕ


В статье отмечается, что принцип направленности на развитие в системе образования изначально требует определения содержания в соответствии со стандартами результатов для реализации любого уровня образования. Таким образом, этот принцип способствует развитию перспектив, интеллектуального уровня и личности учащихся. Навыки, которые сформулированы на основе полученных знаний, должны предоставить учащимся возможность строить свою дальнейшую жизнь и найти свое место в обществе.


**Redaksiyaya daxil olub: 18.01.2017**

# AZƏRBAYCANDA SUMO GÜLƏŞİNİN YARANMA TARİXİNDƏN

**Dilqəm Quliyev,**

*pedaqogoka üzrə fəlsəfə doktoru, professor, Az.DBTİA*

**Samir Abdullayev,**

*Az.DBTİA-nın baş müəllimi*

**Ayaz Cəfərov,**

*Az.DBTİA-nın baş müəllimi*
E-mail: d.quliyev @ mail.ru

**Rəyçilər:** *prof.* X.K. Qurbanov,
*prof.* Q. M. Cəfərov

***Açar sözlər:*** *sumo, güləş, cidaoba, qorrş, takamikadzut, honsü, heyan, pəhləvan, kamakura, muromati, rinq, grand, kuraş, buxara kuştisi, tirınta, aba, barilba, xansaçay, Luça Libre.*

***Ключевые слова:*** *сумо, борьба, джидаоба, горрш, такамикадзут, хонсью, хейан, богатырь, камакура, муромати, ринг, гранд, кураш, бухара куштиси, тиринта, аба, барилба, хансачай, Луча Либре.*

***Key words:*** *sumo, wrestling, jidaoba, gorrsh, takamikadzut, honsyu, heyan, pehlevan (strongman), kamakura, muromati, ring, grand, kurash, buxara kushtisi, tirınta, aba, barilba, xansachay, Luçcha Libre.*

Güləşin beynəlxalq növləri ilə yanaşı, hər bir xalqın özünəməxsus milli güləş növləri vardır. Bunlardan: Azərbaycanda - "Güləş", Gürcüstanda - "Çidaoba", Tükmənistanda - "Qoreş", Özbəkistanda - "Kuraş", Tacikistanda – "Buxara kuştisi", Moldaviyada – "Trınta", Qazağıstanda – "Xapsakay",Tuvində – "Kureş", Yaponniyada - "Cüdo", **Sumo güləşi, Puroresu,** Aykido, Türkiyədə - "Kirkpınar", **Yağlı Güləş, Qaraqucak güləşi, Aba güləşi,** Qırğıstanda – "Kureş", Monqolustanda – "Barilba", Yakutiyada – "Xansaçay", **ABŞ-da - Professional güləş, Hindistanda – Pehlvani, Meksikada - Luça Libre** və başqalarını göstərmək olar.

Qədim rəvayət, indiki Yapon millətinin Yapon adalarında mövcud olmasını məhz "Sumo" ilə bağlayır. Əfsanəyə görə Takamikadzuti varvarların lider ilə təkbətək döyüşüb. Onun qələbəsi sayəsində yaponlar hazırkı Honsü adası ərazisində məskunlaşmaq hüququ qazanıblar.

Yaponların "Müvəqqəti illər povesti"ndə, Avropa üslubuna görə, eramızdan əvvəl 230-cu ildə, İmperatorun iştirakı ilə keçirilmiş təkbətək döyüş milli güləş üzrə ilk yarış kimi qeyd edilir. İdzumo əyalətindən olan Nomino Sukune öz rəqibini qabırğalara vurulan ayaq zərbələri ilə sarsıtmışdı, indi bu fənd müasir "Sumo"da qəti qadağandır.

"Sumo" haqqında olan ilk mötəbər tarixi məlumatlar VII əsrin ortalarına aiddir. 642-ci ilin ikinci ayında, İmperator sarayında Koreya səfirinin şərəfinə güləş yarışı keçirilmişdi. O vaxtdan İmperatorun himayəsi altında hər il payız çöl işləri sonunun bayramı günlərində yarışlar təşkil edilirdi. İlk təkbətək döyüşlər idman mahiyyətli deyil, dini əhəmiyyət daşıyırdı. O döyüşlər rəqslərlə, dualarla və dini mövzularda hazırlanmış teatr tamaşaları ilə müşayiət olunurdu.

Müasir "Sumo" öz mənbəyini Edo dövründən (1603-cü ildən sonra) götürür. XVII əsrin əvvəlində, arası kəsilməyən daxili müharibələr nəticəsində gücdən düşmüş Yaponiyada sülh yarandı. Ticarət üçün əlverişli şərait yaradıldı, tacirlər sinfi gücləndi. Yeni qüdrətli zümrə yeni əyləncə axtarır və "Sumo" güləşi ən sevimli məşğuliyyətə çevrilir. Məhz Edo dövründə 70-ə yaxın qanuni fənd (tul-

lamalar, badalaqlar, qarmaq fəndləri, tutmalar, itələmələr və s.) qəti olaraq rəsmiləşdirildi, ayin təsdiqləndi, əməli olaraq bu günümüzə qədər dəyişilməmiş şəkildə gəlib çıxan yarış qaydaları təkmilləşdirildi.

Edo dövründə indiki güləşçi ierarxiyası tərtib olunur, böyük çempion – yokodzuna rütbəsi tətbiq edilir. Ölməzlər yığıncağına ilk dəfə Akasi Siqanosuke daxil edilir.

XVIII əsrin ortalarında hər il Osaka və Edoda (Tokio) iki güləş yarışının keçirilməsi ənənəsi meydana gəlir.

Milli Yapon güləşi Meydzi Bərpa dövründə öz çətin vaxtlarını yaşayıb. 1868-ci ildə dünyadan min illər boyu təcrid olunmuş ölkənin kəşfi baş verdi və Yaponiyaya "dənizin o tayından" gətirilən mallarla birgə yeni əyləncələr də salındı. Yeni burjuaziya "Sumo"nu feodalizmin qalığı elan etdi və "tərəqqi düşmənləri"nə qarşı təqiblər başlandı. Mesenatların dəstəyindən məhrum olan pəhləvanlar, əsl sənətlərindən uzaq məşğuliyyətlərlə öz düyülərini qazanmağa məcbur olurdular. 50 sumotoridən ibarət yanğın söndürmə dəstəsi bütün Yaponiyaya səs salmışdı.

Azərbaycan Sumo Federasiyasının prezidenti - Samir Abdullayevdir. 25 may 2007-ci il tarixində Dövlət Qeydiyyatdan keçmişdir.

15 iyun 2007-ci il tarixində Macarıstanın Budapeşt şəhərində keçirilən Avropa Sumo Federasiyasının konqresində Avropa Federasiyasının üzvü kimi qəbul olunub.

18 noyabr 2007-ci il tarixdə Tailandın Çianq - May şəhərində keçirdiyi Dünya Sumo Federasiyasının konqresində Dünya Federasiyasının üzvü kimi qəbul olunub.

Sumo güləşinin Azərbaycanda ilk fəaliyyətə 2005-ci ildən başlayıb.

Gürcüstanda və Ukraynada keçirilən təlim-məşq toplanışlardan sonra Azərbaycanın ilk sumoçusu Samir Abdullayev Ukraynanın Aluşta səhərində Beynəlxalq "Sumo" turnirində iştirak edib və 85 kq çəki dərəcəsində bürünc medal qazanıb. Həmin yarışda ilk dəfə olaraq Rüfət İsmayılov hakimlik edib.

2006-cı ildə Bakı şəhəri Gənclər və İdman Baş İdarəsi Azərbaycanda "sumo" üzrə ilk respublika turniri və ilk Azərbaycan çempionatı 2007-ci ildə keçirilib.

İdmançılarımız, göstərdikləri nəticələrə görə, layiqincə qiymətləndiriliblər. Belə ki, 2009-cu ildə Namiq Sadıqov Azərbaycanda "Ən yaxşı 10 idmançı" sırasına daxil olub. Elə həmin il Namiq Sadıqov və Zaur Bağırov Azərbaycanda "Sumo" üzrə ilk dəfə idman ustası normasını yerinə yetirdilər. 2010-cu ildə isə Ariz Əliyev, Emil Həsənov, Rəşad Kazımov və Əmiraslan Əhmədov ustası normasını yerinə yetirdilər. 2012-ci ildə Samir İsmayılov və Zaur Kərimov da fəxri adlara layiq görülüblər.

"Sumo" üzrə yarışlar təkcə paytaxtda keçirilmir. 2012-ci ildə Azərbaycan çempionatı Oğuz şəhərində təşkil olunub. Bu, "Sumo"nun bölgələrdə təbliği üçün mütərəqqi addımdır.

"İdman ili"ndə ölkədə keçirilən ən mötəbər yarışlardan biri sentyabrın 30-da "Sərhədçi" İdman Olimpiya Kompleksində təşkil olunan Beynəlxalq Sumo Festivalı keçirilib. Yarışda dünya və Avropa çempionları və mükafatçıları güclərini sınayıblar. 15 ölkənin iştirakı ilə keçirilən festivalı Avropa Sumo Federasiyasının prezidenti Dariuş Rozum izləyib. Ali qurumun nümayəndələri yarışın təşkilini və keçirilməsini çox yüksək qiymətləndiriblər.

Qeyd edək ki, "Sumo" üzrə keçirilən yarışlarda Azərbaycanlı hakimlər də iştirak ediblər. Beynəlxalq dərəcəli hakimlər Rüfət İsmayılov, Rasim Məlikov və Rəsul Həsənov, respublika dərəcəli hakimlər Telman Əhmədov, Rəşad Şıxəliyev, Akif Şahmərdanov, İolanta Zinina və başqaları "Sumo" üzrə yarışlarda ədaləti qoruyublar.

"Sumo" üzrə Beynəlxalq yarışlarda Azərbaycan sumoçuları 96 medal qazanıblar (onlardan, 26 qızıl, 18 gümüş 52 bürünc), (2005-2016).

**Müstəqillik dövründə Sumo üzrə Azərbaycan güləşçiləri Avropa çempionatında uğurları**

*Cədvəl № 1*

| № | S.A.A. | kq. | İl | Şəhərin adı | Tutduğu yer |
|---|---|---|---|---|---|
| 1. | Zaur Bağırov | | 2009 | İsveçrə, Lozanna | I |
| 2. | Ariz Əliyev | | 2010 | Bolqarıstan, Varna | II |
| 3. | Emil Həsənov | | 2010 | Bolqarıstan, Varna | III |
| 4. | Sadiq Əhmədov 23 yaşdan aşağı | 115 kq-dək | 2013 | Polşa, Varşava | I |
| 5. | Kamran Rzayev 23 yaşdan aşağı | 85 kq | 2013 | | II |
| 6. | Namiq Sadıqov | 92 kq | 2013 | Polşa, Varşava | III |
| 7. | Emil Həsənov | | 2013 | Polşa, Varşava | III |
| 8. | Ariz Əliyev | | 2013 | Polşa, Varşava | III |
| 9. | Namiq Sadıqov | | 2014 | Polşa, Varşava | II |
| 10. | ƏhmədovƏmrah | | 2014 | Polşa, Varşava | III |
| 11. | Sərdar Səfixanov | | 2015 | Litva, Şaulyay | III |

**Müstəqillik dövründə Sumo üzrə Azərbaycan güləşçiləri dünya çempionatında uğurları**

*Cədvəl № 2*

| № | S.A.A. | kq. | İl | Şəhərin adı | Tutduğu yer |
|---|---|---|---|---|---|
| 1. | Rəşad Kazımov | | 2010 | Polşa, Varşava | II |
| 2. | Namiq Sadıqov | | 2012 | Hong Kong, Çin | III |

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, Azərbaycan tarixində "Sumo" güləşinin yaranma tarixi bədən tərbiyəsi haqqında elmin tarixi açılır, bədən tərbiyəsi və idmana həsr olunan ilk elmi istiqamət araşdırılır.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti**. Qarşıya qoyulan məqsədi həyata keçirməklə Azərbaycanda "Sumo" güləş fənninin müəyyənləşməsinə imkan yaranır, "Sumo" güləş fənninin müasir elmi bilik sistemində yeri, elmi quruluşu və bütövlükdə elmi sistemi aydınlaşdırılır.

Tədqiqatla bağlı belə **nəticəyə** gəlmək olar ki, "Sumo" güləşinin yaranma tarixi haqqında Azərbaycanda yaradılması problemi tədqiq olunur. Müstəqilliyimizin 25 illiyi dövründə "Sumo" güləşinin yaranma tarixinə dair geniş faktoloji və analtik materiallar təhlil edilir. Belə materiallar "Sumo" güləşinin yaranma tarixinin genezisini ( mənbə, törəmə, mənşə) açıqlayır.

**ƏDƏBİYYAT**

1. http://sumo.az/about-sumo/kimarite/
2. https://ru.wikipedia.org/wiki/%D0%A1%D1%83%D0%BC%D0%BE
3. Quliyev D.Q. Azərbaycan milli güləşin tarixində: Metodik vəsait. Bakı: ADBTİA-nın mətbəəsi, 1993.

4. Quliyev D.Q. Güləşçilərin hazırlığı prosesində pedaqoji bərpa vasitələri və planlaşdırılması: Metodik göstəriş. Bakı: ADBTİA-nın mətbəəsi, 1992.
5. Quliyev D.Q. Zorxana oyynlarının keçirilməsi qaydası / Azərb. DBTİA-nın 70 illik yybileyinə həsr edilmiş "Olimpizm və böyük idman" mövzusunda elmi-praktik konfransın materialları. Bakı şəhəri - 26-28 aprel 2000. Bakı, 2000.
6. Quliyev D.Q., Əsgərov A. Azərbaycanda Cüdonun tarixi. Bakı: Bakı Universitetinin nəşriyyatı, 2002.
7. Морачева Л.М. и.др. Основы сумо. М:. ЗАО Япония сегодня, 2001.
8. Праотцев С.В., Цвиров А.Е. Сумо мифы и реальность. М.:. Известия, 2000.

**Д.Г. Гулиев, С.С. Абдуллаев, А.А. Джафаров**

**СО ВРЕМЕН ИСТОРИИ СОЗДАНИЯ СУМО В АЗЕРБАЙДЖАНЕ**

***РЕЗЮМЕ***

В данной статье, наряду с международными видами борьбы, приведены характерные национальные виды борьбы каждого народа, первая достоверная историческая информация о "Сумо", история создания борьбы "Сумо" в Азербайджане, новые правила и термины, представленные новым поколением, успехи азербайджанских спортсменов по борьбе «Сумо» в чемпионатах Европы и мира в период независимости.

**D.G. Guliyev, S.S. Abdullayev, A.A. Cəfərov**

**SINCE THE CREATION HISTORY OF SUMO WRESTLING IN AZERBAIJAN**

***RESUME***

Along with the international kinds of wrestling, specific national kinds of wrestling of each nation, first reliable historical information about "Sumo", the history of creation of "Sumo" wrestling in Azerbaijan, new rules and terms presented by new generation, the successes of Azerbaijan sportsmen on "Sumo" wrestling gained in European and World championships during the period of independence are given in this article.

**Redaksiyaya daxil olub: 12.01.2017**

# СЕМАНТИЧЕСКОЕ И ФУНКЦИОНАЛЬНОЕ ПРОСТРАНСТВО ФИЗИЧЕСКОЙ КУЛЬТУРЫ В АЗЕРБАЙДЖАНСКОЙ И РУССКОЙ ЛИНГВОКУЛЬТУРАХ

**Эллада Тагиева,**

*pedaqogika üzrə fəlsəfə doktoru, dosent,*
*ADBTİA*
E-mail: ellada_tagiyeva@mail.ru

**Rəyçilər:** *prof. N.Ş. Məmmədov,*
*dos. Ə.Ç. Ağamirzəyev*

***Ключевые слова:*** *физическая культура, семантическое пространство, лексикографическое толкование, сопоставительный, текстовой анализ, лингвокультура, художественная литература*

***Açar sözlər****: fiziki tərbiyə, semantik məkan, leksikoqrafik şərh, müqayisəli, mətni təhlil, linqvomədəniyyət, bədii ədəbiyyat*

***Key words****: physical culture, semantic space, lexicographical interpretation, comparative, textual analysis, lilgvokulturah, belles-lettres*

На современном этапе развития лингвистической науки и на фоне общемировых тенденций к постоянному сотрудничеству в различных областях и сферах деятельности возникает необходимость в сопоставительно-типологических исследованиях в процессе преподавания русского языка как иностранного, направленных на всестороннее изучение различных лингвистических категорий, а также на рассмотрение языка во взаимосвязи с культурой того или иного этноса. Прежде всего это объясняется тем, что именно в этих категориях, как в зеркале отражаются особенности менталитета, многовековой истории и культуры носителей того или иного языка. К настоящему времени сложились целые направления в рамках описания языковой картины мира, в том числе различного рода типологические исследования, фрагменты компаративистики на уровне разносистемных и разноструктурных языков.

Физическая культура занимает важное место в системе явлений культуры. Сегодняшний прогресс в азербайджанском спорте является ярким свидетельством проявления огромной государственной заботы о физическом развитии, воспитании, укреплении здоровья молодёжи. Проблемы сохранения здоровья человека, нации, цивилизации всё более актуализируются.

Именно с далекой древности пришло к нам понимание того, что такое физическая, т.е. телесная культура. Аристотель считал, что «жизнь требует движения». От движения зависят все сферы жизни, физическое, духовное и умственное развитие человека. Для осмысления данного, на первый взгляд, однозначного понятия, необходимо проведение концептуального анализа, предусматривающего описание с позиций общественного самосознания народа, его менталитета и видения мира. Чрезвычайно актуален когнитивный подход к лингвистическому исследованию физической культуры. В лингвистическом дискурсе всё большую популярность приобретает понятие «лингвокультура». Понимается как «культура, получившая выражение в языке. К содержанию лингвокультуры мы относим значимые единицы языка, рассматриваемые в аспекте функций культуры. Будучи представлены в речевой деятельности, единицы лингвокультуры являются объективными феноменами. «Вся совокупность значений, передаваемых языковыми знаками данного языка, образует его семантическое пространство. В семантическом пространстве различаются лексико-фразеологические и синтаксические концепты» [5, 82]. Сопоставление семантических пространств разных языков позволяет увидеть общечеловеческие универсалии в отражении окружающего людей мира и в то же время даёт возможность увидеть специфическое, национальное в наборе концептов и их структуризации.

Термин «физическая культура» впервые появился в Англии и США в 90–е годы XIX века. В России этот термин приобрёл популярность в 1908-1910 годы. Под физической культурой тогда понимали деятельность человека, направленную на физическое воспитание, образование и укрепление здоровья. Н.Ю.Мельникова отмечает, что термин «спорт» в России впервые упомянут в 1851 году в газете «Северная пчела», в котором под понятием спорт подразумеваются «все гимнастические упражнения или забавы», сюда же относятся псовая охота, стрельба в цель, верховая езда, охота, рыболовство, мореплавание» [4, 25].

Н.М.Шанский считает, что фразеологизм *физическая культура* представляет собой, по всей вероятности, кальку (ср. франц. culture phisique – «физическая культура, физкультура»). «Но слово физкультура исконно русское, такое же, например, как партбилет, редколлегия. Странно, что 17-томный «Словарь современного русского языка АН СССР отмечает первую словарную фиксацию слова физкультура «Словарём иностранных слов» 1937 г., к этому времени это слово давно не осознавалось даже неологизмом своего языка» [13, 78-79].

В «Толковом словаре русского языка» Д.Н.Ушакова [Д.Н.Ушаков 1940, 1077] говорится: «Физкультура, -ы, мн. нет, ж. (нов.). Физическая культура, всестороннее совершенствование человеческого тела путём физических упражнений, соблюдения правильного режима в быту и труде [образовано из сокращения слова физический и из слова культура]». «Словарь русского языка» А.П.Евгеньевой дополняет семантическое содержание данного понятия: «Δ лечебная физкультура – раздел медицины, изучающий лечение и профилактику заболеваний методами физкультуры; физкультурник – тот, кто систематически или профессионально занимается спортом; физкультурный – прил. к физкультура //предназначенный, служащий для занятий физкультурой. Физкультурный зал, физкультурный костюм [А.П.Евгеньева 1988, 563]. В «Толковом словаре русского языка» под ред. С.И.Ожегова «физическая культура» приобретает дополнительные семантические признаки: «укрепление здоровья, всестороннее совершенствование и развитие тела путём упражнения мускулов, физкультура» [С.И.Ожегов 1991, 849].

«Поскольку словарные толкования дают лишь самое общее представление о значении слова, нужно привлечь к анализу самые разнообразные контексты: научные, философские, публицистические, художественные, привлечь фразеологизмы, пословицы и поговорки» [3, 66].

А.А.Передельский пишет, что «философские основания и историческая наука дают возможность проследить эволюцию смысла и содержания понятий «спорт» и «физическая культура» от античности до наших дней. По целям и задачам физическая культура направлена на воспитание и обучение личности, спорт ориентирован на победу и рекорд» [6, 103].

По словам Н.А.Назарова, до начала XX века понятия «физическая культура» не существовало ни в России, ни в других странах мира. Британцы и немцы, а также другие народы и сегодня предпочитают употреблять слово sport в тех случаях, когда русские говорят о физической культуре. «Английское слово sports в XIX в. обозначало множество забав и развлечений физическо-атлетического толка: любительскую охоту и рыбную ловлю, верховую езду, кулачный бой и т.п. Сегодня это слово во множестве языков обозначает разнообразные состязания и развлечения. Англичанин не знает словосочетания *physical cultura*, но знает *physical training*, а также physical education». Учёный также утверждает, что само словосочетание «физическая культура», во-видимому, русского происхождения. В 20-х годах прошлого столетия в России оно создаётся по образцам: материальная культура, духовная культура, буржуазная культура, пролетарская культура. В повседневный язык входят новые слова и словосочетания: физкультура (физическая культура), физкультурник (физический культурник), физкультурница, физкультурно-массовая работа, физкультурный коллектив, физкультурный парад, физорг, физрук, физзарядка, физкультминутка (*физкультурная минутка*), физкульт-привет [5, 19].

Культурологический анализ позволит выявить смысловое и функциональное пространство физической культуры. Одни учёные связывают физическую культуру с определёнными характеристиками тела человека, с его физическими качествами и способностями, другие – со средствами и результатами процесса физического воспитания, третьи понимают под физической культурой занятия физическими упражнениями, четвёртые причисляют к ней и такие явления, как спорт, туризм. Тело человека выполняет, в частности, двигательную деятельность, которая имеет важное социальное значение, удовлетворяет разнообразные социальные потребности. Речь идет о таких формах двигательной активности человека, как различные виды физических упражнений (гимнастика, бег, плавание), подвижные игры, танцы. Заметим, что именно эти специфические формы двигательной активности человека чаще всего и называют «физической культурой». В этих видах человеческой деятельности проявляются не только двигательные умения и навыки, но и широкий круг других качеств (способностей) человека: его интеллектуальные качества, эстетические способности, нравственные нормы поведения, навыки общения. По мнению В.И.Столярова, «занятия физическими упражнениями, подвижные игры и спорт могут использоваться не только для формирования человеческого тела, физического совершенствования человека. В них заключены огромные возможности для формирования нравственной и эстетической, коммуникационной культуры человека, для воздействия на его волю, память, внимание, а также для отдыха и развлечения. Компонентами физической культуры являются: культура физического здоровья, культура телосложения и двигательная культура [11, 82, 84, 86]. В современном общественном сознании физическая культура понимается как 1) способ оздоровления и физкультурной рекреации, реабилитации; 2) как часть культуры [8, 20].

Многие выдающиеся поэты, писатели, учёные понимали значение для жизни и творчества активных движений, физических нагрузок и спорта. Физическая культура ярко отразилась в биографиях М.Ф.Ахундова и Л.Н.Толстого, видных представителей азербайджанской и русской культуры. В этом смысле всегда полезно обратиться к прошлому наследию, в том числе к творчеству тех, кто внес определённый вклад в становление спортивной педагогики как науки. М.Ф.Ахундов сыграл выдающуюся роль в развитии общественно-политической, философской и художественной мысли Азербайджана в XIX веке. В его творчестве и широкой просветительской деятельности, наряду с другими прогрессивными идеями о будущем народа, важнейшее место занимают и вопросы физической культуры и здоровья. Всё многостороннее творчество и богатое педагогическое наследие великого мыслителя пронизаны духом призыва к улучшению физического воспитания народа, укреплению здоровья и овладению основами военных знаний. В своих произведениях он с восхищением говорит о древних национальных видах спорта азербайджанского народа, особенно о таком виде, как национальная борьба (схватка). Борьба была неотъемлемой частью нашей национальной, физической культуры. В пьесе «Приключения визиря Ленкоранского ханства» выразительно описана напряжённая сцена единоборства двух витязей. Теймур-ага использует приёмы азербайджанской борьбы гюлеш: «Теймур-ага, вспылив, хватает одной рукой за шею, другой за ногу, поднимает и бросает в сторону» [Ахундов М.Ф. Избранные произведения, 1987, 89-90]. Герои Ахундова борются не только за личную свободу и достоинство, они являются типичными представителями тюркского мира, обладают крепкой волей, упорством, выносливостью и бесстрашием. В трудной борьбе они часто опираются и на свои физическую смекалку и здоровье. Образ Гейдар бека, созданный Ахундовым в драме «Гаджи Гара», по своему характеру становится своеобразным олицетворением таких великих полководцев тюркского мира, как Атилла, Амир Теймур, Ильдрым Баязет, Узун Гасан, Шах Исмаил, Шейх Шамиль, Мустафа Ататюрк и десятки других. Как и эти реальные герои, Гейдар-бек – отличный

наездник, меткий стрелок, непобедимый борец и большой мастер рукопашного боя. В его словах воспеваются высокое физическое мастерство и воинская подготовка сверстников, он с горечью говорит об утрате этих черт у некоторой части молодежи: «О боже мой, в нашем веке достойно не оценивается ни мастерство верховой езды, нет уважения даже к меткой стрельбе из винтовки. Раньше были времена мужских боёв и войн. Если вновь были бы Кызылбашские и Османские сражения, то я непременно находился бы в первых рядах боя и проявил бы такой героизм, которого не достиг даже легендарный Рустами-дастан» [там же, 134-135]. М.Ф.Ахундов всегда гордился тем, что он принадлежит азербайджанскому народу, который испокон веков прославился своим героизмом и вырастил не одно поколение здоровых и мужественных патриотов. В Азербайджане стрельба, наряду с борьбой, ездой верхом, боем с мечом и другими видами спорта, считалась издревле важнейшим показателем физической культуры и воспитания. В нашем народе высоко ценилось меткое попадание, точная стрельба в мишень. Обращая внимание на необходимость овладения этими качествами молодежью, Ахундов в произведении «Медведь, победитель разбойника» подчёркивает, что глубокая любовь к охоте является не только видом времяпрепровождения, но и ценным качеством в жизни и быту народа, свидетельствующем о его храбрости, физическом здоровье и смекалке. В этом произведении один из главных героев – Байрам говорит: «Горю желанием охотиться, жаль, что нет ни одного оленя и тураджа, даже зайца не встретишь» [там же, 90]. В другом произведении – «Мусье Жордан и дервиш Масталишах» Ахундов подробно останавливается на вопросах воспитательного значения прогулок на лоне природы, экскурсий, как других средств воспитания юношей и девушек физически здоровыми и закаленными.

По его мнению, особое значение, как вид занятия, имеет путешествие, которое, с одной стороны, благотворно влияет на развитие таких способностей и навыков, как ходьба, бег, прыжки и лазание вверх. С другой стороны, путешествие как живой контакт с природой способствует формированию у молодых людей прогрессивных гуманистических качеств: товарищества, коллективизма, добродетельности, заботливости. На примере влияния приехавшего из Парижа французского учёного мусье Жордана на племянника местного помещика Хатемхан-ага Шахбаза Ахундов подчёркивает, что планомерно, регулярно проводимые путешествия являются важнейшими средствами, помогающими росту подвижности организма, укреплению его выносливости и здоровья.

По многочисленным воспоминаниям, написанным о М.Ф.Ахундове, можно судить, что он сам был хорошим мастером верховой езды. В истории богатого и глубокого наследия общественной и художественной мысли Азербайджана о полезности игры в шахматы наряду с Гатран Тебризи, Хагани, Мехсети, Низами, Насими, Хатаи, Физули, Бакихановым, Закиром видное место принадлежит и Ахундову. Он придавал исключительное значение этой игре для развития мыслительной деятельности, широкой фантазии, цельности характера и укрепления волевых качеств человека. В своем знаменитом философском трактате «Письма Кемал-уд-Довле…» он открыто заявляет, что недооценка заслуженной роли шахмат есть не что иное, как невежество и отсталость [1, 77].

Он постоянно участвовал в соревнованиях по шахматам, в которых принимали участие такие видные деятели того времени, как И.Чавчавадзе, Н.Бараташвили, Г.Орбелиани, Д.Кипиани. М.Ф.Ахундов написал стихотворение «О шахматной игре», в котором в поэтической форме изображает расположение всех фигур на шахматной доске, роль каждой из них в обеспечении победы визиря, а также основные правила и ходы шахматной игры [12, 116-117].

Знакомство с личной биографией и литературными произведения великого писателя позволяет утверждать, что он ценил нарды не только как форму досуга и времяпрепровождения, но и как важнейшее средство для формирования настойчивости, упорства, решимости, высоких волевых

черт и психологических особенностей. Основоположник азербайджанской драматургии Ахундов также был прославленным знатоком игры в нарды. В воспоминаниях современников великий философ Ахундов был человеком физически совершенным, высокого роста, с широкими плечами.

Он постоянно заботился о личном физическом здоровье, любил ходить пешком или ездить на коне, владел физически здоровым организмом. Физическая развитость, наличие здорового организма и крепкой закалки послужили для Ахундова важнейшими объективными предпосылками для его неустанной и продуктивной творческой деятельности. Великий мыслитель смог усвоить арабский, персидский и русские языки, а также ряд других языков тюркской группы, литературу и философское наследие Востока и Запада, проявить себя не только талантливым драматургом и поэтом, но и видным критиком, языковедом и переводчиком, вести на протяжении 25 лет неустанную борьбу за обновление старого алфавита и осуществлять широкую просветительскую деятельность.

М.Ф.Ахундов глубоко понимал исключительно большую роль физической культуры и спортивных упражнений в обеспечении творческого духа и продуктивной умственной деятельности, считал их важнейшими средствами поддержания нормального настроения, ведения активного образа жизни. Не случайно, что он все свои произведения, принесшие ему мировую славу, создал в курортной местности Гочур, расположенной в северо-западном регионе Азербайджана и обладающей хорошим климатом, свежим воздухом и качественной питьевой водой.

Великий писатель всегда рационально и эффективно использовал для укрепления своего организма естественные природные и гигиенические факторы (воздух, вода, природа, солнце и др.), глубоко осознавая их огромное значение для здоровья и работоспособности человека. Ценные положения и мысли М.Ф. Ахундова о значении физической культуры по сей день сохраняют свою актуальность. М.Ф.Ахундов призывал людей постоянно и серьезно заниматься физическими упражнениями и спортом.

Очень показателен пример великого русского писателя и педагога Льва Николаевича Толстого (1828-1910 гг.), оказавшего огромное влияние на развитие русской, мировой литературы и становление педагогики физической культуры. Это был крепкий, физически сильный, широкоплечий, с хорошо развитыми мышцами человек. «Счастье – это быть с природой, видеть её, говорить с ней», – считал Лев Николаевич. Любовь к физкультуре, физическому труду и здоровому образу жизни позволила ему вести активную творческую жизнь до 82 лет. В детстве он отличался особенной жизнерадостностью.

Любил весёлые игры с братьями и мальчишками на свежем воздухе, катания на салазках с гор, купание в пруду, плавание на плоту и на лодках. Помнил он свои и другие детские «подвиги» – прыжок со второго этажа, бег на 5 вёрст впереди телеги (верста – древнерусская единица измерения длины, составляет 5, 333 км) и соревнования с лошадьми. Склонность к озорству была у Толстого и в отроческом возрасте. В молодости он был азартным охотником: «А молодой Толстой был жаден до всех проявлений окружающего мира – растений, животных, людей. Он веселился, со свойственным увлеченному человеку азартом охотился» [7, 99].

Достаточно вспомнить охотничьи сцены в великих романах Л.Н.Толстого «Война и мир» и «Анна Каренина». С юности и до преклонных лет он упорно занимался физкультурой и различными видами спорта – гимнастикой, верховой ездой, плаванием, теннисом. В первых дневниковых записях мы встречаем слова из спортивного лексикона: кросс, игра в шахматы, воля телесная. Известно его изречение: «Шахматы – это гимнастика мозга». В его комнате в Ясной Поляне висели кольца, трапеции, во дворе был турник.

Великий писатель Л.Н.Толстой, посещая в Петербурге гимнастический зал, сделал 13 марта 1851 года такую запись в своём дневнике: «На гимнастике боролся с Вилье». В 1851 году Толстой сменил образ

жизни, отправился на Кавказ, где шла бесконечная война с горцами. В 1854 году молодой писатель участвует в обороне Севастополя, пишет «Севастопольские рассказы», посвящённые Крымской войне. Вернувшись в Петербург и Москву, он занялся литературной работой. Толстой отлично понимал значение физической культуры вообще, а при его напряженном умственном труде в особенности.

Он умело чередовал напряжённую умственную работу со здоровым и активным отдыхом. Ему нравились бесчисленные прогулки, путешествия пешком: «Толстой в 58 –летнем возрасте совершил три похода из Москвы в Ясную Поляну. Это было под силу только хорошо тренированному ходоку» [2, 1].

Толстой занимается не только литературной, но и общественной деятельностью. В течение 1859-1862 годов открывает в Ясной Поляне 21 школу для крестьянских детей. Педагогической работой он занимается увлеченно, берётся за изучение педагогики, занимается вопросами образования и физического, нравственного воспитания детей. Впоследствии, уже в преклонном возрасте, он, культивируя гимнастику в открытой для крестьян яснополянской школе, не забывал и о борьбе.

Сотни школьников он научил гимнастическим упражнениям, показав им элементы на турнике, брусьях, канате. Он не стеснялся бороться с учениками, поощрял их интерес к гиревому спорту, учил их плавать, кататься на коньках, ездить верхом. Педагогический талант Толстого заключался в том, что он умел воспитывать учеников своим примером. Летом 1907 года Толстого посетили дети, учащиеся тульских школ. Они провели в Ясной Поляне в общении с писателем целый день. Об этом интересно рассказывает писатель П.А. Сергеенко: «Лев Николаевич устраивал с ними разные гимнастические штуки: заставлял бороться в лежачем положении только при помощи ног, перепрыгивать друг через друга и, к довершению общего удовольствия, собственноручно переворачивал детей в воздухе. Все, наконец, выкупались, освежились, построились в группы. Лев Николаевич переходил от одной группы к другой, восхищаясь детскими движениями» [9, 200].

Жизнелюбие сохранится в нём на всю жизнь. Гостившие в Ясной Поляне были поражены, увидев не старика, а крепкого, сильного человека: «Хорош, весел и бодр был Лев Николаевич». Во время прогулки он ловко перепрыгивал через канавы, перелезал через изгороди. Как же удалось Толстому сохранять такую «блестящую спортивную форму» в течение долгой своей жизни? В XIX веке не было человека столь гармонично развитого в умственном и физическом отношениях. Спорт помогал Толстому противостоять болезням, старости. Он отказывается от привычных условий жизни, занимается физическим трудом: колет дрова, возит воду. «Скучно, тяжело. Праздность. Жир…тяжело, тяжело», – пишет он в дневнике. И, наконец, ещё одно спортивное увлечение 67-летнего писателя – езда на велосипеде.

Среди видов спорта самый популярный был циклизм (*фр.слово* cyclisme *т. устар.*), так называли (в те годы) в начале девяностых годов велосипедный спорт. Циклисты выезжали на весёлые загородные пикники, устраивали туристские поездки, участвовали в гонках. Статья «Граф Л.Н.Толстой и его первые уроки езды на велосипеде» была напечатана в журнале «Циклист». В 75 лет он добивался побед, участвуя наравне с молодёжью в соревнованиях по бегу на коньках.

**Заключение**. В ходе семантического анализа выявлена национально-культурная специфика репрезентации концепта «физическая культура» в азербайджанской и русской лингвокультуре, определены основные особенности понимания анализируемого концепта яркими представителями азербайджанской и русской литературы. Национальная специфика концепта проявляется в наличии несовпадающих когнитивных признаков, в разной яркости тех или иных когнитивных признаков, в разной полевой организации концепта (то, что в одном языке составляет ядро, в другой культуре может быть периферийным), в различиях интерпретационного поля, в раз-

ной оценке. Всей своей спортивной биографией и системой самовоспитания Лев Толстой отстаивал значение физической культуры. Высоко ценил физическое воспитание и М.Ф.Ахундов. На примере Ахундова и Толстого мы видим, что физические упражнения, спорт помогают людям сохранить здоровье, раскрыть свои способности в науке и искусстве.

## ЛИТЕРАТУРА

1. Асланлы М.И. Здоровье человека как педагогическая проблема (в творчестве М.Ф.Ахундова) edu.ru/sites
2. Галинский А.Р. Лев Толстой и спорт. http: //agalinsky.narod.ru/articles/tolstoy
3. Маслова В.А. Когнитивная лингвистика: учебное пособие, Минск: Тетра Системс, 2008.
4. Мельникова Н.Ю. История физической культуры. Наука, учебная дисциплина и историография // Теория и практика физической культуры, 2015, № 4
5. Назаров Ю.Н. К проблеме развития теоретико-познавательных основ наук о физической культуре // Теория и практика физической культуры, 2013, № 3
6. Передельский А.А. Физическая культура в новых условиях: единство и многообразие //Теория и практика физической культуры, 2011, № 9
7. Пискунов А.В. 100 великих русских охотников. М.: Вече, 2008.
8. Собянин Ф.И. О сущности физической культуры // Теория и практика физической культуры, 2010, № 4
9. Сергеенко П.А. Лев Толстой и дети /Хрестоматия. Родная литература. М.:Просвещение, 1966.
10. Сергеенко П. А. Как живет и работает граф Л.Н. Толстой. М., 1903, Изд-во Сытин, 164 с. http://www.moscowbooks.ru
11. Столяров В.И. Философско-культурологический анализ физической культуры // Вопросы философии, 1988, № 4
12. Тагиева Э.С. Иллюстрированное пособие по русскому языку для студентов спортивных специальностей. Баку: Мутарджим, 2007.
13. Шанский Н.М. Слова, рождённые Октябрем. М., «Просвещение», 1987.

**E.S.Tağıyeva**

## AZƏRBAYCAN VƏ RUS LİNQVOMƏDƏNİYYƏTİNDƏ FİZİKİ TƏRBİYƏNİN SEMANTİK VƏ FUNKSİONAL MƏKANI

### XÜLASƏ

Məqalənin elmi yeniliyi ilk dəfə “fiziki tərbiyə, mədəniyyət” konsepti ilə ifadə olunmuş dil mənzərəsi fraqmentinin sistemli-kompleks araşdırmaya cəlb olunmasından ibarətdir. Müasir dilçilikdə anlayışların (konseptlərin) çoxlu sayda tədqiq metodları mövcuddur: konseptual təhlil, tarixi-müqayisəli təhlil, definision təhlil, tərkibi (komponentli) təhlil, üslubi (stilistik) interpretasiya, kontekstli və mətni təhlil metodikası, dil vasitələri semantikasının təsvir nəticələrinin koqnitiv interpretasiyası. Məqalədə “fiziki tərbiyə” anlayışının Azərbaycan və rus linqvomədəniyyət məkanlarında fəaliyyət aktivliyi təqdim edilir.

**E.S.Tagiyeva**

## THE SEMANTIC AND FUNCTIONAL SPACE OF PHYSICAL CULTURE IN THE AZERBAIJANI AND RUSSIAN LINGVOKULTURAH

### SUMMARY

The theme of this scientific analyze is the stylistically characteristics of sport lexic. This article also consists finding and description of lexical units in sport realm in Azerbaijan and Russian languages. Most of the sport terminology were borrowed from Russian and Azerbaijan languages. Terminological characters make available the analyze of the sport lexical units.

**Redaksiyaya daxil olub**: **06.01.2017**

## Təqdim olunan məqalələrə tələblər

1. Digər redaksiyalara təqdim olunmamış məqalələr qəbul edilir.

2. Məqalələr son tədqiqatların nəticələrini əks etdirməli, yeni ideyalarla zəngin olmalı, elmi məqalələrin yazılışına qoyulan tələblər gözlənilməlidir.

3. Məqalənin mətni təxminən 6-8 səhifə olmalıdır. Azərbaycan, rus və ingilis dillərində məqaləyə aid açar sözlər verilir.

4. Məqalənin mətni Azərbaycan dilində latın əlifbası (Times New Roman), rus dilində krill əlifbası və ingilis dilində ingilis (ABŞ) əlifbası ilə Times New Roman – 14 şrift ilə 1,5 intervalla yığılmalı, elektron variantı ilə birlikdə (disklə) təqdim olunmalıdır.

5. Məqalələr üç dildən - Azərbaycan, ingilis və rus dillərindən birində çap olunur. Yazıldığı dildən əlavə digər iki dildə məqalənin xülasəsi təqdim edilir. Xülasədə müəllifin soyadı, adı, atasının adı, məqalənin adı, irəli sürülən başlıca elmi müddəalar, tədqiqatdan alınan nəticələr, problemin nəzəri və praktik əhəmiyyəti öz əksini tapmalıdır.

6. Məqaləyə müəllif haqqında aşağıdakı məlumatlar təqdim olunur: adı, soyadı, iş yeri, vəzifəsi, elmi dərəcəsi və adı, iş və ev telefonları, ünvanı, E-mail.

7. Məqalə aşağıdakı ardıcıllıqla yazılır: birinci sətirdə böyük hərflərlə məqalənin adı; ikinci sətirdə müəllifin adı və soyadı, elmi dərəcəsi və elmi adı; üçüncü sətirdə iş yeri, vəzifəsi, daha sonra elektron poçtu (E-mail).

8. Həmmüəlliflərin üç nəfərdən artıq olması məqsədəuyğun deyildir.

9. Redaksiya məqalədə zəruri dəyişiklər və ixtisarlar, redaktə aparmaq hüququna malikdir.

10. Məqalələrə iki mütəxəssisin rəyi, şöbə və ya kafedranın, həmçinin ali məktəbin Elmi Şurasının və orta ixtisas təhsili məktəbinin Pedaqoji Şurasının iclas protokollarından çıxarışlar əlavə olunur.

11. Məqalədəki faktların, məlumatların dürüstlüyünə müəlliflər cavabdehdir. İrəli sürülən elmi müddəalar müəllifin özünə məxsus olmalı, istifadə edilmiş nəzəri fikirlərin mənbəyi göstərilməlidir.

12. Məqalədə son 5-10 ildə çap olunan əsərlərə istinadlara üstünlük verilməlidir. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı əlifba ardıcıllığı ilə deyil, istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməli və məsələn, (1) və ya (1, 119) kimi işarə olunmalıdır. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

13. Jurnal öz profilinə uyğun məqalələri dərc edir.

14. Elmi məqalələrin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq aktuallıq əsaslandırılmalı, elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməlidir.

15. Plagiatlıq faktları aşkar edildikdə həmin məqalənin nəşri dayandırılır.

16. Məqalə müəlliflərinin hüquqları qorunur.

17. Jurnalda «ardı növbəti nömrədə» adı altında seriya məqalələr dərc olunmur.

18. Məqalələrin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun gəlməlidir.

19. Məqalələrdə müəllif(lər)in işlədiyi müəssisə və onun ünvanı, müəllifin elektron poçt ünvanı göstərilməlidir.

***Məcmuə "Mütərcim" Nəşriyyat-Poliqrafiya Mərkəzində səhifələnmiş və çap olunmuşdur.***

Çapa imzalanıb: 22.02.2017
Format: 60x84 1/8. Qarnitur: Times.
Həcmi: 20,255 ç.v. Tiraj: 300. Sifariş № 55.

**TƏRCÜMƏ**
**VƏ NƏŞRİYYAT-POLİQRAFİYA**
**MƏRKƏZİ**

**Az 1014, Bakı, Rəsul Rza küç., 125/139 b**
**596 21 44; 497 06 25; (055) 715 63 99**
**e-mail: mutarjim@mail.ru**

www.mutercim.az